MƏTANƏT ŞƏKİXANOVA

# ÜMMƏTÇİLİKDƏN MİLLƏTÇİLİYƏ KEÇİD DÖVRÜMÜZÜN

# FƏLSƏFƏSİ

*BAKI - 2019*

MƏNƏVİ DƏYƏRLƏRİN
TƏBLİĞİ FONDU

*Bu kitab Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə dəstəyi ilə çap edilmişdir*

Elmi redaktor: *Fəlsəfə elmləri doktoru, professor*
**İlham Məmmədzadə** *(AMEA Fİ)*

Rəyçilər: *Filaloqiya elmləri doktoru, professor*
**Flera Seyfulina** *(KFU RF)*
*Pedaqoqika elmləri doktoru, professor*
**İntiqam Cəbrayılov** *(BQU AR)*

*MƏTANƏT ŞƏKİXANOVA*
**ÜMMƏTÇİLİKDƏN MİLLƏTÇİLİYƏ KEÇİD DÖVRÜMÜZÜN FƏLSƏFƏSİ**

**Dizayner:** Raman Dadaşov

Monoqrafiyada müəllifin 2009-cu ildən bəri təxminən 10 il ərzində AMEA Fəlsəfə İnstitutunda apardığı tədqiqatların bir hissəsi öz əksini tapmışdır. Bu tədqiqatlar türk ellərində (Türkiyə, Azərbaycan, Tatarıstan) yaşayıb yaratmış, İslam modernizmi cədidçiliyi yaratmış ilahiyyatçı filosofların azadfikirlilik (ictihad) fəlsəfəsinə həsr olunub, müsəlman türk xalqlarının məfkurə tarixində önəmli bir dövrü əhatə edir. Kitab milli kimliyimizin formalaşmasında İslam amilinin və yeni tədrisin oynayacağı rolu qabartmaqla, həsr olunduğu dönəmin elm, düşüncə insanlarının ideyalarını, eləcə də ideallarını oxucusuna çatdırmaq məqsədi güdür.

Kitab filosoflar, dinşünaslar, mədəniyyətşünaslar, tarixcilər, filoloqlar, eləcə də Ali məktəblərin tələbə və müəllim heyəti üçün nəzərdə tutulmuşdur.

# MÜNDƏRİCAT


GİRİŞ ........................................................................................ 8

***GİRİŞ.* ........................................................................................ *14***

*Introduction* ........................................................................................ *21*

Türk aydınlarının milli mənsubiyyət və milli kimlik axtarışları. ....27

***Türk aydınlarının ulusal kimliği ve ulusal kimlik arayışı***

*National identity of Turkish intellectuals and national identity search*

İslam modernizmi-cədidçilik: genezisi, dini-fəlsəfi aspektləri........ 84

***İslam modernizmi-cedidçilik: genezisi, dini-felsefi yönleri***

*Islamic Modernism-Jadidism: genesis, religious-philosophical aspects*

Tatarların ictimai fikir və ictihad tarixinin fəxri ilahiyyatçısı Kürsəvi kimdir? Onu yetişdirən mühitə hermenevtik, yaradıcılığına dini-fəlsəfi baxış. ......................................................99

***Tatarların sosyal fikir ve ictihad tarihinin onursal ilahiyatçısı Kürsəvi kimdir? Onu yetiştiren ortama hermenevtik, yaratıcılığına dini-felsefi bakış***

*Who is Kursevi, an honorary theologian of public opinion and social history of Tatars? Religious-philosophical view on his creativity and hermeneutic view on cultivating him environment*

Fəaliyyəti ilə ensiklopedik məfkurə formalaşdırıb, fikirləri ilə

yeniliklərə yol açan Bakıxanov yaradıcılığına araşdırdığımız aspektdən bir nəzər ........................................................................ 128
***Yaratıcılığı ile ansiklopedik ideolojiyi şekillendirib, düşünceleri ile yeniliklere yol açan Bakıhanov'un yaratıcılığına araştırdığımız yönden bir bakış***
*A look at the aspect from our research Bakikhanov's creativity, which shaped the encyclopedic ideology due to his activity, that led to innovations with his ideas1*

XIX əsrin sonları və XX əsrin əvvəllərində yaşamış Azərbaycan yenilikçilərinin yeni tipli tədrisə verdikləri əməklər .....................157
***19. sonları ve 20. yüzyılın başlarında yaşamış Azerbeycan yenilikçilerinin yeni tipli öğretime verdikleri emekler***
*Works on new types education by Azerbaijani innovators lived in the late 19th and early 20th centuries*

Cədid öndərlərindən Musa Bigiyevin "İslamın əlifbası", "Türkiyə Böyük Millət Məclisinə müraciət" əsərləri müsəlman teoloqunun kommunistlərə tutarlı cavabı və siyasi-fəlsəfi öncəgörməsi kimi. .......................................................................182
***Cedid önderlerinden Musa Bigeyev'in "İslam›ın Elifba›sı", "Türkiye Büyük Millet Meclisine müraciet" eserleri müslüman ilahiyatçısının kommunistlere tutarlı cevabı ve politik-felsefi öncegörmesi gibi***
*Musa Bigi's "Islamic alphabet", "Appeal to the Grand National Assembly of Turkey" by the leaders of the Jadidism, is a consistent*

*response by the Muslim theologian to the Communists as a political and philosophical preview*

"Adəmin bütün övladları bərabər hüquqludur!" şüarını irəli sürən teoloq Musa Bigiyevin yaradıcılığında qadının şəxsiyətinə və vəzifələrinə münasibət.................................................................. 198
***"Adem'in tüm çocukları eşit hukukludur!" sloganını ileri süren ilahiyatçı Musa Bigeyev'in yaratıçılığında kadının kişiliğine ve görevlerine düşüncesi***
*Attitude towards woman's personality and responsibilities in the works of Musa Bigiev, who put towards the slogan "All of Adam's children are equal"*

"Türkçülük mücadiləsi"ni formalaşdıran zamana və Mehmet Akif şəxsiyyətinə əsrimizdən yenidən dini-fəlsəfi bir baxış. ........................................................ 223
***"Türkçülük savaşı"nı şekillendiren zamana ve Mehmet Akif kimliğine yüzyılımızda yeniden dini-felsefi bir baxış***
*A religious-philosophical view from our century to the time that formed "Turkism fighter" and to Mehmet Akif's personality*

Tənzimat dövrü ədəbiyyatı: Namiq Kamal və məsləkdaşlarının millət və ictihad fəlsəfəsi................................... 248
***Tenzimat dövrü edebiyyatı: Namık Kemal ve meslektaşlarının millet ve ictihad felsefesi***
*Literature of Regulation period: Namik Kemal and his colleagues' philosophy of nation and ijtihad (sosial justice)*

Nəticə əvəzi: yeni siyasi-fəlsəfi fikirlər yeni ictimai
quruluşdan doğur.......................................................................261
***Sonuç yerine: yeni politik-felsefi düşünceler yeni***
***sosyal yapıdan doğur***
*Result value: new political-philosophical ideas arise*
*from the new social structure*

Kitabdakı hissələrdə istifadə olunmuş ədəbiyyat siyahısı............. 278
*A list of literature used in the book*

# GİRİŞ

Türk ədəbiyyatı, fəlsəfəsi və ilahiyyatı anlayışı təkcə Türkiyə ərazisinə sığmadığı kimi onun tədqiqi də geniş əraziləri əhatə edir və uzun illərdir ki, öyrənilməsinə təşəbbüs göstərilir. Azərbaycan fəlsəfi fikrində bu yöndə araşdırmaların məhdudluğunun siyasi vəziyyətlə bağlılığı reallıqdır. Sovet İmperiyasının anti-türk siyasətinin qoyduğu qadağaların nəticəsi idi ki, türk fəlsəfəsi və ictimai fikri Azərbaycanda xüsusi nəzarət altında öyrənilirdi. Sovetlər dönəmində milli-dini ruhda yazan məşhur qələm sahibləri “pantürkist”, “panislamist” damğası ilə tənqid hədəfinə çevrilirdilər. Bu gün isə sovetlər dönəmində adının çəkilməsi belə, qadağan olunan türk məfkurəsinin ən görkəmli simalarına müraciət və onların irsinin elmi araşdırmaya cəlb olunması olduqca aktualdır. Türk dünyası XXI əsrə böyük dəyişmələr və ümüdlərlə girdi. Həqiqətən də XX əsrin son 10 ilində dünyamız tarixin gedişini dəyişdirən geo-politik hadisələrə şahid oldu. Bizlər üçün bunlardan ən önəmlisi totalitar bir rejimlə idarə olunan Sovet İttifaqının dağılması və türk ölkələrinin soydaşlarımızın azadlıq və istiqlalına qovuşmaları, öz dövlətlərini qurmaları olmuşdur. Çox böyük itkilərə uğramadan (Qarabağ hadisələri xaric) 1990-cı ilin ilk illərində Azərbaycan, Türkmənistan, Özbəkistan, Qırğızıstan, Qazağıstan və qardaş Tacikistan azadlıqlarını elan etdilər.

Xatırladaq ki, “Türk dünyasının birlik və bərabərliyi, əsasən XIX əsrdən etibarən bəri türk aydınları və dövlət adamları tərəfindən dilə gətirilmiş, mütləq bir hədəf olaraq göstərilmişdir. Kırımın idealist və cəsur mütəfəkkiri İsmayıl Qaspıralı həldə bütün şərtlərini qoruyan

və hamımızın şüar etdiyimiz bu kəlmələri söyləmişdir: “Dildə, fikirdə və işdə birlik”. Böyük türk filosofu və sosioloqu Ziya Göyalp türklüyün gələcəyini onların birləşməsində “Turan”da görürdü”[1].

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu kitab XIX əsrin sonları və XX əsrin əvvəllərində dünyada, bu münasibətlədə Rusiya sərhədləri daxilində qalmış türk dövlətlərindən olan Azərbaycan və Tatarıstanda, eləcə də bütün türklərin özünə vətən bildiyi Türkiyədə baş verən dəyişiklikləri müfəssəl olaraq çatdırmaqla həmin dönəmin azad düşüncə ilə yeni fikirlər söyləmiş ziyalılarının bəzilərinə həsr olunmuşdur...

Dinin ictimai şüur və mədəniyyətin bir forması olmaqla eyni zamanda sosial məzmun ehtiva etməsi, zamanla mənəvi mədəniyyətin elementi kimi xalqların mövcudluğunda, identikliyinin formalaşmasında xüsusi dəyər kəsb etməsi məlumumuzdur. Tarixin müxtəlif inkişaf mərhələlərində dini və mənəvi dəyərlərin vəhdətdə götürülməsi də məhz buna dəlalət edir. Kitabda XIX əsrin sonları XX əsrin əvvəllərində adı çəkilən arealda müsəlman, türk kimliyinin keçmiş əzəməti ilə olmasa belə, Qərbin və Rusiyanın “hücumlarına” direniş gücünü artırmasını təmin edən cərəyanlardan (osmanlıçılıq, islamçılıq, turançılıq, cədidçilik, anadoluçuluk və. s.) bəhs edilməsi məqsədyönlülük daşıyır.

Belə ki, kitabda yaradıcılığına müraciət edilən İslam ilahiyyatçılarının, maarifçi filosofların demək olar ki, hamısı “müsəlmanların dirçəlməsi və tərəqqisi, onlar arasında yeganə fəal qüvvə olan din vasitəsilə olmalıdır” ideyasını qabartmışlar. İnsanın dünyagörüşünün formalaşmasında əhəmiyyətli rol oynayan,

1 N. Yalçıntaş. Türk birliyi. Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid. Beynəlxalq konfransın materialları, Bakı, 2013, səh1

kimliyimizin mövcudluq atributlarından olan İslama, müqəddəs Kitabının buyurduqlarına vasitəçilərsiz inanıb əməl edə bilmənin fəlsəfəsini hazırlamış mütərəqqi fikirli ilahiyyatçı filosof və mütəfəkkirlərin yaradıcılığının diqqətçəkici tərəflərinin oxucuya təqdim olnduğu bu kitabda yer alması həmin münasibətlədir.

Beləliklə, dönəmin maarifçi ilahiyyatçıları dini tərəqqiyə səbəb olan ictimai, mənəvi bir qüvvə kimi inanır, dini ehkamların müasirləşdirilməsiyolundanəzərivəəməlisəylərininnəticələrinisosial-mədəni həyata tətbiq etməyə çalışırdılar. Kitabda bəhs edilən dönəmin İslam adına çalışan müsəlman-türk aydınlarının Şeyx Cəmaləddin Əfqani ideyalarına müraciətinin yer alması, ilahiyyatçıların o dövrün tələblərinə uyğun şəkildə Quranın, hədislərin şərhini verməyə, onları mənalandırmağa, yəni, feodal-islam ideologiyasını və islamın ayin və mərasimlərini modern münasibətlər baxımından mənalandırmağa çalışmalarını işıqlandırmaq hədəfimizdir. Bəhs etdiyimiz dönəmin islam adına liderlik edən əsrarəngiz həyatı və yaradıcılığı, novator düşüncələri ilə öndəri olan Əfqani islamın reformasiyaçısı və modernizasiyaçısı kimi çıxış etmişdir. O, İslam dini ilə elmi, siyasəti birləşdirməyə, islama mədəniyyət, sənaye, tərəqqi məzmunu daxil etməyə çalışmış, cəmiyyət içərisində yeni bir cəmiyyət – “islamiyyət” yaratmağa cəhd etmiş və bu “cəmiyyət”in nəzəriyyəsinin “İttihadi islam”ın əsaslarını vermişdir. O, müstəmləkə zülmünə qarşı çevrilmiş azadlıq ideyasına, maarifçiliyə dini məna qazandırmış, təsis etdiyi “İttihadi-islam” ideologiyası isə müsəlman cəmiyyətinin tərəqqisini nəzərdə tutmuşdur. O, “İslamiyyət müsəlmanların mənəvi həyatının çıxış nöqtəsidir” tezisini irəli sürmüş, müsəlman xalqları arasında mövhumat və cəhalətin aradan qaldırılması, elm və maarifin, sənaye

və mütərəqqi mədəniyyətin yayılması, intişarı uğrunda çalışmışdır. Oxucuları dinin Azərbaycanda Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Cəlil Məmmədquluzadə, Seyyid Əzim Şirvani, Həsən bəy Zərdabi, Tatarıstanda Əbu-n Nəsr Kürsəvi, Şihabəddin Mərcani, Musa Carullah Bigiyev, İsmayıl bəy Qaspıralı, Türkiyədə Ziya Göyalp, Mehmet Akif, Namiq Kamal kimi ilahiyyat və fəlsəfə, xüsusilə maarifçilik adına mücadilələr vermiş ziyalıların irsindən öyrənməsinə təşviq, düşünürük ki, kimliyimizin köklərini öyrənmək üçün daha etibarlı material verəcəkdir.

Kitabda türklüyümüzü bizə ilk xatırladan Abbasqulu ağa Bakıxanov, müsəlman türk aləminin ilk azadfikirlisi tatar Əbu-n Nəsr Kürsəvi, tatarların həm də ilk dünyəvi təhsil alıb bir neçə fundamental əsər müəllifi olan, "kişinin ailədəki hakimliyinin xadimlik sərgiləməsində qəbul edən" ilahiyyatçısı Musa Carullah Bigiyev, Türkiyədə, tənzimat dövrü ədəbiyyatının hürriyyət və azadlıq carçısı Namiq Kamal, 7 cildlik "Səfahət" (Mərhələlər) toplusu yazmasaydı da yaddaşlarda "İstiqlal marşı" müəllifi kimi qalacaq dini şeirləri ilə türk kimliyinin yüksəliş mücadiləsini formalaşdıran Mehmet Akif Ərsoy yaradıcılıqlarına ayrıca bölmələrin ayrılması cumhuriyyətlər qurmaq əzmində olmuş türk oğullarının məfkurələrinin ardıcıllıqla izlənməsinə xidmət edir. Nədən məhz bu mütəfəkkirlərə ayrıca bölmələr ayrılmışdır sualına cavabımız həm də bundan ibarətdir ki, onlar xalqlarının malik olduğu adət ən-ənəsinə, dininə, psixalogiyasına, düçar olduğu sosial problemlərinə bələd olduqları üçün yazdıqları əsərlərində qoyulan fikirlərlə bu millətin içərisində dünən də, bu gün də böyük təsir gücünə malikdirlər.

Tədqiqatçıları, tələbələri, həmçinin geniş oxucu kütləsini

nəzərdə tutan bu kitabın yeniliyi **milli şüurun oyanması və şəxsiyyət azadlığı problemini** gündəmlərə gətirdiyinə görə ictihad (azadfikirlilik) fəlsəfəsi olan cədidizmin köklərinin araşdırılması və Azərbaycan oxucusuna və tədqiqatçısına məlum olmayan azadfikirli ilahiyyatçı tatar filosofları Əbu-n Nəsr Kürsəvi və Musa Carullah Bigiyev haqqında indiyə qədər azərbaycandilli oxucuya məlum olmayan materialın verilməsidir.

Hörmətli oxucunun nəzərinə çatdırmaq istəyirik ki, kitaba daxil olan hissələrin xeyli hissəsi artıq məqalələr şəklində 10 ilə yaxın müddət ərzində ayrı-ayrı dərgi və toplularda dərc olunmuş, müharizələrimizin mətinlərinə, Respublikamızda keçirilən müxtəlif konfranslarda və ictimaii auditoriyalardan etdiyimiz çıxışlara daxil olmuşdur. Bu yazılar toplanaraq fraqmentlər şəklində olsa da, bizi (türkləri) ümmət halından millət ideyasına qədər aparan yollarda bu ideyaya köklənmiş ziyalılarımızın yaşadıqları zamanda (türk dünyasının insanlarına məxsus məkanlarda) üzləşdikləri ayrı-ayrı hadisələrə güzgü tutmaqla və onların yaradıcılıqlarına müraciət etməklə məlumatlandırmağa xidmət edir.

Bir çox xalqların sekulyarizasiya ("dünyəviləşmə" - dini norma və dəyərlərin yerinə rasional, ağıla və təcrübəyə istinad edən, ümumi mənafeyi nəzərə alan dünyəvi dəyərlərin inkişaf etməsi) dönəminə daxil olaraq ənənəvi dəyərləri dəyərsizləşdirməsi getdikcə dinin ictimai və mədəni rolunu azaldır. Nəticədə dini qurumlar çox məhdud sahədə fəaliyyət göstərirlər.

Bu gün dəyərlərinə sahib çıxan müstəqil Azərbaycan Respublikasında isə dinə münasibətdə vicdan azadlığının həyata keçirilməsi ümdə rol oynayır. Belə ki, Konstitusiyamızda deyilir

ki, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. «Bütün dini etiqadlar qanun qarşısında bərabərdir» (Maddə 18). «Hər kəsin vicdan azadlığı vardır. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibət ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır” (Maddə 48).

Bu gün din yenə də, iki əsrin qovşağında İslam amilindən istifadə edərək millətin mənəvi dünyasını saflaşdıran, onları İslamın verdiyi dəyərlər hesabına irəliyə aparmağa çalışan mütəfəkkirlərin zamanındakı kimi türk dünyasında dünyagörüşünün başlıca atributu olaraq qalır.

Bu məsələdə İslamın ilkinliyinə - əsrlər uzunu təhriflərə uğramış dini qavramlardan xali olan saf başlanğıcına - aparan mətnlərinin tərcüməsi ilə, İslam adına həyat mücadilələri aparıb, bu dinin saf və mübariz məramından istifadə edən fədailərin irsinə də qaydışımız müəyyən perespektivlər açır. İnananların siyasi şüurunu praqmatik din anlayışları yönümündə formalaşdıran və mahiyyət etibarı ilə hakimiyyət bütpərəstliyi ilə doğmalaşan, islama deyil, insan azadlığını ideoloji zərurət kimi irəli sürən əsl mənada tək Allahlılığa, xalis dinə dönməyimizi azadlıq mübarizəmizin özü, milli dövlətçiliyimizin bərpası naminə parlamanda bir daha ucaltdığımız üç rəngli bayrağımızın özülündəki yaşıl zolaq tələb edir.

Bu gün türklüyümüzü, demokratiyamızı dediyimiz anlamda islamsız təsəvvür etmək mümkün deyil. Tarixən milliliyimizi xarici sarsintılar qarşısında deformasiyaya uğramaqdan qoruyub saxlayan, onun bəşəri çalarlarini artırmaqla millətimizi böyüdən də köklərimizə bağlılığımız, dinimizə sədaqətimiz ola bilər.

# GİRİŞ

Türk edebiyatı, felsefesi ve ilahiyatı anlayışı sadece Türkiye'yi kapsamamakta, araştırması geniş bir alanı kapsamakta ve uzun yıllardır bir inisiyatif olmuştur. Azerbaycan'ın felsefi görüşüne göre, bu alandaki araştırmaların sınırlı yapısının siyasi durumla ilgili olduğu bir gerçektir. Sovyet İmparatorluğu'nun Türk karşıtı politikasının getirdiği yasakların sonucunda, Türk felsefesi ve kamuoyu Azerbaycan'da özel kontrol altında incelenirdi. Sovyetlər döneminde ulusal-dini ruhda yazan ünlü kalem sahipleri "pantürkist", "panislamist" damgasıyla eleştirinin hedefi haline geldi. Bugün, Sovyet döneminde adının çekilmesi bile yasak olunan türk mefkuresinin en ünlü simalarına hitab etmek ve onların mirasının bilimsel araştırmalara katılımı ile çok ilgilidir. Türk dünyası 21. yüzyıla büyük değişimler ve beklentilerle girdi. Gerçekten de, 20. yüzyılın son 10 yılında dünyamız tarihin gidişatını değiştiren jeopolitik olaylara tanık oldu. Bizim için en önemlisi, Sovyetler Birliği'nin çöküşü ve Türk halklarının bir çoğunun, yurttaşlarımızın özgürlüğü ve bağımsızlığı ile kendi devletlerinin kurulmasıydı. Önemli kayıplar olmadan (elbette Karabağ hadiseleri hariç) 1990'ların başında Azerbeycan, Türkmenistan, Özbekistan, Kırgızistan, Kazakistan ve kardeş Tacikistan bağımsızlıklarını ilan etti.

Hatırlatalım ki, "Türk Dünyasının birliği ve eşitliği 19. yüzyıldan beri Türk aydınları ve dövlet adamları tarafindan dile getirilmiş, mutlak bir hedef olarak gösterilmiştir. Kırımın idealist ve

cesur düşünürü İsmail Gaspıralı (İsmail murza) hayla bütün şertlerini koruyan ve hepimizin slogan edindiğimiz şu kelimeleri söylemiştir: "Dilde, fikirde ve işde birlik". Büyük Türk filozofu ve sosyolog Ziya Gökalp türklüğün geleceğini onların birleşmesinde "Turan"da görürdü"[2].

Geniş okucu kitlesi için öngörülen bu kitap 19. yüzyılın sonları ve 20. yüzyılın başlarında dünyada, bu vesileyle de Rusya sınırları içinde kalmış Türk devletlerinden olan Azerbeycan ve Tatarıstan'da, ayrıca tüm türklerin kendine vatan bildiği Türkiye'de oluşan değişiklikleri ayrıntılı olarak çatdırmakla hemin dönemin özgür düşünceyle yeni fikirler söyleyen aydınlardan bazılarına adanmıştır...

Dinin halk bilinci ve kültürün bir forması olmakla aynı zamanda sosial mezmun içermesi, zamanla manevi kültürün elementi gibi halkların, varlığında kimliğinin tanımlanmasında özel bir değere sahip olduğu bilinmektedir. Bu, tarihin çeşitli aşamalarında dini ve manevi değerlerin birliği ile kanıtlanmaktadır. Kitapta 19. yüzyılın sonunda 20. yüzyılın başlarında bahs edilen arealda müslüman, Türk kimliğinin geçmiş azameti ile olmasada bile Batının ve Rusya'nın "saldırılarına" direniş gücünü artırmasını sağlayan akımlardan (osmanlıcılık, islamcılık, turancılık, cedidçilik, anadoluculuk ve s.) bahs edilmesi hedefimizdir.

Şöyle ki, kitapta yaratıcılıklarına hitap edilen İslam ilahiyatçılarının, eğitimçi filozofların demek olar ki, tümü "Müslümanların dönüşü ve ilerlemesi, tek aktif kuvvet olan dinin vasıtası ile olmalı" ideyasını kabartmışlar. İnsanın bakış açısını şekillendirmede önemli rol oynayan, kimliğimizin niteliklerinden biri

---

2 N. Yalçıntaş. Türk birliyi. Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid. Beynəlxalq konfransın materialları, Bakı, 2013, səh 1

olan İslama, Onun kutsal Kitabının söylediklerine aracılarsız inanıp amel ede bilmenin felsefesini hazırlamış ilerici fikirli ilahiyatçı filozof ve düşünürlerin yaratıcılığının dikkatçekici yanlarının okucuya sunulduğu bu kitapta yer alması bu sebeb yüzündendir.

Böylece, dönemin aydınlanmış ilahiyatçıları dini ilerlemeye yol açan sosyal, ahlaki bir güce inanıyorlardı ve dini inançları modernize etmek için teorik ve pratik çabalarının sonuçlarını uygulamaya çalışıyorlardı. Kitabta dönemin İslami adı üzerinde çalışan Müslüman-Türk entelektüellerinin Şeyh Camaleddin'i Afqan'ı idealarına hitap etmesinin yer alması, ilahiyatçıların Kuran'ın, Hadislerin yorumunu, bu çağın gereklerine uygun olarak açıklamak, feodal-İslami, ideoloji ve İslami törenleri modern ilişkiler açısından açıklamak amacından ireli geliyor. Kitabta hakkında konuşulan dönəmin İslam adına çalışan müslüman-türk aydınlarının Şeyx Cemalettin Afgani idealarına başvurusunun yer alması, ilahiyyatçıların o devrin talablerine uygun şekilde Kuran'ın, Hadislerin yorumunu vermeğe, onları şekillendirmeye, yani feodal-islam ideolojisini ve İslamın ayin ve merasimlerine modern ilişkiler açısından anlam verme çabalarını aydınlatmak hedefimizdir. Bahs etdiyimiz dönemin İslam adına liderlik eden esrarengiz hayatı ve yaratıcılığı, yenilikçi düşünceleri ile önderi olan Afgani, İslamın reformcusu, modernisti gibi sahne almıştır. O, İslam dini ile elmi, politikayı birleştirmeye, islama kültür, sanayi, ilerileme içeriği dahil etmeye çalışmış, kamuoyu içerisinde yeni bir kamuoyu –"islamiyet" yaratmağa çalışmış və bu "toplum" teorisinin "İttihadi islam"ın (İslam birliyi) temellerini sağlamıştır. O, **sömürgeci baskıya karşı özgürlük** kavramı, ve kurduğu "İttihadi-İslam" ideolojisi ile müsliman toplumun gelişmesine dini anlam

kazandırdı. O, **“İslamiyet müslümanların manevi hayatının erişim noktasıdır”** tezini ortaya koymuş, Müslüman halklar arasında mövhumat ve cehaletin ortadan kaldırılması, bilim ve eğitimin yayılması, endüstriyel ve ilerici kültür uğruna çalıştı...

Okuyucuları dinin Azarbeycanda Ali bey Hüseyinzadeh, Ahmet bey Ağaoğlu, Celil Mehmedkuluzadeh, Seyyit Azim Şirvani, Hesen bey Zardabi, Tatarıstanda Ebu-n Nasr Kürsevi, Şihabeddin Mercani, Musa Carullah Bigeyev, İsmayıl bey Gaspıralı, Türkiyede Ziya Gökalp, Mehmet Akif, Namık Kemal gibi ilahiyat ve felsefe, özellikle aydınlanma adına mücadileler vermiş ilahiyatçı ve filozofların mirasını öğrenmesine teşvik, kimliğimizin kökenlerini öğrenmek için daha güvenilir bir malzeme sağlayacağını düşünüyoruz.

Kitapta türk olduğumuzu kendimize ilk hatırlatan Abbaskulu ağa Bakıhanov, müslüman Türk dünyasının ilk özgür düşünürlerinden olan tatar Ebu-n Nesr Kürsevi, tatarların hem de ilk dünyevi eğtim alıb birkaç fundamental (temelli) eser yazarı olan, “kişinin (erkeyin) ailedeki hakimliğinin hadimlik (hizmetkarlık) sergilemesinde kabul eden” ilahiyatçısı Musa Carullah Bigiyev, Türkiyede, tanzimat dövrü edebiyyatının hürriyyet ve özgürlük öncüsü Namık Kemal, 7 ciltlik “Sefahat” (“Aşamalar”) toplusu yazmasaydı da hafızalarda “İstiklal marşı” yazarı gibi kalacak, dini şeirleri ile Türk kimliğinin yükselişini şekillendiren Mehmet Akif Ersoy’un yaratıcılığına ayrıca bölümlerin ayrılması da Türk çocuklarının inşa etmeye kararlı oldukları ideolojiye (Cumhuriyetler kurma isteklerine) arka arkaya hizmet etmek mefkurelerinin sırayla izlenmesine adanmıştır. Neden mehz bu düşünürlere ayrıca bölümler ayrılmıştır sorusuna cevabımız, hem de şundan oluşur ki, onlar halklarının sahib olduğu adet ve töresine,

dinine, psikolojisine müptela olduğu sosyal problemlerinin farkında oldukları için yaztıkları eserlerinde koyulan fikirlerle şu milletin içerisinde dün de, bu gün de böyük etkiye sahiptirler.

Araştırmacıları, öğrencileri ve aynı zamanda geniş bir okuyucu kitlesini öngören şu kitabın yeniliyi **ulusal bilincin yükselişi ve kişisel özgürlük meselesinin** gündeme gelmesi nedeniyle ictihad (özgür fikir söyleye bilmek) felsefesi olan cedidiçiliğin köklerinin araştırılması ve Azerbeycan okuyucusuna ve araştırmacısına malum olmayan özgür düşünen ilahiyyatçı tatar filozofları Ebu-n Nəsr Kürsevi ve Musa Carullah Bigiyev hakkında şimdiğe kadar azerbeycan dilli okucuya malum olmayan malzemenin verilmesidir.

**Sayın okuyucunun dikkatine iletmek isterdik ki, kitaba dahil olan parçaların bir haylı kısmı artık makaleler formasında 10 yıla yakın zaman içinde ayrı-ayrı dergi ve toplularda yayımlanmış, derslerimizin metninlerinde, ülkemizde düzenlenen çeşitli konferanslarda ve halka açık konferans salonunda etdiğimiz çıkışlara dahil olmuştur.** Bu yazıların birer parça olarak (fragman şeklinde) toplanmasına rağmen, **bizi (türkleri) ümmet halinden millet ideyasınadek aparan yollarda bu ideaya köklenmiş aydınlarımızın yaşadıkları zamanda (türk dünyasının insanlarına mahsus mekanlarda) yüzleşdikleri ayrı-ayrı olaylara ayna tutmakla ve onların yaratıcılıklarına taleple bilgilendirmeye hizmet edir.**

Birçok ulusun laikleşmesi (“laikleşme” - dini normlar ve ortak çıkarlar göz önünde bulundurularak, eski değerler yerine rasyonel, istihbarat ve deneyime işaret eden laik değerlerin gelişimi) dönemine dahil olarak geleneksel değerleri devalüve etmesi, dinin sosyal ve

kültürel rolünü yavaş yavaş azaltır. Sonuç olarak, dini kurumlar çok sınırlı bir alanda faaliyet göstermektedir.

Bugün değerlerine sahib çıkan bağımsız Azerbeycan Cumhuriyetindeyse dine ilişkide vicdan özgürlüğünün hayata geçirilmesi büyük bir rol oynuyor. Şöyle ki, Ana Yasamızda denilir ki, Azerbeycan Cumhuriyetinde din devletten ayrıdır. "Bütün dini inançlar kanuna göre eşittir" (Madde 18). " Herkesin vicdan özgürlüğü hakkı vardır. Herkesin dine olan tutumunu bağımsız olarak tanımlama, herhangi bir dine olan inancını tek başına veya başkalarıyla birlikte ifade etme ve dine ilişkin inançlarını iletme hakkı vardır." (Madde 48).

Şu an din yine de, iki yüzyıl kavşağında İslam faktörü kullanarak milletin manevi dünyasını arındıran, onları İslamın verdiği değerler hesabına ileriye götürmeye çalışan düşünürlerin zamanındakı gibi Türk dünyasında dünya görüşünün ana özelliği olarak kalır.

Odur ki, şu meselede İslamı önyargı uğruna - dini duygular çarpıtılmış yüzyılların saf başlanğıcına – götüren metnlerin tercümesi ile, İslam adına hayat mücadeleleri aparıb, şu dinin saf ve mübariz meramından istifade eden fedailerin mirasına da kayıdışımız belli perespektifler açır. İnananların siyasi şüurunu praqmatik din anlayışları yönümündə oluşturan ve mahiyet itibarı ile hakimiyet putperestliği ile doqmalaşan, İslama değil, insan özgürlüğünü ideoloji zorunluluk gibi ileri süren asıl anlamda tek Allahlılığa, halis dine dönmeğimizi özgürlük mübarizemizin kendisi, milli devletçiliğimizin restorasyonu uğruna parlamentoda bir kez daha ucaltdığımız üçrenkli bayrağımızın temelindeki yeşil şerit taleb edir.

Şu an türklüğümüzü, demokrasimizi dediğimiz anlamda

islamsız hayal bile etmek mümkün değil. Tarihsel olarak milliliğimizi dış sarsıntılar karşısında deformasyona uğramakdan koruyan, onun cahanşümul çalarlarını artırmakla ulusumuzu büyüten de köklerimize bağlılığımız, dinimize sadakatimiz ola bilir.

# INTRODUCTION

As the concept of Turkish literature, philosophy and theology does not only fit into the territory of Turkey, its research also covers a wide range of areas and for many years it has been initiated to study. It is the reality that the lack of research in this direction in the philosophical viewpoint of Azerbaijan, depended on the political situation. The result of the anti-Turkish policy of the Soviet empire was the result of that the Turkish philosophy and public opinion were studied under special control in Azerbaijan. During the Soviet era, the famous pen holders of the national-religious spirit became the target of criticism with “panturkist” and “panislamist” stigma. Nowadays it is extremely actual to refer to the most prominent figures of the Turkish ideology which were even prohibited to call their names in the Soviet era and the involvement of their heritage in scientific research is very topical. The Turkish world entered the 21st century with great changes and hopes. Indeed, in the last 10 years of the twentieth century, our world has witnessed geopolitical events that have changed the course of history. For us, the most important of them was the collapse of the Soviet Union, which was governed by a totalitarian regime, and the freedom and independence of our compatriots in Turkish countries, building their own states. Without significant losses (except Garabagh events), in the early 1990s, Azerbaijan, Turkmenistan, Uzbekistan, Kyrgyzstan, Kazakhstan and Tajikistan declared their independence.

Let’s remind, “The unity and equality of the Turkish World” has been expressed by the Turkish intellectuals and statesmen since

the 19th century as an absolute target. The idealist and brave thinker of the Crimea, Ismail Gaspirali, has said these words that have been preserving all the conditions and using as slogan by us yet: “Unity in tongue, thought, and work”. The great Turkish philosopher and sociologist Ziya Goyalp saw the future of the Turks in their uniting in “Turan”.

This book which is intended for a wide audience of readers, is dedicated to some of the intellectuals who wrote about the changes in Turkey, as well as Turkic states left within the borders of Russia such Azerbaijan and Tatarstan in the beginning of the XX end of the XIX centuries...

It is well known that religion, as a form of public consciousness and culture, also contains social content, is of a special value in shaping their identity as an element of spiritual culture over times. This is evidenced by the unity of religious and spiritual values at various stages of history. The book is intended to refer to trends (Ottomanism, Islamism, Turanism, Jadidism, Anadoluism, etc.) to provide the increase of the resistance against west’s and Russia’s attacks), which have been promoted in the early 19th century at the beginning of the twentieth century by the Muslim and Turkish identity.

Thus, almost all the Islamic theologians and enlightened philosophers, who are the resort to the book’s work, have suggested that “the revival and progress of Muslims should be achieved through the only active force-religion among them. For that reason, in this book, submitted to readers, is shown the remarkable aspects of the creativity of progressive-minded theologian philosophers and thinkers who played an important role in formation the outlook of a human

and made the philosophy of believing in İslam (without mediators), which is one of our identity existence attributes also implementing the orders of its holy book.

Thus, the enlightened theologians of the period were known as a social, moral force that leads to religious progress, tried to implement the results of their theoretical and practical efforts to modernize religious beliefs. It is no coincidence that the Muslim-Turkish intellectuals working on the Islamic name of the period referred to in the book address the ideas of Sheikh Jamaladdin Afghani. It is our goal to illuminate the works of the theologians in order to interpret the hadiths and interpret them Afghani, who was the leader of the above mentioned period with a mysterious life and creativity, innovative ideas, led the Muslim era in the name of Islam, as reformer and modernist of Islam. He sought to incorporate science, politics, Islam, culture, industry and progress into Islam, tried to create a new society - "Islamic" within society and gave the theory of this «community" to lay foundations of "the Islamic Union". He attached religious meaning to the concept of freedom against colonial oppression and the ideology of "The Union-Islam", that he founded, promoted the development of the Muslim society. He put forward the thesis "Islam is the starting point for the spiritual life of Muslims", working for the elimination of ignorance and ignorance among Muslim nations, spreading science and education, industrial and progressive culture. We think that this work of science will involve the readers to learn the heritage of intelligents such as Ali bey Huseynzade, Ahmed bey Agaoglu, Jalil Mammadguluzadeh, Seyid Azim Shirvani, Hasan bay Zardabi (in Azerbaijan), Abu Nasr Kursevi, Shihab al-Din al-

Marjani, Musa Carullah Bigiev, Ismail bey Gaspirali (in Tatarstan), Ziya Gokalp, Mehmet Akif, Namik Kemal (in Turkey,) who have been contributing to theology and philosophy, especially in the name of Enlightenment, and will provide more reliable material to study the roots of our identity.

The book also serves in order to get acquainted with creativity and ideology of Abbasgulu aga Bakikhanov, who reminded us of our Turkishness, The first libertarian of the Muslim Turkic world, Tatar Nasr Kursevi, Musa Jarulla Biegiev, the theologian, who was the author of several fundamental works and who received the first secular education of the Tatars, Namik Kemal, freer and liberator of regulating period literature in Turkey, Even if he did not write 7 volumes of “Safahat” (Stages), Mehmet Akif Ersoy, who formed the rise of Turkish identity with his religious poems, will remain as the author of “Independence Anthem” who were eager to establish republic. The answer to the question why we determined separate sections to these thinkers, this is just because their scientific works have a great impact on this nation’s today and yesterday as they know the traditions, the religion, the psychology of the people, the social problems they are facing. The novelty of this book which is mentioned for researchers, students, and wide reader mass, consists of the study of the roots of the philosophy of Ijtihad (freedom), because of the rise of national consciousness and the issue of personal freedom.

Dear reader, we would like to point out that most parts included in the book have already been published in the form of articles ns for almost 10 years in several journals and collections. The texts of our lectures, our speeches at various conferences held in our Republic are

also included. Although these writings are collected in the form of fragments, serve to inform us of the phenomena that our intellectuals have built on the paths of the nation (turks) to the idea of nation, by mirroring their individual experiences and by resorting to their creativity.

Impairment of most traditional values, including the secularization (secularization - the development of secular values, taking into account general norms and values that refer to rational, mental and practical rather than religious norms) of many peoples, is gradually reducing the social and cultural role of religion. As a result, religious organizations operate in a very limited area.

Implementation of freedom of conscience in religion plays a major role in the independent Republic of Azerbaijan today. Thus, our Constitution states that religion in the Republic of Azerbaijan is separate from the state. "All religious beliefs are equal before the law" (Article 18). Everyone has the right to independently define his / her attitude to religion, to express one's faith in any religion alone or with others, and to convey his / her beliefs about religion (Article 48).

Today religion still remains as the main attribute of the outlook in the Turkic world as it was at the time of the junction of the two centuries, using the Islamic factor in the time of the thinkers, who purified the spiritual world of the nation and aspired them to the Islamic values.

And in this regard, we also open the perspectives on the heritage of the savants who gave life to Islam on behalf of Islam, from the religious perspectives that have been distorted for many centuries. It is not only Islam that shapes the political consciousness

of believers in the direction of practical religion, but essentially the rule of the idolatrous, not the islam, but the fact that we return to God, the pure religion, in the true sense of human freedom as an ideological necessity, a green strip is required on our color flag.

It is impossible to imagine our Turkishness today without Islam in terms of our democracy Historically protecting our nationalism against deformations in the face of external shocks, our attachment to our roots by increasing our nation’s magnificence can be our devotion to our religion.

# TÜRK AYDINLARININ MİLLİ MƏNSUBİYYƏT VƏ MİLLİ KİMLİK AXTARIŞLARI

**Unutmayaq ki, tarixin kifayət qədər uzun bir dönəmində türk xalqlarını biri-birindən təcrid etmək, qədim mədəniyyətə malik olduğunu danmaq və inkişafına əngəl törətmək, mədəni irsin varisliyini yeni nəsillərin yaddaşından pozmaq, dünyagörüşündən silmək çar imperiya siyasətinin başlıca məqsədlərindən olmuşd ur...**

**...Beləliklə,** müsəlman türk dünyasında "yeniləşmə prosesi"nin əlimizdə olan məlumatlardan əldə etdiyimiz təhlili göstərir ki, bu dövr ərzində mütərəqqi fikirli ziyalılar cəmiyyətin ümumi tərəqqisi naminə mədəniyyətin bütün sahələrinin inkişafı qayğısına qalmışlar. Elmi-mədəni, ədəbi-bədii, dini-fəlsəfi yaradıcılıq mühitinin formalaşması üçün məktəb-mədrəsə və mətbuatdan başlayaraq teatr və musiqiyə qədər elmin və incəsənətin fərqli sahələrinin inkişafına yönəlmiş həmin fəaliyyətlərin bəhrəsi artıq XX əsrin astanasında hiss olunan idi...

Yeniləşmə prosesinin qaranquşları A.A.Bakıxanov **(1794-1847)**, M.F.Axundovdan **(1812-1878)** üzü bəri əksər ziyalılar ictimai-mədəni həyatın inkişafı məsələlərinə, o cümlədən ailə problemlərinə də diqqət ayırmış və cəmiyyətin tərəqqisində qadınların belə, mədəni həyatda iştirakı amilinə də laqeyd qalmamışlar. Bilavasitə İslam dini xadimlərinin bu məsələlərin həllinə qatılması və ilahiyyat üzrə də

yüksək elmi biliklər sahibi olan ziyalıların bu yöndəki fəaliyyətlərinin dini islahatçılıq istiqaməti alması mədəni həyatın daha da canlanmasına təkan vermiş oldu.

Doktor Mübariz Süleymanlı yazır ki: "XIX əsrin ilk on illiklərindən etibarən Azərbaycan cəmiyyətində dini təmayüllərin fərqli səciyyə daşıması ilə yanaşı, *milli mənsubiyyət* axtarışları prosesi də ləng də olsa, paralel gedirdi. Bu zaman islamçılığa paralel olaraq türkçülüyün də inkişafı türk insanını öz kimliyini araşdırmağa yönəltmişdi. XIX əsr qəzetlərinin ən qabaqcıl nümunələrindən olan "Kəşkül" ilk olaraq, yerli dindar camaat və millət anlayışları arasındakı fərqi qəti olaraq müəyyənləşdirmiş, hətta hər ikisi üçün ortaq olaraq işlədilən millət termininin yersiz olduğunu bəyan etmişdi. Bu fakt türklüklə qarışıq Azərbaycan kimliyi şəklində doğmaqda olan milli şüurun yazılı ifadəsinin ilk nümunəsi idi".[3] Bu dövrdə ziyalıların yeni nəslinin nümayəndələri həqiqətən siyasi mahiyyət kəsb edən fəaliyyətlərə yönəlmişdilər. Lakin bu keçid dövründə təşkilatlanmış qruplardan daha çox fərdi fəaliyyətlərin (Azərbaycanda Seyid Əzim Şirvanini **(1835-1888)**, Həsən bəy Zərdabini **(1837-1907)** və b. Tatarıstanda Əbu-n Nəsr Kürsəvini **(1776-1812)**, Musa Carullah Bigiyevi **(1873-1949)**, Yusif Akçuranı **(1876-1936)**, Türkyədə Namiq Kamalı **(1840-1888)**, Ziya Göyalpı **(1876-1924)**, Mehmet Akifi **(1873-1936),** Misirdə Məhəmməd Əbdühü **(1849-1905)** və b. bu qəbil fədakarlar hesab etmək olar... Hərçənd ki, bu gün "XXI əsrin pəncərəsindən" baxaraq analiz edən tədqiqatçılar adlarını sadaladığımız bu mütəfəkkirlər barəsində heç də bir mənalı fikirlər söyləmirlər.

---

3 Süleymanlı M.A. XX əsrin əvvəllərində Azərbaycan kulturoloji fikri. (Fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 2014, səh., 43

Bəhs etdiyimiz bu dövrdə "pantürkizmə paralel olaraq inkişaf edən panislamizm də bir axın kimi bütün müsəlmanları Avropanın təcavüzlərinə dünya miqyasında cavab vermək uğrunda birliyə çağırırdı ki, bu da daha geniş miqyasda dəstək tapa biləcək bir dəvət idi. Əslində, bu iki ideologiya bir-birindən o qədər də fərqli deyildilər. Belə ki, demək olar bölgədəki bütün müsəlmanlar türk idi. Sonralar İ.Qasprinski **(1851-1914)** kimi türkçü ziyalıların da "İslamın türk ulusunun təməl daşlarından biri" olduğunu vurğulaması buna işarə idi".[4] Belə ki, 1905-ci ildə Peterburqda məşhur tatar alimi Əbdülrəşid İbrahimovun **(1857-1944)**[5] evində Əlimərdan bəy Topçubaşov **(1863-1934)**, Əli bəy Hüseynzadə **(1864-1940)**, Əhməd bəy Ağayev **(1868/69-1939)**, Alim Maqsud (?), Bünyamin Əhmədin (?) iştirakı ilə gizli şəraitdə keçirilmiş bir yığıncaqda "Müsəlman ittifaqı" adlı siyasi partiya yaratmaq haqqında fikrə qoşulan İ.Qaspıralı onun (təşkilatın-Ş.M) həmin ilin avqustunda Nijni Novqorod şəhərində, Oka çayı üzərində "Qustav Struve" gəmisində, 1906-cı ilin yanvarında Peterburqda Əlimərdan bəy Topçubaşovun rəhbərliyi altında keçirilən birinci və ikinci qurultaylarında da iştirak etdi[6].

Yeri gəldiyi üçün bunu da qeyd etmək lazımdır ki, panislamizmin qabaqcıl müdafiəçilərindən bir çoxunun eyni zamanda pantürkist olduqlarını da iqrar etməsi, əslində, bu iki ideologiyanın

---

4 Süleymanlı M.A. XX əsrin əvvəllərində Azərbaycan kulturoloji fikri. (Fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 2014, səh., 43

5 Əptərəşit İprağımov tatar müsəlman imamı, qazı, vaiz, publisist. Panislamizmin tərəfdarı. 1908-ci ildən etibarən islamı yaymağa başlamışdı (Yaponiyadan dəstək alaraq). O, 22 yaşından etibarən İslamı Qazaxıstan və Volqaboyunda yerləşən müxtəlif mədrəsələrdə öyrənməyə başlamış, 1878-ci ildə isə təhsilini Mədinədə vahabilərin mərkəzlərindən birində almışdır.1885-ci ildə Rusiyaya dönmüşdür. Gəncliyində o, cədidizmin qatı tərəfdarı olmuşdur.

6 Ekinçi Y. Kaspralı İsmail, İstanbul, 1997, s., 26

zidd təməllərə dayandığını bilməməsindən irəli gəlmirdi. Belə ki, "pantürkizmin kökü müəyyən insan topluluqlarının etnik mənlik şüuruna söykənərkən, panislamizm ümməti, yəni, dil, irq və millət fərqi olmadan dünyadakı bütün müsəlmanların əmələ gətirdiyi topluluğu əsas götürən bir kollektiv şüura söykənir"[7].

Müasir tədqiqatçılardan Aytək Zakirqızı (Məmmədova) Hilmi Ziya Ülkənin **(1901-1974)** fəlsəfəsinin araşdırmasına həsr etdiyi tədqiqatında alim Fahri Atasoydan gətirdiyi iqtibasdan da bizim üçün bəzi məqamlar aydınlaşır. Belə ki, o: "Osmanlının parçalanma təhlükəsi yaşadığı illərdə aydınlar qərbli mənada cəmiyyət olmağın sirrini kəşf etməyə çalışmışlar. Bir tərəfdə, "bizi bir arada tutan siyasi coğrafiyadır" deyən Osmanlıçılar, bir tərəfdə "millət olmamızın bütünləşdirici amili İslam dinidir və islam birliyi ilə dağılmaqdan xilas olarıq" iddiasındakı islamçılar və "bir sosioloji vahid olaraq əsl həqiqətin millət olduğunu" qəbul edən türkçülər bu mənada düşüncələr önə sürdülər..." deyir. Sonra tədqiqatın bu hissəsində Fahrı Atasosoyun Ziya Göyalpı **(1876-1924)** bu mənada (Avropa misallı-Ş.M) türkçülüyün öndəri hesab etməsi, Hilmi Ziyanı isə XX əsrin ilk onilliklərinin siyasi şərtlərinə uyğun gəlsin – deyib daha reallaşa biləcək bir ideyanın Anadoluçuluğun banisi olması barəsində də bu tədqiqatdan məlumat alırıq.[8]

XX əsrin əvvəllərindəki hadisələrə İslam birliyi prizmasından baxıldıqda (1905-ci ilin müsəlman qurultayları dövrü istisna olunmaqla) Azərbaycan ziyalılarının digər Rusiya müsəlmanları ilə

---

7 Swietochowski T. Müslüman cemaatten ulusal kimliğe Rus Azerbaycanı 1905-1920 (Türkçesi: Nuray Mert). İstanbul: Bağlam yayınları, 1988, s., 51 53

8 Aytək Zakirqızı. Türkiyə fəlsəfi fikrinin zirvəsi Hilmi Ziya Ülkən, Bakı, 2016, s.38,39 (üm227)

əməkdaşlığa can atdığının (əlbəttə ki, zamanın şərtləri daxilində-Ş.M) görürük. Onların bir qisminin, məsələn, Əhməd Ağaoğlunun (1869-1939) panislamist fəaliyyətdə olduğunu tamamilə inkar edən bir mövqe tutulmasında da mübahisəli məqamlar vardır[9]. Çünki bir sıra yazılarında (hansı məqsədlər güdülməsindən asılı olmayaraq) o, özünü panislamizm tərəfdarı kimi təqdim etməkdən çəkinməmişdir. Lakin onun panislamizm haqqındakı düşüncələri, mərhum professor Yusif Rüstəmovun da vurğuladığı kimi: "Opponentlərinin illərcə yağdırdıqları ittihamlardan tamamilə fərqli idi"[10]. O, Avropanın texnogen mədəniyyəti qarşısında islam cəmiyyətinin məğlubiyyətini etiraf edən, lakin buna müxtəlif mövqelərdən çarə arayan "ifrat mütərəqqiçilər" və "ifrat mühafizəkarlar"la müqayisədə "yeni panislamistlər"in fəaliyyətlərini təqdir edərək[11] "Kaspi" qəzetinin 1903-cü il 24 dekabr tarixli 276-cı sayında yazırdı: **"İslam nicatının yeganə yolu Avropaya üstünlük verən bütün həyat ünsürlərini, onun universitet və məktəblərini, siyasi və inzibati həyatını ağla uyğun və ehtiyatlı surətdə müsəlman zəminə keçirmək, əkməkdir... Ağıllı ünsürlər hər iki ifrat cərəyanı birləşdirəcək və hər iki tərəfi razı sala biləcək elə bir yol – ideya yaratmaq istəyirlər ki, ifrat mütərəqqiçilərin xəyal etdiyi kimi nə mücərrəd – zəminəsiz olsun, nə də ki, köhnəpərəstlik kimi zəmanənin ruhuna və dövrün tələbinə yad olsun... Bu panislamizmdir".**

9 Süleymanlı M.A. Əhməd Ağaoğlunun Fransa dövrü yaradıcılığı və ilk elmi əsəri haqqında / "Mədəniyyət dünyası", X buraxılış, Bakı: ADMİU, 2005, s. 18-32.

10 Rüstəmov Y.Türk fikir tarixi haqqında mülahizələr. Bakı: Çaşıoğlu, 2005, 140 s

11 Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı: Maarif, 1973, 296 s

Keçən əsrin əvvəlləri Ə.Ağaoğlu bu istiqamətdə axtarışlarını "Panislamizm, onun səciyyəsi və istiqamətləri", "İslamın mənşəyi və onun xristianlığa və yəhudiliyə münasibəti", "Ricəti-islam" kimi onlarla məqalələrində özündən əvvəlki Azərbaycan maarifçi ziyalılarının islamın müqəddəratı barədə açdıqları mübahisəni təzədən canlandırmışdır. Əksəriyyəti polemik üslubda yazılmış bu əsərlərdə o, Qərbin və Rusiyanın anti-islam meyillərinə qarşı çıxır, Məhəmməd dini və şəriətini, islamın əsaslarını müdafiə edərək qətiyyətlə deyirdi ki: "Müsəlmanların dirçəlməsi və tərəqqisi onlar arasında yeganə fəal qüvvə olan din vasitəsilə olmalıdır"[12]. Ə.Ağaoğluna görə, "asiya xalqlarına həyatı ilk dəfə xatırladan", onlara "göyləri yuxusundan oyadan", göylərlə bərabər yeri də göstərən islam dini olmuşdur. Yazılarında dönə-dönə islam tarixindən, onun ədəbi-mədəni keçmişindən bəhs edən Əhməd bəy tatar ilahiyyatçıları Musa Carullah Bigiyev, Utız İmyan Bulqari **(1730-1815)** və s. kimi panislamizmi "mütərəqqi hərəkat" kimi qiymətləndirirdi: "Panislamizm nəinki siyasi-dini, həm də mütərəqqi hərəkatdır".[13] Özündən öncəkilər və müasirləri kimi o da islam dininə (tərəqqiyə səbəb olan ictimai, mənəvi bir qüvvə kimi) inanır və ***dini ehkamların müasirləşdirilməsi*** yolunda nəzəri və əməli səylərinin nəticələrini sosial-mədəni həyata tətbiq etməyə çalışırdı.

Yeri gəlmişkən vurğulayaq ki, o zamanın **məşhur yenilikçisi tatar Yusuf Akçuraya** görə, dünyadakı müsəlmanlardan bir islam

12 Mirəhmədov Ə. Azərbaycan mütəfəkkirinin milli intibah arzuları / Azərbaycan Demokratik Respublikası (Məqalələr toplusu). Bakı: Azərnəşr, 1992, s. 24 (səh19-29).

13 Talıbzadə K. Əhməd Ağaoğlu və onun "Rus ədəbiyyatının ümumi səciyyələri" əsəri. Seçilmiş əsərləri. II c., Baki: Azərnəşr, 1994, s. 314-321.

birliyi meydana gətirilməsi fikri və fəaliyyəti hesab edilən islamçılıq da osmanlıçılıq kimi Avropa çıxışlıdır. Osmanlı imperatorluğunda osmanlıçılıq fikrinin zəifləməsindən sonra Əbdüləziz **(1861-1876)** dövründə başlamışdır. Avropa siyasət yazarları buna panislamizm də demişlər. Xəlifə Əbdülhəmid, panislamizmi fikir halından fəal bir hərəkat halına gətirmişdir. Sarayda, cəmiyyət həyatında, təhsildə və xarici siyasətdə islamçılığa yer verilmişdir. Bundan başqa, müsəlman ölkələrində də geniş bir panislamçı təbliğata başlanılmışdır[14].

Üç fikir cərəyanından bəhs edən Ziya Göyalp isə yazır ki, islamlaşmaq fikrinin yayıcısı və müdafiəçisi **"Sırat-ı Müstakim"** (baş redaktorluğunu Mehmet Akifin etdiyi 1905-1925-ci illərdə həftəlik çıxan qəzet Ş.M) **, "Sebil-ür-Reşat"** (İslamçılık faktını yaymaq üçün 1908-ci ilin avqustunda Mehmet Akif Ersoyun yardımı ilə çıxan və milli mücadilə illərində öncül rol oynayan dərgi-Ş.M), türkləşmək fikrini yayan isə **"Türk yurdu"** (1911-ci ildən bəri çap olunan milliyətçi fikir dərgisi Türk Ocaqları Baş Mərkəzi orqanı olaraq Ankarada çap olunmaqdadır. Azərbaycanda da bu adla qəzet buraxılmaqdadır. Ş.M) dərgiləridir. Diqqət etsək görə bilərik ki, bu üç cərəyan da eyni ehtiyacdan doğmuşdur[15]. Ə.Ağaoğlu avropalıların uydurduğu "panislamizm" ideyasının müsəlmanlar arasında rus və Avropa qaragüruhçularının təsvir və təsəvvür etdikləri şəkildə mövcudluğunu tamamilə inkar edirdi. Onun fikrincə: "Ümumiyyətlə, belə bir cərəyan müsəlmanlar arasında yoxdur. Panislamizm Avropa

---

14 Akçura Y. Üç Tarz-i Siyaset. Türk Tarih Kurumu. Ankara: Türk Tarih Kurumu Basımevi, 1998, 55 s

15 Gökalp Z. Türkleşmek, İslamlaşmak, Muasirleşmek. İstanbul: Toker Yayınları, 1997, s.,7,8

siyasətçiləri və qəzetçiləri tərəfindən icad edilən bir uydurmadır[16]".

H.Baykara **(1904-1984)** (əsl adı Qara bəy Nəsir bəy oğlu Şirinbəyov, ən məşhur əsəri "Azerbeycan istiklal mücadiləsi tarihi" (1975 İstambul) Ş.M)) isə belə bir məqamı, xüsusilə vurğulayır ki, Azərbaycan istiqlal mübarizəsinin "panislamizm" və ya "pantürkizm" ilə heç bir ideoloji əlaqəsi yoxdur. *Hər bir demokratik respublikada olduğu kimi vaxtı ilə Azərbaycanda da belə partiyalar olmuşdur*[17].

Nə qədər fərqli fikirlər olsa belə, istər müsbət, istərsə də mənfi mənalar verilmiş panislamizm hərəkatının mövcudluğu tarixi faktdır. Belə ki, "islamiyyətin keçmiş əzəmətini bərpa etmək" istiqamətindəki fəaliyyətin genişlənməsi nəticəsində, panislamizm yalnız sonralar daha çox siyasi xarakter kəsb etməyə başlamışdır. Bəzi tədqiqatçılar tərəfindən dini-siyasi ideologiya adlandırılan panislamizmin müəssisləri və təbliğçiləri (xüsusilə, Şeyx Cəmaləddin əl-Əfqani **(1838-1897)**) Məkkədə ümummüsəlman qurultayı çağırmaq yolunda geniş dairədə fəaliyyət göstərmişlər. Bu müsəlman qurultayının son məqsədi ümumdünya müsəlmanlarının dini-siyasi birliyini nəzərdə tutsa da, ilk məqsəd olaraq bütün müsəlman ərəblərini birləşdirib, "qüdrətli müsəlman Ərəb dövlətini yaratmağ"ı və müstəmləkəçilərə qarşı vahid cəbhədə müsəlmanları birləşdirməyi nəzərdə tuturdu.

Müsəlman dünyasının xəlifəsi sayılan Osmanlı sultanı Əbdülhəmid (**1876-1918-**ci illərdə hakimiyyəti və xilafəti idarə etmişdir) əslində, panislamizmin tərəfdarı olsa da, bəzi siyasi

16 Əhmədli R. Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq. Bakı: Elm, 2007, s.,156

17 Baykara H. Azerbaycan İstiqlal mücadilesi tarihi. İstanbul: Genclik Basımevi, 1975, s.12

səbəblər üzündən (o, bu zaman osmanlıçılıq siyasətini yeridirdi-Ş.M) ərəb xüsusiyyətlərini bariz şəkildə özündə birləşdirən panislamizmin tərəfdarı olmadı və Məkkədə "ittihadi-islamiyyə" qurultayının çağırılmasını pozdu. Lakin Əbdülhəmid bu hərəkata qoşulmağı, onun idarə edilməsini öz əlinə almağı və bu hərəkatdan Osmanlı İmperiyasının siyasi məqsədləri üçün istifadə etməyi qərara aldı. Elə bu məqsədlə də o, panislamistlərin ideya rəhbəri Şeyx Cəmaləddini İstanbula dəvət etdi.

Artıq dağılmaqda olan Osmanlı İmperiyasının nüfuzunu müsəlman xalqlarının nəzərində artırmaq məqsədi ilə "bütün dünya müsəlmanlarının xəlifəsi" sultan Əbdülhəmidin dəvətinə cavab olaraq 1892-ci ilin sentyabrında İstanbula gələn Cəmaləddin Əfqanini orada "İttihadi-islam" cəmiyyətini təsis edir. Bu cəmiyyətin məqsədi müsəlmanlar arasında mövcud olan dini ixtilafları, xüsusilə də şiə-sünni ixtilaflarını aradan götürmək və onları müstəmləkə təzyiqinə qarşı vahid cəbhədə birləşdirmək idi. Əbdülhəmid bunun üçün müxtəlif müsəlman ölkələrinin yüzlərcə üləmasına, ruhanisinə yazılı şəkildə müraciət etmiş, onları ittihada çağırmışdır[18].

Beləliklə, XIX əsrin 90-cı illərindən etibarən panislamizm sultan Türkiyəsinin siyasəti zəminində daha geniş ölçüdə yayılmağa başlayır. Artıq XX əsrin başlanğıcından etibarən Əbdülhəmid panislamizmin ilk ideya istiqamətini Osmanlı İmperiyasının siyasi məqsədləri mövqeyindən müəyyən qədər dəyişdirə bilir və panislamizmin bir çox təbliğçilərini özünün siyasi agentlərinə çevirməyə müyəssər olur. Heç şübhəsiz, bu da səbəbsiz deyildi. Belə ki, istər Avropa dövlətləri, istər Rusiyanın rəsmi dairələri, habelə bu

18 Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı: Maarif, 1973, s.133

ölkələrin mətbuatı müsəlman şərqində baş verən ümumi intibaha, milli-mədəni yüksəlişə, azadlıq hərəkatına düşmən kəsilmiş, hər cür həmrəylik, ittifaq və ittihadı xristian aləminə qarşı çevrilmiş siyasi təhlükə kimi qiymətləndirmiş, onun gələcəkdə nə kimi ictimai-siyasi nəticələr doğura biləcəyi ehtimalına qarşı əvvəlcədən təsirli tədbirlər və vasitələr axtarıb tapmışlar. Avropa imperialistləri, rus çarizmi, habelə onların ideoloqları “müsəlmanlığın hücumu”, “canlanmış müsəlman ruhunun xristian dövlətlərinin həyati mənafeyi üçün təhlükə törətməsi”, “ümumdünya müsəlmanlarının ittihad edib qüvvətli müsəlman dövləti olan Türkiyə ilə yaxınlaşması və bütün dünya müsəlmanlarının Türkiyə padşahına – xəlifəyə sadiqliyi əsasında Sarı dənizdən Aralıq dənizinə qədər olan bir ərazidə ümumi müsəlman dövləti yaratmaq xəyalına düşmələri” və “müsəlmanların bütün xristian dövlətləri üçün ciddi təhlükə yaratması” və s. kimi çağırışlarla hələ qurula biləcəyi sözdə gedən ittifaqın reallaşacağı təqdirdə qeyri-müsləman ölkələrə hansı təhlükə yarada biləcəyi barəsində “təhlükə siqnalları” verirdilər. Bu iddialardan məqsəd xalqları, millətləri bir-birinə qarşı salışdırmaq, müstəmləkə və asılı ölkə xalqlarının azadlıq hərəkatının qarşısını almaq, müstəmləkə zülmünü əbədiləşdirmək, zəif inkişaf etmiş ölkələr, xalqlar hesabına yeni-yeni torpaqlar əldə etmək idi.

Tədqiq edilən mövzunu daha dəqiq işıqlandırmaq üçün xüsusi vurğulanmalıdır ki, İslam dünyasının yenilikçi islahatçısı Şeyx Cəmaləddin yeni dövrün tələblərinə uyğun şəkildə Quranın, hədislərin şərhini verməyə, onları mənalandırmağa, yəni, feodal-islam ideologiyasını və islamın ayin və mərasimlərini modern münasibətlər baxımından mənalandırmağa çalışmış, islam dinində

bəzi dəyişikliklərin edilməsinə tərəfdar olmuşdur. Beləliklə də o, tarixə islamın reformasiyaçısı və modernizasiyaçısı kimi keçmişdir. Ş.Cəmaləddin islam dini ilə elmi, siyasəti birləşdirməyə, islama mədəniyyət, sənaye, tərəqqi məzmunu daxil etməyə çalışmış, cəmiyyət içərisində yeni bir cəmiyyət – "islamiyyət" yaratmağa cəhd etmiş və bu "cəmiyyət"in nəzəriyyəsinin – "İttihadi islam"ın əsaslarını vermişdir. Müstəmləkə zülmünə qarşı çevrilmiş azadlıq ideyasına, maarifçiliyə dini məna qazandırmışdır. Ş.Cəmaləddinin təsis etdiyi "İttihadi-islam" ideologiyası müsəlman cəmiyyətinin tərəqqisini nəzərdə tuturdu. O, islamiyyəti müsəlmanların mənəvi həyatının çıxış nöqtəsi kimi qəbul etməklə, müsəlman xalqları arasında mövhumat və cəhalətin aradan qaldırılması, elm və maarifin, sənaye və mütərəqqi mədəniyyətin yayılması, intişarı uğrunda çalışmışdır.

Doğrudur, C.Əfqani bütün müsəlman ölkələrində "məşrutə"nin və respublika dövlət quruluşunun bərqərar olması yolunda çalışmış, millətlərin müstəqil həyat tərzinə, onların müstəqil milli mədəniyyət ideyasına hörmətlə yanaşmış və açıq şəkildə bildirmişdir ki, "ümur dünyəviyyədə (dünyəvi işlərdə – Ş.M.) vəhdəti-lisan (vəhdəti-milliyyət) mərbutiyyətinin təsiri din mərbutiyyətindən daha qüvvətlidir[19]". Lakin o, eyni zamanda bütün müsəlman dövlətlərini, xalqlarını dini mənsubiyyət prinsipinə əsasən vahid bir siyasi mərkəzdə birləşdirmək, vahid xilafət yaratmaq iddiasında olmuş, milli mənsubiyyəti dini mənsubiyyətə qurban vermişdir[20]. Demək, panislamizm yalnız dini deyil, həm də siyasi məna kəsb etmiş

19 Türk Yurdu (yeni harflerle basımı). 17 ciltte, 1-17-ci ciltler (1911-1931-ci illerde çıkan sayıların külliyatı). Ankara: Tutubay Yayınları, 1999-2001.

20 Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı: Maarif, 1973, 2 s.,133

ideyaları özündə birləşdirmiş, dini-siyasi ideologiya, dini-siyasi hərəkat xarakteri daşımışdır.

Birmənalı şəkildə deyə bilərik ki, tədqiq edilən dövrdə bu kontekstdən Azərbaycanın ən məhsuldar fəaliyyət göstərən, səsi daha geniş miqyasda eşidilən islahatçı ziyalısı Əhməd bəy Ağaoğlu olmuşdur.

Bir qisim tədqiqatçıların ilk vaxtlar dəyişən dünyanın təzyiqlərinə qarşı öz-özünə meydana çıxan bir reaksiya hesab etdikləri panislamizm, onların fikrincə, vahid bir nəzəriyyə halında deyildi. Belə ki, Rusiya müsəlmanları arasında yayılan bu hadisə ilə qısa zamanda maraqlanmağa başlayan çarizmin gizli təhlükəsizlik orqanları belə hərəkatın mahiyyətini müəyyənləşdirməkdə çətinlik çəkdiklərini etiraf edirdilər və bunu panislamizm tərəfdarlarının müəyyən bir proqram və ya strategiyalarının olmamalarına bağlayırdılar (bu fikri təkzib edən faktlar da vardır). "Əslində, Əbdülhəmidin xarici siyasətinə alət vəzifəsini görəndən, Hacı Seyid Cəmaləddin Əfqaninin təmsil etdiyi liberal şərhə qədər dəyişiklik göstərən bir neçə panislamist görüş vardı. Əfqani, bu İran doğumlu səyyah filosof XX əsr islamçı modernizmin ən öndə gələn siması idi[21]".

C.Əfqani həqiqətən də, islam dininin ağıl və düşüncə azadlığı ilə ahəngdar olduğuna inanır və müsəlmanları Qərb təhsili, texnikası və metodlarını mənimsəmələri mövzusunda təşviq edirdi. O, müsəlmanların doqmatizmdən, batil inanclardan qurtulmaları və məzhəb ayrılıqlarına son vermələri zərurətini irəli sürürdü. Eyni zamanda **müsəlmanların millətçiliyi müstəmləkəçiliyə qarşı bir silah olaraq dəyərləndirmələrini** tövsiyə edir, nəticədə bütün

21 Swietochowski T. Müslüman cemaatten ulusal kimliğe Rus Azerbaycanı 1905-1920 (Türkçe-si: Nuray Mert). İstanbul: Bağlam yayınları, 1988, s..53

müsəlmanların tək bir rəhbərlik altında toplanacağına, bunun despotik deyil, liberal bir idarə olacağına inanırdı. Azərbaycan ziyalılarının çoxuna təsir göstərən, xüsusilə modern islamın dünyəviliyini də özündə ehtiva edən sünni-şiə uzlaşmasını nəzərə almaları, dolayısı ilə Əfqani tərzi bir panislamizm idi[22].

Ə.Ağaoğlunun fransız mətbuatında yer almış düşüncələrinin təməlində də C.Əfqani ideyaları dayanırdı. Bunu həm tarixi hadisələrin xronologiyası, həm Ə.Ağaoğlunun özü, həm də demək olar ki, bütün tədqiqatçılar təsdiqləməkdədirlər. Məhz belə bir modern düşüncənin daşıyıcısı olduğu üçündür ki, Ə.Topçubaşovun redaktorluğu ilə çıxan "Kaspi" (Bakıda 1881-ci ildən rus dilində çıxmış qəzet. 1999 ildən yenidən bərpa edilib-Ş.M) qəzetində məktəblərin inkişaf etdirilməsi, müsəlmanların sivil-mülki xidmətlərdə vəzifə alması, Muğan çöllərinin islah edilərək kəndlilərin torpaqsızlıq probleminin həll edilməsi **kimi məsələlərdə islahatçılıq fəaliyyətinin önündə getmişdir. "Kaspi"nin tədricən rus yazarlarını da yardıma dəvət edərək və Rusiya ictimai rəyinin dəstəyini almağa çalışaraq Rusiyadakı bütün müsəlmanların haqlarının müdafiəçisi kimi tanınmasında da Ə.Ağaoğlunun xidməti danılmazdır.**

Hesab edirik ki, dini və milli cərəyanların, o cümlədən islahatçılıq meyillərinin Azərbaycandakı təzahürlərinin elmi təhlili üçün mövzuya daha geniş kontekstdə baxılmalıdır. Belə ki, C.Əfqani ideyalarının mahiyyətinə varmadan və Osmanlı dövləti daxilindəki siyasi təmayülləri nəzərdən keçirmədən mövzunun obyektiv şərhi verilə bilməz. Bu yerdə xatırladaq ki, kitabın içərisində toplanmış hissələrdə Türkiyədə baş vermiş jon türklər inqilabından, "Mudros

22 Swietochowski T. Müslüman cemaatten ulusal kimliğe Rus Azerbaycanı 1905-1920 (Türkçesi: Nuray Mert). İstanbul: Bağlam yayınları, 1988, s. 53-54

müqaviləsindən" xeyli məlumatların verilməsi bu səbəbdəndir. Bu mənada, təbii ki, Osmanlı sultanı ilə ittihadçıların münasibətlərinə də aydınlıq gətirilməlidir. Fikrimizi sübut etmək üçün sadəcə bir fakta diqqət yetirmək kifayətdir ki, XX əsrin əvvəllərində panislamist və pantürkist kimi tanınan Ə.Ağaoğlu və Ə.Hüseynzadə sonralar ittihadçıların öncül simalarına çevrilmişdilər[23]. Bir də, **Azərbaycandakı türkçülük hərəkatı nə qədər İsmayıl bəy Qaspıralının fikirlərindən güc almışdısa, islamçılıq cərəyanı da o qədər C.Əfqani ideyalarından bəhrələnmişdi**...

**Tədqiqatın** bu yerində xatırlatmaq istəyirəm ki, hələ sağlığında Bestujev Marlinskinin **(1797-1837)**, Qribayedovun **(1795-1829)**, Puşkinin **(1799-1837)**, Polonskinin (?), Henrix Koxun (?), Ozereçkovskinin **(1750-1827)**, Bodenştetin **(1819-1892)**, Lado Zablotskinin **(1811-1847)**, Fazil xan Şeydanın **(1783-1852)**, Mirzə Şəfinin **(1794-1852)** şərqşünaslar Berezinin **(1818-1896)**, Dornun **(1805-1881),** Brossenin **(1802-1880)** və bir çox başqalarının yüksək dəyərləndirdiyi, böyük maarifçi, alim, hesablaşılan dövlət adamı, gözəl şair adlandırdıqları Abbasqulu ağa Bakıxanov bizim türkçülüyümizin ilk təməl daşlarını qoyan insandır. Belə ki, Aybəniz xanım Kəngərli dəyərli tədqiqat əsərində bunu belə ifadə edir: **"Türk** tədqiqatçılar türkçülüyün tarixindən bəhs edərkən, dünyada yaşayan müxtəlif türk şivələrinin vahid türk dilinin qollarının olması ideyasını Əhməd Vefiq **Paşa (1823-1891), Süleyman Hüsnü Paşa (1838-1892) kimi türkçülər tərəfindən irəli sürüldüyünü iddia edirlər. Halbuki böyük türkçü Abbasqulu ağa Bakıxanov əsərini (Gülüstani-**

23 Süleymanlı M.A. Əhməd Ağaoğlunun ilk elmi əsəri: Şiə dinində məzdəki inancları. Bakı: "Litterpress", 2007, 128 s.

**İrəmi-Ş.M) bitirdiyi zaman Süleyman Paşanın 5, Əhməd Paşanın isə 20 yaşı vardı". Bəhs etdiyimiz ideyalar "Gülüstani-İrəm" əsərində onların yaradıcılığında öz əksini tapmadan xeyli əvvəl göstərilmişdir"[24].**

Yaradıcılığı çoxlu ilklərə məzhər olmuş Abbasqulu ağa haqqında bu kitaba daxil olan məqalə elə onun fəaliyyətinin və xidmətlərinin məhz bu tərəfini qabartmaq üçündür. Tatar ilahiyyatçılarının əsərlərini, həyat və fəaliyyətlərini əks etdirən və bu gün əlimizdə olan antaloqiyaları incələdikcə onların (tatarların-Ş.M) öz mütəfəkkirlərinə qarşı nə qədər diqqətcil olub öz "birlərini iki kimi" qələmə verdiklərinin şahidi oluruq. Halbuki bizim Abbasqulu ağa Şihabəddin Mərcanidən **(1818-1889)** daha çox refarmatordur..

Çıxdığımız haşiyədən yenidən geri qayıdıb qeyd edək ki, islamiyyət əsrlərdən bəri müsəlman cəmiyyətində güclü təsirə malik olmuşdur. Lakin "islamçılıq" adıyla bir düşüncə cərəyanı olaraq ortaya çıxdığı zaman artıq məqsəd və funksiyası çox fərqli idi. XX əsrin əvvəllərinin fikir cərəyanları arasında islamçılıq digərlərinə nisbətən çox əlverişli şərtlərə sahib idi. Çünki hər şeydən öncə Osmanlı imperatorluğunun mövcudluq səbəbi, təməl fəlsəfəsi, iqtidarının qaynağı islamiyyətə söykənməkdə idi. Padşah avtoritetinin qaynağını dində tapmaqla kifayətlənməyib, Yer üzündəki bütün müsəlmanların xəlifəsi, dini lideri statusunda, rejim isə Allah qayda-qanunlarının keçərli olduğu bir şəriət quruluşu olmaq iddiasında idi. Bu baxımdan islamçılar digər düşüncə cərəyanlarının təmsilçilərinin qarşılaşdığı bir sıra təzyiqlərə hədəf olmamışlar. Bundan başqa, islamiyyətin sosial yaşamı da tənzimləyən bir din olması islamçıların işlərini

---

24 Əliyeva (Kəngərli) A. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. Bakı: Elm, 2002, 334 s.

asanlaşdırmışdır. Bu vəziyyəti islamçılar belə acıqlayırdılar: "...O bir dini bəşəriyyədir ki... nə tamamilə fikriyyə, nə də tamamilə isbatiyə olmayıb, hər ikisidir...[25]".

Bir düşüncə cərəyanı olaraq islamçılığın nə zaman başlaması məsələsi bir az mübahisəlidir. Ancaq islamçılıq ilk dəfə ciddi olaraq II Əbdülhəmid dövründə müzakirə edilməyə başlanmışdır. Əbdülhəmid islamçılıq siyasəti ilə həm Balkanlardakı "panslavyanizm"i təsirsiz hala gətirmək, həm də siyasi müxaliflərinin xalq içindəki gücünü qırmaq istəyirdi. Ancaq eyni silahı qarşı tərəf də istifadə edirdi. Dünyada bu dövrdəki islamçılıq cərəyanının böyük mütəfəkkirləri Cəmaləddin Əfqani və Məhəmməd Əbduh **(1849-1905)** idi. Məhz bu islam reformatorlarının düşüncələrinin təqdim edilməsi ilə Osmanlı cəmiyyətində müzakirələr ciddiləşdi. Ancaq islamçılıq cərəyanı əsl gücünü II Məşrutiyyətdən sonra tapmışdır.

İslamçılara görə, Osmanlı İmperatorluğu da daxil olmaqla müsəlman cəmiyyəti bir böhran vəziyyətindədir. Fəqət bunun səbəbi qərbçilərin irəli sürdükləri kimi islamiyyətdən qaynaqlanmamaqdadır. Çünki əslində, islamiyyət digər dinlərə nisbətən elmə daha isti münasibətli, yeniliklərə daha açıqdır. Demokratiya, məşruti rejim və ən geniş azadlıqlar islamiyyətin özündə vardır, bilavasitə "üsuli məşvərət" bu idarəçiliyin özüdür. İslamçılar Qərb təqlidçiliyini belə dəyərləndirirdilər ki, bu təqlidçilik təbii strukturun pozulmasına yol açmaqda və şərtlərimizə uyğun gəlməməkdədir. Çox maraqlıdır ki, islam dinini qərbli yazarların qərəzli münasibətindən müdafiə edərkən Azərbaycan ziyalıları da oxşar mövqedən çıxış edirdilər. Amma

25 Toktamış A. Türk Devrim Tarihi. İstanbul: Der Yayınları, 1993,s., 80,81

buradakı islahatçılıq tərəfdarları eyni zamanda qərbin tərəqqi nailiyyətlərindən faydalanmağı uyğun bilirdilər.

XX əsrin əvvəllərində cəmiyyətin tərəqqisi naminə Azərbaycan ziyalılarının göstərdikləri islahatçılıq təşəbbüslərinin tarixi-müqayisəli təhlilini vermək üçün modernist islamçıların (və ya islam reformatorlarının) baxışları, onların ortaq və fərqli cəhətləri barədə ümumi məlumat verməyə ehtiyac vardır. Çünki islahatçılıq təmayülləri yalnız Azərbaycan cəmiyyətinə xas olan bir tərəqqi cəhdi deyildi. Bunun tarixi daha əvvəllərə gedib çıxır və demək olar ki, bütünlüklə islam dünyasını əhatə edirdi.

Bu mənada, söhbət modernist islamçılardan düşdüyü təqdirdə qeyd edilməlidir ki, islam cəmiyyətinin dini islahatlar yolu ilə tərəqqi etməsi mümkünlüyü bir *ideya olaraq, ilk növbədə, Şeyx Cəmaləddin Əfqanidən gəlmişdir*. "Əfqani, bu İran doğumlu səyyah filosof XX əsr islamçı modernizmin ən öndə gələn siması idi"[26]. Sonradan Azərbaycanın bir sıra ziyalıları tərəfindən də dəstəklənən Ş.C.Əfqaninin bu yeni islamçılıq cığırı Misirdə Məhəmməd Əbduh və davamçıları Fərid Vəcdi **(1878-1954)**[27], kazanlı Musa Cərullah, Hindistanda Məhəmməd İqbal **(1877-1938)** tərəfindən inkişaf etdirilmişdir. XIX əsrin ikinci yarısında islam birliyi hərəkatının ideoloqu və lideri Ş.C.Əfqani bütün müsəlman xalqlarını Osmanlı hakimiyyəti altında birləşməyə çağırırdı... Bu çağrışa Tatarıstandan

26 Svietochovski T. Müsülüman cemaaten ulusal kimliye rus Azərbaycanı 1905-1920 (Türkcesi: Nuray Mert). İstanbul yayınları. 1988, 295 s.

27 Muhammed Ferid Vecdi-Misirli alim və fikir adamı. İskəndəriyyədə dünyaya gəlib (1878) Qahirədə vəfat etmişdir. (1952). Gənc yaşlarından Misirdə "Həyat" və "əd-düstur" qəzetlərini buraxmışdır. 27 yaşında ilk əsərini fransız və ərəb dillərində yazıb yayımladı. Ağılın və elmin üstünlüyünü ələ aldığı əsərlər yazdı. Daha geniş bax www.mumsema.orq/misafir sorulari/216986-muhammed-ferid-vecdi-kimdir.html (2018-ci ildə baxılmışdır)

(Rusiya sərhədləri içərisindən-Ş.M) “İslamın əlifbası”kitabı ilə səs verən Musa Bigiyev zənnimizcə İslam modernistləri arasında üzərində, xüsusilə durulması lazım gələn ilahiyyatçıdır. Bu kitabda da onun ideyaları və yaradıcılığı iki məqalədə öz əksini tapmışdır[28].

O, Quranın çevrilə biləcəyi qənaətində olmuşdur və hətta özü də buna təşəbbüs etmişdir. 1920-ci ildə yazıb başa çatdırdığı “İslamın əlifbası” kitabı isə görkəmli bolşevik lideri Buxarin tərəfindən yazılmış “Kommunizmin əlifbası” əsərinə tutarlı cavab idi. Kitab özlüyündə İslamın siyasi manifesti, yaxud “İslam konstitusiyası” missiyasını yerinə yetirirdi. Kitabda 236 məqalədə İslamın uyğun qanun-qaydalarına, eləcə də müasir (zamanı üçün) müsəlman (həm Rusiya daxilində həm də xaricdə) həyat tərzinə keçmək barəsində məlumat verilir. Əsərdə Bigiyev müsəlman cəmiyyətinin qurulmasının əsas momentlərinə: “xilafət quruluşunun problemlərinə, insan hüquqlarına, İslam təlimi prizmasından hərbi hüquqlara (mükəlləfiyyətlərə Ş.M.), müsəlman diplomatiyası və xarici siyasətə, müsəlman qadınlarının hüququ və s. məsələlərə yeni baxışla yeni yanaşma etmişdir.

Bu kitab manifestin ilk tezisləri elə həmin ildə Bigiyev tərəfindən 16-18 sentyabrda Ufada keçirilən Müsəlman Üləmalarının Qurultayında, daha sonralar isə bu qəbildən olan başqa tədbirlərdə oxunmuşdu. Kitabın nüsxələri qurultay iştirakçıları tərəfindən Türkistana, Qaşqara, Əfqanıstana və Türkiyəyə çap olunmaq üçün göndərilmişdir.

Azərbaycanda isə M.Ə.Rəsulzadə **(1884-1955)** yazırdı ki, islam birliyinin imperializmə qarşı mübarizəsinin yalnız bu yolla

---

28 H.Z.Ülken, Türkiyede çağdaş düşünce tarihi. İstanbul: Kaprol İletişim, 2005, 516 s. (səh 278-279)

mümkünlüyünü iddia edən C.Əfqani milli şüurun güclənməsinə də böyük təsir göstərmişdir[29].

Qeyd etmək lazımdır ki, Azərbaycan ziyalılarından hələ XIX əsrin 80-ci illərindən Ş.C.Əfqani ilə şəxsi tanışlıqları olanlar vardı. Məsələn, tələbəykən Parisdə Ş.C.Əfqani ilə görüşmüş Ə.Ağaoğlu bu hadisə ilə bağlı təəssüratlarını mətbuatda da çap etdirmiş, xatirələrində də yazmışdır[30]. M.Ə.Rəsulzadə 1911-ci ildə onun elmi-dini baxışlarından təsirlənmiş və onun “Vəhdəti cinsiyyə fəlsəfəsi”ni fars dilindən türkcəyə tərcümə edərək “Türk yurdu” dərgisində yayınlamışdır[31]. Ş.C.Əfqaninin yaradıcılığında M.Rəsulzadəni cəlb edən əsas ideya “Milli birlik fəlsəfəsi” olmuşdur**. “Ümmət” dövrünü yaşayan İslam Şərqində milliyyət şüurunun oyanmasına çox böyük təsir göstərən bu əsərdəki** ideyalar Azərbaycan elmi-mədəni fikrində də istiqamətverici amillərdən biri olmuşdur.

Lakin bir faktı qeyd etmək lazımdır ki, Türk dünyasının Ş.C.Əfqani ideyalarından geniş təsirlənmə prosesi, ilk növbədə, Osmanlıdan başlanmışdır. Hətta bu təsirlər “Səbilürrəşad” yazarlarını iki zümrəyə ayırmışdı. Belə ki, onların bir qismi, məsələn, Əhməd Naim **(1872-1934)** kimi ənənəçi-mühafizəkar mövqedə durdular. Bir qismi isə mədrəsə ilə məktəbi birləşdirmək meylində olanlar idi ki, onların içərisindən İ.H.İzmirli, M.Şəmsəddin kimi modernistlər yetişdi.

---

29 Resulzade M.E. Kafkasiya türkleri (Hazırlayanlar: Yavuz Akpınar. İrfan Murat, Yıldırım Sabahattin Cağın). İstanbul; Türk Dünyası Araştırmaları Vakfı, 1993, 132 s, (səh. 72-73; 97, s. 141-142).

30 Ağaoğlu S. Babamdan hatıralar. Ankara: Zerbamat matbaası, 1940, 146 s. Shissler A.H. İki İmparatorluk arasında. Ahmet Ağaoğlu ve yeni Türkiye (Çeviren: T.U.Belge), I baskı. İstanbul Universitesi Yayınları, 2005, 369 s

31 Türk Yurdu (yeni harflerle basımı). 17 ciltte, 1-17-ci ciltler (1911-1931-ci illerde çıkan sayıların külliyatı). Ankara: Tutubay Yayınları, 1999-2001.

Şeyxülislam Musa Kazım kimi modernizm ilə ənənəçilik arasında orta mövqe tutanlar və ya Mustafa Səbri kimi açıq-aşkar modernizmə qarşı çıxanlar da var idi[32]. Bu kimi münasibətin (ən-ənəcilər və yenilikçilərin bölünmüş dəstələri barəsində) kitabın içərisində cədidizmin köklərini araşdırmaq üçün tarixə etdiyimiz ekskurs zamanı tatar ilahiyyatcıları üçün də əlamətdar olduğunu qeyd etmişik.

Azərbaycan ziyalılarının düşüncələrinə təsirləri baxımından islam modernistlərinin mövqelərinə aydınlıq gətirilərkən, ilk növbədə, qeyd edilməlidir ki, islam doktrinasını müdafiə edən "kəlam cərəyanları" hələ IX əsrdən etibarən daim zamanın elmi və fəlsəfi hərəkatları ilə paralel inkişaf etmişdir. İslam modernistləri də məhz bu ehtiyacı hiss edənlərdir. Onlar mühafizəkarlar (yəni, təqlidçilər-Ş.M) kimi özlərinə qapılmamış, diqqətlərini çağdaş mədəniyyətə çevirərək əsrin tələbləri ilə dini inanc arasında ahəng qurmağa çalışmışlar. Elə bu səbəbdəndir ki, biz də oxucuların ixtiyarına təqdim edilən bu kitabda azadfikirliliyə yol açıb, İslam modernizmi cədidizmə gətirib çıxaran və ona təsir edən cərəyanlardan (Teymiyyə və Qəzali ardıcıllarından) da söz açmışıq. Hətta islam modernizmi cədidizmin fundamental araşdırılmasına həsr etdiyimiz məqaləni kifayət qədər əhatəli hesab etdiyimiz girişdən sonra ikinci yerdə yerləşdirmişik...

Beləliklə, yenidən xatırladaq ki, bu yolda özünəməxsus cığır açmış Ş.C.Əfqani, hansı ki, öz fəaliyyəti ilə zəngin bir nəşriyyatın yaranmasına da təkan vermişdir. Onun yetişdirdiyi Əbduh Misirdə və Suriyada böyük təsir oyatmışdır. Misirdə **"Əl-Menar"ı** çıxaran yeni nəsil modernist islamçılar bu təsiri daha da yeni formalarda davam etdirmişlər.

---

32 Ülken H.Z. Türkiyede Çağdaş Düşünce Tarihi. İstanbul: Ülken Yayınları, 2001, 516 s.

Bəhs etdiyimiz dönəmdə Osmanlının elm adamlarının bir qismi də modernist görüşlü idilər. Lakin bu görüşü daha irəli aparan və islam modernizminə ən çox inkişaf imkanı verən cərəyanın başında Z.Göyalpı görürük. Ümumiyyətlə, ərəb modernistləri ilə Z.Göyalpın baxışlarını müqayisə edən tədqiqatçılar bu modernistlər arasında Z.Göyalpı mütərəqqi və orijinal təşəbbüskarlığı ilə fərqləndirirlər ki, onun Azərbaycan ziyalılarına təsirləri də şəksizdir.

Qeyd etmək lazımdır ki, Ziya Göyalpın bütün türklərə şəksiz təsiri bir də ondan ibarətdir ki, o "İstanbulu bir paytaxt kimi yalnız Osmanlı türklərinin deyil, Türk Xalqlarının "paytaxtı" olduğunu bildirmişdir. O, İstanbulu bütün türklərin qibləsi adlandırmışdır (bunu o dövrün bir çox ziyalısı o cümlədən tatar Musa Carullah Bigiyev də özünün "Türkiyə Böyük Millət Məclisinə" əsərində qeyd etmişdir- Ş.M) Tanınmış sosioloq İstanbulu həm də İslam xilafətinin mərkəzi olduğu üçün önəmli bir missiya daşıyan mərkəz adlandırmışdır. Yəni, İstanbulun milli ruhdan başqa dini bir müqəddəsliyə də malik olmasını xüsusi vurğulamışdır. İstanbul türkcəsinin bütün türklərə milli dil olması, bu ruhu və müqəddəsliyi dilə keçirə bilməsindədir. əlavə olaraq İstanbul türkcəsi, türk ləhcələrinin ən gözəli, ən işlənmişi, ədəbiyyat və dil baxımından ən zənginidir. O, isə göstəriləcək maneələrə baxmayaraq İstanbul türkcəsini ədəbi dil olaraq mənimsəmək bütün türklər üçün milli vəzifədir. Bu vəzifə yerinə yetirildiyində bütün türklər dil və ədəbiyyatda ortaq tək bir ulus durumuna gəlir[33]".

Bu missiyanı əyani surətdə həyata keçirməyə səylə çalışan yenilikçi İsmayıl Qaspıralı "Tərcüman" səhifələrindən başlanmış bu prosesin öndəri kimi çıxış etmişdir. "Tərcüman" **(1883-1916)** XIX

33 Aytək Zakirqızı. Türkiyə fəlcəfi fikrinin zirvəsi Hilmi Ziya Ülkən, Bakı, 2016, s.182

əsrin sonu, XX əsrin əvvəllərində Rusiya müsəlmanları mühitində nəşr edilən qəzet və jurnalların ən uzun ömürlüsü, geniş miqyasda yayılanı və ən çox oxunanı olmuşdur. O, bir il iki ay "Ziyayi Qafqasiyə", səkkiz il yarım "Kəşkül", bir il doqquz ay "Şərqi rus", 1905-ci il inqilabından sonra Qafqazda, Krımda, Volqaboyunda, Türküstanda çıxan müxtəlif məsləkli dövrü mətbuat orqanları ("Həyat", "İrşad", "Tanq", "Molla Nəsrəddin", "Vətən xadimi", "Nur", "Azad xalq", "Yıldız", "Əl-əsəri əl-cədid", "Əl-islah", "İdil", "Dan-Yıldızı", "Vaxt" və.s) ilə paralel fəaliyyət güstərmişdir. 1891-ci ilin oktyabrında "Kəşkül"ün bağlanmasına qədər təxminən 12 il "Tərcüman" Rusiyanın müsəlman əhalisinə məxsus yeganə qəzet olmuşdur.

Qazan, Orenburq, Qarasubazar, Baxçasaray, Uralsk, Sibir tatarları kimi Cənubu Qafgaz türklərinin həyatı, əli qələmli Azərbaycan ziyalılarının fəliyyəti həmişə böyük Kırım "murza"sının diqqət mərkəzində idi".[34] Qeyd edək ki, keçən əsrin başlanğıcında İ.Qaspıralının, türk modernistlərinin bu öndərinin həyatında siyasi baxışlarında, ictimai görüşlərində ciddi dəyişiklik yarandı. Avropalaşmaq ideyası əvvəl islamlaşmaq sonra türkləşmək məfkurəsi ilə əvəz olundu. O, "İslamı əsri bir surətdə anlamaq" şüarı ilə meydana çıxıb, "dildə, fikirdə, işdə birlik" düsturunu bütün türkçülük cərəyanının lisan, ədəbiyyat, ictimaiyyət hətta siyasət sahələrinə tətbiq etməyə başladı. Buradan irəli gələrək birinci rus inqilabından sonra ona Azərbaycanda ideyaca yaxın olan, islamçılıq və türkçülük məfkurəsinin təbliğinə rəhbərlik edən Əlimərdan bəy Topçubaşov, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayevlə sıx işləməyə başladı.

Modernistlərin görüşlərini dəyərləndirən S.Xəlilovun fikrincə,

34 Dildə fikirdə, işdə birlik (Çapa hazırlayanlar Mirzə Ənsərli (Ləmbəli), Həsən Bayramoğlu), Bakı, 2002, s.,154

XIX əsrin axırları – XX əsrin əvvəllərində Qərb sivilizasiyası müqabilində geri qalmış Şərq dünyasının qarşısında bu geriliyin səbəblərini üzə çıxarmaq və əvvəlki möhtəşəm inkişaf potensialına yenidən yiyələnmək vəzifəsi dururdu. Bu, indi də qarşıda duran ən böyük vəzifədir. Lakin bu problemin həlli istiqamətində ən dəyərli fikirlər məhz XX əsrin əvvəllərində deyilmişdir. İslamın yeni dövrdə, yeni təfəkkür mövqeyindən dəyərləndirilməsi və onun neçə yüz illər ərzində aşınaraq öz inkişaf potensialını tükətməsi, bu aşınmanın səbəbləri və ideya gücünün ilkin halına qayıdış yolları və ya tərsinə, ideyanın yeni dövrə uyğunlaşdırılması məsələləri Məhəmməd İqbal fəlsəfəsinin də mərkəzi mövzularından biri idi. Türkiyədə təhsil almış Hüseyn Cavid həmin məsələlərə bədii təfəkkürün işığında baxmağa çalışdığı halda, İqbal həm poeziya, həm də fəlsəfənin imkanlarını bu yolda səfərbər etmişdi[35].

Ümumiyyətlə, dini duyğu, insani mahiyyətlə bağlı olduğu üçün daha dərin və qədim köklərə malikdir. C.Əfqani yazırdı ki: "İnsanın ilk tərbiyəsi onun dini tərbiyəsidir, fəlsəfi dünyagörüşü sonra yaranır"[36]. Bu gün artıq qərarlaşmış sosial duruma malik Qərb ölkələrində də dinin özünəməxsus yeri vardır. Din dövlət işlərinə qarışmır, siyasi və iqtisadi həyata, elm, təhsil və mədəniyyətə fəal müdaxilə etmir və dövlət də dinin nisbi müstəqilliyini təmin edir, ona müəyyən muxtariyyət verir. Azərbaycanda isə islam dini ilə bağlı təbliğatlar bəzən öz əsas vəzifəsindən uzaqlaşaraq ideya-siyasi yön almağa təşəbbüs göstərir. İndi ədəbi-bədii fikir sahiblərinin, jurnalistlərin ən

35 Xəlilov S.S. Cavid fəlsəfəsi (2-ci kitab: klassik Şərq və müasirlik). Bakı: Nurlan, 2009, s., 77

36 Qurbanov S. Cəmaləddin Əfqani və türk dünyası. Bakı: Azərnəşr, 1996, 220s.

çox meyil etdikləri “ideoloji modellər” XX əsrin əvvəllərində türk ideoloqları və müsavatçıların irəli sürdüyü “türkçülük, islamçılıq, müasirlik” şüarının müxtəlif modifikasiyalarından ibarətdir və bunların hamısında “islamçılıq”, “islamlaşmaq” və s. mərkəzi yerlərdən birini tutur. Azərbaycan müstəqillik əldə etdikdən sonra xalqın sovet ideologiyasının təsiri ilə icbari yolla imtina etmiş olduğu dini dəyərləri qaytarmaq təşəbbüsü, heç şübhəsiz, təqdirəlayiq bir hadisədir[37]. Çünki din millətin inkişafına təsir göstərən ən mühüm amillərdəndir. Böyük alman filosofu və tarixçisi İ.Q.Herderin **(XVIII əsr)** “Bəşər tarixinin fəlsəfəsinə dair ideyalar” kitabına istinadən S.Xəlilov yazır ki: “türklərin hətta zahiri gözəlliyinin aromasında da islam dininin böyük rolu olmuşdur”. Bu mənada Azərbaycanda neçə əsrlərdən bəri yaşayan xalqların ümumi mənəviyyat, adət-ənənə və həyat tərzi sayəsində vahid “azərbaycanlı” adı altında birləşməsində islam dininin roluna dair M.Ə.Rəsulzadədən[38] üzü bəri S.Xəlilovun əsərlərinə qədər bir sıra təkzibedilməz faktlar vardır[39]. Bu əsərlərdə ortaya qoyulan məntiq bunu diktə edir ki, dinin əsl məramı insan mənəviyyatını ülvi duyğularla zənginləşdirməkdir. Din fərdi mənəviyyatı yaddan çıxarıb sosial qurumlar, təsisatlarla məşğul olduqda o, dinlikdən çıxır, başqa bir şeyə çevrilir. İnsanlar isə yenə də dinə möhtac qalırlar.

Çox maraqlıdır ki, inkişafın müasir dövründə belə din sahəsində islahatçılıqla bağlı iki əsr bundan əvvəl söylənənlər daha

37 Xəlilov S.S. Sivilizasiyalararası dialoq. Bakı: Adiloğlu, 2009,

38 Resulzade M.E. Azerbaycan Kültür Gelenekleri. “Azerbaycan kültür derneği”nin teşebbüsü ile, 28 mayıs 1949 da, Ankara Halkevi binasında verilen konferans. Ankara: Sipahi matbaası, 1949, 31 s.

39 Xəlilov S.S. Sivilizasiyalararası dialoq. Bakı: Adiloğlu, 2009,

məntiqi görünür. Bu mənada göz önünə gələn **ilk mütəfəkkir yenə Ş.C.Əfqanidir. O, bəziləri tərəfindən panislamizmin banisi kimi qəbul olunur, bəziləri isə onu pantürkizmin banisi adlandırırlar, amma bunların hər ikisi ilə birlikdə o, dini dözülməzlikdən və milli qapalılıqdan uzaq olan proqressiv bir mütəfəkkir idi**. **Bu böyük islahatçı Avropada bir nəsil filosofun, siyasətçinin, maarifçinin və din xadiminin yaratdığı ideyaları bir şəxsiyyətdə birləşdirdi və islahatın, maarifin və oyanışın əsasını qoydu.** Bu islahatın fəlsəfi əsasını bütün Avropa və Şərq filosoflarının əsrlərlə çalışdığı və həll etdiyi ideyalar təşkil edirdi. O, öz dünyagörüşünü həm islahat ideyasının, həm maarifçilik ideyasının, həm də oyanış ideyasının mərkəzinə çevirmişdir !!!

C.Əfqani XIX əsrin axırlarında yaşamış M.F.Axundov, Həsən bəy Zərdabi, Rəşid bəy Axundov kimi Azərbaycan ziyalılarının həmmüasiri və həmfikri idi. O, eyni zamanda XX əsrin əvvəlində Azərbaycanın yeni nəslinin rəhbərlərindən və ideoloqlarından M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu, Ə.Hüseynzadə kimi ziyalıların dünyagörüşünə də təsir göstərmiş bir şəxsiyyət idi. Bu təsirlənmə özünü müsəlman cəmiyyətinin problemlərinə münasibətdə də göstərməkdədir. Bu ziyalıların hamısı fəlakət, bədbəxtlik və gücsüzlüyün cəmiyyəti bürüdüyü bir vaxtda çarə axtarışında oxşar mövqelərdən çıxış etmişlər. Böhranın müsəlmanların bütün siniflərini bürüdüyü bir vaxtda C.Əfqani yazırdı ki, hər bir müsəlmanın gözləri yolda, qulaqları səsdədir, o, intizarla dünyanın hər hansı bir səmtindən – şərqdən, qərbdən, şimaldan və ya cənubdan – müdrik intibahçının peyda olacağını və müsəlmanların şüur və qəlblərini doğru yola yönəldəcəyini, gözlənilmədən gəlmiş mənəviyyatsızlığı dəf edərək

onları yenidən mükəmməl təhsilə yiyələndirəcəyini gözləyir. Bəlkə də onlar yaxşı təhsil sayəsində öz keçmiş bəxtiyar durumlarına qayıda bilərlər[40]. Mütəfəkkirin analitik zəkasının ehtişamı bu gün də özünü göstərir və bu fikirlərin həyata keçməsinə ehtiyac bu gün də özünü bütün gücü ilə sərgiləməkdədir.

Qərb yazarları çox vaxt məqsədyönlü şəkildə cəmiyyətdəki böhranın əsas səbəbini islam dinində görürdülər. Əslində isə bu kimi qərəzli münasibətlərin arxasında siyasi məqsədlər gizlənirdi. Bunu nəzərdə tutaraq "Milliyyət və insaniyyət" başlıqlı məqaləsində Ə.Hüseynzadə yazırdıki:"Tərəqqietməsək, şikayət olunuyor, tərəqqi etsək, yenə şikayət olunuyor. Bu hal sadə bir erməni mühərririnə məxsus deyil, bütün avropalılar cüzi bir istisna ilə aləmi-islama qarşı bu məsləkdədirlər. Əgər biz tərəqqi yolunu tutsaq, (...) ittihad və ittifaq istəsək də, şikayət edərlər, nifaq və şiqaqa düçar olsaq da, şikayət edərlər! İttifaqımız bunlar üçün bir təhlükə, nifaqımız yenə təhlükə. İttifaq etsək "panislamizm" adı qoyarlar. Mitinqlərdə, məclislərdə və qəzet sütunlarında xatirü xəyalə gəlməyən iftiraları, kizbü böhtanları söyləməkdən çəkinməzlər. Xəyaldan ibarət olan, əsla vücudu olmayan bir qüvvətin əleyhinə qorxunc və həqiqi koalisiyalar təşkil edərlər. (...) İslamiyyətin məqsədi isə istiqlalati-insaniyyədir. Çünki islamiyyət bir dindir ki, millət və milliyyət tanımaz, kəlmeyi-şəhadət gətirib mömin olanlara, rəsmsiz, şəkilsiz, yoldaşsız bir Allaha iman gətirənlərə bir nəzərlə, bir ümmət nəzərilə baxar![41]". Burada yenə də qeyd etməmiş ola bilmərəm ki, islam

40 Əfqani C. Təfsirçinin təfsiri (İngilis dilindən tərcümə edən: Q.Mürşüdlü). "Fəlsəfə və sosial-siyasi elmlər", 2010, № 1 (29), s. 204

41 Hüseynzadə Ə.B. Seçilmiş əsərləri (Transliterasiya, tərtib, müqəddimə, şərh və izahların müəllifi Ofeliya Bayramlı). Bakı: Çaşıoğlu, 2007, 640 s.

dininin ardıcıllarına münasibət təəssüf ki, bu gün də bu mövqedən dəyərləndirilir.

Azərbaycanda islahatçı ziyalıların C.Əfqani ideyalarından bəhrələndikləri XX əsrin əvvəllərində, çarizm müxtəlif vasitələrlə şiə, sünni məzhəbləri arasındakı sədləri daha da dərinləşdirir və şiələrlə sünnilər arasında süni münaqişələr yaradırdı. Təsadüfi deyildi ki, çarizm Zaqafqaziyada vahid ruhanilik idarəsi deyil, paralel şəkildə iki müsəlman ruhanilik idarəsi: sünni ruhanilik idarəsi – müftilik və şiə ruhanilik idarəsi – şeyxülislamlıq yaradıb, bunların nəzdində təsis etdiyi "Ömər təlimi" və "Əli təlimi" üzrə iki məktəbi də onların sərəncamına vermişdi. Bu haqda yazılmış tədqiqatlarda, o cümlədən M.Ə.Rəsulzadənin əsərlərində[42] məsələnin mahiyyətinə dair maraqlı təhlillər verilmişdir. Həmin dövrdə ruhani mənsəbini tutan hər bir şəxs hökumət qarşısında and içməli idi. Bu andda – "əhdüyəmin"də deyilirdi: "Mən, aşağıda ismi olan, hər şeyə qadir Allah Quranı qarşısında and içir və əhd edirəm ki, pənahım, himayəsində olduğum ali həzrət rus padşahına axır nəfəsimə, son qətrə qanıma qədər sadiq olub və onun müdafiəsi naminə çalışacaq, ona sidq ürəklə qulluq edəcəyəm... Bu yolda Allah təalanın divanı qarşısında cavab verməyə hazır olduğum üçün onun Quranını öpürəm. Amin![43]".

Professor Mübariz Süleymanlı özünün doktorluq dissertasiyasında yazır ki: "XX əsrin ilk illəri ərzində Zaqafqaziyada azəri türkçəsində nəşr edilən kitabların yarısı bilavasitə islam dininə aid ədəbiyyat olmuşdur. Bunlar, əsas etibarı ilə, Zaqafqaziya

42 Rəsulzadə M.Ə. Əsərləri. I cild (Toplayanı, tərtib və transliterasiya edəni professor Şirməmməd Hüseynov). Bakı: Azərnəşr, 1992,

43 Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı: Maarif, 1973, 296 s

müftisi Hüseyn Əfəndi Qayıbovun və Zaqafqaziya Şeyxülislamları Hüseynzadə Axund Əhmədin və Axundzadə Əbdüssalamın qələmindən çıxmış ərəb, fars və bir az da Azərbaycan sözlərinin qarışığından ibarət ağır və anlaşılmayan dildə yazılmış, tərtib edilmiş, yaxud tərcümə olunmuş dini kitablar idi”[44]. Bəli bu bir həqiqətdir belə ki, 1901-ci ildə Şeyxülislam Axundzadə Əbdüssalamın üç cildlik “Tarixi-müqəddəs-ənbiya”, “Risaleyi-ümdətül-əhkam”, “Vəz və nəsihət”, dörd cildlik “Risaleyi-Zübtədül-əhkam” adlı kitabları, 1904-cü ildə Bakı şiə quberniya məclisinin sədri və Bakı qazısı Axund Mirməhəmməd Kərim oğlunun “Kitabi-kəşfül-həqaiq. Təfsiri-qurani-şərif” adlı 3 cildlik kitabı çapdan çıxmışdır. Yeri gəlmişkən qeyd edək ki, 1906-cı ildə, keçdiyi yol hələ də təkrarlanmayan, böyük messenant H.Z.Tağıyev Quranın bu 3 cildlik təfsirini Axund Y.Z.Talıbzadə ilə Osmanlı sultanı Əbdülhəmidə göndərmişdir[45]. Mübariz müəllim yenə qeyd edir ki, təəssüf ki, bu kitablarda cihad tələb edən, müsəlmanların birliyi prinsipinə uyğun gələn ayələr, hədislər, rəvayətlər çıxarılaraq, həmin kitabların əvvəlində və yaxud axırında əlahəzrət rus padşahına, onunailəsinə, çar səltənətinin rifahı naminədualarverilirdi[46]. Həqiqətən Q.Mustafayevin tədqiqatlarından[47] öyrənirik ki, Şeyxülislamın təhriki ilə yazılmış və Sərdar dəftərxanası mətbəəsində çap edilmiş **“Əfzəl dualar, əhkami-şəriyyə və tarixi müqəddəs”** (Tiflis, 1903, ikinci

44 Süleymanlı M.A. XX əsrin əvvəllərində Azərbaycan kulturoloji fikri. (Fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 2014, səh., 43

45 Talıbzadə Kamalın təqdimatında Abdulla Şaiqin “Sultana Quran aparılması”məqaləsi, “Elm” qəzeti, mart, 1992, №6

46 Süleymanlı M.A. XX əsrin əvvəllərində Azərbaycan kulturoloji fikri. (Fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 2014, səh.,50

47 Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı: Maarif, 1973, s.,64

nəşr) adlı kitabın axırında çarı və onun ailə üzvlərini mədh edən xüsusi bir ayə vardır. Bununla bərabər, kitabda bir neçə yerdə qeyd edildiyi kimi yenə xatırlatmaq istəyirəm ki, şeyxülislam və müftilərin birmənalı olmayan şəxsiyyətləri də o, alaqaranlıq və maarifə möhtac zamanlarda xalqa xidmətdə nümunə kimi götürülməlidir. Bu sırada Məşədixanım Nemətin istifadə etdiyi **"...fəlsəfə tarixinin hələ də lazımınca öyrənilməmiş problemlərindən biri ictimai fikir tarixində İslamın rolu məsələsidir"[48] fikri yada düşür.** Bu xüsusda Qənirə Paşayeva və Azər Turanın Əli bəy Hüseynzadə haqqında qələmə aldıqları xatirələrindən mərhum yenilikçi mütəfəkkir ensiklopedik bilik sahibi Əli bəy Hüseynzadənin şeyxülislam olan möhtərəm babası Hüseynzadə Əhməd Səlyani haqda söylədikləri əsas götürülə bilər[49]. Əsərin 15-ci səhifəsində oxuyuruq: "Axund Əhməd Səlyani **(1812-1887)** Qafqaz şeyxülislamı olduğu 32 il müddətində sözün geniş mənasında Azərbaycanın ruhani həyatını maarifçilik düşüncəsinə yönəldə bilmişdi. Şeyxin yaşadığı dövr elmi ədəbiyyatda **"ümmətçilikdən milliyyətçiliyə keçid dövrü"** kimi səciyyələndirilir. Amma XIX yüzil Azərbaycan ictimai fikrini tədqiq edən araşdırmalarda heç də bu müstəvidə onun yeri, missiyası qabardılmır, etiraf edilmir, şeyxin bənzərsiz şəxsiyyəti, böyük dini və elmi təfəkkürü, ensiklopedik zəkası, hadisələrə universal yanaşmaq səriştəsi, qabaqcıl və işıqlı düşüncələri, milli dəyərlərə etibarlı münasibəti və belə bir ovqatla Qafqazın Şeyxülislamlıq İnstitutuna 32 il rəhbərlik etməsi barədə nədənsə az danışılır. Amma zənnimizcə, onun fövqəladə xidmətləri, gördüyü işlər, yazdığı kitablar imkan verir

48 Mehmet Rıhtım, Fariz Xəlilli. Mövlanə İsmail Siracəddin Şirvani, Bakı, 2011, s 4 (üm165)

49 Paşayeva Q, Turan A. Əli Bəy Hüseyinzadə Turan. Bakı, 1999, "Elm və Təhsil2 nəşriyyatı,150 s.

ki, şeyxin adı maarifçilik hərəkatının öndə gələn isimlərindən biri kimi hallandırılsın. Təkcə axund "Əhməd Səlyaninin varlığı ruhani təfəkkürün Azərbaycanda necə mütərəqqi mahiyyət kəsb etdiyini isbatlamaq üçün yetərlidir. Nəcəf alimlərindən olan axund Əhməd Səlyani "Tarixi-ədəbiyyati-türki" adlı əsər hazırlamağa cəhd edirdi, türk millətinin başlıcaları, tu-kuye-lər, uyğurlar, "Qutadqu-bilik", türklərin İslamı qəbul etmələri, uyğur lisanı, cığatayca yazılmış olan məşhur əsərlər, türk millətinin böyükləri, əski türklərin yazısı, çığatay ədəbiyyatının qızıl dövrü, uyğur dili, Əlişir Nəvai haqqında yazılı söz deməyi özünə vicdan borcu bilirdi".[50]

"Qafqaz məmləkətinin xalqları", "Kitabi-kəşfül-əyyam və əl-şuhur", "Tərbiyətül-ətfal", "Dilguşə", "Müəllimül-ətfal-fi-təriqe təlimül ətfal" əsərlərini qələmə almışdır[51]". Bizim keçən əsrlərdəki bir çox din xadimlərimizin, əslində, fəaliyyətlərinə diqqət yetirilməli maarifçilər olduğunu etiraf etsək yeni bir söz söyləmiş olmayacağıq. Bir də xahiş edirəm ki, onların yaşadığı mühitə hermenevtik baxış etməyi bacaraq... Əlbəttə ki, Əhməd Səlyani şeyxülislamlıq məqamına oturmaq üçün rus çarına sədaqət yəmini etməli idi və bu əhdü-yəmin o zaman da, bu gün də mübahisə predmeti ola bilməz. Amma onun bu məqamdan xalqına necə xidmət etməsi məsələsi mübahisə mövzusu ola bilər. Onun (şeyxülislamın –Ş.M) M.F.Axundzadənin köhnə əlifbanı dəyişdirərək daha sadə və yeni bir əlifba yaratmaq təşəbbüsünü də dəstəkləməsini tarixdən öyrənirik. Belə ki, o, ümumiyyətlə, ərəb əlifbasını dəyişdirməyin zərurətini qəbul etmiş, bu sahədəki bütün

---

50 Daha ətraflı bax: Süleymanlı M.A. XX əsrin əvvəllərində Azərbaycan kulturoloji fikri. (Fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 2014.

51 Paşayeva Q, Turan A. Əli Bəy Hüseyinzadə Turan. Bakı, 1999, "Elm və Təhsil2 nəşriyyatı, s..15

təşəbbüslərin tərəfdarı olmuş, problemə elmi bir yanaşma nümayiş etdirmişdir.[52]

Beləliklə, yenidən çarizmin islamçılıq təmayüllərinə qarşı gördüyü tədbirlər haqqında ətraflı məlumatlara qayıdaq[53] və yeri gəldikcə o zamankı ziyalılarımızın bu tədbirlərə qarşı mübarizə metodlarına nəzər salaq. Məsələn, Daxili İşlər Nazirliyi, onun ruhani işlər üzrə departamenti Rusiya müsəlmanları arasında milli-mədəni, siyasi-ideoloji sahələrdə baş verən hadisələrin mahiyyətini "dövlət mənafeyi nöqteyi-nəzərindən düzgün qiymətləndirmək" və "tatar-müsəlman təsirinə qarşı əks tədbirlər hazırlamaq" məqsədi ilə əlaqədar idarələrin, təşkilatların nümayəndələrindən ibarət bir sıra müşavirələr keçirmiş və tədbirlər hazırlamışdır.

Xalq çarizm siyasətinin acı nəticələrini yaşasa da, əslində bunun əsl mahiyyətindən xəbərdar olmurdu. Qeyd edək ki, məhz bu zamanda yalnız ziyalıların fəaliyyəti sayəsində bunların bir qismi xalqa çatdırılırdı. Nümunə üçün deyək ki, "Kaspi" qəzetinin səhifələrində islam dini, onun ayin, mərasim və adətləri, islam tarixi, islamın məzhəb və təriqətləri, islamın elmə, maarifə və tərəqqiyə münasibəti, islam ruhaniliyi, Zaqafqaziya və Rusiya müsəlmanlarının əlaqələrinin mənafeyi baxımından ehtiyacları və s. bu kimi məsələlərə dair çoxlu məqalələr dərc edilmişdir. Bu məqalələrdə islam ideologiyasının mahiyyəti şərh edilir, dövrün tələblərinə uyğun şəkildə onun təhlili verilirdi. Böyük əksəriyyəti Ə.Ağaoğlu tərəfindən yazılmış bu yazılarda belə bir fikir daha qabarıq yer tuturdu ki: **"din**

52 Şahbaz Şamiloğlu. Mirzə Fətəli Axundzadə. Müasirləri ilə əlaqələri və bədii yaradıcılığı, Bakı, "Elm və təhsil", 2017 222s. 34-cü səh

53 Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı: Maarif, 1973, 296 s

**daxili nurlanma və əxlaqi kamilləşmənin mənbəyidir". Bununla yanaşı, din nə qədər qüdrətli olsa da insan, "özünü dində tapan insan", "onun ən fəal amilidir". İnsan heç zaman öz şəxsiyyətini axıra qədər itirmir. O, həmişə dini dəyişdirməyə, öz tələblərinə uyğun gələn nəzəriyyələr şəklinə salmağa çalışır: "ən mötəbər, inadkar təlimlər" belə, vaxtın ruhuna uyğunlaşır və zaman keçdikcə ənənəyə, insanların ümumi fikrinə çevrilir. "İslamda da belə olmuşdur. Ərəblərin fiziki və zehni qüvvələri tükəndikdə, irq degenerasiyaya məruz qaldıqda, islam onlardan heç də az cəngavər olmayan türk-tatar tayfalarının əlinə düşdü, öz növbəsində onlar da islamı öz qaydalarına uyğun dəyişdirdilər[54]"**.

Ə.Ağaoğlu bütövlükdə islamın, islam xalqlarının tənəzzülü "səbəblərini" və bu vəziyyətdən çıxmağın "vasitələrini" şərh etdiyi bu məqaləsində C.Əfqaninin fikirləri ilə razılaşdığını bildirir və **islam şərqinin böhrandan çıxmasının çarəsini "islamın bərpasında", islam millətçiliyində görürdü**. Özü də elə məqalədə vurğulayır ki, istedad və nüfuzuna görə zəmanəmizin görkəmli şəxsiyyətlərindən biri, Parisdə çıxan "Ürvətül-vüsqa" qəzetinin keçmiş naşiri və redaktoru Seyid Cəmaləddinin islamın müasir vəziyyətinə verdiyi dəqiq qiymət heç zaman yadımdan çıxmır[55]**.** Müsəlman cəmiyyətinin vəziyyətdən çıxış yolunu C.Əfqani ilə eyni mövqedən dəyərləndirən Ə.Ağaoğlu acı bir təəssüflə bildirirdi ki, taleyin zərbələrindən sarsılıb məyus olmuş müsəlmanlar indi gəzərək bu fəlakətin onların üzərinə haradan gəldiyini axtarırlar və vəziyyəti düzəltmək haqqında

---

54 Azərbaycan publisistikası antologiyası (Tərtib edən: C.Bəydili-Məmmədov). Bakı: Şəqr-Qərb, 2007, s.,308,313

55 Ağaoğlu Ə. Seçilmiş əsərləri (Tərtib edənlər: Ə.Mirəhmədov, V.Quliyev). Bakı: Şəqr-Qərb, 2007, s.,331, 332

düşünürlər. Hazırkı vaxtda bu məsələ ilə bağlı onların arasında biri-birindən tamamilə fərqli üç cərəyanın mövcudluğu müşahidəolunur. Bunlardan biri tərəqqipərvərlər, yaxud gənc türklər, o birisi mühafizəkar müsəlmanlar cərəyanı və nəhayət, üçüncü bu ikisinin arasında dayanan panislamist cərəyanıdır[56]

Bu o dövr idi ki, Ə.Ağaoğlu açıq-aşkar özünü panislamist adlandırırdı, panislamizmi mütərəqqi hərəkat kimi qiymətləndirirdi. Digər panislamistlər kimi o, da iddia edirdi ki, ittihad, birlik ideyası islam dininin məzmunundan doğur[57].

Müsəlman cəmiyyətinin böhrandan qurtulmasında və işğalçı güclərin, qərəzli mövqelərin hücumlarından qorunmasında Ə.Ağaoğlu fəallığı ilə yanaşı, çox operativliyi, hadisələrə dinamik münasibəti ilə də digər ziyalılardan seçilmişdir. Təbii ki, belə bir mövqe sahibi əsas ali məqsəd yolunda bəzən öz-özünü təkzib etmək məcburiyyətində də qalmışdır. Digər tərəfdən, həmin dövrün əksər ziyalılarının məqsədi eyni olsa da, onlar vəziyyətdən qurtuluş yollarını fərqli istiqamətlərdə görürdülər.

Məsələn, "Panislamizm" bir mif, "panxristianizm" isə həqiqətdir, "pantürkizm" məhz türklük əleyhinə genosidə haqq qazandırmaq, xristianlığı müsəlman xofu ilə ermənininin əlində oynatmaq üçün düşünülən uydurmadır – deyən Ə.Hüseynzadə hələ o vaxt, öz ideya rəqibinin düz gözünün içinə deyirdi: "... Səni ittifaq və ittihadmı qorxuduyor? – Biz isə nifaq və şəqaqdan qorxuruz!.. Nifaq və şəqaq deyilmidir ki, sizlərlə bizlər arasında bu qədər qan tökülməyə səbəb oldu?!". "Sizi təlaşa salan, zənn edirəm, bu

56 Ağaoğlu Ə. Seçilmiş əsərləri (Tərtib edənlər: Ə.Mirəhmədov, V.Quliyev). Bakı: Şəqr-Qərb, 2007, 392 s.

57 Агаев А. Панисламизм, его характер и напраиление. «Касрий», 14 апрель 1900, № 81

cəhalətdir". Ə.Hüseynzadə ideya rəqiblərinə yazırdı ki, sizləri qorxudan panislamizm və ya ittihadi islam deyil, müsəlmanların qəflət yuxusundan oyanıb tərəqqi etmələri, mədəniyyət və maarifə yiyələnmələri "təhlükə"sidir. Müsəlman cəmiyyətinə isə deyirdi ki: "Qeyrət, vətəndaşlar, qeyrət!. (...) Maarifə, təməddünə, təkamül və təaliyə (yüksəlməyə) çalışalım, vəqtimizi ğaib etmiyəlim, çünki yol uzundur, yoxuşdur, arizəlidir![58]".

Ömər Faiq Nemanzadə də vəziyyətdən çıxış yolunu **islahatçılıqda, modernləşmədə, müasirləşmədə,** zamanın tələblərinə cavab verəcək cəmiyyət quruculuğunda görürdü: "Əsl islamiyyətdən, zəmanənin təqazasından bixəbər yatırıq, halbuki zaman dəyişir, dünya dəyişir, hər şey dəyişir, hər millət dəyişir, hər zərrə dəyişir... İnsaf və mürvətmidir ki, bizlər hər şeydən də dışarı olaq? Dəyişməli, biz də mütləq dünyəvi əməllərimizi, göz görə təhlükələrə, səfalətlərə sürükləyən köhnə adətlərimizi, cahilanə, fikirlərimizi əməllərimizi dəyişməliyik. Və illah özgələr bizləri bütün özgə yolda dəyişdirib yox edərlər[59]".

Bu dövrdə fərqli düşüncə sahibi olan ziyalılar belə dinin cəmiyyətin inkişafındakı rolunu danmırdılar. Dananlar olurdusa da, mətbuatda onlara cavab gecikdirilmirdi. "Raskolnikovlar və Kərəmlər" adlı bir publisist məqaləsində Ə.Ağaoğlu özünün din haqqında ümumi konsepsiyasına müvafiq olaraq yazırdı ki: "Nə qədər baş qaçırtsan, nə qədər dini azadlıq barəsində hayqırsan da, din

58 Hüseyinzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir, Bakı, Mütərcim,1997,s.,86,87

59 Nemanzadə Ö.F. Seçilmiş əsərləri (Toplayanı, tərtib edəni, öz sözün və izahların müəllifi: Şamil Qurbanov). Bakı: Yazıçı, 1992, s., 76,77

həmişə beynəlxalq hərəkatın və adamlar arasında münasibətin başlıca əmsalı olur". Deməli, beləliklə, **xalqlar arasında münasibətlərin, "beynəlxalq hərəkat"ların, bəşər cəmiyyətində baş verən ciddi hadisələrin "başlıca mayası"nın, yəni, hərəkətverici qüvvəsinin din olduğu barədə konsepsiya bir daha ortaya çıxmış olur.** Digər tərəfdən dini mövzuda mühakimələr təkcə opponentlərə cavab deyildi, onlar aşkar təbliği məqsəd də daşıyırdı[60].

Böhranlı vəziyyətdən çıxış yolu axtarışları faktı artıq qərbin elmi-texniki nailiyyətləri qarşısında müsəlman cəmiyyətinin acizliyinin etirafı demək idi. Əslində, diaqnozun qoyulması vəziyyətdən çıxış yolunda ilkin addım kimi qiymətləndirilirdi. Belə ki, XIX əsrin sonlarından etibarən Avropanın təzyiqi altında sarsılmış və çaşıb qalmış müsəlman aləmi düşdüyü fəlakətin səbəblərini axtarmağa başlamışdı və bu özünütəhlil onu iki bir-birinə zidd nəticəyə gətirib çıxarmışdı. Bəziləri belə düşünürdülər ki, bütün fəlakətlərin səbəbi müsəlmanların geriliyindən, onların dininin həyat uğrunda mübarizəyə yararsız olmasından irəli gəlir və bu vəziyyəti aradan qaldırmaq üçün bütün həyat quruluşunu dəyişdirmək, Avropanı təqlidə başlamaq lazımdır. Bu qisim ziyalılar Avropa təsisatının qüvvəsinə hədsiz inamla yanaşaraq onu yoxlamadan, saf-çürük edib araşdırmadan, ölkələrində tətbiq etməyin zəruriliyini deyirdilər. Bəziləri isə bu fikirdə idilər ki, müsəlmanların bütün fəlakətləri onların köhnə adət və ənənələrdən üz çevirmələri ilə bağlıdır. Əxlaq pozğunluğu, özbaşınalıq, keçmişə sayğısızlıq və sərbəst düşüncə də məhz bunun sayəsində meydana çıxmışdır. Yeri gəlmişkən qeyd etməliyik ki, görkəmli tatar islahatçısı Musa Carullah Bigiyev məhz belələrindən idi. Onun "Uzun gecələrdə

60 Mirəhmədov Ə. Ə. Ağayev milli məsələ (erməni məsələsi!) haqqında. Əlyazması, 39 səh., (müəllifin şəxsi arxivindən).

oruc", "Xatunlar", "Türkiyə Böyük Millət Məclisinə" və s. əsərləri mövqeyinin güzgüsü idi. Bigiyev və onun kimi düşünən bir çox türk-müsəlman oğulları **belə nəticəyə gəlirdilər ki, xilas yolu nə Avropada, nə də həyatın məntiqinin axtarılmasındadır. Sadəcə, şəfaverici keçmişə qayıtmaq lazımdır. Bu keçmiş öz ecazkar qüvvəsi ilə müsəlman aləmini xilas edəcəkdir.**

Azərbaycanlı Əhmət Ağaoğlu isə "Müsəlman xalqlarının vəziyyəti" adlı yazısında hər iki mövqe sahiblərinin fikrilərinin tənqidi təhlilini verərək yazırdı ki, təkcə çıxarılan nəticə deyil, əsaslandıqları fikir baxımından da bu iki cərəyan arasında mütləq və barışmaz ziddiyyət mövcuddur. Bu ziddiyyət iki cərəyan tərəfdarları arasına onların hətta şəxsi münasibətlərinə və fərdi həyatlarına da nüfuz edən qatı bir düşmənçilik salmışdır. Lakin arada ümumi bir yaxınlıq nöqtəsi də var. Bu da hər iki cərəyanın məhz Avropa sayəsində meydana çıxmasında özünü göstərir. Avropa ilə Şərq arasında daha ifrat və ucuz gediş-gəliş yollarının açılması, ticari-siyasi əlaqələrin inkişafı və rabitənin genişlənməsi nəticəsində bu qitədən yayılan mədəniyyət parıltısı Şərqin bilik və yenilik həsrətində olan gənclərini özünə cəlb etməyə bilməzdi. (Ə.Ağaoğlunun qeyd etdiyi belə gənclər onun zamanından xeyli əvvə artıq Avropanı öyrənməyə meyil etmişdilər ki, onların öndərlərindən biri A.A.Bakıxanov idi. Kitabın içərisində bu yenilikçinin həyatına və fikirlərinə ayrıca yerin ayrılması məhz bu səbəbdəndir-Ş.M). Şərqin çaxnaşmaya düşmüş həyatının özü də Avropa dillərini, Avropa qayda-qanunlarını bilən adamlara ehtiyac yaradırdı. Həmin ehtiyac dövlət idarəçiliyi və ticarət sahəsində daha kəskin şəkildə duyulurdu. Şərqli gənclərin Avropaya XIX əsrdə başlanan daha güclü axını da bundan irəli gəlirdi[61].

61 Ağaoğlu Ə. Seçilmiş əsərləri (Tərtib edənlər: Ə.Mirəhmədov, V.Quliyev). Bakı: Şəqr-Qərb, 2007, 392 s.

**Qəbələ sultanı Nəsrulla sultanın** uzaqgörənliklə gənc İsmayılı rus ordusuna verməsi, Axundzadənin oğlu Rəşidi Avropaya təhsil almağa göndərməsi (və daha uzadıla biləcək siyahı) Avropanı və Avropa dillərini öyrənmənin millətin həyatını dəyişə bilmənin variantlarından biri olmasını dərk etmələrindən irəli gəlirdi. Tatap ilahiyyatçılarının da Avropa dillərinə göstərdiyi xüsusi diqqət və bəzən əsərlərinin Almaniya, Fillandiya, Fransa kimi ölkələrdə dərc olunması da bundan xəbər verir.

Müsəlman cəmiyyətinin vəziyyəti ilə Avropa həyatındakı mədəni tərəqqi nailiyyətlərini müqayisə edərkən Ə.Ağaoğlu təbii ki, elmi bilgiləri ilə yanaşı, şəxsi müşahidələrinə də istinad edirdi. Çünki o, Avropada təhsil almış ilk azərbaycanlılardan olaraq o dövr yenilikçiliyinin bilavasitə iştirakçısı olmuşdu. Onun Fransa dövrü yaradıcılığı[62], Türkiyənin ən fəal ictimai-siyasi xadimləri ilə yaxınlığı, Azərbaycan mədəni mühitinin öndərlərindən olması faktları da yaradıcılığının müqayisəli təhlillərində özünü hiss etdirməkdədir. C.Əfqani ilə lap gənc yaşlarından şəxsi tanışlığı və Gənc türklərin ideya rəhbərləri ilə hələ Parisdəykən münasibətdə olması onun yazılarının mövzu rəngarəngliyinə və miqyas baxımından düşüncə tərzinə təsirsiz ötüşməmişdi (Gənc türklər inqilabının baş vermə səbəbləri barəsində kitabın içərisində ətraflı məlumat olduğu üçün burada təfsilata yol vermirik-Ş.M)...

Ə.Ağaoğlu bu dövrdəki yazılarında – Avropaya imkan bolluğundan "köç etmiş", çıxdığı vətənini getdiyi məmləkətlərin zahiri parıltısı qarşısında tamamilə unutmuş, Ziya Göyalpın "kosmopolit

62 Süleymanlı M.A. Əhməd Ağaoğlunun Fransa dövrü yaradıcılığı və ilk elmi əsəri haqqında / "Mədəniyyət dünyası", X buraxılış, Bakı: ADMİU, 2005, s. 18-32

insan” tərifinə uyğun gələn “yeni müsəlmanlar” barəsində “onlar vətənə nə verdilər?” – sualını verirdi. Avropanı ancaq öz kostyumları, mənəvi pozğunluq və əxlaqsızlıqları, gücsüzlük əsəri olan rişxənd və istehzaları ilə yamsılayan və bütün bunlarla Avropanın “təmsilçisi” olmaq iddiasına düşən bu miskinlərə qarşı “köhnə müsəlmanlar” öz dərin nifrətlərində haqlı deyildilərmi? Həqiqətən də “yeni müsəlmanlar”ın böyük qisminin qazancı vətənlərinə qarşı əmələ gələn nifrətdən başqa bir şey olmamışdır[63].

Mövzuya təkcə Azərbaycan miqyasında deyil, bütün müsəlman dünyası prizmasından yanaşan Ə.Ağaoğlu “pulu hara gəldi səpən ailələrin uşaqlarından” sonra Şərqdən Avropaya nisbətən “az imkanlı ailələrin” təmsilçilərinin başlanan axınına da öz münasibətini bildirir. Artıq bu gənclərin bir qismi Avropa ölkələrinə ya hökumətləri tərəfindən göndərilir, ya da özlərinin cüzi vəsaitləri ilə bilik əldə etmək üçün yollanırdılar. Ağaoğlu da bu zümrədən olub fikirlərini yazılarında öz şəxsi həyat təcrübəsinin ümumiləşdirilmiş şəkli ilə təqdim edir. Çünki təsvir etdiyi bu mənzərə onun öz həyat yolu üçün də xarakterik idi.

Sağlam düşüncəli gənclərin Avropaya axınından ibarət olan ikinci mərhələni təqdir edən Ə.Ağaoğlu yazır ki, bunların dəbdəbəyə və veyil qadınlardan “Avropa müdrikliyi” dərsləri almağa nə imkanları, nə vəsaitləri, nə də “anadangəlmə” meyilləri vardı. Xalq arasından çıxmış, həyatın çətinliklərini özlərinin, yaxınlarının və qohumlarının üzərində hiss etmiş bu gənclər Avropa mədəniyyətinə heyranlıqlarını onun zahiri dəbdəbəsi, teatrları və bulvarları ilə məhdudlaşdırmırdılar. Onlar Avropa həyatında mənsub olduqları xalqın rifahını təmin edən,

63 Ağaoğlu Ə. Seçilmiş əsərləri (Tərtib edənlər: Ə.Mirəhmədov, V.Quliyev). Bakı: Şəqr-Qərb, 2007, s.,335

onun mədəni və iqtisadi tərəqqisi üçün imkanlar açan məsələlərlə maraqlanırdılar. Onlar Avropa elmlərini böyük şövq və həvəslə öyrənir, Avropa təfəkkürünə yiyələnirdilər. Onlar Qərbin Şərq üzərindəki üstünlüyünün bulvarlarda və ya kafeşantanlarda deyil, onun məktəblərində, universitet və akademiyalarında olduğunu çox gözəl başa düşərək qarşılarına Şərqdə məhz Avropa elm və təfəkkürünü yaymaq məqsədi qoydular. "Tezliklə bütün müsəlman Şərqində – Türkiyədə, Hindistanda, Misirdə, hətta İranda ən məşhur Avropa mütəfəkkirlərinin əsərləri yerli dillərə tərcümə olundu. Qəzet və məcmuə nəşrinə, kitab çapına təkan verildi. Müsəlman aləmində sağlam ağıla əsaslanan bir hərəkat başlandı. Bu tezliklə müxtəlif Avropa tipli məktəb və cəmiyyətlərin yaradılmasında da özünü göstərdi. Yeni hərəkat obyektiv istiqamət götürüldüyü və xüsusən də gərəkli xarici ədəbiyyat nümunələrinin tərcüməsinə diqqət yetirildiyi başlanğıc mərhələdə yaxşı nəticələr vəd edirdi. Türkiyədə və Misirdə bu hərəkat özünü, xüsusilə güclü və qabarıq şəkildə göstərirdi. Onun başında duran adamları istər cəmiyyət, istərsə də özləri "yeni müsəlmanlar" adlandırırdılar. Onlar islamı Avropa elmləri və ideyaları ilə müalicə etmək yolu ilə canlandırmağa çalışırdılar".[64] Heç şübhəsiz, "yeni müsəlmanlar" başlanğıc mərhələdə tutduqları yoldan dönməsəydilər, daha çox şeyə nail olardılar. Heç yerdə adamlar müsəlmanlar qədər elmlərə həvəs göstərmir, biliklərə yiyələnməyi onlar qədər arzu etmirlər. Sadəcə, bu bilikləri onlara verməyi bacarmaq lazımdır**. Din və siyasət kimi hər cür ifrat əlavələr onları əsəbiləşdirir, onlarda ikrah yaradır. Həm də axı bu izafi əlavələr nəyə lazımdır? Məgər öz-özlüyündə elmi həqiqətlər din və siyasət**

64 Süleymanlı M.A. XX əsrin əvvəllərində Azərbaycan kulturoloji fikri. (Fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 2014, səh.,52

**barəsində bizim təmtəraqlı təlqinlərimizin çıxardığı nəticələrə gətirib çıxarmırmı?** Lakin bu həqiqətlərin əksəriyyətə çatması üçün onlara vaxt vermək lazımdır, səbir və təmkinlə hərəkət etmək lazımdır[65] .

Əslində, əvvəlki mərhələnin nəticələri ilə müqayisədə "yeni müsəlmanlar"ın tutduqları yol müsəlman cəmiyyətini həm mənəviyyat, həm də Avropanın mütərəqqi nailiyyətləri ilə təmin etmək baxımından ürəkaçan olmalı idi. Ə.Ağaoğlu bunun səbəbini belə izah edir: "Təəssüflər olsun ki, bəzi səbirsiz "yeni müsəlmanlar" bunu gözləmədilər və son nəticəni çıxarmaqda tələsdilər. Onlar siyasətə qurşandılar – bütün Şərqə maneçilik törədən, bütün Şərq xalqlarına əzab-əziyyət gətirən bir siyasətə! Hərəkat həqiqi obyektivlik və rasionallığını itirdi, siyasiləşdi, partiyalılaşdı və arxalandığı xalqı qeyb etdi".[66]

XXəsrinilkillərindənbir-birininardıcayenimətbuatorqanlarının fəaliyyətə başlaması cəmiyyət problemlərinin qaldırılması və onların həlli yolları barədə diskussiyalara da rəvac verdi. Artıq islahatçı xarakterli təbliğatlar üçün də meydan genişlənməkdə idi. Belə bir imkanı əldən verməyən "Həyat" qəzetinin redaktorları "türklük, islamlıq çərçivəsində, Rusiya dövlətinin siyasətinə uyğun tərəqqi etməyə" çağırırdılar. Lakin bu tərəqqi milli və dini xüsusiyyətlərin aşınması hesabına olmamalı idi. Çünki belə olan halda onların fikrincə, firəngləşmə və islam dinindən üz döndərmə eyni bir şey idi. Ə.Hüseynzadə bu barədə yazırdı: "Türkün irtidad edib firəngləşməsi

---

65 Ağaoğlu Ə. Seçilmiş əsərləri (Tərtib edənlər: Ə.Mirəhmədov, V.Quliyev). Bakı: Şəqr-Qərb, 2007, s.,337

66 Ağaoğlu Ə. Seçilmiş əsərləri (Tərtib edənlər: Ə.Mirəhmədov, V.Quliyev). Bakı: Şəqr-Qərb, 2007, s.,336,337

firənglərin, ya mürtədlərin tərəqqisi deməkdir, yoxsa türk, ya müsəlman tərəqqisi demək deyildir”.[67]

Bu dövrün liberal-burjua mətbuatı xalqın dili, məktəb və maarifi, elm və mədəniyyəti yolunda mübarizə aparan demokratik fikirli ziyalıları dini-milli cığıra salmağa cəhd edirdi. Onların bir qismi Azərbaycan xalqının maarif və mədəniyyəti yolunda maarifçilərin mübarizəsini islam maarifi və mədəniyyəti uğrunda mübarizə istiqamətinə yönəltməyə çalışır, onların köməyi ilə islam dini ilə elmi barışdırmaq, “islam mədəniyyətini” “qərb mədəniyyətinə” qarşı qoymaq, islamı müasirləşdirmək, islam ruhaniliyini çarizmin təsirindən xilas edib, islam millətçiliyi axınına cəlb etmək istəyirdilər. Xüsusilə də həmin dövrdə ziyalılar islamda şiəlik və sünnilik təriqətləri arasındakı münaqişələrin ortadan qaldırılması, ruhanilik idarəsinin “millətin” ixtiyarına verilməsi və s. bu səpkili məsələlər ətrafında “Həyat” və qismən “İrşad” qəzetləri geniş müzakirələr açmış, Ə.Hüseynzadə, Ə.Ağaoğlu ilə yanaşı, F.Köçərli, S.M.Qənizadə, R.Əfəndiyev, Ö.F.Nemanzadə kimi bir çox demokratik fikirli ziyalıları da bu fikir mübadiləsinə cəlb edə bilmişdilər.

M.Şahtaxtlı, M.Mahmudbəyov, Ə.Haqverdiyev kimi bir qisim ziyalılar istisna olunmaqla, XX əsrin əvvəllərində fəaliyyət göstərmiş demək olar ki, bütün maarifçi və demokratik fikirli ziyalılar islam dininin cəmiyyət həyatındakı müsbət rolunu təqdir etmişlər. Onlar yalnız mövhumatı, cəhaləti, “köhnəpərəst” islam ruhaniliyini tənqid etməklə bərabər, elm və mədəniyyət dini kimi təqdim etdikləri islamı modernizə etməyə meyil göstərmişlər. İslahatçılıq təmayülləri ilə yanaşı, onlar islamı millətin əlaməti hesab etmiş, milli-mədəni hərəkatı

67 Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir, Bakı, Mütərcim,1997,s., 68

həm də milli-mədəni müsəlman hərəkatı hesab etmişlər. Bu ziyalılar "islamı əslinə qaytarmağa", yəni, onu müsəlmanların ictimai-siyasi həyatının ümumi nəzəriyyəsi, mənəvi sanksiyası və cəmiyyətdə təsir göstərən ideologiya formalarının çıxış nöqtəsi etməyə çalışırdılar. Bunlardan bəziləri ("köhnələr", "qədimçilər") islamı ənənəvi formada, bəziləri isə ("yenilər", "yenilikçilər") onu "dövrün tələbinə uyğun şəkildə", müasir formada "əslinə qaytarmaq", "bərpa etmək" istəyirdilər.

"Həyat"ın redaktoru Ə.Hüseynzadə yazırdı ki: "Bu "nuri-maarif", "parlaq fikirlər", "mücahidani-şəbanəmizdə"ki "yaşıl işıqlardır", "qırmızı qaranlıqlar içərisində peyda olan yaşıl işıqlardır". Çünki yaşıllıq müsəlmanlığın simvoludur: "İslamın bayrağı yaşıldır". Ə.Hüseynzadə "qırmızı qaranlıqlar içində peyda olan yaşıl işıqları", özünün dediyi kimi, "şərafəti-cahan olan Peyğəmbər Həzrəti Məhəmmədin yaşıl nurları"nın ziyaları ilə müqayisə edir.[68]

O dövr üçün islam dünyasının istinadgahı sayılan İstanbulla daimi bir bağlantıda olan bu təbliğatlar ("İttihadi-islam" ideologiyası və hərəkatı) müxtəlif xarakter və müxtəlif məzmun kəsb etmişdir. Çox vaxt panislamizm və "ittihadi-islam" anlayışları ictimai-siyasi ədəbiyyatda eyni mənada işlədilmiş və dünya müsəlmanlarının birliyi mənasını ifadə etmişdir. Bu təlimə görə "ümumdünya müsəlmanlarının birliyi" həm milli, həm də sinfi fərqlər fövqündə dura biləcək birlikdir və "islam" ilə "islamçılıq" anlayışları bir-birinə qarışdırılmamalıdır. Belə ki, islam müsəlman olanların dininə deyilir, islamçılıq isə bir siyasətdir.[69] C.Əfqaninin ardıcılları isə

68 Huseynzadə Ə. Qırmızı qaranlıqlar üçündə yaşıl işiqlar (Tərtib edəni: Ofelya Bayramlı). Bakı: Azərnəşr, 1996, 256 s.

69 Erişirgil M.Türkçülük devri, milletçilik devri, insanlık devri. Ankara, 1958, s.,9

"ittihadi-islam"ın "panislamizm" adı altında qələmə verilməsinə, yəni, "ümumdünya müsəlman siyasi birliyi", "xilafət" yaradılması haqqındakı tələbin "ittihadi-islamın" əsas və yeganə prinsipi kimi götürülməsinə qarşı qəti etiraz etmiş və bunu "xristian dövlətlərinin", Avropa millətçilərinin, onların əlaltılarının "müsəlmanlara düşmən münasibət"dən doğan iftirası və riyakarlığı kimi qiymətləndirmişlər. Çünki həqiqətən də Avropa imperializmi və Rus çarizmi müsəlman şərqinin oyanmasının qarşısını önləmək üçün "ittihadi-islam" ideyasının məzmununu sırf "siyasi birlik" ideyası şəklində təqdim edir, müsəlmanların hər qəbildən olan ictimai-siyasi hərəkatına "panislamizm" möhürünü basır və ona qarşı geniş siyasi-ideoloji mübarizə aparırdılar. Onlar Əbdülhəmidin "vahid islam xilafəti"ni yaratmaq tələbini "ittihadi-islam" ideyasının əsas məzmunu kimi götürürdülər.

Halbuki C.Əfqani və onun ardıcıllarının təbliğ etdikləri "ittihadi-islam" daha geniş məna kəsb etmiş və antiimperialist, demokratik məzmun da ifadə etmişdir. İslam modernistlərinin təlim etdikləri "ittihadi-islam" islam dininin reformasiyasını, geriliyə qarşı mübarizəni, elm, maarif, demokratiya və azadlıq prinsiplərini özündə birləşdirirdi. İslahatçılar islam dinini, müasirləri olduqları ümumbəşəri mənəvi mədəniyyətin bütün tələblərinə cavab verən mənəvi-əxlaqi və ictimai-siyasi amilə, o cümlədən müsəlman qadınlığının insani hüquqlarını təmin edəcək ən mükəmməl mənəvi vasitəyə çevirmək istəyirdilər. Deməli, C.Əfqaninin "ittihadi-islam"ı daha geniş mənaya malik olub, dini-əxlaqi və ictimai-siyasi mahiyyətli bir təlim olmuşdur.

Buna görə də panislamizmi iki mənada: sözün geniş mənasında – əfqanilərin irəli sürdükləri dini-əxlaqi, ictimai-siyasi təlim və

hərəkat mənasında və dar mənada – yalnız siyasi məqsədlər güdmək, “xristian dünyasına qarşı qüdrətli vahid ümumdünya müsəlman dövləti” yaratmaq, ümumdünya müsəlmanlarını vahid siyasi mərkəzdə (xilafətdə) birləşdirmək mənasında, yəni, dini-siyasi ideologiya və hərəkat mənasında anlamaq olar. Təbii ki, qərəzli mövqe tutanlar panislamizmi həmişə ikinci mənada təqdim etmişlər.

Fikrimizcə, nə qədər humanist, demokratik və xoşniyyətli bir təlim adlandırılmasından aslı olmayaraq panislamizm ideyaları tarixi gedişatın müəyyən məqamlarında siyasi təsirlərdən də yan keçməmişdir. Çünki müsəlman xalqlarının ictimai fikrinin çıxış nöqtəsi olmağa çalışan panislamizm eyni zamanda milli azadlıq hərəkatına da əsaslı təsir göstərmişdir. Habelə elm, mədəniyyət və demokratiyanın tamamilə islamiyyətə uyğunluğu ideyasının əsaslandırılması üzərində çox işlər görülmüşdü. Bu mənada islamçıların islam tərəqqi və mədəniyyətə əlavə olmayıb, əksinə, əsil tərəqqi və mədəniyyət məhz islamiyyət əsasında ola bilər fikri diqqəti, xüsusilə çəkir: “Bir mədəniyyəti-ictimaiyyənin əsası islamiyyət kimi mətin, onun ehkamı kimi adil bir bina üzərində qurularsa, fəziləti-bəşəriyyənin ən böyüyü olan insaniyyət denilən ülviyyət, qüdsiyyət yalnız kitabların qara sətirləri arasında qalmaz, yüksəkdəki siyah bulutlar üzərində də ucalmaz, bəlkə insanların qəlblərində cövlan edər və bu sayədə “ümumi qardaşlıq” da meydana gələ bilər”.[70]

Bir qisim tədqiqatçılar isə hesab edirlər ki, panislamizm bir-biri ilə əkslik təşkil edən ictimai hadisələrin və proseslərin eklektik ifadəsi olmuşdur.[71] Bu mövqe tərəfdarlarına görə panislamizm

70 Ayvazov H.S. Nədən bu hala qaldıq? Bakı, 1907-ci il; İsveç, Stokholm, 2000, s., 76

71 Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı: Maarif, 1973, 296 s.

elm ilə dini, orta əsr qaydaları ilə elmi-texniki tərəqqini, istibdad quruluşu ilə demokratik islahatları, teokratiya ilə respublikanı bir-biri ilə barışdırırdı. Bu isə cəmiyyətin obyektiv inkişaf qanunlarını kobudcasına təhrif etmək demək idi. Təsadüfi deyil ki, buna görə də, XX əsrin birinci onilliyinin axırlarından etibarən ictimai inkişafın obyektiv gedişi nəticəsində panislamizm bir ictimai hərəkat kimi böhrana məruz qalmağa başladı. Belə ki, 1905-ci il inqilabının, bunun təsiri altında baş verən İran və Türkiyə inqilablarının və digər müsəlman xalqlarının milli-azadlıq hərəkatının dalğaları panislamizmə, həm də sözün geniş mənasında başa düşülən panislamizmə, C.Əfqaninin irəli sürdüyü "ittihadi-islam" haqqındakı ideallara köklü zərbə vurdu.[72]

Bu fikirləri tarixi hadisələrin gedişi də təsdiqlədi. Belə ki, milli şüurun oyanması, milli hərəkatın genişlənməsi zəminində bir çox Azərbaycan ziyalıları da panislamizmə şübhə ilə yanaşmağa başladı, ondan uzaqlaşaraq türkçülük ideologiyasını qəbul etdilər.[73]

"İttihadi-islam" tərəfdarlarının fikrincə, dövrün tələbinə uyğun şəkildə "islamın bərpası" – "müsəlman millətinin" içərisində maarif, elmvəmədəniyyətin, sənaye vəticarətinyayılması,"hürriyyət, müsavat və ədalətin bərpası", "vaxtilə yalnız müsəlmanlara mənsub olan" iqtisadi, siyasi və mədəni tərəqqiyə nail olmaq demək idi. Ə.Ağayev Avropa oriyentalistlərinin panislamizm hərəkatı haqqındakı fikirləri ilə razılaşaraq yazırdı ki: "Birləşmə mənasında keçmişə qayıtmağı təbliğ edən panislamizm, eyni zamanda müsəlmanlar arasında müasir həyatın köklü və biryolluq dəyişdirilməsində təkid edir... Bu, vaxtilə

72 Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı: Maarif, 1973, 296 s.

73 Türk Yurdu (yeni harflerle basımı). 17 ciltte, 1-17-ci ciltler (1911-1931-ci illerde çıkan sayıların külliyatı). Ankara: Tutubay Yayınları, 1999-2001, Ic,s., 161

yalnız müsəlmanların malı olan iqtisadi, siyasi və mədəni fütuhatlar sahəsindəki təkiddir... Bir sözlə, Avropa ağıl tərzi və yeni müsəlman meyli möcübincə islamçının ideyalarında panislamizm və yevropeizm anlayışı sinonim xarakteri kəsb etmişdir”.[74]

Din və mədəniyyət naminə islahatçılıq təşəbbüsləri ilə çıxış edən Azərbaycan ziyalıları əsasən “islama əsaslanan mədəniyyətin” tərəfdarı idilər.[75] “Aləmi-islam”da sinfi mübarizə ideyasını inkar edən bu ziyalıların baxışlarına görə “dini-islam demokratizm və müsavat kimi məsləklərdən nəşət etmişdir”. Buna görə də, onların fikrincə, müsəlmanlar üçün ədalət, demokratiya, müsavat, hürriyyət, səadət naminə, “çox gözəl bir yol olan sosializm naminə” islamiyyətdən kənar bir yol axtarmaq lazım deyildir. Panislamistlər islamiyyəti sosializmlə eyniləşdirir və müsəlmanlar üçün yalnız islamizm yolunu “təbii, məqsədəuyğun və vacib” hesab edirdilər. Sonralar N.Nərimanov və Sultanqaliyevin baxışlarında da buna bənzər fikirlərə rast gəlinməkdədir[76].

“İttihadi-islam” cəmiyyəti ilk dəfə C.Əfqaninin təşəbbüsü ilə 1892-ci ildə İstanbulda yaradılmışdı. 1909-cu ildə isə İstanbulda “İttihad və tərəqqi” komitəsinin təşəbbüsü ilə yarımməxfi “İttihadi-islam” cəmiyyəti təsis edilmişdir ki, bu cəmiyyətə üzv olmaq istəyən hər bir müsəlman and içməli idi. Bu “and”ın mətni 1911-ci ilin əvvəllərində Qafqaz canişini dəftərxanası tərəfindən türkcədən rus dilinə tərcümə edilmişdir. Tədqiqatçı Q.Mustafayev “XX əsrin

---

74 Агаев А. Панисламизм, его характер и напраиление. «Касрий», 14 апрель 1900, № 81.

75 Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı: Maarif, 1973, s.163,164; Erişirgil M.Türkçülük devri, milletçilik devri, insanlık devri. Ankara, 1958,72 s.

76 Kakınç H. Sultanqaliyev ve milli komünizm. İstanbul, Bulut yayınları, 2003, 336 s.

əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi" kitabında "and"ın demək olar ki, bütün mətnini sitat gətirmişdir.[77]

Sözügedən problemə hər hansı şəkildə toxunmuş olan bir sıra alimlər iddia etmişlər ki, panislamizmin bu və ya digər şəkildə heç bir proqramı, xüsusilə siyasi proqramı olmamış, bu hərəkatın son pillədə nə ilə nəticələnəcəyinə işarə edilməmişdir. "And"ın, məzmunundan aydın olur ki, panislamizmin siyasi proqramı olmuş və onun son məqsədi bəyan edilmişdir. Vahid bir islam siyasi mərkəzini, xilafətin rəhbərliyi altında ümumdünya islam konfederasiyasını təşkil etmək onun son məqsədi olmuşdur. Həm də müəyyən dövrlərdə, müəyyən ölkələrdə fəaliyyət göstərən panislamistlərin, panislamist cəmiyyətlərin, ittifaqların proqramı olmuş və onlar bu və ya digər şəkildə özlərinin siyasi hərəkat xəttini də müəyyən edə bilmişlər.

Deməli, həqiqətən də panislamizm deyilən bir hərəkatın görünən və görünməyən tərəfləri olmuşdur ki, bu məsələlərdə dünyanın yenidən bölüşdürülməsi uğrundakı mürtəce niyyətlərdən qorunmaq məqsədilə atılmış siyasi addımların təsirləri də açıqca hiss olunmaqdadır. Bu mənada panislamizm təbliğatında eklektizm ünsürlərinin olduğuna dair fikirlərdə də bir həqiqət vardır. Məsələn, XX əsrin əvvəllərində "Bizə hansı elmlər lazımdır?" mövzusunda ruhani Əbutürab Axundoğlunun məqaləsi və Ə.Hüseynzadə, Ö.F.Nemanzadə, C.Məmmədquluzadənin ona cavabları şəklində bir müddət mətbuatı məşğul edən mübahisələr elmin dinlə əlaqələrinə metodoloji münasibətdə maarifçi-ateist baxışların səciyyəsini əks etdirirdi. Xurafatı və mövhumatı həqiqi dindən fərqləndirmək və birincilərə qarşı ikinciyə əsaslanmaq maarifçi hərəkatda (onun liberal

77 Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı: Maarif, 1973, s., 104,195

və mühafizəkar qollarında) bu dövrdə hələ fəal şəkildə davam edirdi.

XX əsrin əvvəllərinin düşünən insanları müsəlman aləminin mənəvi bir irəliləyişə ehtiyacı olub qurtuluşunun cəmiyyətlərin mütərəqqi dəyişimlərə istiqamətlənməsinə çağrışları adi hal almışdı.

Lakin hər kəs çarəni özünəməxsus arayır, fikir və təşəbbüslərini fərqli şəkildə ifadə edirdi. Məsələn, Üzeyir Hacıbəyov müsəlman cəmiyyətinin mənəvi geriliyini təəssüf hissi ilə belə anladırdı ki: "Hərgah millətlərin tərəqqisini, yəni, qabağa getməsini ölçə bilən bir ölçü olsa idi və o ölçü ilə müsəlman millətinin qabağa getməsi ölçülsə idi, onda məlum olardı ki, biz bir addım qabağa, iki addım dala, dörd addım qabağa, üç addım dala, iki addım dala, beş addım qabağa eləyə-eləyə qabağa gedirik. (...) Amma bizim əzalarımızın qüvvətsizliyi cismani qüvvətsizlik deyildir, yəni, əzalarımız çolaq, şil və şikəst deyildirlər. Onların qüvvətsizliyi mənəvi qüvvətsizlikdir!".[78]

Bu dövrün əksər ziyalıları din pərdəsi altında xurafatı yayanların zərərli fəaliyyətini açıb göstərir, həm də xalqın azadlıq ideallarına qarşı çıxanların mövqesiz, riyakar mahiyyətlərini ortaya çıxarırdılar.

Lakin həmin dövrün mədəni mühitində ziyalılar arasında əsasən həmrəylik mövcud olsa da, müəyyən məsələlərdə fikir ayrılıqları da yox deyildi. Misal üçün, Ə.Hüseynzadə, Ə.Ağayev, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə kimi demokratik ziyalılar böyük xeyriyyəçi tədbirlər görməklə məşğul olan milli burjuaziya ilə əlbir hərəkət edir, islam dininin dövrün ahəngi ilə uyğun gələn müddəalarınatez-tez istinad edir, onlardan xalqın əsrlərlə mənəviyyatına çökmüş mədəni, milli irs kimi faydalanırdılar. Dövrün tələblərindən, milli ehtiyaclardan doğan bu ittifaqı, islam dinindən faydalanmaq

78 Azərbaycan publisistikası antologiyası (Tərtib edən: C.Bəydili-Məmmədov). Bakı: Şəqr-Qərb, 2007, s.,533-534

meyillərini isə C.Məmmədquluzadə yazılarında və jurnalında lazımınca mənalandırmır, milli burjuaziyanın bir çox mədəni, dini tədbirlərini, eləcə də Ə.Hüseynzadənin, Ə.Ağayevin bir çox yazılarını tənqid edirdi. Akademik K.Talıbzadə **(1923-2006)** qeyd edir ki, C.Məmmədquluzadə **(1866-1932)** kimi bir şəxsiyyətin tənqidinin obyektiv cəhətləri də var idi. “Çünki sonralar Ə.Hüseynzadə və Ə.Ağayev özləri də etiraf etmişlər ki, onlar yeni əsrin əvvəllərindəki demokratik hərəkatı lazımınca qiymətləndirə bilməmişlər, müəyyən əyintilərə yol vermişlər.[79]”

Təsadüfi deyil ki, 1926-cı ildə, türkoloji qurultayın nümayəndəsi kimi Bakıya gələndə Ə.Hüseynzadə çıxışlarından birində olub-keçənlərə nəzər salarkən demişdi ki: “Füyuzat” məcmuəsini mən “bir ovuc ziyalı üçün” çıxarırdım. Sonralar başa düşdüm ki, bu mənim ən böyük səhvlərimdən biri olmuşdur. Yüksəlmək üçün öncə aşağılara enmək lazım idi.

Heç şübhəsiz, həmin dövrdə “panislamist” adlandırılmalarına baxmayaraq bir qisim ziyalıların, xüsusilə Ə.Ağaoğlunun, islamiyyətin meydana gəlməsi və mənşəyi ilə bağlı gəldiyi qənaətləri, varmaq istədiyi məqsədləri mömin bir dindarın idealları ilə eyniləşdirmək tamam yanlış olardı.[80] Ə.Ağaoğlu görünüşdə islamiyyətə bəlli bir həssaslıqla yaxınlaşmağa səy göstərmişdir. Halbuki bu cəhd, islam dünyasının bütün ünsürlərini əhatə etməyə, onun tarixi təcrübələrindən yararlanmağa və ya islam kimliyindəki ənənəvi elementləri canlandırmağa yönəldilmiş bir istəyi ehtiva etməmişdir. Üstəlik bu həssaslıq, hələ ki, bəlli olmayan bir qərbliləşmə proqramının cəmiyyət

79 Talıbzadə K. Seçilmiş əsərləri: 2 cilddə, II c., Bakı: Azərnəşr, 1994, s., 136.

80 Özcan U. Ahmet Ağaoğlu ve rol değişikliği (Yüzyıl dönümünde batıcı bir aydın). İstanbul: Donkişot yayinlari, 2002, s.48,49

tərəfindən qəbul edilməsi üçün bir növ hazırlıq vəzifəsi daşımışdır. Bu səbəblə onun yazılarında dünyəvi və milli şüura vurulan vurğu, dini şüura edilən vurğunu üstələməkdədir.

Azərbaycan cəmiyyətinin problemlərinə çarə axtaran ziyalılar fərqli mövqelərdən çıxış etsələr də, fikirlərini fərqli janr və üslublarla çatdırsalar da, heç şübhəsiz, onların məqsədləri eyni idi. Misal üçün, 1906-1908-ci illərdə "İrşad" səhifələrində "Molla Nəsrəddin" haqqında onlarla müsbət məzmunlu məqalə, məktub, qeyd çap olunmuşdur ki, bunların çoxunu redaktor Ə.Ağayev özü və görkəmli irşadçılardan N.Nərimanov **(1879-1925)**, Ü.Hacıbəyov **(1885-1948)**, habelə inqilabçılardan M.Məmmədyarov, S.Əfəndiyev və başqaları yazmışdılar. Eyni zamanda C.Məmmədquluzadə və Ö.Faiq kimi "Molla Nəsrəddin" rəhbərlərinin "İrşad" qəzetində publisist yazılarla çıxış etmələri də belə bir fikir söyləməyə əsas verir.

Eyni zamanda XIX-XX əsrlərdə müsəlman cəmiyyətinin ümumi rifahı və mədəni tərəqqisi naminə ziyalılarla eyni mövqedən çıxış edən din xadimləri, çox ləyaqətli ruhanilər və ilahiyyatçı alimlər də olmuşdur.[81] Bunlar içərisində Mir Cəfər Mir Məmməd Kərim **(1855-1938)**, Axund Mirzə Əbu Turab **(1817-?)**, Şeyx Əhməd Səlyani kimi onlarla ruhani xadimlərimiz olmuşdur ki, bunların sırasında Talıbzadələr ailəsinin Axund Molla Mustafa **(1843-?)** və Axund Yusif kimi simaları da yer tuturdu.[82]

Həmin dövrdə Zaqafqaziya şeyxülislamının müavini olmuş Axund Mustafanın oğlu Y.Z.Talıbzadənin **(1877-1923)** (A.Şaiqin böyük qardaşı) həyat və fəaliyyətini tədqiq edən M. Əsədli də yazır

81 Sofiyev X.Ə. Şərq-Qərb mədəniyyətləri və Əhməd bəy Ağaoğlu. Bakı: Ocaq, 2004, s., 156,157

82 Əsədli M. Yusif Ziya Talıbzadənin həyatı və mühiti (1877-1923). Bakı: Nurlan, 2005, s.,18

ki, o, N.Nərimanov və H.Z.Tağıyevlə **(1823-1924)** dostluq etmiş, Ə.Agaoğlu, S.M.Qənizadə **(1866-1942)**, H.Mahmudbəyov **(1864-1928)**, A.Əfəndizadə **(1875-1925)** Q.Qarabəyov **(1874-1953)** kimi ziyalılarla yaradıcılıq əlaqələrində olmuşdur. Elmi və pedaqoji fəaliyyəti ilə yanaşı, dövrünün mətbuat orqanlarında publisistik yazılarla müntəzəm çıxış edən Y.Z.Talıbzadə əsasən dini mövzulara üstünlük vermişdir. Xüsusilə də 1903-cü ildən etibarən onun "Şərqi-Rus" qəzetində islam dininə dair məqalələri ("Din tərbiyəsi və s.) nəşr olunur ki, o bu fəaliyyətini sonrakı mətbuat orqanlarında da səmərəli şəkildə davam etdirmişdir. 1905-1913-cü illər arasında Y.Z.Talıbzadənin "Həyat", "İrşad", "Tərəqqi", "Füyuzat", "İqbal", "Şəlalə" kimi mətbuat orqanlarında müxtəlif mövzularda məqalələri nəşr olunmuşdur. Bu yazıların əsas və ali məqsədi islam dininin ayrı-ayrı müddəalarını müasir həyat problemləri ilə əlaqələndirməkdən ibarət idi.[83]

Əsasən dini mövzularda yazılmış bu məqalələrdə Y.Z.Talıbzadə dini xurafatdan ayırmaqda elmi dürüstlüyə səy etmiş və onun düzgün izahını xalqa çatdırmağa çalışmışdır. Bu yazıların xalq arasında dini ehkamların yayılmasında, onların əslinə yaxın anlaşılması və dərk edilməsində, xüsusən islamın yeni dünyagörüşlə şərhində çox mühüm və faydalı xidməti olmuşdur. "İslam və Menşikov" (1908), "Müsəlmanlar və maarif" (1909), "Çocuqlarımıza bir çarə" (1909), "Ərəbistan, yaxud Məkkə və Mədinə" (1909), "Rusi-müsəlman məktəbləri" (1909), "Türkiyə məktubları" (1913) və s. çoxsaylı məqalələri və islam tarixinə həsr edilmiş "Həqiqəti-islam" (1905), "İslam tarixi" (1907) və s. kitabları da Y.Z.Talıbzadənin

83 Əsədli M. Yusif Ziya Talıbzadənin həyatı və mühiti (1877-1923). Bakı: Nurlan, 2005, s.,32,33

məhz bu sahəyə daha çox diqqət yetirdiyinə dəlalət edir. Eləcə də H.Z.Tağıyevin sifarişi ilə Azərbaycan türkcəsinə tərcümə edilmiş "Qurani-Kərim"in hədiyyə olaraq Osmanlı sultanı II Əbdülhəmidə məhz Y.Z.Talıbzadə tərəfindən göndərilməsi faktı onun cəmiyyətdəki mövqeyinin göstəricisi və H.Z.Tağıyev tərəfindən ona olan rəğbət və etibarın ifadəsi kimi dəyərləndirilməlidir.

Ötən əsrin əvvəlləri üçün modernizm məsələlərinə münasibətdə də milli-dini mövqeləri üst-üstə düşən ziyalıların Qərbə münasibətlərində ümumi cəhətlər çox idi və onların əksəriyyəti cəmiyyətdə tərəqqi yollarının yalnız islamda aranması tərəfdarı olmuşlar. Çünki onlar "islamın tənəzzülünün əsas səbəblərindən birini Qərbin müntəzəm olaraq zehni-əxlaqi təsirində və eyni zamanda islamın öz daxilindəki mənəvi-əxlaqi pozulma qüvvəsinin arasıkəsilməzliyində görürdülər. Deməli, vahid bir mənəvi-əxlaqi konsepsiyanın daxilən parçalanmasında Qərbin pozucu təsiri olduğu qədər də müsəlmanların öz daxillərindəki hakimiyyət hərisliyinin, nadanlıq, cəhalət, mövhumat və xurafatın da o qədər təsiri olmuşdur. Bu baxımdan Yusif Ziya Talıbzadənin "İrşad" qəzetində dərc olunmuş[84] və erməni şərqşünası İbrahim Əmirxanyansın dövrün nüfuzlu mətbuat orqanlarından "İrşad" qəzetinin 252-ci sayında dərc olunan ("İslam və tərəqqi" adlı məqaləsinə cavab şəklində yazılmış) "Əmirxanyansa cavab" məqaləsi müəllifin bəzi mətləblərə münasibətini açıqlayır. Erməni publisisti məqaləsində sübut etməyə çalışırdı ki, müsəlmanlar islam dininin tələbləri əsasında dövrün ümumi qanunlarına uyğun "inkişafa üz tuta bilməyəcəklər".

Onun fikrincə, müsəlmanların müqəddəs kitabı "Quran"

84 Talıbzadə A.Y. Əmirxanyansa cavab."İrşad" qəz., 14 noyabr 1906-ci il, № 263.

bu müasir məsələlərə doğru yol göstərmək vəziyyətində deyil. "İslam ruhanilərinin imanları budur ki, əgər müsəlmanlar Avropa millətlərinin əməllərindən birini də əxz edərlərsə, kafir olurlar".[85] Əslində, Ə.Ağayevə ünvanlanmış bu yazıda Əmirxanyansın cahilliyi, bütün müsəlman dünyasına olan hədsiz nifrəti üzə çıxır, bu nifrət və ədavətin necə hiyləgərcəsinə həyata keçirilməsi aşkar görünür. Dövrün açıq fikirli, mütərəqqi mövqedə duran azərbaycanlı ziyalıları isə əksinə, heç də erməni publisistinin dediyi kimi xristianlığı islam dini ilə qarşı-qarşıya qoymurdular. Ona görə də Əmirxanyansın "İslam və tərəqqi" adlı bu məqaləsi Azərbaycan ziyalıları arasında sonsuz hiddətə səbəb olmuş, "İrşad" qəzetinin növbəti saylarında Ə.Ağayev[86] və ilahiyyat alimi Yusif Ziya tərəfindən yazıya tutarlı cavab verilmişdir. Yusif Ziya müsəlmanlar arasında cahilliyin, mövhumatın olmasını da inkar etmir. Lakin anladır ki, din heç vaxt insanları korlamır, insanlar dini korlayır.[87]

Ümumilikdə, Azərbaycan ziyalılarının islamçılıq və türkçülük istiqamətindəki ziddiyyətli fəaliyyətlərinin nöqsanlı cəhətləri olsa da, proses milli şüurun formalaşması ilə nəticələndi. Təbii ki, hələ XX əsrin ilk illərində belə azərbaycanlıların ictimai şüurunda dini və regional mənsubiyyət hissinin etnik identikliyi açıq-aşkar üstələməsi səbəbindən Azərbaycan xalqının etno-siyasi birlik səviyyəsi çox aşağı

85 Əmirxanyans. İslam və tərəqqi."İrşad"qəz., Bakı, 27 oktyabr, 1906-ci il, № 262.

86 Ağayev Ə. İslam və tərəqqi. Əmirxanyansa cavab. "İrşad" qəz., Bakı: 31 oktyabr 1906-ci il, № 254.

87 Əsədli M. Yusif Ziya Talıbzadənin həyatı və mühiti (1877-1923). Bakı: Nurlan, 2005, s., 40,42; Ağayev Ə. İslam və tərəqqi. Əmirxanyansa cavab. "İrşad" qəz., Bakı: 31 oktyabr 1906-ci il, № 254.

idi.[88] Hansı millətə mənsub olduğunu belə bilməyən azərbaycanlı özünü yalnız müsəlman hesab edirdi. Bununla bağlı ziyalıların həmin dövr mətbuatındakı yazılarından saysız nümunələr vermək mümkündür. Bu yazıların hamısında belə bir qənaət vardı ki, özünü müsəlman millətinə aid hesab etdiyi halda, əslində türkdür, dini islam dini, dili də türk dilidir və müsəlman adında millət yoxdur. Belə bir münasibət islam dininin cəmiyyət həyatının istisnasız olaraq bütün sahələrdəki hökmranlığı və ölkənin parçalanmış vəziyyətdə olmasından irəli gəlirdi. **Təbii ki, islamın bu sahədəki qeyd-şərtsiz inhisarı identikliyin digər formalarının, ilk növbədə, etnik birliyin inkişafının qarşısını alırdı.**

Azərbaycan ictimai fikrində milli düşüncənin ilk təzahürləri hələ XIX əsrdən özünü büruzə verməyə başlamışdı. H.Zərdabi ideyalarından bəhrələnən "Kəşkül" və "Kaspi" qəzetlərinin səhifələrində milli mənlik problemini qaldırmaq üçün edilən ilk cəhdlər Azərbaycanda bu məsələnin başlanğıcının ifadəsi idi. Əvvəllər məhdud çərçivədə olsa da, artıq XX əsrin əvvəlində H.Zərdabinin və "Kəşkül" qəzetinin mövqeyi Azərbaycan ziyalılarının böyük bir qismi tərəfindən dəstəklənirdi.

Ümumilikdə isə XX yüzilliyin başlanğıcında azərbaycanlıların tam əksəriyyəti özlərini türk deyil, müsəlman hesab edirdilər. Rusiya İmperiyasının digər müsəlman xalqlarında da müşahidə edilən bu vəziyyətlə bağlı M.Ə.Rəsulzadə yazırdı: "Bizdə milliyyətpərvərlik hissiyyatı öz azadlıq və istiqlalımızı, hətta bütün türklərin xilasını hədəf qılmaq surətilə deyil, müstəqil və yarımmüstəqil bir halda yaşayan digər islam və türk dövlətlərinə qarşı səmimi hissiyyat və

88 Balayev A. Məmməd Əmin Rəsulzadə. Bakı, Adiloğlu, 2011, s., 14

əlaqə göstərməklə təzahür etmiş, siyasi təmayüllərimiz çox zaman bu hüdudu keçməmişdir. Hətta "milliyyət" məfhumu belə, bizdə son zamanlara qədər bütün aydınlığı ilə ortaya çıxmamışdı. O zamankı milliyyətpərvərliyin ən adlı-sanlı mürşidləri, başda Ağaoğlu Əhməd bəy olmaqla, islamçılıqla türkçülüyü çox da ayırmır, türklük namına deyil, müsəlmanlıq namına mübarizə aparırdılar. Milli hərəkatımızın adı "panislamizm" idi. Bu yalnız rusların xətası deyildi. Özümüz də islamiyyəti milliyyət məfhumu yerində işlədirdik".[89] Kitabın başından bəri bizim də islamçılıq barəsində verdiyimiz izahatların bu qədər uzanmasının səbəbini yəqin ki, artıq oxucu səbəbini özünə aydınlaşdırdı.

XX əsrin əvvəllərində Azərbaycanda cərəyan edən islahatçılıq təmayüllərinə diqqət yetirərkən görürük ki, ortaya çıxan meyillərdən biri də özünü ənənəvi dindar əhalinin həyat tərzinə yönəldilmiş tənqidlərdə büruzə vermişdir. Bu dövr Azərbaycanında məzhəb ayrılıqları tənqidlərin birinci hədəfi halına gəlmişdi. Şiəlik əleyhinə düşüncələr, xüsusilə yerli burjuaziyanın dəstəyini alan islahatçı ziyalılar tərəfindən işlənməkdə idi. Ə.Ağaoğlu kimi bəzi cədidçilərin məzhəb münaqişələrini ortadan qaldırma düşüncəsi, həqiqətdə din birliyini gerçəkləşdirmə yolunda bir iddiadan çox, yüz illərdən bəri fars mədəniyyətinə bağlı olan Azərbaycan cəmiyyətini bu kimlikdən təmizləmə düşüncəsidir. Bu kimlik təmizləndiyi və modern dəyərlər mənimsəndiyi halda cəmiyyət problemlərinin həll ediləcəyi düşüncəsi burada üstünlük təşkil edirdi.

İslahatçı ziyalıların tarixi sünni-şiə ayrılığının ortadan qaldırılması yönündəki düşüncələri, öz məqsədləri baxımından keçərli

89 Rəsulzadə M.Ə. İstiqlal məfkurəsi və gənclik. Bakı, 1991, 82 s.

bir təmələ dayanırdı. Məzhəb ziddiyyətləri Azərbaycan türklərini beş yüz ildən daha uzun bir vaxt ərzində Osmanlı türklərindən, Krım, Volqa və Orta Asiya türklərindən ayırmışdı.

Yeniləşmə səylərinin bu səbəblə birinci növbədə islami qurum və ənənələr üzərində cəmləşdirilməsi təsadüfi deyildi. Yeni bir ictimai kimliyin formalaşdırılması şiə kimliyinin yenidən gözdən keçirilməsinə bağlı idi. Digər tərəfdən çarlıq idarəsi yüz illərdən bəri məzhəb ayrılıqlarını canlandıraraq və dini işlərin idarəçiliyini mərkəzi qaydada öz strukturunda toplayaraq müsəlman əhalisini nəzarət altında saxlamışdı.

Beləliklə, Rusiya müsəlmanları birlik düşüncəsindən uzaqlaşdırılmaqda idi. Həqiqətən bu şərtlər altında milliyyətçi ziyalılar Rusiyada, Türkiyədəkindən fərqli olaraq "ümmət-toplumdan millət-topluma məcburi tarixi keçid" mövzusu yerinə "camaatdan millətləşməyə keçid" mövzusuna üstünlük vermişlər. İslahatçı ziyalılar camaatdan millətləşməyə keçid ilə yeni kimliyin formalaşdırılması qarşısındakı ciddi bir əngəlin ortadan qalxacağına inanırdılar. Bu səbəblə onların dini işlərin idarəçiliyində muxtariyyət, məzhəb ziddiyyətlərinin həlli, mədəni muxtariyyət və hüquqi bərabərlik kimi tələblərlə çıxış etmələri anlaşılan bir şeydir. Bu mənada, məsələn, Ə.Ağaoğlu müsəlman əhalinin koloniya statusu və rusların Qafqazda məskunlaşdırılması ilə bağlı duyduğu narahatçılığı bir neçə kərə çarizmin mərkəzi idarələri qarşısında qaldırmış və azərbaycanlıların bir sıra hüquqi imtiyazlar qazanmasına çalışmışdır.

Bununla belə, islahatçılıq hərəkatı özü də Azərbaycan cəmiyyətində yeni münaqişələrin qaynağı olmuş, təbii ki, birmənalı qarşılanmamışdır. Bu hərəkatın Rusiya müsəlmanlarını bir araya

gətirərək daha yüksək səviyyədə bir birlik yaratmaq yolunda ciddi bir cəhdi təmsil etdiyi də söylənilə bilməz. Hərəkatın panislamist olaraq tanıdılan bəzi liderləri belə, dindən bir vasitə kimi istifadə edərək gerçəkdə onun hüdudlarını göstərmişlər. Dinin modernist şərhinin inkişafı bəzən onların məqsədlərinə xidmət etmişdir. Ona görə də Rusiya müsəlmanları arasında birləşdirici olmaqdan çox, ayırıcı olmalarında təəccüb doğuracaq heç nə yoxdur. Bu islahatçı ziyalılar din duyğusunun milliyyət duyğusundan daha güclü olduğu bir cəmiyyətdə, yeni bir ictimai kimliyin formalaşdırılmasına girişmişdilər. Onların bu işə başladıqları vaxt təzyiqlə qarşılaşmalarının da başlıca səbəbi məhz bu idi.

# İSLAM MODERNİZMİ-CƏDİDÇİLİK: GENEZİSİ, DİNİ-FƏLSƏFİ ASPEKTLƏRİ

Umberto Ekoya görə, modernizm–müasirliyin inqilabiləşdirilməsinin metod və metodologiyasıdır. Modernizm öz qarşısına ilk növbədə varlığı yenidən qurmaq – insanı dəyişmək, elmi biliyi (texnologiya və eksperimentlərin köməyi ilə) zənginləşdirmək, gerçəkliyə məxsus neqativ cəhətləri inkar etməklə onu dəyişib yenidən qurmaq məqsədi qoyur. Modernizm – dəyişmək, inkar etmək hakimiyyətini təsdiq edən fikir tendensiyası və ideologiyasıdır. Modernizm varlığı yenidən görmək və sahmanlamaq üsuludur. Modernizm təkcə yeniyə deyil, həm də daim yenilənməyə meyillidir. Modernizm – yenilik kultudur! Bu kultda yeni – tərəqqi məhsulu, insanın texnika yaratma gücü və zakasının inkişafı deməkdir. Modernist cəmiyyətin fokus nöqtəsi innovasiyalar, sekulyarizasiya və demokratizasiya kəsişməsindən çıxış edən fərdiyyətçilikdir.[90]

Qeyd edək ki, modernizm çağı azad insan, azad vətandaş yetişdirirdi. Modernizm çağında Qərbdə əvvəl difrensasiya sonra inteqrasiya baş verdi. Şərqdə isə bu proses təəssüf ki, difrensasiya ilə bitdi. Şərqin yeni heç nə yarada bilmədiyini etiraf etmək məcburiyyətindəyik.

Modernizm dövründə həm də dünya iki hissəyə bölündü. Kapitalizm, komunizmin hakim olduğu hissələrə. Rusiya və

90 Məmmədzadə M.B. İki inqilab arasında keçdiyimiz yola bir nəzər // “Musavat” (Müsavat partiyasının bülleteni), 1992, № 18, 19.

“tərəfdarları” komunizmi, Qərb isə kapitalizmi dəstəklədi. Şərqsə, bu güclərin ətrafında təmərküzləşdi...

İslam modernizmi ***cədidçilik*** tarixdə çoxlu (15-ə yaxın-Ş.M) imperiyalar qurmuş türklərin sonuncu imperiyalarının süqutu ərəfəsində türk kimliyinin dirçəliş mücadiləsinə türk aydınlarının zehniyyətlərə dəstək hərəkatı idi. Daha dəqiq ifadə etsək, cədidçilik də XIX əsrin sonu XX əsrin əvvəllərində türk xalqlarının milli məfkurəsinin formalaşması və yeniləşməsi, yeni innovasiyalara, daima yeniləşməyə, demokratikləşməyə, bir qədər uzaq hədəfdə bu millət fərdlərinin yaşadıqları fərqli məmləkətlərdə belə olarsa, sekulyar dövlətlər qurmağa, modern cəmiyyətlərin elmi və texniki tərəqqi hesabına yetişdirdiyi fərdlər kimi yetişdirmək və bu müasirlik içərisində köklərinə, kültürünə sədaqətli qala bilmənin fəlsəfəsini barındıran, bu istiqamətdə aparılan mücadilələrə əhəmiyyətli qatqısı olmuş hərəkat kimi qiymətləndirilməlidir...

Bu mövzuyla yeni başdan tanış olmağa çalışanlara, onun köklərinə getmək üçün xatırladaq ki, məlum olduğu kimi XIX əsrin sonlarına doğru böyük Osmanlı İmperiyası çöküşə doğru getməyə başladı[91]. Osmanlıçılıq siyasəti yürüdərək türk kimliyini bu məfkurə içərisində əridən Osmanlı İmperiyası, beləcə islamın da siyasətinə bəxş etdiyi aşırı humanist jestlərlə özü öz “məzarını qazmış oldu”.

Cədidçiliyin köklərinə bələdlik üçün apardığımız tədqiqatlar isə

91 İmperiyalar bu sonluğu (parçalanıb mıhv olma-Ş.M) mütləq yaşayırlar... Maraqlı burasıdır ki, Osmanlı İmperiyasının çöküşündən öz varlığı adına karlı çıxmağa çalışan bütün millətlər və xırda müstəmləkə dövlətləri bu gün dünyanın qaynar nöqtələrinə çevrilmişlər. Sovetlər dönəmində tarix kitablarından rus çarizminə şamil edərək öyrəndiyimiz “parçala və hökm sür” şüarının çağdaş zəmanənin mədəni hesab olunan qabaqcıl ölkələrinin də lozunqu olacağını heç düşünməmişdik. İndi bu mövzuda mübahisə edəcək çox şeylər var. Bu politaloji mövzunun cədidizmə nə aidiyyəti var? deyənlər bilməlidir ki, genezisinə aşina olmağa çalışdığımız **cədidizm** (XIX əsrin sonu XX əsrin əvvəlləri türk kimliyinin oyanış fəlsəfəsinə xidmət-Ş.M) bir hərəkat kimi elə böyük siyasi politikaların sonucunun “əsəridir.”

bizə, bu çöküşün həyacanını Türkiyə sınırlarından (sərhədlərindən) kənarda yaşayan türklərin, türk aydınların daha çox keçirdiyini söyləyir. Elə bu səbəbdən onlar türkçülük ideologiyasını daha çox qabartmışlar. Rusiya sərhədləri daxilində yaşayan türklərin müstəqillik və müasirləşmək yolundakı mübarizələri də bu hərəkat aydınlarının adına yazıla bilər. İlk türk maarifçiliyi hərəkatı hesab edilən **cədidçilik reformist bir hərakat**[92] **(2,3,4,5,6,7,8,9,10,11, 12,13,14)** kimi köklərini çox-çox dərinlərdən götürsə də XIX əsrin ikinci yarsından dil, təlim-təhsil və din sahəsində bir yeniləşmə cərəyanı kimi meydana atıldı. Tədqiqatların bizə diktə etdiyi budur ki ***cədidçilik*** öncə təhsil sahəsində yeniliklər etməyi qarşısına məqsəd qoymuşdu. Odur ki, bu hərakata qoşulan ziyalılar çalışdıqları yaxud təsir edə biləcəkləri məktəblərdə yeni bir təhsil metodunun mənimsənilməsi tərafdarı idilər. Bu yeni metod tərəfdarları olan "cedidçilər" ilə köhnənin tərəfdarı olan "qədimçilər" (mühafizəkarlar, yaxud konservatorlar-Ş.M) arasında əvvəl-əvvəl bir araya gəlmək bilməyən mübarizə başladı. Sonralar isə bu mübarizədən cədidçilərin qalib çıxması bu hərəkatın ardıcıllarına türk dünyasında yeni bir imic qazandırdı. Sizinlə birlikdə bu yeni imic daşıyıcıları cədidçilərin tarixən yaranmış hansı fikir və düşüncə axınlarından təsirləndiyini araşdırmağa çalışacağıq.

92 Bu istinadda məqalə müəllifinin indiyə kimi **cədidizmin formalaşmasına, bu cərəyanın ardıcılları olub onun ideyalarını təbliğ edən ayrı-ayrı mütəfəkkirlərə və onları yetişdirən zamana (XİX əsrin ilk onilliklərindən XX əsrin əvvəllərinə qədər)** həsr olunmuş məqalələrini əhatəli məlumat naminə verməyi lazım bildik.

**İslam tarixində azadfikirliliyin (ictihadın) genezisinə bir nəzər.**

Müasir dövr Avropa tədqiqatçılarından Tyeri Zarkon[93] tatar əsilli İslam islahatçıları **cədidçilərə** həsr etdiyi bir məqaləsində onları zəmanələrinin fəlsəfəyə və dinə yeni innovasiyalar gətirən insanları adlandırır. Araşdırdığı mövzunu isə İslamda azadfikirlilik cərəyanı hesab etdiyi cədidizmə həsr etdiyini qeyd edir.[94]

Azadfikirliliyə meyillilik qədim dövrlərdən bəri düşünən beyinlər üçün intelektin metodu olaraq daim aktual, yaxyd dəbdə olmuşdur deməklə səhv etməyəcəyik. Amma nə üçün XIX əsrdə bu ideya öz təsdiqi üçün yenidən belə aktuallaşmağa (ələxüsus da Rusiya müsəlmanları içərisində) başladı? Yuxarıda bunun sadə izahını nisbətən verməyə çalışdıq. Əzilən türk kimliyi və parçalanıb ayrı düşmüş müsəlman türk xalqlarının heç olmasa mədəniyyət və dil birliyi ilə bütövləşə bilməsi. Sözügedən əsrdə azadfikirliliyə meyillilik daha çox tatar ilahiyyatçılarının yeniliklərə açıq cəsarətli fəaliyyətləri ilə müşayət olunurdu. Şübhəsiz ki, onlar icdihada[95] səsləyən çağrışlar edərkən bütün türk dünyasından olan həmfikirlərindən ayrı deyildilər. Tatar ilahiyyatçıları arasında ilk "icdihat pioneri" olaraq **Kürsəvi**

93 Məqalədə adı çəkilən bu tədqiqatçı tatar ilahiyatçıları və filosofları sıralarında özlərinə mötəbər yer tutan cədidçilər barəsində **"Cədidcilərin fəlsəfəsi və ilahiyyatı"** (**azad düşüncə (icdihat) məsələsi**)) adlı (ölkəmizdə rus dilində dərc olunmuş) məqalənin müəllifidir. Bizsə öz növbəmizdə ilk dəfə olaraq bu məqalədən daha bir ilahiyatçı, cədidizmin daha bir tanınmış nümayəndəsi Abdulla Bubi haqqında məlumatlandıq.

94 Тьери Заркон. Теология и философия у джадидитов (вопрос о свободомыслии (иджтихад). Рроблемы Восточной Философии, Международный научно-теоретический журнал №1-2, Баку,2004,с. 27

95 İctihad-[şəxsi] azad fikir, nəzər nöqtəsi, müs., dini və hüquqi məsələlərdə qərar vermə imtiyazını saxlama (E. Mustafayeva və L.N. Starastovanın redaktəsi ilə buraxılmış türkcə-rusca lüğət, Moskva,1977)

**(1776-1812)** götürülür. Tatar araşdırmaçılarından Səqdi[96] məhz onun bir mütəfəkkir kimi ilk dəfə təqlidə qarşı çıxıb, azadfikirliliyin qapılarını açması barəsində xəbər verir və yazır ki, Kürsəvi dində yeniliklərə eyni zamanda da xurafata qarşı gəlib, keçmiş əsrlərin alimlərinin kitablarını təqib etməyi ilk qadağan edən islahatçıdır.[97] Onun bu yolunu, belə ki, cədidçi ideyalarını və fəlsəfi təsəvvürlərini Mərcani[98] daha da aydin bir formaya saldı.[99] Hətta Utız İmyan Bulqari də demişdir ki: “Müsəlman fiqhinin əsas məsələsi ictihaddır”[100] İlahiyyatçılarin bu barədə istinadlardan görünür ki, onlar “ictihadı müstəqil fikir” söyləməyə bərabər tuturlar[101].

Mənbələr islam fəlsəfəsinin tarixində azadfikirliliyin köklərinin daha **qədimlərə** gedib çıxdığını göstərir ki, məhz bu kökləri araşdırmasaq tədqiqatımız yarımçıq olar.

---

96 Tədqiqatından verdiyimiz bu komentariya tatarların **Səqdi** kimi tanınan filoloqunun **Tatar ədəbiyyatı tarixi** kitabındandır. İlk dəfə o, Kürsəvi və Mərcani kimi innovativ fikirli cədidçilərin yaradıcılığına daha isti münasibət bəsləyib əməklərini tədqiqatlarçün sərqiləmişdir. Bax; Антология татарской Богословской мысли. Абу**-н-Наср Курсави,** Казан, татарское книжное издательство, 2005, 20,22.

97 Сэгди Г. Татар эдэбияты тарихы. Казан, 1926

98 Sözügedən əsər Şihabəddin.Mərcaninin “Tənbih əbnə əl’əsər əla’tənzih əbnə Əbun Nəsr” əsəridir. Mərcani burada və digər əsəri olan **“Mustafad əl-əxbər fi əhvali Kazan və Bolgar”** əsərlərində tatarların ilk azadfikirlisi, cədid məktəbinin banisi Kürsəvi haqqında xeyli tərifli sözlər söyləmiş, onu tatar cədidçiliyinin banisi kimi təqdim etmişdir. Şihabədin Mərcanını isə tatarlar onlara kimliklərinin fəlsəfəsini təqlid edib onlarçün ilk tarix və grammatika dərslikləri yazan tarixçiləri, etnoqrafları, filosofu və teoloqları hesab edirlər. (Bizim millətimiz üçün Abbasqulu ağa Bakıxanov Mərcaninin tatarlar üçün gürdüyündən daha çox və əhatəli işlər görmüşdür. Ətraflı məlumatı kitabın A. Bakıxanova həsr olunmuş hissəsindən ala biləcəksiniz.

99 Сэгди Г. Татар эдэбияты тарихы. Казан, 1926, səh 11.

100 Духовное наследие татар как фактор традиционности в трудах Г. Утыз-Имяни. Анталогия Татарской Богословской Мысли, казан, Татарское книжное издательство, 2007. С.,37

101 Yenə də orada s.,38

Bu tarixə getmədən xatırladaq ki, müsəlmanlığı qəbul edənlər üçün İslamın müqəddəs kitabı Quran, onun mənəvi dəyərləri inananların əxlaqi həm də hüquqi mənbəyi olaraq bilinirdi. İslam ümmətinə nəinki dövləti məsələlərdə, hətta adi məişət problemlərinin (əlbəttəki hüquq müstəvisinə çıxan-Ş.M) həllində belə, öz arqumentlərini Qurana istinadən qurmaq tövsiyə olunurdu. Mənbələri təhlil etdikcə və müsəlman fiqhini öyrəndikcə, lazım gəlir deyək ki, "müsəlman hüququ, tanıdığımız digər məşhur hüquq formalarına bənzəməz. Belə ki, əsas müsəlman hüququ Quran və Sünnə hesab olunurdu və bütün müsəlman hüquqşünasları, ilk növbədə, bu iki mənbəyə istinad edirdilər".[102]

Bu İslamın formalaşmağa başladığı VII-X əsrlərdə tamamilə beləydi. Quranı yaxşı bilib, müsəlmana hər əməlində ona müraciət etməyi tövsiyə edənlər cəmiyyətdə söz sahibi üləmalar, mütəxəsislər kimi yetişdilər. Bu mütəxəsislərin şəri normalara və qaydalara əsaslanan rəyləri (icmanın son sözü-Ş.M) nəticəsində müsəlman aləminin ilk "hüquq məcəlləsi" yarandı desək yanılmayacağıq. Beləliklə, müsəlman aləmində tanınan bu mütəxəsislərin rəyləri azqala **Quranın** özü kimi müqəddəs qəbul edilərək, barəsində mübahisə edilməz bir hala gəldi. Hüquq məktəbləri də bunu beləcə qəbul etməyi, əsla bu qayda-qanundan çıxmamağı tövsiyə və əmr etdi. Beləcə, İslam fiqhi ilə məşğul olanlar yeni söz deyə bilməmənin əskikliyi, yeni fikir və çağa uyğun elmi yanaşmalar edə bilməmənin ehtiyacı içərisində uzun əsrlər boyu təqlid məktəbləri kimi yekrəng qalmalı oldular.

Yuxarıda qeyd etdiyimiz kimi, bu ta İbn Teymiyyənin **(1263-**

102 Антология татарской Богословской мысли. Габдрахим Утыз-Имяни ал Булгари Казан, татарское книжное издательство, 2007, səh 37

**1328)**[103] bir düşünür kimi İslam düşüncə tarixinə daxil olmasına qədər davam etdi. Sonrakı əsrlərdə isə onu sələfilər[104] (XVIII) və vahabiliyin[105] (XIX) ardıcılları da müşayət etdilər. Bu iki dini cərəyan növbəti (XIX, XX) əsrlərdə hind, ərəb və türk reformatorlarının islahatçı hərəkatlarına təkan vermiş oldu.[106]

Beləliklə, cədidizm formalaşdığı müddət ərzində yuxarıda adı çəkilən məzhəb, cərəyan və şəxsiyyətlərin təsirindən qidalanmalı oldu. İctihada can atma, həm də köklərini İslamın ilk rasionalist cərəyanı olub X-XI əsrlərdə ortadoksal İslam ardıcılları tərəfindən mühakimələrə məruz qalmış, bu gün də İslam ilahiyyatının tanınan

---

103 İbn-Teymiyyə (1263-11328) Şanlıurfanın Harran qəzasında anadan olmuşdur. Şamda Hənbəli fiqh və hədis alimi, müdərrisi (müasir dillə ifadə etsək professor-Ş.M) olub çox savadlı olan bu adam mükəmməl təhsilini 20 yaşında tamamlamışdı. Əhatəli elminin ona verdiyi qürrə ilə şiələr, hətta yunan filosoflarını tənqid edən əsərlər də yazmışdır. (Ata babalarının yolundan çıxmış etiqad və əməl məsələlərində fikirlərini Sünnədən fərqli izah etmiş, İslamın bir çox öndə gedənlərinin əqidəsini bəyənməmiş, onların bəzilərini küfürdə təqsirləndirmiş, hətta Rəşidi xəlifələrinə, sufizmdə vəhdəti-vücud nəzəriyyəsinin banisi sayılan Mühyəddin ibn Ərəbiyə, onun ardıcılı Sədrəddin Konəvi kimi müqəddəs sayılan şeyxlərə belə, tənqidi yanaşmış, yaradıcılıqları barəsində bəzən təhqirli ifadələr belə, işlətməkdən çəkinməmişdir. Odur ki, barəsində Əllamə ibn Həcəri Məkki "Allahu-Təalanın elmini sapırtmasına (burada düzgün yolu azması mənasına gəlir-Ş.M) səbəb olmuş insan deyə bəhs etmişdir. (Burada biz də öz əlavəmizi edək ki, optodoksal İslam ardıcılları tərəfindən ictihad ilə eretiklik adekvat səslənirdi-Ş.M). Daha ətraflı bax; (**www akademidergisi.com**)

**104 Sələfilər**-müraciət etdiyimiz mənbədə sələfiliyin mənası Əllamə İbn Həcəri Məkkiyə görə belə verilir; vəhabiliyin kamufle (ört-basdır edilmiş-Ş.M) forması. İslamiyyətdə sələfilər deyə bir məzhəb yoxdur Sələfin məzhəbi var. Sələflər isə (sələf-i salihin) İslamın bərqərar olduğu ilk iki əsrdə Hədisi Şərif ilə tərif edilib öyülən əhli sünnət vəl cəmaət məzhəbidir. Bu məzhəb iman və inanc məzhəbi olub əshabın, şərəfli adamların birqəliyi idi. Deyildiyi kimi sonrakı əsrlərdə özlərini sələfilər kimi tanıdanlar isə Teymiyyə ardıcılları kimi bidətə yuvarlanmış oldular. (**gerçekibniteymiyye. bloqspot. com)**

105 Vəhabilik- XVIII əsrin ortalarında Ərəbistan yarımadasında Nəcd bölgəsində Məhəmməd ibn Abdulvəhhab (1699-1791) tətəfindən qurulan dini və siyasi bir yol. İbn Teymiyyənin ənənədən uzaqlaşmış fikirlərinə yiyələnən vəhabilik dini-siyasi bir görüş olaraq sonradan Ərəbistan yarımadasna hakim oldu.

106 Тьери Заркон. Теология и философия у джадидитов (вопрос о свободомыслии (иджтихад). Рроблемы Восточной Философии, Международный научно-теоретический журнал №1-2, Баку,2004, səh27.

məktəbi sayılan əşərilər[107] tərəfindən davam etdirildi.[108]

**Beləliklə, mütəzililərin əqlin nəql üzərində hakimliyyəti fəlsəfəsindən bəhrələnən İslam reformizmi öncə təqlidçiliyin qəti əleyhidarı və ilk müəllimlərindən biri olan Abdulla Bubiyə (1871-1922), sonra isə zamanın tələblərinə uymağa çağıran, islahata açıq teoloq filosoflar olan tatar Utız İməni Bulqarinin (1752-1836), Musa Carullah Bigiyevin (1875-1949) və misirli Məhəmməd Əbdühün (1849-1905) da bu fikir cərəyanı üçün calışmalarına minnətdar olmalıdır.**

**Tale bizə İslam filosofları sufilərin təriqət fəlsəfəsini incələməyə imkan verdiyi üçün artıq qazandığımız təcrübədən çıxış edərək deyə bilərik ki, İslam fəlsəfəsinin bütün cərəyanlarının ardıcılları öz "fəlsəfi doktrinlərinin həqiqəti"ni təsdiq üçün bu dinin müqəddəs kitabı Qurana müraciət edirdilər. İslam reformizminin ən parlaq nümayəndəsi Bubi özünün "İctihad zamanı deyilmi" adlı əsərində təqlidin ziyanlı tərəflərini diqqətlərə çatdırmaq üçün Quran ayəsinə istinad edərkən**

---

**107** Əşərilik mütəzililiyə qarşı bir anti tez olaraq yaranmış və sələf əqidəsini əsas tutaraq öncə İrak və Suriyaya daha sonra **Nizamiyyə** mədrəsəsinə əşari alimlərinin təyini ilə daha geniş bir alana [əraziyə] **Misir** və **Məqrib** ölkələrinə yayılmışdır.. Fəqət əqaid (əqaid İslamda çox önəm verilən böyük bir bəhsdir) mədrəsələrdə İslam teologiyasının bir qolu olaraq oxudulmuşdur. Bu bəhs Quranda yer almır, ancaq hədislərdə işlədilən inanc məsələsini açıqlamaq üçün vasitə edilmişdir. Əqidə kəlməsinin cəm halıdır. İslam lüğətində düyün bağlamaq, düyünləmək (qısacası nöqtəsini qoymaq kimi də anlama gəlir-Ş,M) yaxud qəti olaraq inanılan, təsdiq edilən şey mənalarına gəlməkdədir. **Əqaid** İslamda iman əsaslarındandır, əqaidi kəm olanın imanı da qıt olar. İslamda əqaid əməli deyil etiqadi hökümləri ehtiva edir. **Bax www.İslamalimi.com**) məsələlərinə münasibətdə kəlama bir istinad kimi söykənmiş, **təvilə** (şərhə) yer vermişdir. Əşəriliyə məxsus kəlam alimləri zamanla təvilə daha cox yer vermiş, dönə-dönə kəlamda yeniliklər edərək, kəlam elmini fəlsəfə ilə mübahisə edə biləcə güdrətə sahib etmişlər. İmam Gəzalinin fəaliyyətləri bu xüsusun ən bariz misalı olaraq çəkilə bilər. Qısacası əşəri kəlamında da əqlın nəql üzərindəki üstünlüyü görünməkdədir. **Bax vikpediya.az**

108 Тьери Заркон. Теология и философия у джадидитов (вопрос о свободомыслии (иджтихад). Рроблемы Восточной Философии, Международный научно-теоретический журнал №1-2, Баку,2004,səh 27.

**məhz bu məqsədi güdürdü. Bubi əsərində oxucularına ictihadın tarixi köklərini xatırlatmaqla əvvəllər (İslam hüquq məktəbləri yaranmamışdan öncə nəzərdə tutulur-Ş.M) hər kəs müsahibinin fikirlərinə hörmətlə yanaşardı deyir.[109] 2-ci ayənin 166-cı surəsinə müraciət edən Bubi ““Təqlidçilik çobanın sürü idarə etməyinə bənzəyər. Çobanın bir qışqırması ilə sürü irəli, digər qışqırıgı ilə geri qayıdar. Eləcə də yalnız çığırıqla anlayan adamlar da onların pis vəziyyətlərində və bədbəxtliklərində nəyin gizləndiyini ayırd edə bilməzlər”. Bu ayət bizə təqlidin, əslində, allahsızlığın özü olduğunu təlqin edir sadəcə bunu anlayacaq dərin ağıllara ehtiyac vardır”- yazır.[110]**

Əsri səadət dövründən uzaqlaşan İslamın zəifləməsi, eyni zamanda Qərbdə elmin sürətli inkişafı XIV əsrdən öz trumfunu götürən renesans dövrü və həmin renesansın Qərbin şimal ölkələrində (İsveçrə, Norveç, İngiltərə və s. kimi) əql və məntiq üzərində inkişaf etməsi və bu inkişafın bütün Avropaya yayılması, bu oyanışdan geridə qalan dövlətlərin işıqlı adamlarında bu proqresə qoşulmaq istəyi oyatmışdı. Onları düşündürən bu inkişafa hansı formada qoşula bilmənin əndişəsi idi. Məhz bu məsələyə qatqı baxımından yenilikçilər bir neçə qola ayrıldılar. Maraqlı burasıdır ki, yenilikçilər (reformatorlar) bu geriliyin səbəbini əsrlərlə İslam alimlərinin təqlidçi bir mövqedə durmaları ilə əlaqələndirirdilər. Belə ki, ilahiyyatçılar və fəqihlər (İslam hüquqşünasları-Ş.M) yeni problemlərin həllini, əslində, Qurandan uzaq düşənlərinəsərlərində tapa bilmirdilər. XIX

109 A. Budi. Zaman-i ictihad münqərizmi deyilmi? Kazan, *Эльм*, 1909, səh., 8.

110 Şəkixanova M.M. **XIX əsrin sonu XX əsrin əvvəllərində yaşamış Azərbaycan cədidçilərinin dini- fəlsəfi görüşləri barəsində**. Müasir dövrdə dünşünaslığın və mədəniyyətin aktual problemləri (II buraxılış), Bakı, Təknur, 2013, səh., 101-121

əsr isə artıq tamamilə başqa bir əsr idi. Cədidçilərin qarşısında isə bir məsələni də həll etmək problemi dururdu. Onlar orta əsrlər şərhlərinə baxmadan Quranı yenidən analiz etməliydilər.

Beləliklə, bu müqəddəs kitabdan sərbəst və azad istifadə edilməlidir məsələsi də gündəmə gəldi. İlk tatar cədidçisi hesab olunan Kürsəvi hələ Buxarada mədrəsədə oxuyarkən göstərirdi ki, mədrəsə mollalarının savadlılıq dərəcəsi ancaq təəsüfə layiqdir.[111] Bu mövqeyini ardıcıl olaraq müdafiə edən tatar intiligensiyasının nümayəndəsi Kürsəvi öz mevqeyini daha da qatılaşdıraraq və sonralar daha da inkişaf etdirərək yaşadığı şəhərin üləmaları tərəfindən zindiq (kafir), dəhri (allahsız) adlandırılıb ölümlə mühakimə də edilmişdir.[112]

*Özünün "İnsanların həqiqətə yönləndirilməsi"*[113]*əsərində Kürsəvi, icdihad üçün hələ vaxt vardır və hər kəs onu tətbiq etmək iqtidarındadır*[114] deyir. Bu kəlmələr öz təsdiqini Gülnara Hidayətulinanın capa hazırladığı antaloqiyada:*«Kürsəvi Buxarada şagirdləri ilə coxlu kitablar oxuyar disputlarda – münazara (müzakirə) edər, İbn Teymiyyənin, Ömər ən-Nəsəfinin, bir sözlə, erkən hənəfi və matrudi ilahiyyatçılarının, əl-Buxari, Müslim, Malik bin Ənəsin yaradıcılığında özünə ruh dostları, məsləkdaşları tapırdı, kəlimələrində təsdiqləyir.*[115]

111 Антология татарской Богословской мысли. Абу-**н-Наср Курсави,** Казан, татарское книжное издательство, 2005,46

112 Сэгди Г. Татар эдэбияты тарихы. Казан, 1926, səh.,46, 47, 48.

113 Абу-н-Наср Курсави. Ал-Иршад ли-л-ибад («Наставление людей на путь истины»), Казан, Татарское Книжное Издательство, 2005, с 21

*114 Курсави Абу-н-Наср, Ал-Иршад ли-л`ибад. Казан; Лит. тир. И.Н.Харитонова, 1903, səh., 21.*

115 Антология татарской Богословской мысли. Абу-**н-Наср Курсави,** Казан, татарское книжное издательство, 2005,с 43.

Ardıcılı Mərcani *Kürsəvinin, həm də imam Qəzalinin (1058-1111) ömrünün bir on ilini həsr etdiyi təsəvvüfi təcrübələrinin yekunu və adına əbədiyyət qazandıran "İhya ülüm əd-din" ("Dini elmlərin dirçəlişi"-Ş.M) əsərindən də bəhrələndiyini göstərmişdir.*[116] Bulqari də özünün "Xəlaiqin xilası" *əsərində*[117] yazır: "Hüccətül İslam[118] (burada İmam Qəzali nəzərdə tutulur-Ş.M) *özünün İhyasında deyir*: "IV əsrdə ilk kəlam əsərləri meydana çıxdı". Ondan sonra insanlar mübahisələr etməyə, biri-birinin dəlillərini rədd etməyə, müxtəlif nağıl və vəəzlərlə əylənməyə başladılar. Bunun nəticəsində qəlblər, ruhun keyfiyyətləri və şeytanın insana yönəlmiş intriqaları haqqında qeyri-adi elm yaranmış oldu. Xeyli insan [bəziləri istisna olmaqla] bu elmdən üz döndərdilər. Amma o insanlar ki, mübahisə və diskussiya aparırdılar, müxtəlif hadisələr danışırdılar, onları alim adlandırmağa başladılar. İnsanlar onlara qulaq asır və onlar həqiqəti yalandan ayıra bilmir. Bu minvalla o, (aldanmış insan-Ş.M) həqiqi davamçıların (burada yəqinki əshabələr nəzərdə tutulub-Ş.M) həyatı, bilgiləri barəsində etibarlı məlumat ala bilmədi. Bu səbəblə də həqiqi biliyi kəlamdan ayıra bilmədi". Əsərdə Bulqarı həm də Qəzalinin təsdiqi ilə qeyd edir ki: "Kəlam təbii İslam elmi deyildir".[119]

Burada hörmətli oxucunun nəzərinə çatdıraq ki, ilk dəfə məhz Qəzali fəlsəfəni kəlama və təsəvvüfə gətirmişdir. Daha dəqiqi məhz

---

*116 Курсави Абу-н-Наср, Ал-Иршад ли-л`ибад. Казан; Лит. тир. И.Н.Харитонова, 1903, səh., 21.*

117 Гавдрахим Утыз Имяни ал-Булгари. Инказ ал-халикин («Спасение погибающих»), Казан, Татарское Книжное Издательство, 2007, с 137

118 Əbu Hamid əl-Qəzali nəzərdə tutulur

119 Гавдрахим Утыз Имяни ал-Булгари. Инказ ал-халикин («Спасение погибающих»), Казан, Татарское Книжное Издательство, 2007, с 137

Qəzali onların sərhədlərini dəqiqləşdirmişdir. Məsələn, Qəzaliyə qədər bir yaşam tərzi hesab edilən təsəvvüf, onunla fəlsəfiləşdi. Bu baxımdan Bubinin də, Bulqarinin də, Bigiyevin də ictihada açıq teoloji fikirlərində imam Qəzaliyə istinadlarının səbəbi aydındır. Bu yerdə İbn Xəldunun "teoloqiya dinin sözlə, ağılla sübuta yetirilməsidir" ifadəsini xatırlamamaq olmur. O İbn Xəldunu ki: *"İslam da iki dini elmin olduğunu. söyləmiş, bunlardan biri "kəlam", digə*ri "teologiya"dır – demişdir (ətraflı məlumat üçün bax; orda 1313.com).

Gətirdiyimiz iqtibaslardan belə görünür ki, İslamın yeni islahatçılarının, islahatdan niyyətləri İslamın təbii elmlərinə elmin qeylü-qalını daxil etmək deyilmiş, əksinə, İslamın mötəbər mənbəyinə (Qurani-Kərimi-Ş.M) və təbii elmlərinə lazımsız yeniliklər gətirənlərdən qorumaqmış. Yenə Utız İməni yazır: "Kəlam alimləri eretiklərdir".[120] Bulqarı qeyd edir ki, bu mesajı bizə verən Əl-Qəzali hicrətin beşinci əsrində yaşayırdı. Görün, bizim əsrimizdə nə qədər yanılmalar vardır. Bulqarı yazır ki, bu günün (kəlam) alimləri ancaq deyirlər "...ət-Taftazani, molla Cəlal əd-Dəvvai, Ömər ən-Nəsəfi, axund Yusif və Pamazan belə dedi", "Siz onların ağzından Allah belə buyurub, Məhəmməd (s.ə.s) dedi, əshabələr və tabiun, yaxud fiqh alimləri belə söylədi eşitmisinizmi?" Bulqarı həm də müəllimi hesab etdiyi Qəzalinin İhyasından iqtibas edir və yazır ki: "...İslamın dörd raşidi xəlifəsindən[121] sonra, müsəlman hakimləıri İslam ehkamını (verouçenie) öyrənmək istəmədilər. Onlar ancaq mübahisələrə qulaq asırdılar. Məhz buna görə də o zamanın elm adamları bu

120 Yenə həmin mənbə səh 139.

121 Peyğəmbərin ölümündən sonra hakimiyyətə gələn 4 saleh xəlifədən və əshabələrdən gedir söhbət.

sahədə ixtisaslaşmağa, çoxlu kəlam kitabları yazmağa, təkziblər və mübahisələrlə vaxt keçirməyə vaxt sərf etdilər."[122]

Bulqarı "Xəlaiqin xilası" kitabında müllimi hesab etdiyi Qəzalinin fikirlərindən nəticə çıxararaq, həm də yazır ki, məhz qeyd etdiyi bu kəlam alimləri guya Sünnəni diriltməyə və bidəyə qarşı mübarizə aparmağa köklənmişlər. Amma deyir bu cəhdlər dəhşətli fanatizmə gətirib çıxardı və nəticədə qanlar tökülmüş, müharibələr olmuş, dağıntılar əmələ gəlmişdir[123]. Sonra deyir: Bulqari, insanlar bunu dərk etmiş ortaq məxrəcə gəlmək üçün kəlamı atmış, müsəlman fiqhinə qulaq asmış, təəssüf ki, bu müraciətlər də ancaq insanların qəlbində şeytani hisslər və mənəm-mənəmlik ideyaları doğurmuşdur. Onlar bu kompramisə də cəmiyyətlərdə mövqe sahibi olmaq üçün gəlmişlər.[124]

Beləliklə, hörmətli oxucu yenidən xatırlatmaq gərəkdir ki, İslam islahatçılarının amacı bizləri (zaman-zaman yolundan azmış ümməti) İslamın ilk dövrlərinin əzəmətinə, gücünə və saflığına qaytarmaqdan ibarətmiş.

Bu bölmədə biz İslam refarmatorları cədidçilərin məhz bu ad altında tanınmalarının səbəblərini açıqlamağa çalışdıq. Etiraf edək ki, onların ictihada açıq fikirləri mütəfəkkirdən-mütəfəkkirə dəyişir və bu dəyişmələrin özü belə, tədqiqatçıdan islamın ağıl, məntiq və inanc əsaslarına da dərin toxunmanı tələb edir. Bir halda ki, hənbəlilərin fikrincə: "...İslam ehkamlarında Quran və hədis *mətinlərinin*

---

122 Гавдрахим Утыз Имяни ал-Булгари. Инказ ал-халикин («Спасение погибающих»), Казан, Татарское Книжное Издательство, 2007, с 137

123 Yenə orada səh., 138

124 Yenə orada, səh., 138, 139

*araşdırılmasında rasional metodların yayılması İslamdakı təfriqələrin başlıca səbəbidir".*[125]

Bununla belə, tədqiqatın bizə verdiyi fürsətdən istifadə edərək yenidən xatırlatmaq istəyirəm ki, İslam aləmində maarifçilərə (adını yenilikçilər qoysaq belə) bir mənalı münasibət yox idi. Bu fərqliliyin nədən ibarət olduğunu biz kitabın birinci bölməsində xeyli uzun izah etməyə çalışdıq. Müasir tədqiqatçılarımızdan Könül Bünyadzadə də bu çoxtərəfliliyin səbəbini öz klassifikasiyasında daha konkret vermişdir və biz də onu nəzərlərinizə çatdırırıq. Onun klassifikasiyasında **modernistlər**-İslam düşüncəsinin "avropalaşma" vasitəsilə yenilənməsinin tərəfdarları, İslahatçılar-klassik İslamın yeni təfsirçiləri və maarifçilər, **vəhdətçilər**-İslam fəlsəfəsini daxili potensialı ilə bugünün hakim fəlsəfi təfəkkürü arasında günün real şəraitinə uyğun olaraq vəhdət yaradanlardır[126] Tədqiqatçının modernistlər barəsində şərhini sizdə də maraq doğuracağına əminliklə qismən verməyi lazım bildik "...Modernizmin tərəfdarları İslamı Qərbin təqdimatında qəbul etməklə həm də öz ideyalarını Qərbin hazırda boşluq üzərində var olan və uçruma məhkum olan prinsiplərinin üzərində qurmağa çalışırlar. Modernləşmə yaxud avropalaşma adlandırıla biləcək bu proses, əslində, İslamın tarixi köklərinə bağlı olmaqdan daha çox, Qərb ideyalarının İslama daha dərindən nüfuz etməsidir. Bu işin ən faciəli tərəfi isə müsəlmanın özünün öz dininə qarşı düşmənə çevrilməsi və onun "köhnə" qanunları ilə mübarizəyə qalxmaq, qərbsayağı islahatlar aparmaq

---

125 R. Mustafayev **Orta əsrlər müsəlman svlizasiyasında bərabərlik problemi,** Bakı, Təknur, 2010, səh., 69.

126 Könül Bünyadzadə. İslam fəlsəfəsi tarix və müasirlik, Bakı,Çaşıoğlu, 2010.s., 48

həvəsinə düşməsidir[127]... Kitabın digər bölmələrində də biz cədid mütəfəkkirlərinə müraciət edərkən onların bu məfkurə altında daha nələri nəzərdə tutduğunu *açıqlamağa cəhd edəcəyik.*

127 Yenə orada səh., 48, 49

# TATARLARIN İCTİMAİ FİKİR VƏ İCTİHAD TARİXİNİN FƏXRİ İLAHİYYATÇISI KÜRSƏVİ KİMDİR? ONU YETİŞDİRƏN MÜHİTƏ HERMENEVTİK, YARADICILIĞINA DİNİ-FƏLSƏFİ BAXIŞ

**Mənim qəhrəmanlarımın demək olar hamısı İslam özülündə qərar tutmuş sufiliyin müstəvisinə səpələnmiş bir gülün ləçəkləri kimidirlər. Elə bir gülün ki, bir mənbədən-İslam elm və ədəbindən-su içmişdir. O, mənbədən su içənlər mənəvi aspektdə umulmaz dərin məzmunlu ədəbi-fəlsəfi əsərlər, incəsənət nümunələri yaratmışlarsa, sosial müstəvidə dövlətlər qurmağa cəhd etmiş və bu dövlətlərin bayraqlarında İslamı andıran atributları daima saxlamışlar...**

Milli şüurun oyanması və şəxsiyyət azadlığı problemini gündəmə gətirdiyinə görə cədidçilik ardı-ardına tədqiqatçıların diqqətini cəlb edən axınlardan biridir. Tədqiqatlardan görünən tərəf bundan ibarətdir ki, bu fenomenin yaranması çoxlu faktorlardan asılıdır. Belə ki, sinkretizm və mənbələrin çox komponentliyi də bu hərəkatın spesifikasının açılmasında yardımçıdır. Tədqiqatlarıımızın istiqaməti göstərdi ki, bu komponentləri yaradan tərəf yeni bir ideologiyanın meydana çıxmasına səbəb olmuşdur.

Düşünürəm Kürsəvi kimi bir mütəfəkkirin dini-fəlsəfi irsinin araşdırılması da bizə həmin komponentlərin formalaşması səbəblərinin açılmasına kömək edər. Bildiyimiz kimi, ötən əsrlərdə baş vermiş

“mədəni inqilab”ın səbəbi kimi ancaq “qabaqcıl” rus mədəniyyətinin təsiri göstərilirdi. Sovet fəlsəfə məktəbi isə “proqressiv” olanı “mürtəce” olandan ayırmaq devizi altında məhz İslam adına olanlara axırıncı yerdə diqqət ayırırdı.

Xatırladaq ki, tatar mədəniyyəti də ümumislam mədəniyyətinin bir hissəsi idi. Bu regionun dini-fəlsəfi fikrinin inkişafı müsəlman Şərqi, daha aydın söyləsək Orta Asiya ilə əlaqələrdən doğurdu. Rus və Avropa fikrinin təsirinə məruz qalmadan, məhz Orta Asiya mühitinin və ictimai-fəlsəfi fikrinin təsirini öyrəndikdə, bu mədəniyyətin formalaşdırdığı mütəfəkkirlərə həqiqi dəyərlərini və əsl adlarını vermək olar. Mənbələrin öyrənilməsi həm də zamana ayna tutan, yaradıcılığı, yaşamı bütöv bir epoxanı açıqlamaq üçün açar rolunu oynayan mütəfəkkirləri araşdırmağı tələb edir. Belə açar mütəfəkkirlərdən biri Azərbaycanda Bakıxanov idisə, Tatarstanda Kürsəvi idi deyə bilərik. Odur ki, Kürsəvi irsini incələmək, əslində, İslam mədəniyyətinin bu yaradıcılıqdakı əksini də incələməkdir.

Əvvəlcə qeyd edək ki, sovetlər dönəminin ilk illərində tədqiqatçılar Kürsəvini “doqmatizmə və sxolastikaya qarşı çıxış etmiş”[128] ilk tatar burjuaziya alimi hesab edərək araşdırırdılar. Hesab edirdilər ki, məhz o, təfəkkürün azadlığı (burada sərbəstliyi, təsirlərdən arınması-Ş.M) şüarı ilə çıxış edərək ruhani qrumların içərisinə parçalanma gətirən din adamıdır[129]. Qeyd etmək lazımdır ki, bəzi sovet tədqiqatçılarının imkanı olsa, əsirlər edən məsafəni qət edib Kürsəvinin cibinə bir kommunist pasportu qoyacaq dərəcədə

128 Валяди Дж. Очерки истории, литературы и образованности татар.-М.,Пг., 1923.

129 Səqdi H. Tatar ədəbiyyatı tarixi, Kazan, 1926

“təəssübkeşlik” etməyi özünə borc bilmişdir. Kürsəvinin belə bir “təəssübkeşliyə” ehtiyacı var idimi?...

Sovet hakimiyyəti illərində humanitar elmlər yeni metodologiya üzrə fəaliyyət göstərdikləri üçün materialist istiqamətə üz tutanlar cəmiyyətin ictimai və insanların ruhani-mənəvi həyatında ilahiyyatın rolunu heçə endirirdilər. Bizim ateistik keçmişimiz indilərə qədər bizi dini düşüncənin mədəniyyətin tərkib hissəsi olmasını qəbul etməyən metodoloji ülgülərdə saxlamaqdadır.

Bununla bərabər, dini düşüncə tərzinin cəmiyyətin aparıcı dünyagörüş forması olmasını, bu dünyagörüşün mədəniyyəti zənginləşdirməsinin təkzib edilməz olduğu nə yaxşı gündəmimizdədir. XXI əsrin insanı hər nə qədər elmin, texnikanın inkişaf etdiyi dövrdə yaşasa da, o dinin, insanın mənəvi simasının formalaşmasindaki rolunu təkzib edə bilməz. Günümüzün düşüncəli insanı təkamül nəzəriyyəsinin bir masson ideologiyası olduğunu dərk etmiş, mahiyyətlərdə görünən Yaradıcının qüdrətinə inanmışdır.

Bəşəriyyətin təkamül tarixindən insanı istər-istəməz müqəddəs varlıqlara və seçkin əşyalara ibadət etməyə “vadar olduğunu” bilirik... Belə ki, müqəddəsliyə etiqad, müqəddəslik axtarışı dini bilgilərimizdən məlum olduğu kimi, insanın genetik koduna hopdurulmuşdur. Fəlsəfənin terminləri ilə ifadə etsək, belə deyərik ki, “bütün varlıqların mahiyyətində Yaradanın substansiyası mövcuddur və şüurlu varlıq daima mövcudluğunun mahiyyətinə can atır”[130].

Bruno Cordano XIV əsrdə arzu edirdi ki, insanlar “dinin əqli” əvəzinə, “əqlin dini”nin qələbə çaldığı bir cəmiyyətin təntənəsi ilə

130 Şəkixanova M. Sufizm fəlsəfəsinin Kamil İnsan konsepsiyası, Bakı, Təknur, 2007 s.53

yaşasınlar[131]. Gözəl arzu idi. Bu istəyin arzulandığı vaxtdan beş əsr keçib. Belə ki, bir çox cəmiyyətlər artıq özlərinin "əqlin dini" ilə idarə olunduqlarını söyləyirlər. Alman filosofu Şeler Maks (1874-1928) da yazırdı ki: "O azadlığa azadlıq deməröm ki, onun gülümsəyən siması arxasından qanunların dəmir əli görünmür"[132]. Bu yəqin ki, Avropanın bugünkü dinidir.

...Bu girişdən sonra hörmətli oxucunun diqqətinə çatdırmaq istəyirəm ki, bugünkü tatarlar düşüncə tarixlərinin və bu tarixin yaradıcıları olan düşüncə insanlarının yaradıcılığının lazımi səviyyədə öyrənilib incələnmədiyini qeyd edirlər[133]. Müasir tədqiqatlarda tatar aydınları bunun bir neçə səbəbini göstərirlər. Əslində, bütün səbəblər tatar düşüncəsinin yaratdıqlarının ..(yazılı mənbələrin) Kazan xanlığının rus dövlətinə birləşməsi ilə əlaqədar olaraq itməsindən qaynaqlandığını deyirlər.[134] Bu günə çatan yazılı mənbələrin özünün belə, müasir oxucuya çatacaq dildə olması üçün öz tədqiqatçısını gözləməsi elə müasir tatarları narahat edən səbəblərdən daha biridir. Yeri gəlmişkən qeyd edək ki, bu səbəbləri, eləcə də Azərbaycan məfkurə tarixini yaratmış bir çox dəyərli insanların irsinin tədqiqi və günümüzə çatdırılmalı olmasının vacibliyi haqqında da söyləmək olar. Bu işdə hər nə qədər obyektiv səbəblər olsa da, əlifbaların dəyişdirilməsi ilə başımıza gələn "müsibətləri" təkrarlayacaq az dərdimiz var. Digər tərəfdən də İslamın gəlişi və İslam düşüncə tərzinin

---

131 Fərrux Ramazanov və çoxlu müəlliflərin redəktəsi ilə Ali məktəblər üçün fəlsəfə dərsliyi. (İntibah dövrü bölməsi), Bakı, Elm, 2001,

132 Əlisa Nicat. Dünya Filosofları, Bakı, "Sabah" nəşriyyatı, 2005, s., 296 (540)

133 Анталогия Татарской Богословской мысли., Абун-н-Наср Курсави, Казань, Татарское книжное издательство, 2005, 233s.

134 Yenə orada

təsiri altında yazılmış, yaxud sadəcə din adına hörmət əlaməti ilə "Bismillahir Rəhmanir Rahim" kəlməsi ilə başlayan kitabların "bəxti" heç gətirmədi. Bu günün sədaqətli tədqiqatçısı isə həmin mənbələri ya heç görməyib, ya da onları quyulardan, qəbristanlıq guşələrindən, ayrı-ayrı insanların arxivlərindən axtarmağa məcburdur...

**Tatar İlahiyyat Məktəbinin Kürsəvini yetişdirməsinə qədər olan tarixi.** İllərlə aparılan tədqiqatlardan aldığımız yekunlardan söyləyə bilərik ki, tatar "ilahiyyatı məktəbi"nin çox əsrlik tarixi vardır. Türk məfkurə tarixinin işıqlı simalarının bir çoxu elə məhz bu məktəbin yetirmələridirlər Kürsəvidə...

Əbü-n Nəsir Kursəvi tatarların islahatlar tarixinin fəxri mütəfəkkiridir. ...Mənbələrin verdiyi məlumatlara görə, Buxara əmirinə edilən xəbərçiliklər və yalan məlumatlar vəsiləsi ilə ölümə məhkum edilən Kürsəvi öz doğma aulunda fəaliyyət göstərdiyi mədrəsəni tərk edərək müqəddəs həcc ziyarətinə yollanmış, lakin Məkkəyə varmadan yolüstü uğradığı İstanbul şəhərinin Asiya istiqamətindəki Üsküdar bölgəsində vəbaya tutularaq vəfat etmişdir[135]...

...Kürsəvinin epoxası (XVIII əsrin sonları) tatar iqtisadiyyatının çiçəkləndiyi dövrə təsadüf etmişdir. Tarixdən bildiyimiz kimi, Tatarıstan vilayətini də lərzəyə gətirən Puqaçov üsyanları 1775-ci ildə bitdi. Bu zaman bir çox tatar bəyləri, ümumiyyətlə, varlıları özləri sadə bir həyat yaşamaqla Luka Konaşeviçin (öl. 1758)[136] dini

135 Айдар Хабутдинов. Габдуннасыр Курсави-татарский Лютер.(Лидеры нации. Автореферат, Казан, 20014) См; cetext.ru/gabdunnasr-kusavi-tatarskiy-luter.html?page=2 29.03.2018)).

136 Yepiskop Luka Lavrenti (Konaşeviç) 9 mart 1738-ci ildən Kazan kafedrasına yerləşdi və ömrünün 17 ilini orada keçirdi. Onun bu ömür tarixçəsi birmənalı qarşılanmamışdır. Hər şeydən əvvəl onun adı İslama qarşı qısqanc bir mübarizə aparması ilə çəkilir. Luka Konaşeviç Kazan

abidələrə və mədrəsələrə vurduğu divanı aradan qaldırmaq üçün külli miqdarda pul xərcləyərək yeni mədrəsələr tikdirir, ziyan görmüşləri təmir etdirir, sədəqələr verir, imanlı kasıbları Həcc ziyarətinə göndərirdilər – bunu tatar tarixçisi Əbdülbari Battal yazır.[137] Tatar tarıxçisi yazır ki, həmin dövrdə İslam, Qasımovdan (məkan adıdır-Ş.M) Tabolsk vilayətinə, Astarxandan Peterburqa qədər yayılmış tatar cəmiyyətlərini birləşdirmək üçün ən yaxşı hami idi[138].

O əsrdə Buxarada ticarətdən gələn əsas gəlirləri götürdükləri üçün tatarlar xanlığın rəsmi ruhani idarəsinin güclü surətdə qurulmasında bilavasitə iştirak edirdilər. Yaşamın maddi tərəfi bu cür həll olunduğu üçün xanlığın mənəvi yəni, ruhani idarəçiliyinin işlərinin də əsas hissəsini tatarlar aparırdılar. Şəhər elitası təhsili praktiki olaraq ticarət üzərinə yönləndirirdi. Dövlət şəhərin ticarətlə məşğul olan əhalisi üzərində xüsusi bir nəzarətçi funksiyası icra edirdi. Hiss olunan texniki proqresin nəticəsi olaraq isə mədrəsələrdə müsəlman şəriətini, Şərq xalqlarının fikir tarixini öyrənən, dilləri (xüsusi ilə fars dilini-Ş.M) bilən ruhani və dünyəvi elitanın yetişdirilməsi prosesi başlamışdı. Beləliklə, Orta Asiya mədrəsələrindəki əsas təhsil o zamanın müasir müsəlman icmasında öz statusunu təmin etmək üçün şagirdlərə verilən yeni istiqamətdən ibarət idi. Burada izahata ehtiyac var. Deyək ki, müsəlman təhsil modeli, ilk növbədə, Qurana və Sünnəyə, daha sonra isə erkən müsəlman mütəfəkkirlərinin nəzəri

---

məscidlərini dağıtdırması və Kazan əhalisini pereferiyaya (yeni Kazan icması) köçürməsi ilə də məşhurlaşmışdı. Tatarların el arası danışıqlarına o, "qara saçlı axsaq" adı ilə mənfi personaj kimi daxil olmuşdur (daha ətraflı bax; https:/ru.wikipedia.orq/wiki/Лука_(Конашевич)

137 bax cetext.ru/gabdunnasr-kusavi-tatarskiy-luter.html?page=2 29.03.2018)).

138 Yenə həmin sayt.

və praktiki naliyyətlərinə əsaslanırdı [139]. Belə ki, müsəlman alimləri təlim və tədrisdə bütövlükdə insan həyatını və onun bütün aspektlərini (dünyagörüşü, fiziki sağlamlığı və ədəbini) nəzərdə tuturaq əsaslı şəxsiyyət yetişdirməyə çalışırdılar.

Qeyd etmək vacibdir ki, "İslam təhsil sistemi hər yaşda şəxsiyyət yetişdirilməsini həyata keçirməyə yönəlik bir sistem olmuşdur. Belə ki, bu təhsil sistemi şagirdləri biliksizlikdən biliyə doğru apararaq və insanda bir dünyagörüşü formalaşdıraraq bu sistemə uymalı olanlara yalnız bilik deyil, bütövlükdə dünyanı anlamaq və bu dünyada necə yaşaya bilmənin düsturunu öyrədəcək dünyagörüş bəxş edirdi".[140] Bu fikri fəlsəfi müstəviyə keçirib ifadə etsək, bir sözlə, İslamda dünyagörüşünün məntiqi intellektual və hissi emosional tərəflərinin tarazlığı yerində olan şəxsiyyət yetişdirmək nəzərdə tutulurdu. Bu təhsilin son məqsədi təfəkkürlü (xeyirxah düşüncəli), ədəbli (islami ülgülərə uyan) şəxsiyyət modeli əldə etməkdən ibarət idi. İslamdakı "ədəb" (türk alimlər bunu "İslam adabı" kimi işlədirlər-Ş.M) həm mənəvi, həm maddi, həm də sosial münasibətləri özündə ehtiva edən termindir. Elm adamları bu terminin ehtiva etdiyi davranışa sahib olmanı hikmət xəzinəsindən sərvət götürməyə bənzədirlər. Bu davranış və biliyə malik olanlar yüksək keyfiyyətlərə sahib olduğu üçün səhvlərdən də xali olurlar, söyləmiş İslam müdərrisləri. Odur ki, məhz bu əsaslara söykənirdi islam pedaqogikası[141] və yenilikçi ilahiyyatçıların da söylədikləri.

---

139 Анталогия Татарской Богословской мысли., Абун-н-Наср Курсави, Казань, Татарское книжное издательство, 2005, с21

140 Г.Ю.Хабибулина Редогогическая система образование в Исламе. Вестник ПСТГУ, Серия Педагогика Психалогия, Москва, 2016, с31-35

141 Г.Ю.Хабибулина Редогогическая система образование в Исламе. Вестник ПСТГУ, Серия Педагогика Психалогия, Москва, 2016, с 32.

Ümumiyyətlə, İslam tədrisinin möhkəm əsasları hələ orta əsrlərdə qoyulmuşdu. Yuxarıda qeyd etdiyimiz kimi, o, müsəlman ədəbinin və hüququnun fundamental mənbələri olan Qurana və Sünnəyə, eləcə də Əbu Əli İbn Sina, Nəsrəddin Tusi, Əbu Nəsr Fərabi, İmam Qəzali kimi İslam alimlərinin çalışmalarına (hansılar ki, insanı bir şəxsiyyət halında maddi və mənəvi tərəflərinin tarazlığını gözləyən ədəbli bir fərd kimi görmək istəyirdilər) söykənirdi[142]. Belə ki, onların da İstiqamətləndirmələri dinin əxlaqi-etik dəyərləri üzərinə olub İslamın yadrosunu təşkil edən "düşün"[143] müraciəti üzərinə idi. Bu istiqamətləndirmə İslam pedaqoqikasında cəmiyyətin sosial normalarına cavab verən, eləcə də fərdi şəxsiyyət kimi formalaşdıracaq gücə malik idi. "Özlərinin mövcudluğuna görə islama borclu olan ən-ənəvi elmlər hüquqi fənlərdən başqa Quran estetikasını İslam hüquqşünaslığının köklü prinsipləri: üsul əl-fiqh və fiqh özü (4 sünnü məktəbinə məxsus olan üsul-əl fiqh. İslam hüququnun əsas prinsiplərinə əsaslanırdı). Buraya Quran estetikası **təfsir (Quranın izahı), təcvid Quranın oxunuşunun əsas prinsipləri**, Quranın düzgün oxunuşu **qirayə (**İslamın müqəddəs kitabının qəbul olunmuş oxunuşu nəzərdə tutulur-Ş.M) və ilahiyyatı, müqəddəs rəvayətlər-hədislər, ilahiyyat (tövhid və ya kəlam) islam mistisizmi-təsəvvüf də daxil idi"[144].

Məsələ burasında idi ki, İslam ənənələrinin yaşadığı ilk əsrlərin qayda-qanunlarından uzaqlaşan, ticarəti mövcudluğunun

---

142 Г.Ю.Хабибулина Редогогическая система образование в Исламе. Вестник ПСТГУ, Серия Педагогика Психалогия, Москва, 2016, с31-35

143 Qurani-Kərim 96/1

144 Мир-Багирзаде С. Культура Исламской цвилизации, Баку, Елм, 2011.

başlıca atributu kimi önəmsəyən Buxara hakimlərinin siması artıq çoxdan İslami ülgülərlə uzlaşmırdı[145] . "İslamın bütün qaydalarını pozan ruhani idarəsi Quran təfsirini inhisarına alaraq Buxara əmirinin toxunulmazlığını ilahiləşdirir, Allahın sözünü "özəlləşdirir"dilər. Ruhanilər hakimiyyət tərəfindən verilən fətvalar ətrafında sofistlər kimi elə polemikalar aparırdılar ki, son məqamda hakimiyyətə sərf edən mənanı versin"[146].

Beləliklə, əmirlik xaricdə olub bitən mütərəqqi hadisələrə biganə surətdə xalqı var-yoxdan çıxarmada və mütiləşdirmədə davam edirdi. İqtisadiyyat çökməkdə, süquta uğramaqda idi. Məhkəmələrdə hakimlər pul və bu çürük hakimiyyətə sədaqəti ədalətin simvolu hesab edirdilər. Buxara əmirliyi elə məhz bu səbəblərdən Rusiya və Britaniya arasında ikili oyunların siyasəti meydanına çevrilmişdi.[147] Üləmalar və Əmirsə mövcud hakimiyyətin ən ədalətli və Allah tərəfindən seçilmiş hakimiyyət olduğunu tərif etməkdən yorulmurdular. Buxara əmirliyi kimi İslam sivilizasiyasına töhfələr vermiş bir məmləkət necə oldu ki, bu formaya düşdü. Bunun tarixini araşdırmaq həm də bizim Kürsəvi kimi bir mücəddidin yetişməsinə səbəb olan qarışıq dönəmlərə işıq tutacağımıza işarədir.

...Kürsəvi aşağı-yuxarı 36 ili əhatə edən qısa bir ömürlə xeyli orjinal məzmunlu, o cümlədən "əl-İrşad lil əl-ibad" kimi irs qoyub

---

145 Айдар Хабутдинов. Габдуннасыр Курсави-татарский Лютер.(Лидеры нации. Автореферат, Казан, 20014) См; cetext.ru/gabdunnasr-kusavi-tatarskiy-luter.html?page=2 29.03.2018)).

146 Анталогия Татарской Богословской Мысли. Габдурахим Утыз-Имяни ал-Булгари, Kazan, 2007, с.,18

147 Айдар Хабутдинов. Габдуннасыр Курсави-татарский Лютер.(Лидеры нации. Автореферат, Казан, 20014) См; cetext.ru/gabdunnasr-kusavi-tatarskiy-luter.html?page=2 29.03.2018)).

gedə bilmişdir. Bu traktat onun yaradıcılığının ən diqqətçəkici tərəfi olub yarandığı zaman, məkan və onu qələmə alanın şəxsiyyətinin ilahiyatın, etikanın, fiqhin, fəlsəfə və ictimai fikrin kontekstindən görünən varlığı ilə bir bütövdür. Kürsəvinin şəxsiyyətinin görünməyən tərəflərini açıqlamaq əsərlərini incələmək üçün 6-7 istiqamətdən gələn ədəbiyyatları incələmək və zamanına hermenevtik səyahət etmək lazımdır. (Biz bunu kitabın Kürsəviyə ayırdığımız səhifələrində lazımınca edə bilmədik. Onun yaradıcılığı daha fundamental bir araşdırma tələb edir-Ş.M). Tatarların ictimai fikir tarixində oynadığı rola, şəxsiyyətinin görünən və görünməyən aspektlərinin sərgiləndiyi mürəkkəb zamana və bir neçə mədəniyyətin qovşağında mövcud olan-yaşamış olduğu-məkana görə Kürsəvi Azərbaycan mütəfəkkirlərindən zənnimcə daha çox Abbasqulu ağa Bakıxanovla müqayisə oluna bilər.

Belə ki, Kürsəvi yaradıcılığını açmaq üçün, ilk növbədə, tatar ictimai fikrinin Orta Asiya mənbələrinə müraciət etmək mütləqdir. Bu baxımdan ilk öncə Mərcaninin "Nəzurət əl-hak", Yalçiqulun "Risaleyi Əzizə"kimitataryazılıədəbiyyatınınabidələrindən,"Tatarpoeziyasının antaloqiyası"ndan, eləcə də Şihabəddin Mərcaninin, Rza Fəxrəddinin, Mustafa Rəmzinin əsərlərindən Kürsəvinin avtobiaqrafiyasının önəmli nüansları az bilinən tərəfləri müəyyənləşdirilə bilər. Müasir tədqiqatçılardan Kemperin[148] Kürsəvinin ənənəçi üləmalarla olan mübahisələrinə həsr olunmuş əsəri daha səhih mənbə hesab oluna bilər. Digər bir qrup hansı ki, Kürsəvini, dövrünü bizim üçün "yarada" bilər, bunlar Volqaboyunun bir neçə əsrdə yaranmış ədəbiyyatıdır. Tədqiqatda İbn Fədlan, əl-Qərnati, İbn Bətutə kimi orta əsr səyahətçilərinin qeydləri də nəzərə alına bilər. Orta Asiya tarixinin

148 **Kemper M.** Entre Boukbara et la Moenne-Volqa: Abd an-Nasr al-Qursavi (1776-1812) en confllit aves qulemas traditionalistes //Cahires du Mjonde russe, XXXVII (1-2), janvier4-juin, 1996.

və mədəniyyətinin barəsində olan Bartold, Bertels, Braqinski kimi şərqi, islam aləmini incələmiş tədqiqtçıların əsərləri, həmçinin Orta Asiya hakimlərinin barəsində yazılan avtobioqrafik əsərlər, məsələn, Teymurun tərcümeyi halı, Baburun "Baburnaməsi" də daxil ola bilər. Eyni zamanda, Şeyx Niyzqulu əl-Ləbbabi əl-Türkməninin müridi Kürsəvinin yaradıcılığı tədqiqatın obyekti olunca sufizmin XX və XXI əsrdə yaşayan Azərbaycanlı tədqiqatçılarının[149] əsərlərini də "tədqiqatın incələmə labaratoriyasına" dəvət etmək olar deyirik... İllərdir ki, biz bu ədəbiyyatlardan bəhrələnir, bölüşür mübadilələr edirik.

Bildiyimiz kimi, İslam dininin mərkəzi sütunlarından birini onun qurtuluş doktrinası tutur. Qurtuluşa can atmanın insanın dini təfəkküründə yer alması onun əxlaqının təyinedici imperativlərindən birinə çevrilmişdir. Hər ideoloji axın və hətta hər dönəm bu anlayışın məzmununa öz qatqısını etmişdir – desək yanılmayacağıq. İslamın insanlar və ümumilikdə, inananlar üçün nəzərdə tutduğu "qurtuluş

149 Onların cərgəsinə Zümrüd xanım Quluzədə özünün **"закономерности развития восточной философии XII-XVI** вв и проблема Запад Восток**"**, Baку, 1983, və Мировоззрение Касими Анвара, Baку, Элм, 1976. və bir çox əsərləri ilə, Solmaz xanım Rzaquluzadə Мировоззрение Баба Кухи Бакуви**,** Баку, Элм, 1978 və Пантеизм в Азербайджане в X**I-XIII** вв**.**, Баку, Элм,1982 və sufizmə həsr etdiyi bir çox tədqiqatları ilə, Şaiq İsmayılovu **"Mahmud Şəbüstərinin fəlsəfəsi,** Bakı, Elm, 1987. əsəri ilə, Arif Bəşirovu. **Sufizm və orta əsr Şərq müsəlman mədəniyyəti.** Qədm dövr və orta əsrlərdə Azərbaycan bədii mədəniyyətinin yaranması və inkişafının sosial aspekti /Respublika elmi praktik konfransının materialları, Bakı, 1990 və **Sufizmin ingilis-amerikan mənbələrində öyrənilməsi əsəri** və bir çox başqa tədqiqalarıilə, Kazım Əzimov, Könül Bünyadzadə **"Təsəvvüf fəlsəfəsinin ilk mənbələri Sərrac Tusi "əl-Lümə""** əsəri və silsilə tədqiqatları ilə Yusif Püstəmovu, **"Cəlaləddin Ruminin sufilik fəlsəfəsi"** ilə, İradə Zərqanayeva **"Abu Həmid Qəzalinin fəlsəfi-etik görüşləri**, Bakı Təknur,2007 və bir sıra tədqiqatları ilə, Xuraman Hümmətova "**Azərbaycan şeirinin poetik qaynağında təsəvvüf,** Bakı, Elm və Təhsil nəşriyyatı, 2015, 408s əsəri və bir çox başqa sanballı əsərləri ilə, Səadət Şıxıyeva **"Nəsimininin eşq konsepsiyası"** ilə, Mətanət Abdullayeva, Nəzkət Məmmədli isə Azərbaycan Nigarişünaslığına verdiyi töhfələrlə məs **"Mir Həmzə Seyid Nigarinin "Nigarnaməsi"" Mir Həmzə Seyid Nigari Fars Divanı**, Bakı, Elm,2011 və sufizmə verdiyi başqa töhfələrlə, Nəriman Süleymanov **" İslam mədəniyyəti və sufizm",** Bakı, Nurlan, 2011, Sərxan Xəvari özünün **Milli mədəniyyət sistemində poetik təssəvvüf kodu.**, Bakı, Elm, 2016 əsəri və bu sahədə bir sıra tədqiqat işləri ilə daxil ola bilər.

doktrinası"nı açmaq üçün iki ana başlığı, yaxud istiqaməti bilmək lazımdır. İslam mədəniyyətini əhatə edən (İslam ən-ənəsi, Quran, Peyğəmbər (s.ə.s) sünnəsi, müsəlmah fiqhi və İslam ehkamını) elm, və adabı (hansı ki, İslam əxlaqını, onun etik tərbiyəsinin atributlarının cəmini və istigamətverici ədəbiyyatı əhatə edir) başa düşmək lazımdır. İslamın qəbul olunması tatarların əcdadlarına da elm və ədəb məsələlərini həll etmək və eyni zamanda İslamın mənəvi xəzinəsinə əlavələr etmək üçün əvəzolunmaz bir imkan açmış oldu[150].

Bir zamanlar Orta Asiya mədəniyyətinə daxil olan bulqar-tatar ölkəsinin elminin və sənətinin bütün sahələrinə bu dominantlıq daşıyan mədəniyyət öz təsirini göstərmişdir. Belə ki, Məvərənnəhirdə Səmanilər sülaləsinin hakimiyyətinin çiçəkləndiyi zamanın özü yaradıcı ideya mühitinin formalaşmasına səbəb olmuşdur. Şübhəsiz ki, bu təsirin altına bulqarlar və tatarlar da düşməyə bilməzdi. Elə həmin bu dövrdə Nişapurla da sıx əlaqə saxlanılırdı ki, həmin vaxt orada Əbu Həmid əl Qəzali (1058-1111), Ömər Xəyyam (~1048-son 1122), Qəzalinin də müəllimi olmuş, Məali əl-Cüveyninin (1028-1085) şagirdi, bulqar tarixçisi Yaqub bin Hümanın yaşaması bulqarların elmi düşüncəsinə geniş diapazonla öz təsirini buraxmışdır.

Volqaətrafı və Orta Asiyaya keçən İslam hüquqi norma, prinsiplər və ehkamla süslənmiş konkret simaya malik idi. Belə ki, Volqaboyu İslamı qəbul etdi, amma onun sufizm fazasını götürdü və bu təriqətin formalaşmasında özüdə bilavasitə iştirak etmiş oldu. Bu söylədiyimizə bir az da aydınlıq gətirsək deməliyik ki: "Volqaboyunda İslamın sufizmin örtüyünə bürünməsi yasəviyyə təriqətinin xidməti idi. Bu isə özlüyündə sufizmin Cüneyd xüsusiyyətli (mötədil) qolunun

150 Анталогия Татарской Богословской Мысли. Габдурахим Утыз-Имяни ал-Булгари, Kazan, 2007, с.,6.

bu torpaqlara yayılması”[151] – demək idi. Beləliklə, Volqaətrafı məmləkətlərdə türkdilli poeziyanın yaranması o zamandan ta XIX əsrin ortalarına qədər bütün İslam dünyasında olduğu kimi bu təriqətin təsiri altında, sufizm mənbəyindən qidalanaraq formalaşdı. Qeyd edək ki, mötədilliyi və tolerantlığı sufizmi yekrəng olmayan axına çevirmişdi. Onun təsiri özünü o dənəm elm və ədəb siferasında yaranmış bütün əsərlərdə göstərirdi.

X-XIII əsrlərdə Yasəviyyə təriqətinin əsasında formalaşmış və Orta Asiyaya (Məvərənnəhrə) istiqamətlənmiş mədəniyyət Volqaətrafının mədəni inkişafının spesifikasını təşkil edirdi.[152]

Beləliklə, mövcud situasiyada sufi qardaşlıqlarının rolunun güclənməsi bütünlükdə əlaqələr sistemində ozünü biruzə verərək bağları bir yerə bağlayan əsas bağ rolunu oynayırdı.

Qızıl Orda vaxtında Xarəzm və Volqaətrafı Cucilər dövlətinin tərkibinə keçdi. Bu keçid Məvərənnəhri Caqatay ulusuna çevirdi. Bu dönəmdə də Volqaətrafı özünə Caqataylar dövlətinin intellektuallarını cəlb edir, bununla da türkdilli xalqların ənənələrinin və ictimai fikrinin hamisinə çevrilirdi... Təəssüf ki, Teymurun hücumları Qızıl ordanın parçalanması bu prosesi zəiflətdi. Teymurun səyi nəticəsində müsəlman mədəniyyətinin istiqaməti yenidən Məvərənnəhrə çevrildi. Əvvəl məcburi sonra isə təbii axının Məvərənnəhrə yönəlməsi Teymurilərin çiçəklənməsi dövründə hər iki regionun inkişafına səbəb oldu...

151 Идиятуллина Гульнара Гаделевна. Абу Наср Курсави и среднеазиатские истоки татарской мысли конца XVIII начала XIX веков (по материалам трактата «ал Иршад ли-л-ибад) (tarıx elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilən dissertasiya işi) Kazan, 2001 с., 43.

152 Идиятуллина Гульнара Гаделевна. Абу Наср Курсави и среднеазиатские истоки татарской мысли конца XVIII начала XIX веков (по материалам трактата «ал Иршад ли-л-ибад) (tarıx elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilən dissertasiyanın avtoreferatı)), Kazan, 2001,səh3

Elə məhz bu zamanda da 400 il dəyişilməyən mədrəsə təhsilinin əsası qoyuldu ki, bizim də buraya qədərki tarixi incələməmizin əsas səbəbi bunu bilməmizin zəruriliyindən idi. Qeyd edə ki, mənbələr məhz bu illərdə formalaşan və ciddi surətdə şəriətə əməl edən, sufizmin mötədil qolu olan nəqşibəndiyyənin Orta Asiyadan Volqaətrafına daxil olduğunu xəbər verir[153]. Nəqşibəndilər tərəfindən təbliğ olunan sosal aktivlik ideyaları hər iki xalqın maddi və mənəvi inkişafına səbəb oldu. Nəqşibəndiyyə mənəvi və sosial müstəvidə apardığı təbliğatın gücü ilə[154] özünün yetişdirdiyi monqol imperiyasının əsasını qoyan Zahirəddin Baburun müəllimi olmuş Xoca Übeydullah Əhrar **(1404-1490)**, Əbdürəhman Cami **(1414-1492)**, Əlişir Nəvai **(1441-1501)** kimi nəhəngləri yaratmaqla öz zirvəsinə çatmışdır[155]. Alqara[156] görə, Volqaətrafının ilk nəqşibəndi Şeyxi Xoca Əhrarın tələbəsi Məhəmməd Əmin Bulqari **(?-öl. 1496)** olmuşdur.

Tatar xalqının tarixində 1552-ci il dönüş nöqtəsi oldu. O vaxtdan etibarən müsəlmanların **dar əl-İslam** olan ölkəsi, **dar əl-xarab** olaraq düşmən ərazilərinə çevrildi.[157] Yeni hakimiyyətə gələn dövlətin

---

153 Анталогия Татарской Богословской Мысли. Габдурахим Утыз-Имяни ал-Булгари, Kazan, 2007, с., 6, 7.

**154** M. Şəkixanova. **XIX əsrin dünya fəlsəfəsi tarixindəki xarakterik xüsusiyyətləri və bu əsrdə yaşamış Azərbaycan Nəqşibəndi şeyxi Mir Həmzə Nigari, Türkiyə (Amasya), 2012, s.,239-247**

155 Раджабов И. Абдуррахман Джами и таджикская философия ХУ века. Душанбе: Ирфон, 1968, 316 с.

156 Algar H. Shaykh Zaynullah Rasulev/ The last Great Naqshbandi Shaykh of the Volqa-Urals reqion/|Muslims in Central Asia. Exspressions of identity and Cange/-Durham and London? 1992-p.112

157 Идиятуллина Гульнара Гаделевна. Абу Наср Курсави и среднеазиатские истоки татарской мысли конца XVIII начала XIX веков (по материалам трактата «ал Иршад ли-л-ибад) (tarıx elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilən dissertasiya)), Kazan, 2001,səh 57

yüksək ranqından aparılan dini genosid, yeridilən siyasətin nəticəsi oldu. Rusiya yeni təbəələrinə qarşı beləcə amansız oldu. Professor Mühəmmədşin yazır ki, tatarların bu bəxtsiz məmləkətini kaloniyaya çevirmək siyasəti həm də bu ərazilərdə pravoslav missionerlərin eninə-geninə xristianlığı təbliğ etmələrinə də nədən oldu.[158]

1649-cu ildə dini icmanın (katedralın) buraxılmasından sonra qısacası I Pyotrun və Elizaveta Petrovnanın hakimiyyəti illərində bu amansızlıq maksimum həddə çatdı. Aparılan əsr yarımlıq məqsədyönlü siyasətin nəticəsi olaraq məmləkət dövlət yaradacaq, onu idarə edə biləcək intellektual, əzimkar potensialı ilə birlikdə həm də incəsənətə dəyər verən sifarişçilərini, hansılar ki, bu füsunkarlıqlara pul ayırırdılar, bir sözlə, öz zadəgan təbəqəsini, hamisini itirdi. Beləliklə, etik-estetik zövqə olan hücum, yüksək dəyərlər yaradan insanlarda əl yazma sənətinə, kalliqrafiya, minyatüra, zərgərlik işinə olan həvəsi söndürdü. Nəfis işlənmiş silahların, monumental memarlığın məhvi də bu cərgədə yer ala bilər. İslam ölkələrinin özünəməxsus ədəbiyyat istiqamətləri olan divan, təkkə (dərviş sığınacaqları), və sadə xalq yaradıcılığı növləri "atış-qatış" olub sərhədlərini çaşdırdı.

[61].

Tatar icmasında (rusların tatarların qurduğu düzəni pozmasından vəxristian"missionerlərin" öz siyasətlərini yerinəyetirməsindən sonra- Ş.M) bəzi sufilərə, işanlara[162]qarşı nifrətlə yanaşı, Ruhani İcmasının da bir hissəsinə müxalifət yaranmışdı. Müfti Məhəmmədcanın **(1756-1824)** hiyləgərliyi, satqınlığı çoxlarında narazılıq yaratmışdı. Belə ki, Müfti seçmək imtiyazını da dövlət öz üzərinə götürdüyü üçün icma

158 Идиятуллина Гульнара Гаделевна. Абу Наср Курсави и среднеазиатские истоки татарской мысли конца XVIII начала XIX веков (по материалам трактата «ал Иршад ли-л-ибад) (tarıx elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilən dissertasiya)), Kazan, 2001,səh 34

159 Yenə həmin mənbə (Идиятуллина Гульнара Гаделевна). s 34

160 Анталогия Татарских Богословской Мысли. Габдрахим Утыз Имени ал-Булгари, Казан, 2007, 313с

161 Orta Asiya mədəhiyyətinin (Məvərənnəhrin) süqut etməsi, rus istilaları, kafir repressiyaları onsuzda tarixdə eklektik axın olan başqa ideologiyalarıda suçəkən kimi özünə çəkmiş sufizmində içərisinə parçalanmalar saldı və bu bölgədə də yalançı sufilər meydana gəldi. Bu yalançı sufilər reqionlarda bəzən şeyxlərinin icazəsi olmadan, bəzən də başqa istiqamətdə, ən pisi isə başqa sahədə təhsil alan şagirdlər sufilərdən müəyyən təmrinlər öyrənib, bildiklərini də üstünə qoyub dualar yazmaq, türkəçarə müalicələr etməklə məşğul olaraq bu adı qaznmışdılar.

üzvüləri onların razılığı olmadan seçilmiş bu müftiyə qarşı idilər[163]. Ona (müftiyə) qarşı olan bu narazılığı qələmə alaraq həcv yazan Valid Karqalı[164] **(**öl**. 1802)** onun bu obrazını tənqid etmək cürətində bulunmuşdur...

Fikrimizin axınını məcrasına yönəltmək üçün deməliyik ki, Kürsəvinin məmləkətində neçə əsrlər idi ki, Orta Asiya təhsil sistemi ilə tədris edən mədrəsələr olduqca çox idi və xatırladaq ki, Bulqari, Kürsəvi, Musa Bigiyev kimi sufizmin bəlli yolunu keçmək nəsib olmuş, azadfikir yürüdə bilmək üstünlüyünü əldə etmiş işıqlı şagirdlər üçün o zamankı mədrəsələr və onlarda çalışan ruhanilərin təhsil səviyyəsi yetərli görünməməyə[165]başlamışdı[166]. Bu bir tərəfdəndən də onların dəfələrlə repressiyalara məruz qalmış məmləkətlərinə vətəndaş yanğısının, ziyalı münasibətinin təzahürü idi. Onlar və o zamankı türk aydınlarının çoxları zaman axarında tamamilə “yuyulub gedə bilmə” əndişəsini on illər öncə görə bilmə fəhminə malik idilər. Başqa dövlətlərin təcavüzü və müstəmləkə siyasətlərinin səbəblərini yaxşı başadüşən aydınlar bu basqının gücünə bərabər əks bir güclə

---

162 Идиятуллина Гульнара Гаделевна. Göstərilən avtoreferat s.,11.

163 **Valid ibn Amin Karqalı** (öl~1802) Mənbələrdə Utız İməni Bulqarının ilk müəllimi yolgpstəricişi hesab olunur. Onun nəqşibəndiyyə ordeninin məşhur Şeyxi Faizxan Kabulidən icazətnamə alması söylənilir. Daha ətraflı bax; Анталогия Татарских Богословской Мысли. Габдрахим Утыз Имени ал-Булгари, Казан, 2007, c30

164 Анталогия Татарской Богословской Мысли, Абун-н-Наср Курсави, Казань, Татарское книжное издательство, 2005, c 18

165 Utız İməni Bulqarinin həyat və yaradıcılığına həsr olunmuş Antaloqiyanı çapa hazırlayan, ərəb dilində olan mətinləri tərcümə edən, ön söz və qeydlərin müəllifi **Ramilə Adıqamova** yazır ki; Buxara və digər orta Asiya şəhərlərində oxuyan şagirdlər fürsət bulduqca mədrəsə divarlarından kənarda şeyxlərin yanında təsəvvüfün sirlərinə yiyələnməyə çalışırdılar. Onların bəziləri irşada çataraq vətənə şeyxlərin verdiyi icazətlə qayıdıb öz tədrislərini etməyə başlayırdılar.Daha ətraflı bax; Анталогия Татарских Богословской Мысли. Габдрахим Утыз Имени ал-Булгари, Казан, 2007, s., 28.

dirənə bilmənin fəlsəfəsi üzərində çalışırdılar. Bunun üçün onlar, ilk növbədə, İslamın təqlid bağından qurtulması, bütün müsəlmanların Quran üzərində diqqətlicə çalışmaları və buna əlavə olaraq, İslamın klassik dövrünün ağlın işığında araşdırılması fikrini təbliğ edirdilər. Onların qənaətinə görə, ancaq bu yolla müsəlmanlar öz həyatlarını və cəmiyyətlərini inkişaf etdirə bilərdilər. Bu münasibətlə müsəlman dünyasının xüsusi ilə türk kökənli aydınları təhsilin yenilənməsini, anadilli təhsilin önəmliliyi məsələsini qabartdılar. Bu səbəblə öncə tənqidi təftişlə mədrəsə tipli tədris növü islah olundu. Bu aydınlar cəmiyyətdə liberal (hür), düşüncədə rasional (əqli), təhsildə modernist (yenilikçi) ola bilmənin təbliğatçıları idilər...

Beləliklə, Kürsəvinin zamanının mədəniyyəti və təhsili birbaşa Buxara ilə bağlı idi dedik. Buxarada o zaman İslamın ilk əsirlərinin yaradıcı ruhuna qayıtmağı təlqin edən insanlar çox idi. Əmirlikdə ikili effekt (bir tərəfdən ənnənəçilərin səxavətlə mükafatlandırılması, digər tərəfdən isə yenilikçilərə amansız represiyalar) narazıların ağzını əməlli bağladı. Bu zaman ənənəçilərin əhvalını Şımaldan gələn bir qərib Kürsə, aulunun (indiki Arsko-Ş.M) yetirməsi Əbu-n Nəsr Kürsəvi pozdu. O, Buxaraya bilik dalınca gəldi və az bir zamanda mahir polemika ustası və İslam ehkamının bilicisi kimi məşhurlaşdı.[167] Kürsəvi Orta Asiyada aldığı nəzəri biliklərin əsasında öz ideyalarını məhz Buxarada irəli sürdü. Bunu etiraf etmək lazımdır ki, tatarlar ölkəsinin yüksək təhsil verən heç bir mədrəsəsi yaxud kitabxanası Orta Asiyanınkı ilə müqayisə edilməz idi. Yalnız İslamın ilkin əsrlərdəki klassik ənənələrini məşhur müsəlman ilahiyyatçılarından

166 Отец татарской идентичности Шигаведдин Марджани.(Айдар Хабутдинов.Лидеры нации. Автореферат), Казан, 20014 c14-26. См; cetext.ru/gabdunnasr-kusavi-tatarskiy-luter.html?page=2 29.03.2018)).

öyrənən Kürsəvi öz icdihadi (azadfikirli-Ş.M) nəticələrini biliklərindən çıxarmışdı. Bu fikirlərin onda formalaşmasının başlıca səbəbini o zamanda da Orta Asiyada sufi təriqətlərinin yaşamasında axtarmaq lazımdır – dedik. O təriqətlər ki, "insan fenomenini təbliğ etdikləri fəlsəfənin mərkəzi yerinə qoyub intellektual elitaya əsrlərlə azad düşünə bilmənin rüşeyimlərini ötürmüşlər."[168] Təsəvvüfdə əxlaqın dəyəri kor-koranə itaətlə deyil, məsələyə rasional baxışla təyin edilir.[169] Məsələ burasındadır ki, hər dövrdə məhz sufilər ruhi baxımdan azad qalmağı bacaran, kor-koranə surətdə kilsə və dövlət başçılarının qarşısında baş əyməməyə çağran "cürətkarlar" olmuşlar...

Onun çağrışları arxasında yalnız "...ilahiyyat deyil, rus silahının gücü, rus iqtisadiyyatının artan qüdrəti və rus dövlətinin artmaqda olan potensialı barəsindəki fikirlər də dayanırdı. Zəmanəsinin uzaqgörən bu insanı hesab edirdi ki, İslam dəyərlərini o vaxt saxlamaq mümkün olar ki, hər bir müsəlman sərbəst surətdə din və Allah sözünün mahiyyətini (Quranda qoyulduğu kimi-Ş.M) başa düşəcəkdir. Kürsəvi dindarların köhnəlmiş fikirlərindən imtina edərək Quranın sərbəst şərhinə çağırırdı"[170]. Paralel olaraq üləma, Quranın ilk şərhini doğma tatar dilində (tafsır) yaratmağa başladı. Məhz bu proqram ilə protestantizmin atası Lüter çıxış etmiş, bu çıxışına görə isə papalıq tərəfindən lənətlənmiş və ölümə məhkum edilmişdir. Kürsəvinin də bu yenilikçi çağrışlarına cavab müftilər

---

167 M.Şəkixanova. Sufizm fəlsəfəsinin "Kamil İnsan" konsepsiyası, Bakı, Təknur, 2007

168 K.Bünyadzadə. Təsəvvüf fəlsəfəsinin ilk mənbələri. Sərrac Tusi "əl-Lümə",Bakı, Qamma servis,2003, s.,141

169 Айдар Хабутдинов. Габдуннасыр Курсави-татарский Лютер.(Лидеры нации. Автореферат, Казан, 20014) См; cetext.ru/gabdunnasr-kusavi-tatarskiy-luter.html?page=2 29.03.2018)).

divanı tərəfindən çox da yubanmadan gəlmişdi[171]. Divanının baş müftisi və daha 12 müfti ona ölüm hökmü çıxardılar. Bu hökm fətva xarakteri daşıyırdı. Müsəlman hüququnun qaydalarına görə heç kəs Kürsəvinin ideyalarını müdafiəyə cürət etməzdi. Onun kitablarını belə, oxuyanları ölüm gözləyirdi. Kürsəvinin ölüm hökmü Buxara əmirinin sürgün qorxusu altında çıxarılmışdı. Bütün ruhani dəstəsi yalnız Dursunbəyi bin Əbdürrəhim əl-Bulqaridən başqa[172] hamısı onun ölümünə fərman verdi. Onun "mürtəd" adlandırılaraq ölümə məhkum olunma fərmanını tənbəllik etmədən bütün Bulqar olkəsinə yaydılar. Əfsanəyə görə onu bu ölümdən Buxaranın katedral məscidinin imamı Şeyx Niyazqulu Türkməni[173] xilas etmişdir. Bu nüfuzlu Nəqşibəndi şeyxi Buxara əmirini hədələyərək Kürəsivini müdafiə məqsədi ilə Buxara əhalisini ayağa qaldıracağını söyləmişdi. Beləliklə, Buxara camaatı imanın və aftoritetlərsiz inamın bu yeni carcısının uğruna az qalsın əmirlik tiraniyasına son qoyacaqdılar. Məlumunuz tarixdə sufi şeyxlərinin başçılığı altında necə diqqətçəkici hərəkatlar olmuşdur.[174]

Kürsəvinin bu cəsarətli nümunəsi sonralar da tatar elm adamlarının xatirində əbədi dərs olaraq qalmışdır.

Buxarada olanlardan sonra Kürsəvi doğma auluna qayıdarkən yolüstü Xivədə ona öz proqramı ilə işləyə biləcəyi bir mədrəsə açmağı təklif etdilər. Bu təklifi qəbul etməyən Kürsəvi doğma auluna qayıdıb orada açdığı mədrəsəyə imamlıq etməyə və oraya yığılan gənclərə

---

170 A. Xabutdinovun göstərilən əsəri, səh., 7

171 Aydar Xabutdinovun göstərilən əsəri, səh.,9,13

172 Niyazqulu Türəkməni Kürsəvinin yanında irşada çatdığı və icazətnamə aldığı şeyxi Daha ətraflı bax; Анталогия Татарских Богословской Мысли. Габдрахим Утыз Имени ал-Булгари, Казан, 2007, 313s.

173 Баширов А. Изучение суфизма в англо-американского востоковедение

öyrəndiyi elmləri tədris etməyə başladı. Mənəvi şagirdi Şihabəddin Mərcani yazır ki: "Kürsəvi şagirdlərə özünün sərhədsiz bilikləri, güclü imanı, çalışqanlığı, müxtəlif elmləri yaxşı bilmə bacarığı, ağlı və bəlağətli nitqi sayəsində bir xəzinənin ağzını açmış olması ilə şöhrət qazandı. O illərdə maarif oradan (Kürsəvi xəzinəsindən-Ş.M) elm götürdü. O xalqın gözləri qarşısında dəyərli, elm "riyahəsi saçan güllər" yetişdirdi və onları yenidən xalqa payladı. O, öz xidmətlərini, lazımlı əsərlərini doğma ana dilində yazmaqla və bu əsərlərlə tələbələrini təlimləndirməklə də xalqına sonsuz xidmətdə bulundu."[175] Müasirləri onun ideyalarını qəbul etmədilər. O, Kazan ruhani idarəsinə daxil olanda din adamları oranı tərk edərlərmiş. Kürsəvinin mollaların cəhalətini ifşa edən "iti dili" onların xoşuna gəlmirdi. Kürsəvinin zamanında tatarların ilahiyyat polemikaları aparmaq üçün intellektual atmosferaları yox idi. Zəmanə bəyləri və zədəganları hansıların ki, ticarəti Orta Asiya bazarları ilə sıx bağlı idi, onlar da bu Buxara hakimiyyəti tərəfindən lənətlənmiş azadfikirli adamdan yan qaçırdılar. Odur ki, onun səsi uzun müddət səhranın kimsəsizliyində inləyən küləyin səsi kimi yalnız səsləndi...

Bədxahları doğma məmləkətində də tapıldı. Düşmənlər onu öz aulunda da rahat buraxmadılar. Belə ki, Xabutdinov yazır ki: "Kazan uyezdinin Ura aulunun Buxarada təhsil almış mollası Buxaraya danos göndərməkdən çəkinməmişdir. O, bu xəbərçi naməsində Kürsəvini dinsizlikdə və gənclərə ölkə təhsilinə uymayan proqramla dərs demədə təqsirləndirirdi.[176] Bu mollanın şuğulçuluqları Kürsəviyə qarşı Buxara represiyasının davamı kimi oldu. Elə bu səbəbdən də gənc Əbu-n

174 Xabutdinov. Yuxarıda göstərilən əsəri.

175 Анталогия Татарской Богословской Мысли, Абун-н-Наср Курсави, Казань, Татарское книжное издательство, 2005, с 18

Nəsr ona bağlı olan və ümidverici şagirdlərindən bir neçəsini də götürərək müqəddəs torpaqları ziyarət məqsədi ilə doğma aulunu tərk etdi". Yolüstu İstanbulun Üsküdar bölgəsində bir qədər dayanmağa qərar verən Kürsəvi həyatının növbəti şanssızlığını yaşadı. O zaman bu bölgədə yayılan vəbadan həyata gözlərini əbədi yumdu. Şagirdləri onun qəribə ölümü barəsində əfsanəvi bir xatirə söyləmişlər. Belə ki, Kürsəvi onlara, qulaqlarına təkrar-təkrar "haradasan cənnətin yolları səni 100 gözlə gözləyir?" – misrasının söyləndiyini demişdir.[177]

Kürsəvinin ideyaları tatarlar tərəfindən düz 30 il unuduldu. Ta o vaxta qədər ki, tatarların yeni, əzəmətli bir islahatçısı Şihabəddin Mərcani[178] onun əsərini gizli surətdə tapıb oxuyub onun həm fikrinə çevrilənədək... Mərcanini də dinsiz adlandırdılar. Amma ona qarşı başlanacaq represiyanın qarşısını rus ordularının Buxara küçələrinə yürüşü, iqtisadi böhran, assimilyasiyaya uğratmanın ikinci dalğasına məruz qalma faciəsini yaşayan Buxara əmirliyinin durumu mane oldu. Xalqın içərisindən işıqlı adamlar tapıldı ki, xalqa Kürsəvi ideyalarına sarılmanın, onun uzaqgörənliklə verdiyi proqnozlarla silahlanmanın vaxtı olduğunu təlqin etsin. Mərcani isə onların ilki idi ki, Kürsəvini "tatar aydınlatma hərəkatının rəhbəri" adlandırdı.

XX əsrin əvvəllərində Rza Fəxrəddin**[179]** Orenburq Ruhani Məclisində Kürsəvinin tərcümeyi-halını bu sözlərlə başlamışdır: "Bu böyük üləmanın ölümü yalnız Kazan və Bulqar ölkəsi müsəlmanlarının

---

176 Aydar Xabutdinovun göstərilən işi.

177 Mərcani tatarların Kürsəvidən sonra ikinci böyük islahatçısı. daha ətraflı bax; Отец татарской идентичности Шигаведдин Марджани.(Айдар Хабутдинов.Лидеры нации. Автореферат), Казан, 20014 с14-26. См; cetext.ru/gabdunnasr-kusavi-tatarskiy-luter.html?page=2 29.03.2018))

178 Богословие Нового времени. Рза Фахретдин. См; cetext.ru/gabdunnasr-kusavi-tatarskiy-luter.html?page=2 29.03.2018))

deyil, eyni zamanda bütün müsəlman dünyasının itkisi idi. Həmin məclisdə Rza Fəxrəddin demişdir ki, üləmalar yaratdıqları əsərlərlə yadda qala, yaşaya və ölməzlik qazana bilərlər. Belə ölməzlərdən biri Kürsəvidir. Əlavə olaraq o, "dünyada "ictihad"la ən seçilmiş insanlar məşğul olmuşlar, belə ki, bu metod ağılın qələbəsi üçün ən mötəbər metoddur"[180] demişdir...

Xatırlamaq lazımdır ki, hətta sovet rejiminin ilk on illiklərində keçmiş mübarizlər şəxsiyyət azadlığı məsələsinin həllində islahat aparmaq üçün Kürsəvi ideyalarına müraciətin səmərəliliyinə inanaraq hərəkət edirdilər. 1926-cı ildə ədəbiyyatşünas Səqdi cədidçilərin Əbu-n Nəsrin əsas dini-fəlsəfi ideyalarını mənimsəyib genişləndirərək öz doktrinlərində və həyat realiyalarında onlardan istifadə etdiklərini yazırdı.

Elə həmin 1926-cı ildə tatar tarixçisi Hidayətulina yazır ki, Kürsəvi öz ana dilində yazmaqla və Quranı bu dildə təfsir etməklə protestantizmin ruhuna yaxınlaşmış "ağlın həqiqəti prinsipi"ni əldə rəhbər tutmaqla Yan Qusun və Martin Lüterin dilində yazmış və danışmışdı. Beləliklə, cədidçilər Kürsəvinin yaradıcılığının cövhərində Quran normalarına qayıdış və icma ağsaqqallarının köhnəlmiş ideyalarından imtina görürdülər...

Görəsən, Kürsəvi cədidcilərin ideyaları ilə razılaşardımı? Yəqin ki, yox. Həmçinin Perikl və Siseron Amerikanın konstitutsiyası barəsində bir çox bəndlərlə razılaşmazdılar. Amma antik dünya klassikləri olmadan Amerika demokratiyasının ataları olmazdı, eləcə də hesab edirik ki, Kürsəvi olmadan cədidizm də olmazdı.

Kürsəvinin əsas fikri bundan ibarət idi ki: "İnsanları

179 Богословие Нового времени. Рза Фахретдин. См; cetext.ru/gabdunnasr-kusavi-tatarskiy-luter.html?page=2 29.03.2018)) c54-63

hakimiyyət qərarlarını yerinə yetirən savadsız məxluqlara çevirmək olmaz. Söyləyirdi ki, əgər insan hüquqsuzdursa, əgər onun söz demək hüququ əlindən alınmışdırsa, o bütün formulaları tutuquşu kimi əzbərlətdirilərək təkrar edirsə, bu onun ölkəsini idarə edənlərə çox sərfəli ola bilər. Amma untmayın ki, belə bir ölkə məhvə məhkumdur"[181].

Məlum olduğu kimi, hər bir müasir ölkənin konstitusiyasında "vicdan azadlığı" məsələsi ayrıca yer almışdır. Tatarlarda vicdan azadlığı məsələsinin gündəmə gəlməsinə rəhbərlik edən ideya mücahidi, tatarların ilk islahatçısı, tatar azadlığı məsələsinin ilk qaranquşu da Əbu-n Nəsr idi. Kürsəvinin sözlərində belə, portreti günümüzə gəlib çatmamışdır, amma ideyaları daima tatar aydınlarının, azadfikirliliyə meyilli insanların xatirələrindədir. Oyanma hərəkatının baş tutduğu əsrdə (XVIII əsrin sonlarında) tatar xalqı bu mütəfəkkirin, üləmanın simasında öz azadfikirlilik carçısını yetişdirməsi ilə indi də fəxr etməkdədir.

Dərin biliklərindən aldığı cəsarətlə zəmanəsində azadfikirlilik carçısına çevrilən və bununla da millətinin aydınlarına yeni cığır açan Kürsəvi öz erudisiyası və islami elmlərə bələdliyi ilə bir tərəfdən ardıcıllarının heyranlığına səbəb olurdusa, digər tərəfdən də düşmənlərinin hücumuna məruz qalırdı (razılaşarsınız ki, bu aqibət bir çox istedadlıların üzləşdiyi tale qismətidir. Mənim yadıma ilk gələn şuğulçuların badına getmiş, talesiz filosofumuz akademik Heydər Hüseynov oldu). Bir daha vurğulamaq olar ki, mənbələr onu zəmanəsinin ən parlaq simalarından biri kimi təqdim edir. Qısa ömür (40 ildən az) sürməsinə, yazılı irsinin az olmasına belə baxmayaraq, onun ideyaları özünə çoxlu ardıcıllar cəlb etmişdir.

---

180 Авун-н Наср Курсави. Наставление людей на пут истины, Казан, татарское книжное издательство, 2005, с 89,90

Sovetlər dönəmi ədəbiyyatlarında məsələn, elə C.Validovun "Tatar ədəbiyyatı və tarixinin formalaşması haqqında oçerk" əsərində Kürsəvinin adi Mərcani ilə bir sırada çəkilir. Əsərdə qeyd edilir ki, onlar ilk din mütəfəkkirlərindən sayılırlar ki, sxolastikaya və dogmatizmə qarşı çıxmışlar.[182]

Əbu-n Nəsr Kürsəvinin "Həqiqətə aparan yol" əsəri onun ən dəyərli əsəridir. Əsərdən bir parçanı tatar ilahiyyatçılarının antalogiyasından tərcümə edərək təqdim edirik.

"Həmd olsun o Allaha ki, O öz böyüklüyü ilə fiqhin (burada İslam hüququnun-Ş.M) qeyri-adi hikmətini dürlü elmlərin dəryasından ayıraraq bizə anlaşılan etdi. Əməl mənzərəsində sirlərin açılmasında və əməllərimizin tənzimlənməsində fiqhin rolu yer üzərində Allahın ipi kimidir. Ondan yalnız əxlaqsızlar yapışmazlar.

Bu kitabi ("Qurtuluşa aparan yol") yazmaq əzmində olan mən bu yazıya hələ başlamazdan öncə İslamın əlamətlərini və buyruqlarını ədalətlə yaşatmış, nurlu siması ilə yanan məşəldən daha aydın olan Həzrəti Peyğəmbərimizə, onun şərafətli ailə üzvlərinə, mühacir və ənsardan olan əməli saleh dostlarının şəninə dualar edirəm.

Sonra isə Allahın aciz qulu Əbu–n Nəsr Əbd ən-Nəsr bin İbrahim əl Kazani əl- Kürsəvi deyir: "Qoy Allah özü sənə rəhm etsin (Amin!), səbr et ki, Allahın hökmü ilə mənə, bu acizanə quluna veriləni sənə çatdırmaq istəyirəm. Amma bilirəm ki, o, istəməsə, nə mən, nə də sən onun düz yoluna yönələnlərdən deyilik".

Bil ki, bizim müasirlərimizdən bəzi insanlar və eləcə də keçən əsrlərin nümayəndələri arasında layiqli mənəviyyata malik olmayan elələri var ki, onlar özlərindən kəlamlar (xüsusi qəbldən olan) icad

181 Анталогия Татарской Богословской Мысли, Абун-н-Наср Курсави, Казань, Татарское книжное издательство, 2005, с 7

etmişlər. Bilin ki, biz onların bu yaramazlıqları (burada yararsız cəfəngiyyatları-Ş.M) barəsində sussaq onda o fikirlər həqiqi bilik kimi qəbul oluna bilər. Halbuki, cəhalətə və cahilliyə qarşı çıxmaq onun kökünü kəsmək üçün ən yaxşı vasitədir.

Haqqında söhbət açdığımız o adamlar ki, var hansıların ki, sözləri, fikirləri zərərli idi və o fikirləri təsdiqləmək üçün onlar Allahın qiymətli kitabından (Qurani-Kərimdən-Ş.M.) və Onun Rəsulunun – Allah Onun və ailəsinin şənini daima uca etsin-sünnəsindən, fəqihlərin söylədiklərindən istifadə edirlər… Onlar öz aralarında mübahisəli (ziddiyyətli) söhbət olan kimi elə fəqihlər kimi hərəkət edirlər. Belə ki, əminlik üçün müqəddəs mətni qarşılarına qoyub, bəlkə hədislər belə uydurmuş (maadu), yaxud alleqorik bir yozum (müəvvəl) edərək, ya da söyləndiyi zamanına (mübahisə mövzusunun açıldığı zamanın bilinməsinin vacibliyi nəzərdə tutulur-Ş.M) uyğunlaşma etmişdir. Həqiqətən bunların düzgün olduğuna meyilli olanlar (fiqhin açıqlamalarına), bizə qarşıdırlar və sübut kimi furani (əl-fiqhi) və kəlamı gətirirlər. Bu isə daha böyük yanlışlıqdır...[183]

Gəldiyimiz nəticə bundan ibarətdir ki, Kürsəvi öz fəaliyyətinin yenilikçi ruhu və cazibəsi ilə sonralar tatar identikliyinin atası olan Mərcani və yetirmələri üçün (XIX əsrin 30-cu illərində) yeni düşüncə üfüqləri açmış birisi idi. Onun sıradan olmayan təfəkkür tərzini və yaradıcılığını "kəşf etmiş" və mənimsəmiş Şihabəddin Mərcani **(1818-1889)**[184] və sonralar (XX əsrin əvvəlləri) bu yaradıcılığın əzəmətini etiraf etməyə bilməyən Rza Fəxrəddin olmuşdur. O və Rza

182 Авун-н Наср Курсави**. Наставление людей на пут истины,** Казан, татарское книжное издательство, 2005, с 89,90

183 Отец татарской идентичности Шигаведдин Марджани.(Айдар Хабутдинов.Лидеры нации. Автореферат), Казан, 20014 с14-26. См; cetext.ru/gabdunnasr-kusavi-tatarskiy-luter.html?page=2 29.03.2018))

Fəxrəddin Kürsəvi irsini tatar xalqı üçün bir sərvət hesab etmişlər. O Rza Fəxrəddin ki, "millətin formalaşdırılmasında dini və dünyəvi başlanğıcın nəzəriyyəsini" yaratdı.[185]

Beləliklə, XIX əsr tədqiqatçısı Səqdi Kürsəvini ictihadın qapılarını açan ilk üləmalardan biri hesab etməklə göstərirdi ki, "məhz o, fiqhi məsələlərdə yaradıcı cəhd etmiş, təqlidə (icma ağsaqqallarının dediklərinin kor-koranə surətdə təkrarına-Ş.M), dini xurafata, keçmiş alimlərin yazdıqlarının araşdırmadan təqib edilməsinə"[186] – qarşı çıxmışdır.

Qeyd edək ki, Kürsəvi yaradıcılığına XIX əsrin 30-cu illərində Mərcani[187] ilə başlayan maraq bir dönəmdə səngidi. Dünyanın yeni bir düzənə girməsi öz əks sədasını müsəlman Şərqində də göstərəndə - XIX əsrin 60-cı illərindən etibarən - bu irsə maraq yenidən canlandı. Belə ki, maarifçilik ideyalarının gündəmə gəlməsi Kürsəvi yaradıcılığının din və ruhanilərə olan münasibətlərinin yenilikçi motivlərini qabardan tədqiqatçılara meydan açdı. Onlar Kürsəvi yaradıcılığından "rasionalist mütəfəkkir", "sufizmin barışmaz düşməni" kimi bir obraz yaratdılar.[188] Tatar tarixçisi Gülnara xanım bu dönəmin Kürsəvi yaradıcılığına vurduğu zərbədən, mütəfəkkirin yaradıcılığının teoloji tərəfinin təhrif olunmasından, onun bir müsəlman ilahiyyatçısı

---

184 Богословие Нового времени. Рза Фахретдин. См; cetext.ru/gabdunnasr-kusavi-tatarskiy-luter.html?page=2 29.03.2018)) с54-63

185 186 Отец татарской идентичности.(Айдар Хабутдинов.Лидеры нации. Автореферат), Казан, 20014 с14-26. См; cetext.ru/gabdunnasr-kusavi-tatarskiy-luter.html?page=2 29.03.2018))

186 **Səqdi H**. Tatar ədəbiyyatı tarixi, Kazan, 1926, səh 14

187 Идиятуллина Гульнара Гаделевна. Абу Наср Курсави и среднеазиатские истоки татарской мысли конца XVIII начала XIX веков (по материалам трактата «ал Иршад ли-л-ибад) (tarıx elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilən dissertasiyanın avtoreferatı)), Kazan, 2001,səh3

olmasının daşıdığı önəmin arxa plana keçməsinin yaratdığı boşluqdan ürək yanğısı ilə bəhs edir. Əlbəttə ki, tədqiqatçılar tərəfindən bu cür yorumlama bəzi ilahiyyatçılara guya "haqq qazandırmaq məqsədi" ilə onların yaradıcılığının hətta mifikləşdirilməsi tatar ictimai fikrini yanlış anlamaya gətirib çıxarır ki, bu da tarixi azman bir mütəfəkkirə görə incələyən xanım tədqiqatçını narahat etməyə bilmir.

Sovetlər dönəmi tədqiqatlarının belə, səthi yanaşmaları Kürsəvi yaradıcılığına məxsus "Qurtuluşa aparan yol" əsərinə də öz təsirini göstərmiş, əsərin semantik dili, ehtiva etdiyi məzmun və terminaloqiyasna belə, anlaşılmazlıqlar gətirmişdir.[189]

Mənbələrin izi bizi Kürsəvi yaradıcılığına alman tədqiqatçısı Kemperin "Orta Asiya və Volqaətrafı: Kürsəvinin (1776-1812) ənənəçi üləmalarla mübahisələri" əsərinə apardı. 1996-cı ildə çap olunmuş bu tədqiqat işi müasir tədqiqatçılar içərisində Kürsəvinin qiymətli əsərinə verilən ən yaxşı dəyər nümunəsi hesab oluna bilər.[190]

Kürsəvinin ilahiyyat ədəbiyyatı siyahısında önəmli yer tutan "Qurtuluşa aparan yol" traktatı üsul-əl fiqhə (fiqhin-müsəlman hüquqşünaslığının və hüququnun əsasları -Ş.M) həsr olunub, bu sahənin əsaslı mənbə və metodunu əhatə edən müsəlman hüququnun etibarlı mənbəsidir. Əsərdə bir sıra məsələlərlə yanaşı, Kürsəvinin teoloji-etik baxışları öz əksini tapmışdır. Onun əsərdəki bu baxışları dinin konkret sosial təzahürlərənə həsr olunmuşdur. Xüsusi müsəlman ədəbiyyatı siyahısına daxil olan bu əsər Kürsəvinin vurğuladığı kimi saf dinin sədaqətli ardıcılları üçün nəzərdə tutulmuşdur. Girişdə müəllif

188 Анталогия Татарской Богословской Мысли, Абун-н-Наср Курсави, Казань, Татарское книжное издательство, 2005, с 7

189 Kemper M. **Entre Boukbara et la Moenne-Volqa: Abd an-Nasr al-Qursavi** (1776-1812) en confllit aves qulemas traditionalistes //Cahires du Mjonde russe, XXXVII (1-2), janvier4-juin, 1996.

əsərinin yazılma səbəbini göstərir. Sonra isə fiqh, hədis və onların klassifikasiyasına həsr olunmuş, böyük məna daşıyan **icdihad, fətva** (hüquqi rəy), **təqlid bid'ə** (dinə gətirilməyə cəhd edilmiş yolverilməz yeniliklər-Ş.M) kimibaşlıqlargəlir. Onların ardıncadigər **hədis bölməsi, sufizm, ibadətə ayırmaq üçün lazım olan vaxt, cümə ibadəti, həcc,** kimi başlıqlar gəlir.[191] Göründüyü kimi traktatın məzmunu xeyli rənga rəngdir.

Əsərin yuxarıda verilmiş tərcümə sətirlərindən Kürsəvinin dinə xidmət baxımından hansı sədaqətli missiyaya qulluq etdiyini görürük. Bəzi ilahiyyatçıların İslami elmlərin dirçəldilməsindəki rolunu və cədidizmin bir yeni xətt kimi din və din fəlsəfəsi tarixində gördüyü işin mahiyyətinin böyüklüyünü yəqinki, bu missiyada axtarmaq lazımdır.

---

190 Анталогия Татарской Богословской мысли., Абун-н-Наср Курсави, Казань, Татарское книжное издательство, 2005, с 89, 125, 136, 144, 161, 170, 179, 184, 19 1

# FƏALİYYƏTİ İLƏ ENSİKLOPEDİK MƏFKURƏ FORMALAŞDIRIB, FİKİRLƏRİ İLƏ YENİLİKLƏRƏ YOL AÇAN BAKIXANOV YARADICILIĞINA ARAŞDIRDIĞIMIZ ASPEKTDƏN BİR NƏZƏR

Azərbaycan türklərinin tarixində bir çox şəxsiyyətlər var ki, onların nəinki yaradıcılığı, varlığı, yaşam mücadiləsi belə, tariximizin çözülməsi üçün zəngin mənbədir. Belə şəxsiyyətlərimizdən biri 2014-cü ildə ölkə Prezidentinin, 220 illik yubleyinin bir sıra tədbirlərlə keçirilməsi üçün fərmanı verilmiş-Bakı xanlarından Dərgahqulu xanın nəvəsi, II Mirzəməhəmməd xanın oğlu, Fətəli xanın bacısı oğlu - Abbasqulu ağa Bakıxanovdur...

***O xoşbəxt adama eşq olsun ki, Allahın sifəti ilə şöhrətlənə və bu tükənməz dövlətdən üz döndərməyə. (A. Bakıxanov. Təhzibi əxlaq)***

**GİRİŞ. İllərin tədqiqatları bizə imkan verir deyək ki, bir çox dini-fəlsəfi cərəyanlar kimi cədidçiliyin**[192] də öz mənşəyini götürdüyü

191 Üsuli-cədid məktəbləri yayıldığı arialda maarifçilik hərəkatının nəinki ayrılmaz hissəsi, eyni zamanda bu hərəkatın yaradıcılarının özünə məxsus dəsti-xətti olan dini-fəlsəfi cərəyanının (da formalaşma səbəbidir. Bu məktəblərin yaradıcıları və müəllimləri Azərbaycan xalqının həyatında əvəz olunmaz bir rol oynayaraq, dünya maarifcilik hərəkatı nümayəndələrinin, eyni zaman da müsəlman türk aydınlarının diqqətəşayan fikirlərini günümüzə qədər daşımışdır. Artıq neçə illərdir ki, biz üsulu-cədid məktəbi nümayəndələrinin, belə ki, ilk öncə cədidizmin öndərlərindən olub tatar ilahiyyatı məktəbini təmsil edən Musa Carullah Bigiyev, Əbu Nəsr Kursəvi kimi (Azərbaycan düşüncə aləminə geniş tanınmayan) islahtçı təfəkkür sahiblərinin dini-fəlsəfi fikirlərini incələməklə

ölkələrdən biri Azərbaycandır. Amacı məhz Qurana müraciət etməklə təqlidçilikdən (Quran və Sünnədə yazılanlara müxtəlif təriqət alimlərinin, xüsusilə də kəlam alimlərinin baxışlardan azad olmaq-Ş.M) qurtularaq azadfikirliliyə, ictihada[193]çatmaqdır. Üsuli-cədidin tarixi köklərinin araşdırılması üçün üzümüzü Azərbaycana tutduqda tədqiqat yolu özü bizi birbaşa böyük ədibimiz, yaradıcılığı və şəxsiyyəti həm yaşadığı, həm də özünəqədər ki, zamanın mənzərəsini bizim üçün açıqlayan Abbasqulu **ağa Bakıxanova aparıb çıxardı. Tədqiqatımız bizə Bakıxanov şəxsiyyətini müsəlmanlığına daima sədaqətli qalıb, azərbaycanlılığını heç vaxt unutmayan eyni zamanda müasir elmlərə, faydalı yeniliklərə, yaşadığı reqionun işlək dillərinə sahib olan bir şəxsiyyət kimi sərgilədi. Əsərlərinin və fəaliyyətinin məğzi ilə tanışlıq bizə onu tədqiqatımızda bir çox elm sahələri, eləcə də təhsil üçün yeniliklər etmiş reformator, millətinə məhz milli ruhu ilk olaraq aşılamağa çalışan** mütəfəkkir kimi təqdim etməyə imkan verir.

Bakıxanov Azərbaycan mədəniyyəti tarixinə görkəmli şair, maarifçi demokrat, filosof, tarixçi alim, hərbi xadim və zəmanəsinin qabaqcıl ziyalısı kimi daxil olmuşdur. Onun elmi

---

az da olsa, milli, dini köklərimizə sadəqət borcumuzu ödəməyə çalışdıq... Araşdırmalarımız imkan verir deyək ki, şərqdə elə məhz bu məktəbin nümayəndələri fəlsəfi fikirlərini sosial müstəviyə gətirərək Cumhuriyyətlər qurmağa niyyətlənmişlər. Azərbaycanlılar Şərqdə bu azd düşüncə tərzini ilk sərgiləyənlər olub, suveren cumhuriyyət qura bilmə ideyasını və praktikasını qardaş türk ellərinə də ixrac etmək üçün cəsarətli cəhdlər etmişlər…

192 Tədqiqatlarımızı dərinləşdirdikcə bizə aydın olur ki, cədidizmin ardıcıl nümayəndələri XIX əsrin sonu, XX əsrin əvvəllərində Rusiya hüdudları daxilində yaşayan ilahiyyatçı filosoflar olsa da, o bir azadfikirliliyə ehtiram fəlsəfəsi kimi öz köklərini X əsrdə formalaşan mütəzililərin (ibn Teymiyyə və ardıcıllarının), əşarilərin və məşşailərin icdihat (azadfikirlilik) fəlsəfəsindən eyni zamanda teloqlqrla filosoflar arasında barışıq yaradan əbu Hamid əl-Gəzalinin “Dini elmlərin dirçəlişi” əsərinə müraciətdən də götürür. Daha hər tərəfli məlumat üçün bax; Тьери Заркон. Взгляд на философию джадидизма. Вопросы Васточной философии. Ваку, Азербауджан, 2004 г, ст 27-35.

əsərlərində, məntiq, psixaloqiya, fəlsəfə, dinşünaslıq, astranomiya, coğrafiya, toponimika, tarix, etika-əxlaq və s. çoxlu müasir dövrdə də əhəmiyyətini saxlayan ideyalar vardır. O, 1831-ci ildə fars dilinin qrammatikasına dair “Qanun-i Qüdsi” əsərini, 1841-ci ildə isə Azərbaycan tarixinin öyrənilməsində və təbiətşünaslığımızda əhəmiyyətini indi də saxlayan “Gülüstan-i İrəm” əsərini yazmışdır. Qanuni Qüdsi də göstərilir ki, “dil ürəkdəki gizli mənaları bildirmək üçün bir vasitədir”. Bakıxanovun dini-fəlsəfi, əxlaqi görüşləri onun “Riyaz ül-Qüds”, “Təhzüb ül-əxlaq”, “Kitabi nəsayeh”, “Eyn-ül mizan”, “Kitabi əskəriyyə” və s. əsərlərində və “Mişkat ül-ənvar”, “Kitabi əskəriyyə” və s. poemalarında təhlil olunmuşdur. “Riyaz ül-Qüds əsərində müəllifin dünyagörüşünün yeni səciyyəsi aydın olur. Bu əsər nəzm və nəsr şəkilində İslam dininin məhərrəmlik mərasimi İmam Hüseyn təziyədarlığı ilə əlaqədar, şiəliyin tarixi və mahiyyəti haqqında, dinin tarixi haqqında dastandır. Bu əsərində və bir çox qəzəl, qəsidə və müxəmməslərində, Bakıxanov İslam dini etiqadını, onun ehkamlarını, orta əsr ilahiyyatının, dini mistik mücərrəd ilahi eşqi və s. tərənnüm etmişdir.

Bakıxanovun yaradıcılığında XIX əsrin 30-cu illərindən sonra dini, sufi “vəhdəti vücud” təlimlərinin təsiri zəifləyir (diqqət edək ki, Bakıxanov da Tatar azadfikirli ilahiyyatçısı Kürsəvi kimi, sufi idrak fəlsəfəsindən təsirlənmişdir. Məsələ burasındadır ki, sufiliyin irfan fəlsəfəsindən təsirlənmə ilahiyyatçı maarifçilərin demək olar ki, hamısına təsir etmişdir-Ş.M), həyat hadisələrinin realist, öz ziddiyyətləri ilə birlikdə təsvir edilməsi aparıcı yerə keçir. “Kitabi əskəriyyə”, “Təbriz əhlinə xitab”, “Gürcülər arasında” və b. əsərləri yazıçının həmin dünyagörüşü mövqeyini əks etdirir. “Kitabi-

Əskəriyyə"də Bakıxanov realist fikirli bir mütəfəkkir kimi çıxış edərək, "ilahi eşqi" deyil, real gerçəklikdəki adamların biri birinə olan məhəbbətini tərənnüm etmiş, ailə münasibətlərində qarşılıqlı məhəbbəti əsas prinsip hesab etmiş, qadınların kişilərlə bərabərliyi, qadın azadlığı ideyasını müdafiə etmiş, "hicab" müddəasını qadınları qapalı yaşamasını pisləmişdir. Bu əsərdə zəif şəkildə olsa da, feodal yaşayış tərzinə, müsəlman şəriətinin bir sıra hökmlərinə etirazlar öz ifadəsini tapmışdır. "Kitabi-Əskəriyyə"də dini dünyagörüşünə malik yazıçı real gerçəkliyin təsirində maarifçilik və demokratik realizm mövqeyi tutsa da, dünyagörüşcə müəyyən ziddiyyətlərə yol vermişdir ki, bu ziddiyyətlər də onun yaşadığı mühitin mənzərəsindən doğurdu. Bakıxanovun fəlsəfi-əxlaqi görüşləri onun "Təhzibül-Əxlaq" əsərində öz ifadəsini daha müfəssəl tapmışdır. Bu əsərində o yüksək mənəvi keyfiyyətlər haqqında ideyalar haqqında fikirlər irəli sürmüşdür. Ontoloji baxışlarının əsasında "Vəhdəti-vücud" ideyası hakim olsa da, əsasında iki cür varlığın dayandığı mahiyyətdən danışmışdır:

***1. Maddi, real, gerçək varlığı ehtiva edən mümkün varlıq.***

***2. İlahi aləmi ehtiva edən zəruri varlıq.***

Onun zəruri varlığı bu əsərində Allah ideyasının özü kimi çıxış edirdi. Mütəfəkkirə görə, maddi varlıq zəruri varlığın, Allahın əsəridir. O, belə hesab edirdi ki, çoxluq maddi gerçəklikdəki cism və hadisələr təkin – Allahın təzahürləridir; "Çoxluq təkdən yaranmışdır".[194]Bakıxanov yaradıcılığına etdiyimiz bu fəlsəfi müfəssəl ekskursdan sonra onun yaradıcılıq diapozonuna bir də ayrıcalıqları ilə geniş baxmağa dəyər deyirik...

Beləliklə, yenidən vurğulamalıyıq ki, Bakıxanov məşğul

193 Maksud Fərhadoğlu Fəlsəfənin əsasları, Bakı, Maarif, 1996, 103.

olduğu bütün elm sahələrində zəmanəsinə görə dərin bilik, geniş hərtərəfli məlumat nümayiş etdirmişdir. O, çalışdığı mühitin vasitəsi ilə Yaxın və Orta Şərqin, eləcə də Avropanın siyasi fikri ilə yaxından tanış olmuş, Şərq ölkələri və Avropanın bəzi şəhərlərinə səyahətləri zamanı zəngin təcrübə toplamışdır.

Ədəbi ideyalarının qayəsini müraciət etdiyi xalqını maarifləndirmək təşkil edən mütəfəkkirin sosial görüşlərinin əsasını cəmiyyət ədalətsizliklərinin tənqidi, çatışmamazlıqların və nöqsanların yaranma səbəblərinin təhlili, fəlsəfi-etik görüşlərinin əsasını isə mənsubu olduğu dinə söykənən nəsihətlər təşkil edir.

Onun yaradıcılığı bir maarifpərvərin ürək yanğısı ilə qızındığı üçün bu yaradıcılığın leytmotivini Vətənə və millətə xidmət amalı təşkil edirdi. Abbasqulu ağa sələflərimiz içərisində yaradıcılığı yolumuzu aydınladıb, tədqiqatları kimliyimizi bizə xatırladan nadir şəxsiyyətlərimizdəndir. Belə ki, XIX yüzilin birinci yarısında onun vasitəsi ilə tarix, dilçilik, astronomiya, ədəbi nəsr sahəsində ilk əsərlərin yaranması xalqının vətənçilik, millətçilik şüurunun oyanmasına, qüvvətlənməsinə, Azərbaycan türklərinin özünü tanımasına xidmət edirdi. Elə bu baxımdan bilməliyik ki, bütöv Azərbaycanın ilk tarixinin yazılması da XIX əsrin ensiklopedik şəxsiyyətlərindən olan Abbasqulu ağa Bakıxanovun **(1794-1842)** adı ilə bağlıdır. Şair, nasir (1828-1832-ci illərdə) "Tiflisskiye vedmosti"nin farsca buraxılışının redaktoru[195], **tarix elmimizin atası** tərcüməçi, coğrafiyaşünas alim kimi Azərbaycan mədəniyyəti tarixində mühüm yer tutan bu şəxsiyyətin ən böyük xidməti, bizcə onun vahid, bütöv Azərbaycan tarixini yaratmaq cəhdi idi. Bakı xanlarının nəslindən olan Abbasqulu ağa Çar Qafqaz canişini

194 Aqşin Quliyev. **Abbasqulu ağa Bakıxanovun ictimai-siyasi görüşləri,** Bakı, Qanun, 2000, səh7

idarəsində işləyirdi. Çar hökuməti tərəfindən dəfələrlə döyüşlərdə şücaətinə görə orden-medallara layiq görülmüş, polkovnik rütbəsinə qədər yüksəlmişdirsə də, bu təltiflər onu cəhalət içərisində olan xalqına xidmətə daha da çox təşviq etmişdir. "Türkmənçay" müqaviləsinin imzalanmasında bir mütərcim kimi iştirak etmiş Abbasqulu ağa Bakıxanov demək olar ki, millətinin o zaman üçün ən işıqlı siması idi. Vətəninin Rusiya tərəfindən ikiyə bölünməsi faciəsinin iştirakçısına çevrilən Abbasqulu ağa məhz elə bu faciəni yaşadığı üçün bütöv "Azərbaycan tarixi" yaratmağı qarşısına məqsəd qoydu. Bu günün çərçivəsindən baxdıqda düşünmək olar ki, nə yaxşı Türkmənçay müqaviləsində iştirak edən azərbaycanlı, nəcabətli nəsildən olan işıqlı bir insan olmuşdur. Məhz bu insanın tarixin belə bir prosesində iştirak etməsi əzilmiş və parçalanmış tərəfin bəlkə də yeganə şansı idi..."[196]

"Gülüstan" və "Türkmənçay" müqavilələri nəticəsində böyük bir xalqın ikiyə parçalandırılıb, onun bir hissəsinin isə (Şimali Azərbaycan) zorla Rusiyaya birləşdirilməsi Azərbaycanının müstəqil bir dövlət kimi, inkişafına tarix səhnəsində vurulan sarsıdıcı zərbə idi. Azərbaycan xalqının cənubda qalan hissəsi İran mülkədarlarının (Şah-feodal rejiminin), şimalda qalan hissəsi isə Rusiya kapitalizminin (jandarm çar rejiminin) hakimiyyəti altına düşdü.

Siyasətbazların sahibsiz "obyektinə" çevrilən qədim Azərbaycanın taleyini buna nə mənəvi, nə də hüquqi haqqı olmayan İran və Rusiya istədikləri kimi həll etdilər. Nəticədə Azərbaycanın iqtisadiyyatından və maddi sərvətlərindən də dünya bazarında öz malları kimi istifadə etməyə başladılar. Xalqımızın milli hislərinin tapdalandığı və sərvətlərimizin talan olduğu dövr başlandı.

195 Aybəniz Əliyeva (Kəngərli), **Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük,** Bakı, Elm, 2002, səh.,110

Azərbaycanın dövlət müstəqilliyinin əlindən alınması, xalqımızın milli şüurunun inkişafı prosesinə əngəllər törətməklə, siyasi fikirdə milli özünü dərk etmənin, azad fikirliliyinin inkişafı üçün buxova çevrildi. İmperiya rus kimi fikirləşməyi, yalnız onun mövqeyindən danışmağı təkidlə tələb edirdi.

Azərbaycanın öz dövlət müstəqilliyini itirməsi nəticəsində xalqımızın əsrlər boyu milli-əxlaqi ruhuna hopmuş etiqadı, inam və əqidəsi, ən nəcib hissləri təhqir edilməklə amansız qəsdlərə məruz qaldı. İslamçılıq, hətta onun ən mütərəqqi cəhətləri (İslam dinindəki ideyaların qeyri mütərəqqiliyi xalqımıza Rusiyanın bunda marağı olan dairələri tərəfindən təlqin edilirdi) xalqın yaddaşından silindirildi. Bununla da Azərbaycan xalqının müsəlman dünyası ilə əlaqələrinin təcrid edilməsinin əsası qoyulurdu. Lakin bütün bunlara baxmayaraq xalqımızın qabaqcıl fikirli mütəfəkkirləri etiraz səslərini açıq aşkar ucaltmaqdan çəkinmirdilər"[197].

Bu acılar verici dövrün qələm sahiblərinin demək olar ki, hamısı qələmə sarılaraq (Qasım bəy Zakir, Mirzə Şəfi Vazeh, Mirzə Kazım bəy, Seyyid Əzim Şirvani, Həsən bəy Zərdabi, Mir Həmzə Nigari kimi mütəfəkkirlər) xalqın vəziyyətini ona çatdırmaq və bu vəziyyətə adət etməmək üçün siyasətin çirkin oyunlarının yaratdığı problemləri işıqlandırmaqla aşkarlamağa çalışırdılar. **Bu dövrdə xalqının tarixini qələmə almaq ümmətçilik səviyyəsində çabalayan xalqda bir millət təpəri oyatmanın fəlsəfəsi idi**![198]

**O, əsərlərində bu gün əsarətə düşmüş bir xalqın qəhrəman**

196 .M. Şəkixanova. **XIX əsrin sonu XX əsrin əvvəllərində yaşamış Azərbaycan cədidçilərinin dini-fəlsəfi görüşləri.** Müasir dövrdə dinşünaslığın və mədəniyyətin fəlsəfi problemləri (II buraxılış), Bakı 2013, səh17

197 Aybəniz Əliyeva (Kəngərli), **Az**ərbaycan romantiklərinin **yaradıcılığında türkçülük,** Bakı, Elm, 2002,

**keçmişə malik olduğunu, Mete, Atilla, Çingiz xan kimi dünyanı lərzəyə gətirən fatehlər yetirdiyini ona xatırlamaqla milli-azadlıq əzmi oyatmağa çalışmışdır.** 1843-cü ildə fars dilində tamamladığı, rus dilinə tərcümə edərək hissə-hissə dərc etdirdiyi "**Gülüstani-İrəm"** onun məhz bu ruhlu əsəridir. İki istilaçı tərəfin dillərini bilib bu dillərdə məhz birinci təfəkkürdən tərcüməçisiz müraciət xalqın qazancı deyilmi?

Tarix yaradıcıları olmuş xalqının ta keçmişlərdən onun zamanına qədər olan tarixini əks etdirən bu əsərini o zamankı hərbi nazir Çernışev 1842-ci ildə Zaqafqaziyaya gələrkən Abbasqulu ağadan rus çarına təqdim etməsini xahiş etmişdir.[199] 1844-cü ildə əlyazması Əlahiddə Qafqaz korpusunun komandiri general-leytenant Neydqarda onun vasitəsi ilə də nazir Çernışevə çatdırıldı. Bu əsər Abbasqulu ağanın məmləkətinin 12 oktyabr 1813-cü il Gülüstan sülhünə qədər olan tarixini əks etdirirdi.[200]

Abbasqulu ağa əsərin əlyazması üzərində 9 may 1844-cü il imperator I Nikolaya yazdığı ərznamədə xatırladır: "...xidmətdə olduğum zaman ərzində Ölkəmin indiyə qədər olan yazılmamış tarixinin qələmə alınması zərurətini düşünürdüm. Vətənimin tarixini yazmaq üçün əldə edilməsi mümkün və müəssər olmayan sənədlərdən istifadə etmək imkanına malik olduğumdan, bütün bu hallar mənim mənsub olduğum ölkənin keçmiş həyatını yazmağa və boş vaxtlartımı bu işə həsr etməyə məcbur etdi.[201] Ölkəsində bir anadilli qəzet belə, çıxmayan müəllifin "xalqı üçün yazdığı" əsəri,

**198** Ц.П. Агаян. **А. акиханов. Издательство АН Азерб. ССР, Баку 1948, səh 93.**

199 Yenə həmin mənbə, səh 93.

200 Bakıxanov A. Gülüstani İrəm, Bakı, Az. EA nəşriyyatı, 1951, səh 75.

dövründə nəinki Azərbaycanda, bütün dünyada sanballı əsər sayıla bilərdi. Belə olmasa idi polyak şairi Lado Zablotski (Tiflisdə tanış olaraq dost olmuşdular, sonralar Zablotski Abbasqulunun böyüdüyü Əmsar kəndində də olmuşdu-Ş.M) əsəri dövlət tapşırığı ilə rus dilinə, bir qədər sonra polyak dilinə də tərcümə etməzdi[202] .

Abbasqulu ağanın sanballı tarixi mənbə olan "Gülüstani-İrəm əsərinin sonrakı taleyi barəsində də Vəli Həbiboğlu yazır ki: "...Gerenal Neyinqard əsərin əlyazması ilə birgə A.A.Bakıxanovun imperatora yazdığı müraciətnaməni də çara göndərir və Peterburqa I Nikolaya aşağıdakı məzmunda məktub yazır: "Məndən əvvəlki canişinin (general Qolovin) tapşırığına əsasən süvari dəstəsində xidmət edən palkovnik Abbasqulu ağa Bakıxanov "Qafqazın Şərq hissəsinin tarixi" adlı əsər yazmışdır və hazırda onu mənə verərək Sizə çatdırmağı xahiş edir."[203]

"...1845-ci il martın 8-də Çernışev A.A.Bakıxanovun bu əsəri barədə I Nikolaya məlumat verir. İmperatorAbbasqulu ağanın zəhmətini yüksək qiymətləndirmək qərarına gəlir, o müəllifə dəyəri 800 manat gümüş pul olan briliant qaşlı üzük vermək barəsində sərəncam verir. Əsər isə baxılıb öyrənilmək üçün Elmlər Akademiyasına göndərilir.

Knyaz Çernışev İmperatorun tapşırığı ilə hökumət xəznəsindən briliant qaşlı üzük götürərək, Bakıxanova təqdim etmək üçün onu Tiflis korpusunun yeni komandiri – Qafqaz canişini general Vorontsova göndərir. O, eyni zamanda general Vorontsova məlumat verib bildirir ki, əsər baxılmaq üçün Akademiyanın tarix-filologiya bölməsinə göndərilmişdir.

---

201 Vəli Həbiboğlu. **Abbasqulu ağa Bakıxanov.** Bakı, Gənclik 1992, səh 331.

202 Vəli Həbiboğlu. **Abbasqulu ağa Bakıxanov.** Bakı, Gənclik 1992, səh 323.

1845-ci il may ayının axırlarında A.A.Bakıxanovun həmin əsəri Rusiya Elmlər Akademiyasının tarix-filologiya bölməsində akademiklər **Brosse** və **Dorn** tərəfindən baxılıb yüksək qiymətləndirildi. Onlar əsərə verdikləri rəydə yazmşdılar: "Biz Abbasqulu ağa Bakıxanovun əsərini böyük maraqla oxuduq və fərəhləndik ki, müəllifin özünün yazdığı kimi müharibələr və çaxnaşmalar içərisində ömrünü keçirən bir şəxs öz asudə vaxtını tarixi məşğuliyyətə və elmi irəli aparan, Rusiya imperiyası tərəfindən Zaqafqaziya vilayətlərinin dərk edilməsində az əhəmiyyəti olmayan tədqiqatlara həsr edir...

Əgər Avropa tənqidçiləri mövqeyindən bu əsərə yanaşsaq əlbəttə, burada nəyi isə tənqid etmək və yada salmaq olardı."[204] Rəyçilər haqlı olaraq bu tarixi əsərdə müəllifin hadisələrə və faktlara tənqidi yanaşmadığını, daha doğrusu, öz münasibətini bildirmədiyini göstərirlər. Lakin onların fikrincə, bu heç də əsərin tarixi əhəmiyyətini azaltmır, əksinə Avropa alimlərinin də əldə edə bilməyəcəyi qədim Şərq mənbələri əsasında yazılmış bu əsər Qafqaz ölkələrinin tarixini öyrənmək baxımından çox faydalıdır[205].

Göründüyü kimi, vətəninin Rusiya tərəfindən ikiyə bölünməsi kimi tarixi (xalqımız üçün bədnam olan) müqavilələrdə (Türkmənçay və Gülüstan) mütərcim kimi iştirak etmiş olan Abbasqulu ağa tarixin bu gedişatını dəyişmək iqtidarında olmasa da, öz vətəndaş sevgisini, milli heysiyyətini məmləkətinin dərin qatlara gedən keşmişinə, tarixinə həsr etdiyi "Gülüstani-İrəm" əsəri ilə əbədiləşdirdi. ""Gülüstani İrəm" əsərində qədim dövrdən (Albaniya dövləti, Babək

203 Yenə həmin ədəbiyyat, səh332,333.

204 Vəli Həbiboğlu. **Abbasqulu ağa Bakıxanov.** Bakı, Gənclik 1992, səh 333

hərəkatı, Şirvanşahlar dövləti, monqol hücumları, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri, Azərbaycan xanlıqları və onların Rusiyaya birləşdirilməsi, Rusiya-İran müharibələri və s.) 1813-cü il Gülüstan sülh müqaviləsinədək olan böyük tarixi dövrdəAzərbaycan və Dağıstan tarixindən bəhs olunur. Bu əsərində Abbasqulu ağa tarixi prosesi, cəmiyyət hadisələrini idealist mövqedən təhlil edib qiymətləndirmiş ictimai inkişafda görkəmli şəxsiyyətlərin, şahların, xanların rolunu əsas götürmüş, bəzən onları ideallaşdırmış, xalq kütlələrinin əməli fəliyyətini lazimi səviyyədə qiymətləndirməmişdir"[206]

Əsərdə Azərbaycan ərazisində yaşamış müxtəlif tayfaların mənşəyi, dilləri, dinləri haqqında zəngin elmi məlumat verilmiş. Azərbaycan tarixinin ən qədim dövrlərindən başlayaraq Gülüstan müqaviləsinə kimi olan dövrlərinin elmi mənzərəsi yaradılmışdır. **"Türk** tədqiqatçılar türkçülüyün tarixindən bəhs edərkən, dünyada yaşayan müxtəlif türk şivələrinin vahid türk dilinin qollarının olması ideyasını Əhməd Vefiq **Paşa[207], Süleyman Paşa kimi türkçülər tərəfindən irəli sürüldüyünü iddia edirlər. Halbuki böyük türkçü Abbasqulu ağa Bakıxanov əsərini bitirdiyi**

205 Maqsud Fərhadoğlu. Fəlsəfənin əsasları, Bakı, Nurlan, 2002.

206 Əhməd Vefiq Paşa (İstanbul 1823-1891), Tanınmış siyasi xadim, yazışı, dilçi və tarixçidir. Atası xarici işlər nazirliyində məmur olmuşdur. İlk təhsilini ailə çərçivəsində almış, sonralar Parisdə oxumuşdur. Görkəmli dövlət xadimi və islahatçı Mustafa Rəşid Paşaya yaxın olmuşdur. Əhməd Paşa bir çox yüksək vəzifələrdə çalışmış, bir müddət baş nazir olmuşdur. Onun elmi və ədəbi fəaliyyəti də qızğın keçmişdir. 1875-ci ildə Peterburq EA-na üzv seçilmişdir. İstanbul Darülfünunda bir müddət tarix fəlsəfəsindən mühazirələr söyləmişdir. Türkiyədə teatrın inkişafında onun xüsusi rolu vardır. Molyerdən bir sıra tərcümələr və iqtibaslar etmişdir. Bu zaman həmin əsərləri yerli ənənəyə uyğunlaşdırmışdır. Əhməd Vefiq Paşa türk dili və tarixinə dair çox dəyərli əsərlər yazmışdır. "Hikməti tarix", "Müntəğəbati durubi əmsal". "Hikməti tarix (1863), "Şəcəreyi türki (1864)", ƏbülBahadur xanın caqatay ləhcəsində yazdığı əsərin Anadolu ləhcəsinə tərcüməsi)), "Ləhceyi osmani" (birinci bölüm 1876), II-III bölümlər (1888, 1889) və,s. Türkçülük baxımından bu əsərlərdən xüsusi ilə 3-ü seçilir: "Şəcəreyi türki", "Ləhceyi osmani", və "Müntəğəbati durubi əmsal". "Şəcəreyi türki" adlı tərcümə əsərində Osmanlı dövründən öncəki türk tarixini qarşıya qoymuşdur...Məlumat Ziya Göyalpın "Türkçılıyin əsasları kitabı 138- ci səhifədən götürülmüşdür.

**zaman Süleyman Paşanın[208] 5, Əhməd paşanın isə 20 yaşı vardı"(?). Bəhs etdiyimiz ideyalar "Gülüstani-İrəm" əsərində onların yaradıcılığında öz əksini tapmadan xeyli əvvəl göstərilmişdir".[209]** Əsərin türk dilinə tərcümə olunmaması bir çox tədqiqatçıların bu əsərdən xəbərsiz qalmalarına səbəb olmuşdur. Bu gün isə biz tədqiqatçılara bu əsər türkçülüyün tədqiqi və vətən tarixinin araşdırılması və yeni ruhlu məfkurələri formalaşdırmış ən tutarlı mənbə, hədiyyədir.

Görkəmli tədqiqatçı Yaşar Qarayev yazır: "Azərbaycan maarifçiliyi Bakıxanovun simasında maarifçi mütləqiyyət ideyası ilə meydana atılır və çox az bir müddət ərzində xalq üsyanı yolu ilə respublikaçı dövlət qurluşunu qəbul və elan edən Axundzadə inqilabiliyinə və demokratizminə qədər mürəkkəb, təzadlı tarixi yol keçir."[210]

**Müasirləri Abbasqulu Bakıxanov haqqında.** Xalqımın bu parlaq zəkaya malik olan oğlu bir çox elm və mədəniyyət xadimlərinin diqqətini özünə cəlb etmiş və onlar onun haqqında maraqlı xatirələrini yazmışlar. Alman şairi və tərcüməçisi F.P.Bodenştet yazırdı: "...

---

207 **Süleyman Paşa.** Görkəmli sərkərdə və yazıçı. 1838-ci ildə İstanbulda anadan olmuşdur. O "Yeni osmanlılar"ın fəal tərəfdarlarından və Tənzimat dövrünün ən böyük türkçülərindən idi. 1872-ci ildə ona briqada generalı, 1876-cı ildə isə marşal rütbəsi verilir. 1873-cü ildə isə hərbi məktəblər naziri təyin edsilmişdir. Süleyman Paşa türkçülük (türklük) anlayışlarının geniş yayılıb mənimsənilməsində qızğın fəaliyyət göstərmişdir. O, İslamdan öncəki türk tarixinə və təmiz türk dilinə sonsuz maraq göstərmişdir. Bunların məktəblərdə öyrənilməsi üçün bir sıra elmi əsərlər yazmışdır. Süleyman Paşa tarix sahəsində olduğu kimi dilə də obyektiv və türkçilik nöqteyi-nəzərindən yanaşaraq türklərin dilinin osmanlı deyil türk dili olduğunu göstərir. Süleyman Paşanın başlıca əsərləri bunlardır I Rəvaniül inşa, II Tarixi aləm (1874), III Elmi-sərfi türki (II cild 1876), Onun Tarixi aləm əsərinin türk milli tarixinin öyrənilməsində böyük xidməti olmuşdur. Məlumat Ziya Göyalpın "Türkçılıyin əsasları kitabı 138- ci səhifədən götürülmüşdür.

**208** Aybəniz Əliyeva (Kəngərli), **Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük,** Bakı, Elm, 2002, səh 20.

209 Yaşar Qarayev. **Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər,** Bakı, Elm, səh 217.

Ölkənin tanış olduğum bir çox alimləri arasında ləyaqət və biliyinə görə ən görkəmlisi Abbasqulu ağa idi."[211]

İen Universitetinin professoru Karl Henrix Kox A. Bakıxanovla 1844-cü ildə Qubada tanış olmuşdur. O yazır: "Mən Qubada ömrünü elmə həsr edən və Böyük Adına layiq olan başqa adamla da tanış oldum. Bu Abbasqulu ağa idi. Verdiyi tutarlı məlumatlara görə borclu olduğum Abbasqulu ağa öz Vətəninin tarixi ilə məşğuldur və bu barədə fars dilində xüsusi kitabda yazmışdır. Öz vətəninin tarixi ilə yanaşı, Abbasqulu ağa astronomiya ilə də yüksək dərəcə də maraqlanmışdır".[212]Abbasqulu ağanın Puşkinin ailəsi ilə də yaxından tanış olması tarix səhifələrində artıq çoxdan sənədləşmişdir. Böyük şairin anası Nadejda Osipovna: "... şəstini sevdiyi bu lütfkar insana məftunluğunu qızı Olqaya göndərdiyi məktubunda qeyd etmiş ona məftunluğunu vurğulamışdır."[213]

Onu zəmanəsinin, bizim zəmanəmizin və gələcəyin qəhrəmanına çevirəcək məziyyətləri çox idi. Əvvəla o, bir tarix araşdırmaçısı idi, daha sonra poliqlotdu. Yaşadığı zamanın və coğrafi məkanının ünsiyyət üçün tələb edə biləcəyi dillərə sahib idi. Elə buna görə də əldə etdiyi biliklər və mənimsədiyi dillər vasitəsi ilə o, həm də bir dəyərli dövlət və siyasət adamı idi. O, yazıçı idi. Yazdığı "Kitabi Əskəriyyə" ilə realist nəsrin əsasını qoyub. Realist nəsrimiz demə "Rəşid bəy və Səadət xanım" əsəri ilə deyil, məhz "Kitabi Əskəriyyə" ilə başlanırmış (güman edirəm ki, ondan neçə yaş balaca olan İsmayıl bəy Qutqaşınlının (mənim boya başa çatdığım Qəbələ torpağının

---

210 H. Kərimov. **Odlar Yurdunun** səyyah və coğrafiyaşünaslıarı, Bakı, 1985, səh 139,148

211 Yenə orada, səh 139-148.

212 Yenə orada, səh 45, 46.

yetirməsinin) ruhu bizdən inciməyəcək-Ş.M)). Belə ki, Qutqaşının (indiki Qəbələnin-Ş.M) o zamanki sultanı Nəsrulla sultan onu (İsmayıl bəyi-Ş.M) Tiflisə rus ordusunun xidmətinə gətirdikdə onu ilk görüb tərbiyə və savadını təqdir edən məhz Bakıxanov olmuşdur...

Onun dəyərli əsərləri hələ də nəsihatəmiz ibarələri ilə gündəmdən düşməyən aktuallığa malikdir. Həmişə də belə olacaq. Çünki onun əsərləri öz ruhunu xalqının çox əsrlik ənənələrindən və mənsub olduğu dinin həqiqi ədalətindən alır. "...25-30 yaşında siyasi xadim kimi tanınan Bakıxanov bacarıqlı dövlət xadimi və siyasət adamı idi. "Fars və ərəb dillərini yaxşı bildiyinə görə, Qafqazın baş hakimi general A.P.Yermolov 1819-cu ildə A.A.Bakıxanovu Tiflisə şərq dilləri üzrə tərcüməçi işinə dəvət etmişdir. Abbaasqulu ağa Tiflisdə işlədiyi müddətdə rus dilini öyrənmiş, eyni zamanda rus və Avropa maarifçilərinin fikirləri ilə tanış olmuşdur. Onun Tiflisdə işlədiyi vaxt Rusiya-İran və Rusiya-Türkiyə arasında müharibələr dövrünə təsadüf edir. Bakıxanov tarix səhifələrinin açılmasına ipucları verən həmin müharibələr zamanı Çərkəziyədə, Şirvanda, Dağıstanda, Gürcüstanda və başqa yerlərdə olur."[214]

Özünün Gülüstani-İrəm əsərində Abbasqulu ağa qeyd edib ki: "Yuxarıda sadalanan yerlərdə olarkən o, həmin yerlərin alimləri ilə tanış olur, söhbətlər aparır eyni zamanda, yerli şəraiti də öyrənirmiş."[215] Odur ki, gərgin əmək sonucunda yaranmış "Gülüstani İrəm"i təkcə Azərbaycan deyil, ümumiyyətlə, türkçülük tarixinin etibarlı mənblərindən biridir. Təsadüfi deyil ki, Ziya Bünyadov yazırdı

---

213 M. Şəkixanova. **XIX əsrin sonu XX əsrin əvvəllərində yaşamış Azərbaycan cədidçilərinin dini-fəlsəfi görüşləri.** Müasir dövrdə dinşünaslığın və mədəniyyətin fəlsəfi problemləri (II buraxılış), Bakı 2013, səh7.

214 Yenə orada, səh 7.

ki: “Gülüstani-İrəm” mahiyyəti və əhatə dairəsinə görə öz dövrünün sanballı abidəsidir. Əsərdə ehtiva olunan tarixi hadisə və proseslərin tədqiq edilməsində XIX əsrin tarix elminin bütün naliyyətlərindən, ayrı-ayrı ölkə alimlərinin tarixə dair tədqiqatlarından və tutarlı ədəbiyyatlardan-istifadə edilmişdir.

A.A.Bakıxanovun böyük xidməti, xüsusilə də onunla əlaqədardır ki, öz “xalqına Vətən tarixini məhz o, miras qoymuşdur.”[216]

**Səyahətləri.** Aqşin Quliyevin araşdırmasına əsaslansaq deyə bilərik ki, bu zəhmətkeş vətənpərvər indiki Azərbaycan ərazisinin Quba, Qonaqkənd, Şamaxı, Ağsu, Göyçay, Ağdaş, Ağstafa, Qazax, Bakı, Salyan, Lənkaran, Astara kimi şəhərlərində, İran Azərbaycanının Təbriz, Bostanabad, Türkmən, Novruzabad, Zəncan, Soltaniyyə və bir çox başqa məmləkətlərində, habelə Ərdəbil və Tehranda, Türkiyyənin Ərzurumuna vararaq isə oradan Trabzonadək getmiş, Qara dəniz yolu ilə İstanbulu səyahət etmisdir. Bu səyahətlər **1826-1828**-ci illərdə Rusiya–İran **1828-1829**-cu illərdə Rusiya-Türkiyə müharibəsi zamanı gerçəkləşmişdir. 1834-cü ildə isə o, Varşavada olmuş həmin ilin yayında Peterburqa oradan Moskvaya və Odessa şəhərlərinə və digər şəhərlərə də səyahətlər etmişdir. 1846-cı ilin bir payız günündə Dardanel boğazı ilə Egey və Aralıq dənizlərindən keçərək İskəndəriyyədə, sonra isə Qahirədə olur. O, 1846-ci ilin dekabrında müsəlmanlığın müqəddəs məbədi Məkkəyə gəlir. Bakıxanov Vətənə Mədinə, Dəməşq və Tehrandan keçməklə qayıtmaq, Yaxın və Orta Şərqə səyahətini Ərəbistan, Suriya, İraq və İranın cənub hissəsini gəzməklə tamamlamaq istəyirdi, lakin yaradıcılığının məhsuldar dövründə həyata gözlərini əbədi yumdu. 1847-ci ildə Məkkədən

215 Z.M.Bünyadov. **“Gülüstani-İrəm”** kitabına yazdığı redaktor mətnindən, Bakı, 1991, səh 4.

Mədinəyə gedərkən bu iki şəhər arasında yerləşən "Vadiyi-Fatimədə" vəbadan vəfat edərək orada dəfn edilmişdir[217].

**Fəlsəfi əsərlərindən parçalar.** Bakının Əmircan kəndində dünyaya gəlib xalqını düşünüb, millətinin işıqlanması üçün yaşayıb, Şərqi və Qərbi gəzmiş, "**Riyazül-Qüds**" (İslam tarixində baş verən Kərbala vaqiəsini işıqlandıran və Peyğəmbər övladlarına məhəbbətlə yazılmış əsər-Ş.M) ruhu ilə yaşayıb, gənclərini **"Kəşfül–qəraib"** (Amerikanın kəşfinə həsr olunmuş əsəri-Ş.M**),** "Əsrarül-mələkut" (ulduzların sirrinə həsr olunmuş ilk astronomiya əsəri-Ş.M)[218] "**Kitabi Əskəriyyə"** (realist nəsrimizin ilk xalq ruhunda yazılmış əsəri-Ş.M**)** ruhu ilə tərbiyələndirən bu böyük insanı müqəddəs torpaqlar ağuşuna almaqla ölümü ilə də şərəfləndirdi...

**Beləliklə, yaradıcılığındakı zənginlik bir yerdə oturub min bir yerdən xəbər verənlərdən olmayıb "min bir yer"i gəzib yuxarıda adlarını çəkdiyimiz kimi maarifləndirici əsərlər yazması ilə də bağlıdır. Bu əsərlər yazıldıqları zamana və məzmunlarına görə tədqiqatçılar üçün unikal mənbələr hesab oluna bilər.**

Nəhayət, bu nəcib xanzadənin dini-fəlsəfi və əxlaqi baxışlarına gəldikdə onları Abbasqulu ağa özünün "Riyazül-Qüdsi", "Təhzibül-əxlaq", "Kitabi-nəsayeh", "Eynül-mizan", "Hind əfsanəsi" əsərlərində, habelə "Mişkatul-ənvar" poemasında daha aşikar şərh edə bilmişdir deyə bilərik. Qeyd etdiyimiz kimi, mütəfəkkirin yaradıcılığında İslam dininin ehkamlarına hörmət və sədaqətlə yanaşma olsa da, o bu ehkamlara doqmatik düşüncə açısından deyil, mütərəqqi axtarışlar mövqeyindən yanaşmışdır. Belə ki, "Əsrarül-məlaküt"da

216 H. Kərimov. **Odlar Yurdunun səyyah və coğrafiyaşünasları,** Bakı, 1985, səh, 7,8,9.

217 "Riyazül-Qüds"-Abbasqulu ağanın ilk əsəri olub dini səpkidə yazlmışdırı,

o bizim dünyamızın "yunan və Avropa alimləri tərəfindən yaradılmış heliosentrik sistemi haqqında təlimi müdafiə etsə də, "riyazi sübutların və astronomik müşahidələrin sonucu əldə edilən nəticələrin hələ əsrlər öncə Quranın kəlamları və Məhəmməd Peyğəmbərin rəvayətləri ilə təsdiq edilir" fikrini söyləmiş" Quran ayələrini ilk və inanılmış mənbə kimi tanıdır[219].

Yaradıcılığının əvvəl dönəmində onun fəlsəfi düşüncələrinin əsasında Sufizmin vəhdəti-vücud fəlsəfsinin təsiri duyulmaqdadır. Bu dünyagörüşü ilə o, "mümkün varlıq" kimi gerçək dünyanı "zəruri varlıq" kimi isə bütün mövcudatın yaradıcısı olan Allahı görür. Bakıxanova görə, hərəkət görünən dünyanın varlıqlarına məxsus atribut olduğu üçün "mümkün varlığ"ı şərtləndirir. Amma yaradılışı etibarı ilə o "zəruri" varlığa borclu olub çoxluğu da şərtləndirir. Bu çoxluqsa Vahid olanın, seyr edilən dünyada görünən tərəfləri olub günəşdən ayrılan şüalar kimidirlər. Açıqlanan bu dünyagörüşün tərəfdarları Azərbaycanda Eynəlgüzzat Miyanəci, Mahmut Şəbüstəri, Qasım Ənvar, Şəms Məğribi, Mahmud Şəbüstəri və bir çox başqaları kimi filosoflar olmuşlar.

Eyni zamanda Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Nəsrəddin Tusi kimi tanınan mütəfəkkir filosofların da yaradıcılığından bəhrələnən və üslubu ilə onları xatırladan ("Hind əfsanəsi"ndə sanki Nizamini oxuyursan Ş.M) Bakıxanov elə o sələfləri kimi İslamın ehkamlarına yaradıcı məhəbbətlə yanaşır.

***Yarəb, məni rəhnəvərdi (yolçu, yolçuluğa-Ş.M)-iqbal eylə,***
***Eşqinlə cahanda fərüğbal (asudə-Ş.M) eylə,***

---

218 M. Şəkixanova. **XIX əsrin sonu XX əsrin əvvəllərində yaşamış Azərbaycan cədidçiləri-nin dini-fəlsəfi görüşləri.** Müasir dövrdə dinşünaslığın və mədəniyyətin fəlsəfi problemləri (II buraxılış), Bakı 2013, səh, 7, 11

***Kəs rabiteyi-əlayiqim aləmdən,***
***Sevdazadeyi cəmali-iclal eylə.***

Bu misralar onun yaradıcılığının ilk məhsulu olan "Riyazül – Qüds"-ün giriş misralarıdır[220].

Yuxarıdakı misralarla əsərə giriş verən şair Allahın onu bəlli bir yola sövq edib, Onun aşiqlərindən olmasını Yaradanından rica edir. Maraqlı olansa, ömrünün axırına kimi bu təmiz yola sadiq qalan Bakıxanovun bir ömrünə neçə ömür sığdıraraq zamanəsi üçün yeni olan elmlərin bir çox sahələrində müvəffəqiyyət qazanmasıdır.

Bakıxanovun yaradıcılığından danışarkən onun əxlaqdan bəhs edən fikirlərini, xüsusilə qeyd etmək lazımdır. Etikaya dair mülahizələri onu bir əxlaqşünasa çevirir və bu cəhət mütəfəkkirin yaradıcılığında əsas yerlərdən birini tutur. Bu baxımdan onun "**Təhzibül-Əxlaq**" əsəri etika elmimizin dəyərli nümunələrindən biri hesab oluna bilər. Bu barədə görkəmli ədəbiyyatçı Feyzulla Qasımzadə yazırdı ki, "Təhzibül-Əxlaq" müəllifin pedaqoqika və psixologiyaya aid elmi və nəzəri məsələləri əhatə edən fəlsəfi əsərdir.[221]

Şəxsiyyətin bütövlüyü, vicdan təmizliyi, doğruluq, ədalət, mərdlik, yoxsul və məzlumlara hamilik, insanlarla xoş rəftar, özünü düşgün ehtiraslardan qorumaq, dünya malına tamah salmamaq, şöhrətpərəstlikdən çəkinmək, təvazökarlıq, zəhməti sevmək, elm və maarifin bayrağını hər şeydən uca tutmaq, vətənə və xalqa məhəbbət və s. əsərin irəli sürdüyü əsas əxlaqi məsələlərdir.[222]

---

219 Abbasqulu ağa Bakıxanov. **Riyazül Qüds,** Bakı, Azərnəşr, 1964, s.327.

220 Qasımzadə. **XIX əsr, Azərbaycan ədəbiyyatı tarixi,** Bakı, 1966, səh, 119.

221 M. Şəkixanova. **XIX əsrin sonu XX əsrin əvvəllərində yaşamış Azərbaycan cədidçilərinin dini-fəlsəfi görüşləri.** Müasir dövrdə dinşünaslığın və mədəniyyətin fəlsəfi problemləri (II buraxılış), Bakı 2013, səh,15.

Bu baxımdan **"Hikmətin fəziləti"** ndə oxuyuruq:

*Hər şeydən yaxşıdır yaxşılıq özü.*
*Çünkü yaxşı sifət olarsa səndə,*
*Afərin söyləyər dost da, düşmən də.*

Əsərin qayəsində bir zənginin vəsiyyət olunmuş dəyərli üzüyünü şah ən ağıllı insana vermək üçün hər bir kəsi yanına yığır. Xeyli sual cavabdan sonra kasıb lakin ağıllı bir kişinin ağlına heyran olan şah ona təzim edərək üzüyü ona bağışlayır.

*Yenə də çox fikir çıxdı meydana*
*Şah isə o, şəxsə edirdi diqqət,*
*Dedi: Ən lazımlı şeydir - həqiqət.*
*Həqiqət olmasa, olmaz intizam*
*Dünya həqiqətlə dolanır müdam".*
*Şah qalxıb kasıba eylədi təzim,*
*Üzüyü qocaya eylədi təqdim.*
*Əmr etdi saraydan getməsin, bir an,*
*Ki, alsın məsləhət hər işdə ondan.*
*Nəhayət oldu o şahın vəziri,*
*Ölkəni düzəltdi onun tədbiri.*
*Nə yaxşı olardı hər ölkədə ah.*
*Olaydı belə bir vəzir ilə şah.*[223]

Misraları ilə sələflərinin sosial düşüncələrini təkrarlayan mütəfəkkir əsərdə xalqla-iqtidar qarşılaşmasını, zənginlə yoxsul tandeminin sirr olmayan birgəliyinin xeyirli ola biləcək tərəflərini yenidən nəzərlərə çatdırır. Əsərin sonunda isə özünə və şəxsində insanlara xeyirli məsləhətdə bulunur.

222 A. Bakıxanov. **Hind əfsanəsi (Hikmətin sirləri).** Bakı.Uşaqnəşr, (Nəşrə hazırlayan M. Sultanov), 1957, səh, 25

*Ey Qüdsi hikmətdən varsa xəbərin,*

*Yaxşı adamlarla olsun nəzərin*[224]

Yaxud "**Məşvərətin sirləri**" əsərində isə o qədim bir el məsəlini məharətlə bir aqil qocanın dili ilə özündən razı, həmişə öz dediyini yeridən əmirin düz üzünə söylədir.

*Danışma, eşitmə, görmə əmr etsən,*

*Bağlaram dil qulaq, gözümü hərdən.*

*Əmr etsən anlama, əfv et hökmüdar,*

*Bu işdə əlimdə deyil ixtiyar.*[225]

Anlamaq, idrak etmək kimi fəlsəfi kateqoriyanın əhəmiyyətini belə, məharətlə diqqətlərə çatdıran şairin nəsihətlə dolu daha bir ibrətamiz əsəri "Ümidin boşa çıxması"dır. Əsərdə Həsən adlı zəhmətkeş bir kəndli ona bağışlanmış toxumdan əmələ gətirdiyi, min bir əziyyətlə yetişdirdiyi nübar, nadidə meyvələri (burada almaları- Ş.M) dostlara, əhli-əyalına qıymadan saraya şah dərgahına aparır. Elə müsibəti də buradan başlayır... Səfər üstündə olan şah onunla məşğul ola bilmir və onunla saraydakı məsuliyyətsiz, insan ömrünü, zamanını və zəhmətini heçə sayan məmurlar "məşğul olur". Bu "maraqlanma" nəticəsində Həsən kişi iki il zindanda yatmalı olur və yalnızca şah geri dönüb onu xatırlarkən azadlığa çıxır. Sarayda Həsən kişiyə vurulmuş ziyanı aradan qaldırmağa çalışan şah onu xəzinəyə nə istərsə götürsün deyə göndərir. Bu zəhmət adamı isə sanki bir anda yuxudan ayılır, azadlıq və sərbəstliyin daha böyük nemət olduğunu dərk edərək xəzinədən Qurani-Kərim və balta götürür. Şahın təəccübü və təkidi qarşısında kəndli:

223 A. Bakıxanov. **Hikmətin sirləri,** Bakı, Azərnəşr, 1964, səh 25.

224 A.Bakıxanov. **Məşvərətin sirri. Hind əfsanəsi,** (Nəşrə hazırlayan M. Sultanov), Bakı. Uşaqnəşr, 1957, 27.

*Baltayla kəsərəm ağacı əvvəl,*
*Ki, odur gətirən başıma əngəl.*
*Deyirəm and içsin nəslim Qurana.*
*Ümid bağlamasın heç bir sultana.*
*Nə arzu etmişdim, noldu nəhayət.*
*Qoy onlar halımdan alsınlar ibrət... deyir.*[226]

Müdrik sələfləri kimi ictimai ədalətsizliklərə qarşı çıxaraq Bakıxanov **"Mişkatül-ənvar"** əsərində yazır:

*Şahın hökmü olmalıdır xalq rəyinə müvafiq*
*Elə bir iş tutmalıdır ki, olsun xalqa layiq.*
*Hər zalım şah ölkəsində zülmə edərsə adət,*
*Heç bir zaman xalq içində hökm sürməz ədalət.*[227]

Mütəfəkkirə görə, ədalətsizlik əxlaqi yoxsulluqdur. Ədalətlilik və yaxşı əməl isə elə mənəvi zənginlikdir ki, onları nəcabətli insandan heç bir qüvvə qopara bilməz.

Məhz elə buna görədir ki, mütəfəkkirin "**Təhzibül-Əxlaq**" əsəri maarifçilik ideyalarıyla çox zəngindir. "Bütün fəlsəfi görüşləri öyrənib yunan alimlərinin əxlaq sahəsində kitablarını oxuyub islam maarifi əsasında əxlaqi görüşlərini bəyan edən".[228] Mütəfəkkirin "Təhzibi Əxlaq" (Əxlaqın islahı yaxud təmizlənməsi-Ş.M) əsəri barındırdığı zəngin nəsihətlərlə faydalıdır. Əsərdə Bakıxanov XIX əsr Azərbaycan maarifçilərinin ilk nümayəndəsi kimi, elmi və maarifi

---

**225** A. Bakıxanov**. Ümidin boşa çıxması. (Hind əfsanəsi** nəşrə hazırlayan M. Sultanov), **Bakı. Uşaqnəşr, 1957.səh,27**

226 Abbasqulu ağa Bakıxanov Qüdsi. **Bədii əsərlər,** Bakı, Azərbaycan dövlət nəşriyyatı,1964, səh, 47

227 Abbasqulu ağa Bakıxanov Qüdsi. **Təhzibi-əxlaq və nəsihətlər,** Beynəlxalq Əlhuda Nəşriyyatının Bakı şöbəsi, 2004, səh 6,7.

insanın kamillik dərəcəsinin əsası kimi qiymətləndirərək, öz xalqının savadlanmasını arzulayırdı. O, maarifə cəmiyyətin inkişaf etməsinin ən ümdə şərti kimi baxırdı. Mütəfəkkirin feodal cəmiyyətində xalqın maariflənməsinə qarşı çevrilən bəzi adət-ənənənələri tənqid etməsi də buradan irəli gəlmişdir. Əsər demokratik ruhlu maarifçi mənbədir. Əsərin qayəsi onun müəllifinin xalqın tərəqqisi uğrunda yorulmadan çalışan bir zəka sərkərdəsi olduğundan xəbər verir. Onun bəzi əsərlərində ifadə olunan ictimai, siyasi və hüquqi ideyalar tarixinin öyrənilməsi baxımından da çox önəmlidir.[229] Təbii ki, siyasi və hüquqi ideyaları öz mütərəqqiliyi, humanizmi ilə seçilən Bakıxanovun bu ideyaları XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda yaranan siyasi hüquqi fikirlərin, xüsusilə də maarifçilik ideyalarının inkişafina müsbət təsir göstərmişdir. Bakıxanov Azərbaycan ədəbiyyatı tarixinin elə bir mərhələsində yazıb yaratmışdır ki, bu zaman Azərbaycanda (bütün dünyada olduğu kimi-Ş.M) hər şeydə bir intibah duyulur və yeni ədəbi cərəyanlar yaranırdı. Bakıxanovsa bir cox yeniliklərə imza atmış yaradıcılığı ilə bu yenilikçilərin başında duranlardan biri olmuşdur. Məhz elə bu cəhətlərdən onu yeni realist ədəbi məktəbin banisi olan Mirzə Fətəli Axundovun da, İsmayıl bəy Qutqaşınlının də sələfi adlandırmaq olar.[230]

---

228 M.Məlikova. **Azərbaycanın siyasi hüquqi nəzəriyyələr tarixi,** Bakı. Dövlət nəşriyyatı,1984.

229 **Aqşin Quliyev. Abbasqulu ağa Bakıxanovun ictimai-siyasi görüşləri,** Bakı, Qanun, 2000, səh, 32

# Azərbaycanlılar üçün ilk orta təhsil ocağı və onun yaranmasında Bakıxanovun rolu

Qeyd etməliyəm ki, cədidizm özlüyündə əhatəli, tədqiq edilməyə layiq, kökləri vaxtı ilə, əslində, türklərin sıx yaşadığı torpaqlarda mövcud olan dövlətlərin hamısının iqtisadiyyatı, siyasəti, dini düşüncəsi, hətta dünyanın tanınmış dövlətlərinin belə, siyasətinin zorbalığına tuş gəlmiş insanların məfkurəsinin məhsuludur. Odur ki, cədidizmin tədqiqi eyni zamanda bir neçə elm sahəsinin birgə işidir. Bir çox cərəyanlar kimi onun yaranmasının da siysi-fəlsəfi kökləri daha dərindədir. Əvvəlki tədqiqatlarda bu siyasətin müəyyən nüanslarını açıqlamışdıq. Biz isə bu tədqiqatımızda yuxarıda qeyd etdiyim kimi, yaradıcılığı bir neçə dövlətin ərazisində, müxtəlif mühitlərdə formalaşmış Abbasqulu ağa şəxsiyyətinin yeniliklərə açıq olan tərəflərini incələməyə çalışdıq. O, da elə yaradıcılığını aid etmək istədiyim cədidizm cərəyanının özü kimi nəsillərə hərtərəfli tədqiqatlar üçün geniş diapazon açmış biridir. Bunu onun 200 illik yubleyinə həsr olunmuş respublika konfransının materiallarına daxil olan məqalələrin məzmunundan da görmək olar.[231]

Onun Tiflisdə çalışarkən yüksək çinli məmurlara yazdığı məktublardan birinin izi ilə apardığımız incələmə bizi – Bestujev Marlinskinin, Qribayedovun, Puşkinin, Polonskinin, Henrix Koxun, Ozereçkovskinin, Bodenştetin, Lado Zablotskinin, Fazil xanın, Mirzə Şəfinin, şərqşünaslar Berezinin, Dornun, Brossenin və bir çox

230 Daha ətraflı bax; **Abbasqulu ağa Bakıxanov 200 (1794-1846).** Respublika konfransının materialları.

başqalarının sağlığında yüksək dəyərləndirdiyi, böyük maarifçi, alim, hesablaşılan dövlət adamı, gözəl şair adlandırdıqları[232]– Bakıxanovun maarifə, təhsilə hansı dərəcədə yaxın olmasını açıqlayan bir axına saldı.

**Belə ki,** ...1845-ci ildə Tiflisdə (Qafqazın o zamankı elm və mədəniyyət mərkəzi olan-Ş.M) yaşayan azərbaycanlıların təşviqi ilə Qafqaz canişini knyaz Voronsov o zamankı xalq maarifi naziri Uvarova aşağıdakı məzmunlu məktub ilə müraciət etmişdir.

“Zati-aliləri Serqey Semyonoviç! Zaqafqaziya ruhani idarəsinin, ümumiyyətlə, vəziyyəti barəsində gərəkli məlumatları yığarkən gördüm ki, indiyədək burada müsəlmanlar üçün bir dənə də olsun məktəb və ya təhsil ocağı yoxdur. Hərçənd Zaqafqaziya üçün yerli dillərin hamısında hazırlanmış əsasnaməyə görə bütün din mənsublarının təhsil almaq hüququ var, buna baxmayaraq onların heç birində bir dənə də olsun Məhəmmədi (müsəlman-Ş.M) oxumur. Bu vacib məqam mənim diqqətimi cəlb etməyə bilməzdi, elə buna görə də mən bu barədə Tiflisdəki şiə təriqətinin axundu və şeyxülislamla danışdım. O, (şeyxüslislam-Ş.M) bu işə cox ürəklə qoşuldu, bu qəbildən olan məktəblərin açılması ilə bu diyarda alınacaq, ölçüyə gəlməyən faydalardan bəhs edərək bizi buna inandırdılar. Zati-aliləri hesab edirik ki, ilk öncə belə təhsil müəsisəsini fəaliyyətinin gedişatına və göstəricilərinə nəzarət etmək üçün idarəçilik mərkəzi olduğu üçün Tiflisdə açmaq daha münasib olardı”. Sonra Voronsovun nazirə bu təhsil müəsisəsinin maddi baxımdan təmin edilməsi barəsində müraciəti gəlir. O, nazirliyin imkanları, yaxud nüfuzu hesabına hansısa mənbədən 750 rubulla (o

---

**231** Ц.П. Агаян**. Вакиханов. Издательство АН Азерб. ССР, Баку, səh.,** 131, 132, 133, 134, 135, 136, 137, 138, 139, 140, 141, 142, 143, 144, 145, 146, 147**)**

zamankı pul vahidi ilə-Ş.M) həmin məktəbin təmin edilməsini xahiş edir.

Yeri gəlmişkən, məktubda adı çəkilən Şeyxülislam və Tiflis axundunun vəzifələrini yerinə yetirən Məhəmməd ağa Səlyani (böyük ideya mücahidimiz Əli bəy Hüseynzadənin böyük babası-Ş.M) və onun qohumu Molla Əhmədi (Əhməd Səlyanı Əli bəyin babası-Ş.M) 1837-ci ildə Tiflisdə olan Lermontov tatar (Azərbaycan-Ş.M) alimləri – deyə ehtiramla anır[233].

Peterburqa bu məktubu göndərməzdən əvvəl Vorontsovun əlində artıq Şeyxülislam Məhəmmədəli Səlyani tərəfindən işlənmiş proqram var idi. Bu proqramın əsas bəndləri tədris üçün yerin ayrılmasından, təhsil proqramından və bir sıra məişət problemlərinin həllindən ibarət idi. Birinci məsələ elə o dəqiqə həll olundu. Belə ki, Tiflisdə Şah Abbas məscidi ilə üzbə-üz elə həmin məscidə məxsus olan yenicə təmirdən çıxmış ev vardı ki, bu evdə həmən 50 şagirdi eyni zamanda tədrisə cəlb etmək olardı. Şeyxülislam tərəfindən təklif olunan tədris predmetləri ana dili (azərbaycan dili), fars dili, tarix, povestlər, ənənələr, oxu, hüsni-xətt, coğrafiya və sonralar ərəb dilinin öyrənilməsi ilə tamamlanacaqdı. Sonrakı pillənin predmetləri-qrammatika, məntiq, ritorika, hesab, Allahın qanunu (fiqh-Ş.M), Quranın təfsiri, ilahiyyat, fizika, astronomiya və əlbəttə ki, böyük bir məkanın və zamanın ünsiyyət dillərindən olan rus dili (!). (Dərs fənlərinin ardıcıllığında dünyəvi elmlərin yer tutması, fars və ərəb dilləri ilə yanaşı, rus dilinin də yer tutması artıq bu məktəbin yeni ruhlu, olmasından xəbər verirdi-Ş.M). Beləliklə, birinci ilin dərsləri məvacibi 400 rubl olmaqla bir müəllimə tapşırılacaqdı. Başqa xərclər 250

233 Vəli Həbiboğlu. **Abbasqulu ağa Bakıxanov.** Bakı, Gənclik 1992, səh 54.

rubılla həll olunmalı idi. Sonra həmin səhifədə yazılır ki, şeyxülislam tərəfindən tərtib olunan bu əsasnamə M.F.Axundovun vasitəsi ilə tərcümə olunur. Bu formada həmin məktub açılacaq məktəbin əsas sənədi hesab olunurdu. Canişin dəftərxanasının direktoru Safanov o zaman bu məktubu "baxmaq və düzəlişlər aparmaq" üçün "geniş məlumatına və təcrübəsinə" görə A.A.Bakıxanova yönləndirir. O, bu məktuba aşağıdakı kimi çəki-düzən verir: (düzəlişlər edir)

"Mərhəmətli Stepan Vasiliyeviç! 31 iyulda 1160 №-si ilə yazdığınız cox hörmətli namənizi, ona şeyxülislamın və Tiflis axundunun ehtimal olunan məktəb barəsində tərtib etdikləri bəndlərlə birgə almaq şərəfinə nail oldum. Bu təqdimat bütün bəndləri ilə nəzərdə tutulmuş məktəbdə ibtidai təhsilin təşkili üçün tamamilə münasibdir. Gələcəkdə bu məqsədlə açılacaq təhsil ocaqları üçünsə bəzi əlavələri etmək olar. Ümumiyyətlə, bu müəsisənin olduqca yararlı nəticələri ola bilər. Yalnız müəllimlərin və tədrisin xərcləri barəsindəki bəndlərdən görünür ki, şeyxülislam yalnız ən vacib xərcləri daxil etmişdir. Odur ki, bu iki bəndin də reallaşması üçün hər birinə 50 rubul gümüş pul əlavə olunarsa, daha münasib olardı. Diqqətinizə onların tərəfindən tərtib olunmuş və bəndəniz tərəfindən tərcümə olunmuş bu yeddi bənddən ibarət təklifləri çatdırmağı özümə şərəf bilirəm. Hörmətlə, sizə sədaqətli Abbasqulu Bakıxanov."[234]

Beləliklə, hesab edirəm ki, Lermantov kimi incə zövq adamı olan bir gəncin "möhtərəm alimlər" adlandırdığı o zamankı Tiflis şeyxülislamı və axundunun tərtib etdiyi, Fətəli Axundzadə kimi istedadlı bir gəncin də tərcümə etdiyi bir məktubun daha dürüst fikir sahibi və dövlət adamı kimi Abbasqulu ağaya göndərilməsi onun

234 Vəli Həbiboğlu. **Abbasqulu ağa Bakıxanov.** Bakı, Gənclik 1992,

cəmiyyətdəki mövqeyinin mötəbərliyindən xəbər verir. Oxuduğum mənbələrdən Abbasqulu ağanın bu cür xeyli müraciətlərə səmimi qəlbdən qulaq verərək bir azərbaycanlı yanğısı ilə münasibət göstərdiyi neçə faktlara rast gəldim.

**Nəticə əvəzi** kitabın bu böyük insana ithafən apardığımız tədqiqat hissəsi sona çataraq nəhayət bulmaqdadır. Bakıxanova minnətdarlıq hissi ilə apardığımız bu tədqiqatin sonunda bir daha vurğulamaq yerinə düşər ki:

**I.** Bakıxanovdan başqa qədim dövrdən başlayaraq Azərbaycan tarixini geniş şəkildə yazıb ortaya çıxaran ikinci bir müəllif yoxdur. Doğrudur, o bu əsərində əsasən Şirvanın və Dağıstanın siyasi tarixinə yer ayırsa da, yeri gəldikcə xalqın kökü və mənşəyi, bu ərazidə yaşayan ayrı-ayrı tayfa və millətlər, xalqlar, hətta kəndlərin mənşəyi və mahiyyəti barədə maraqlı etnoqrafik məlumatlar da vermişdir.

**II.** Gülüstani-İrəm əsərinin 1951-ci il nəşrinə yazılan müqəddimədə göstərildiyi kimi "A.A.Bakıxanov Gülüstani-İrəm əsərini yazarkən təqribən yüzdən artıq məxəzdən istifadə etmişdir ki, bu məxəzlər içərisində Herodot, Strabon, Tatsit, Plutarx, Moisey Xorenski, Təbəri, Məsudi, İbn Hövqəl, İbn Əl Əsir, Yaqut Həməvi, Əbül Fida, Həmdullah Qəzvini, Mirxond, Xandəmir, Şərəfəddin Yəzdi, Məhəmməd Rəfi Şirvani, Katib Çələbi, Qolikov, Karamzin, Ustryalov və s. bu kimi məşhur yunan, roma, rus, erməni, azərbaycan, ərəb və fars müəlliflərinin əsərlərindən istifadə etmişdir.

**III.** Qeyd etmək lazımdır ki, Gülüstani-İrəmdə istifadə edilən bu mənbələrin bir çoxu artıq yoxdur. Abbasqulu ağanın tarix qarşısındakı daha bir xidməti isə onun Gülüstani-İrəminin artıq birinci mənbə rolu oynamasıdır ki, bunu müasir tədqiqatçılar qeyd etməkdədirlər.

**IV.** Bakıxanovun elmi, tarixi əsəri olan Gülüstanı-İrəmi eyni zamanda arxeologiya, epiqrafika, numizmatika, maddi mədəniyyət abidələrinin öyrənilməsi şifahi xalq ədəbiyyatı nümunələrinin də tədqiqi üçün geniş imkanlar yaratmışdır. (21; 328).

**V.** Onun nəinki Gülüstani-İrəmi, eyni zamanda ölkəsində ilk qrammatikaya aid olan əsəri "Fars dilinin sərfinə dair". İlk coğrafiya dərsliyi, astronomik biliklər verən ilk əsəri "Əsrarül-Məlakut", Azərbaycanda realist nəsrin ilk nümunəsi sayılan "Kitabi-Əskəriyyə", Amerikanın kəşfinə dair yazdığı "Kəşfül-qəraib adlı əsərləri birər ilklər idilər. Bundan başqa, yuxarıda da qeyd etdiyimiz kimi, ilk naşir, təhsilə dair proqramın təşviqçi və təşəbbüskarlarından biri və s. bir çox tarixi hadisələrin şəxsən iştirakçısı, "Məclici-şüara"nın təsisçisi, ölkəsini yüksək səviyyədə təmsil etmək üçün şəxsən görüşdüyü – zəmanəsinin onlarla məşhur insanlarında – əsl ziyalı, maarifpərvər təəsüratı yarada bilmiş alim, olduğu ölkələrin padişahları ilə görüşüb onlardan mükafatlar almış bir insan, sağlığında dünyanın bir çox ölkələrində çap olunmuş müəllif, bir hərb və siyasət adamı... Bütün bu yazdıqlarımdan görünür ki, onun şəxsiyyəti nəinki yaradıcılığı, həm də varlığı ilə tədqiqatlar silsiləsinin obyekti olmağa tamamilə layiqdir. Bizim araşdırmamızın dar çərçivəsi onun hər tərəfli ensiklopedik yaradıcılığını və nümunə varlığını təqdim etməyə qadir deyil...

Qeyd etməliyəm ki, keçmiş Sovetlər birliyində onun haqqında ilk fundamental tədqiqat əsərini erməni mənşəli tədqiqatçı tarix elimləri namizədi adını almaq üçün (AMEA-nın Tarix İnstitunun Ağayan familli bir əməkdaşı) yazmışdır. Onun bu dissertasiyası 1948-ci ildə kitab kimi çapdan çıxmışdır. Tədqiqat işinin girişində ikinci cümlə belə səslənir: "Azərbaycanın bu dahi oğlu tarixçi və

filosof, şair və yazıçı, astronom və coğrafiyaçı, pedaqoq və publisist olmuşdur". Bu sözlər heç vaxt düşmənçiliyini əldən qoymayan bir xalqın nümayəndəsi tərəfindən yazılırsa, deməli, bu maarifçi və yenilikçi ədibin böyüklüyü düşmənlər tərəfindən belə, etiraf ediləcək zirvədən görünür...

Beləliklə, son olaraq əlavə etmək istəyirəm ki, Bakıxanov XIX əsrin birinci yarısına düşən məhsuldar yaradıcılığı ilə gələcək nəsillərin yetişməsində, azadfikirli ideyalar söyləmə cəsarətini bulmasında əhəmiyyətli rol oynamışdır. Bizə kimliyimizin fəlsəfəsini andıran, vətən sevgisinin müqəddəsliyini aşılayan, yeniliklərə açıq olmanın fəlsəfəsini öyrədən, eyni zamanda mötədil əxlaq nəzəriyyəsi ilə İslamın xalqın mənəvi ruhunu saflaşdıran amil olmasını aşılayan bu mütəfəkkirin tədqiqatları gələcək nəsillərin dünyəvi, mənəvi məfkurəsinin formalaşmasına zəmin yaratması ilə əvəzolunmazdır.

# XIX ƏSRİN SONLARI VƏ XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ YAŞAMIŞ AZƏRBAYCAN YENİLİKÇİLƏRİNİN YENİ TİPLİ TƏDRİSƏ VERDİKLƏRİ ƏMƏKLƏR

Azərbaycanda üsuli-cədid məktəbləri maarifçilik hərəkatının nəinki ayrılmaz hissəsi, eyni zamanda bu hərəkatın yaradıcılarının özünə məxsus dəsti-xətti olan dini-fəlsəfi cərəyanının da formalaşma səbəbidir. Bu məktəblərin yaradıcıları və müəllimləri Azərbaycan xalqının həyatında əvəz olunmaz bir rol oynayaraq, dünya maarifcilik hərəkatı nümayəndələrinin, eyni zaman da müsəlman türk aydınlarının diqqətəşayan fikirlərini günümüzə qədər daşımışdır. Maraqlıdır ki, Şərqdə birinci olaraq məhz bu məktəbin nümayəndələri ilk Cumhuriyyət yaradıcıları olub, bu modeli qardaş türk ellərinə də ixrac etmək üçün cəsarətli cəhdlər etmişlər…

## XIX əsrin sonu XX əsrin əvvəllərində yaşamış yeni məfkurəli islahtçıları təsirləndirən ictimai-siyasi vəziyyət haqqında məlumat

Tarixi mənbələrin verdiyi məlumatlara əsasən Rus imperiyası tərəfindən uzun sürən əsarət və rusların yürütdüyü milli, dini ayrı-seçkilik siyasəti digər xalqlar kimi Azərbaycan xalqının da sosial-mədəni həyatında ciddi geriliyə gətirib çıxardı. Azərbaycanda xalqın

cəhalət içində saxlanılması, onun milli və mənəvi dəyərlərindən məqsədyönlü şəkildə uzaqlaşdırılması siyasəti də məhz bu tərəqqi naminə ziyalılar hətta vətənpərvər burjuaziya nümayəndələri tərəfindən irəli sürülən təşəbbüslər bir mənalı olaraq şübhə ilə qarşılanır və ciddi maneələrlə üzləşirdi. Elə buna görədir ki, 1891-ci ildən 1903-cü ilə qədər milli mətbuat üzərində yasaq qoyulmuş və bu illərdə ilk qız məktəbinin açılması üçün aparılan qızğın mübarizə də bəhrəsini verməmişdi. Azərbaycan aydınlarının vətən və millət naminə bu sahədə etdiyi mübarizələr XX əsrin əvvəllərinə qədər kiçik naliyyətlərlə qənaətlənməklə davam etdi...

XX əsrin əvvəlində rus-yapon savaşında çar Rusiyasının düçar olduğu hərbi-siyasi məğlubiyyət tarixin səhnəsində öz müsbət "rolunu oynadı". Bu məğlubiyyət ictimai həyatda dəyişikliklər zərurəti meydana gətirdi. Belə ki, savaş əsnasında rus xalqının milli və dini duyğularını qabartmaq məqsədilə hökumətin rəvac verdiyi təbliğat kampaniyası rus milliyətçiliyinin artmasına gətirib çıxardığı kimi, qeyri-ruslar arasında da "milli xalqlar həbsxanası" adlanan imperiyada milli oyanışa səbəb oldu. Milli kimliyi rus kimliyi içərisində əridilən millətlərdən biri də azərbaycanlılar idi. XX əsrin əvvəllərində inqilab əhvali ruhiyyəsinə bürünmüşdünyanın siyasi mənzərəsindəazərbaycan türkləri də özlərinin türk kimliyini təsdiq mücadiləsinə qoşuldular. Şübhə yoxdur ki, bu şəraitin yetişməsində XIX əsrin ikinci yarısında, xüsusilə son iyirmi ilində, Bakının neft şəhəri kimi dünyanın diqqətini özünə cəlb etməsinin və sənaye mərkəzinə çevrilməsinin, nəhayət, kapitalist münasibətlərinin təşəkkülünün də böyük rolu oldu.[235] Qeyd edək ki, digər yandan Azərbaycanın iri sənaye şəhərləri olan

---

235 Məmmədəli Babaşov. **XXəsrin əvvəllərində Azərbaycanda milli oyanış və maarifçilik hərəkatı,** Qafqaz Universitetinin toplusu, səh 3

Şamaxı, Nuxa, Şuşa, Gəncə və Naxçıvan kimi şəhərlər də mədəniyyət mərkəzlərinə çevrilməkdə idilər. Bu dönəmdə xalqın milli və mədəni oyanışında xaricdə (Rusiya və Türkiyədə) təhsil almış ziyalıların dərc olunduğu mətbuatın oynadığı tarixi rolu, xüsusilə qeyd etmək lazımdır. Daha bir tərəf var ki, onu heç unutmamaq lazımdır. Belə ki, bu ərəfədə "Eyni zamanda çar hökumətinin erməni-müsəlman qırğınlarının təşkilindəki mənfur rolu, ermənilərin xəyanətkarlığı və Azərbaycan xalqına qarşı törətdikləri misli görünməmiş vəhşiliklər nəticəsində milli təəssübkeşlik duyğularının güclənməsi də bu hərəkatın genişlənməsinə təkan verdi.

Qeyd olunduğu kimi, bu tarixi keçid zamanı senzuranın zəifləməsi nəticəsində 1905-1917-ci illər arasında Azərbaycanda 63 adda qəzet və dərginin nəşrinin də maarifçilik hərəkatına müsbət təsiri olduğunu qeyd etmək lazımdır."[236]

Tədqiqatçı alim M.Babaşlı yazır: "Xalqın oxuma-yazma səviyyəsinin cəmi 4,5% olmasına baxmayaraq, türkçülük, islamçılıq, sosializm və liberalizm ideyalarının carçısına çevrilmiş milli mətbuatın yüksələn xətlə inkişafı sayəsində Rusiya müsəlmanlarının mərkəzi halına gəldiyi üçün Bakı bilavasitə sonuncu amilə borcludur. İmperiyanın müxtəlif yerlərindəki inqilabi çıxışlarla qarşı-qarşıya qalan hökumət xalqın tələblərinin bir qismini yerinə yetirməyə məcbur oldu. 1905-ci ilin 17 oktyabr Manifesti adı altında tarixə düşmüş sənəddə xalqa vicdan, söz və mətbuat azadlığı vəd edildi". Ümumiyyətlə, isə birinci rus inqilabı ərəfəsində, xüsusilə qeyd olunan Manifestdən sonra, yüksəliş dövrünü yaşayan milli-demokratik, ictimai-mədəni hərəkat, maarif müəssisələrinin, məktəblərin

236 Ali Haydar Bayat. **Hüseyinzade Ali Bey**, Atatürk Kültür Merkezi Başkanlığı Yayını, Ankara,1998, səh 5

genişlənməsi, təhsilin ana dilində, pulsuz, hamılıqla olması tələblərini irəli sürməyə şərait yaratmış və pedaqoji hərəkatın canlanmasına təsir göstərmışdır.

Fürsətdən istifadə edib hörmətli oxucunun nəzərinə son illərin fundamental araşdırmalarından biri olan "İslam svilizasiyası mədəniyyəti" əsərindən bu bölməmizə aid araşdırmanı təqdim etmək istəyirəm. Keçmiş təhsil müəsisələrimizin tarixinə ekskurs edərək tədqiqatşı xanım Samirə Mirbağırzadə yazır: "...XIV əsrdə Azərbaycanda yerləşən mədrəsələr təkcə dini yox həm də özündə elmi təsisatları birləşdirirdi. Təbrizdə yerləşən Əvbab əl-bir (Xeyir qapısı) adlan müəsisə özündə məscid, kitabxana, həmçinin tədris, müalicə, sanitar, təsərrüfat təsisatlarından ibarət böyük bir şəhərciyi birləşdirmişdi. Bu mədrəsənin kitabxanası İran, Hindistan, Çin, Bizans və digər ölkələrdən toplanmış əlyazmalardan ibarət qiymətli kitablara malik idi. Xatırlatmaq yerinə düşər ki, "Əvbab əl-bir" mədrəsəsi orta əsrlərin Unversiteti statusunda idi. Bu funksiyanı Şamaxıda 1312-1314-cü illərdə Şeyx Abutalıb Zakirşahın təşəbbüsü ilə tikilmiş mədrəsə də daşıyırdı. Bu Unversitet Mədrəsədə elmin müxtəlif sahələri: təbiət qanunları, riyaziyyat, astranomiya, daş üzərində oyma, təbiətşünaslıq, fəlsəfə, məntiq, ilahiyyat, tədris olunurdu. Mədrəsə-Unversitetdə hər qrupda 10 nəfər olmaqla 80 tələbə təhsil alırdı. Şamaxı mədrəsəsi dünyaya Kafiəddin Ömər, İbn Osman, Mahmud Təbib, Fazil Fəridəddin, Fələki Şirvani kimi alimləri, Əfzələddin Xaqani, İzzəddin Şirvani kimi poeziya və ədəbiyyat nümayəndələri yetişdirmişdir".[237]

Biz də bu yerdə öz əlavəmizi edərək demək istəyirik ki, əlifbanın millətin kimliyini sərgiləməkdə nə qədər əhəmiyyətli rola

237 Мир-Багирзаде С. Култура Исламской Цивилизации, Баку, Елм, 2011.

malik olmasını izaha ehtiyac yoxdur. Əlifba dəyişməsi ilə millətin yeni yetişən nəsli yeni başdan elm toplamağa məhkum olundu və nə yazıq ki, bu prosesin müsbət tərəfinin dəyəri isə bizi işğal edən tərəfin adına yazılmalı oldu...

Yuxarıda etdiyimiz tarixi xatırlatmadan sonra yenidən bəhs edilən əsrə dönüb qeyd edək ki, "ölkədə baş verən proseslərin nəticəsində maarifçi-demokratların illərlə gözlədikləri tarixi fürsət ələ düşdü. Hələ XIX əsrin ikinci yarısında başlanan pedaqoji hərəkat XX əsrin əvvəllərində daha da qüvvətləndi. Nəhayət ki, təəssübkeş vətən övladlarının onillərlə xəyallarında yaşatdıqları ilk xeyriyyə cəmiyyyəti və bunun ardınca çoxlu sayda mədəni-maarif cəmiyyətləri fəaliyyətə başladı. İstanbuldan gətirilmiş mətbəə avadanlıqları milli dildə nəşrlərin sayının artmasına və açılmış "üsuli-cədid" məktəblərinə türk müəllimlərinin dəvət olunması isə milli şüurun güclənməsinə səbəb oldu".[238]

Bu dövrün "Azərbaycanda din-dövlət münasibətləri və dini təhsilin formalaşması" mövzusunu tədqiq etmiş mütəxəsis alimi E. Səmədov yazır: "Azərbaycan xalqı təhsil sahəsində Rusiyadan kifayət qədər faydalana bilməyəcəyini başa düşüncə, xüsusi ilə 1905-ci ildən sonra Türkiyəyə yönəlmişdir. O dövrdə Azərbaycana gələn ilk türk müəllimi Əhmət Kamal bəy olmuşdur. O, Bakıda Balaxanı məktəbində müəllimlik etmişdir. Daha sonra İstanbuldan gələn Bəha Səid və Beşiktaşlı Kiçik Fuad bəy kimi müəllimlər Türkiyə ilə Azərbaycan arasındakı dil və mədəniyyət birliyinin inkişafında mühüm rol oynamışdır. 1917-1920-ci illərdə Osmanlıdan Azərbaycana gələn müəllim sayı 300-dən çox idi.[239]"

238 Babaşov M. **Bakı müsəlman ruhani "Səadət" cəmiyyəti.** "Elm" qəzeti,1991,s

239 E. Səmədov. **Azərbaycanda din-dövlət münasibətləri və dini təhsilin formalaşması**, Bakı 2009,

O illərdə vətənpərvər aydınların da oxşar fəaliyyətləri sadəcə Bakı və onun ətrafında deyil, eyni zamanda Azərbaycanın müxtəlif güşələrində maarifçiliyin inkişafına güclü təkan verdi. Hətta bəzən ayrı-ayrı maarifsevərlər cəmiyyət olmadan da öz şəxsi təşəbbüsləri sayəsində təqdirəlayiq işlər görə bildilər... Bu ənənənin bizə xeyli uzaq keçmişdən gəlməsi barəsində məlumatı yenə Samirə xanımın tədqiqatından alırıq. Tədqiqatçı yazır ki: "... orta əsrlərdə Azərbaycandakı məktəblər şəbəkəsi genişləndi. Əgər əvvəl onlar məscidlərin tərkibində fəaliyyət göstərirdisə, sonralar savadlı insanların evlərində də fəaliyyət göstərməyə başladı"[240].

Yenidən bəhs edilən əsrə dönək. Belə maarifçilərdən 1904-cü ildə Qubada "Üsuli-cədid", iki il sonra Ağdaşda "Darül-irfan" məktəbləri, həmçinin qiraətxana və "Səadət" adlı qız məktəbi açmış Muxtar Əfəndizadənin adını xüsusi qeyd etmək istərdik... Həmin illərdə elm və ürfan yuvaları, axşam kursları həyata vəsiqə aldı. Millətin mənəvi sərvətini təşkil edən, lakin maddi imkansızlıq ucbatından həyatda yerini tapa bilməyən istedadlı Azərbaycan övladlarına sahib çıxıldı, təqaüdlər verildi. Bir sözlə, milli oyanış və özünüdərketmə prosesi vüsət qazandı.

H.Z.Tağıyevin təşəbbüsü ilə İstanbuldan dəvət olunmuş müəllim Cevdətin (Yınançalp) qurduğu "Füyuzat Dar-ul-Muallimin" adlı müəllimlər məktəbinin milli şüurun oyanmasında və Azərbaycan türkcəsinin İstanbul ləhcəsinə yaxınlaşmasında oynadığı rolu da, xüsusilə qeyd etmək lazımdır. Maraqlıdır ki, araşdırdığımız dövrdə baş verən maarifçilik və xeyriyyəçilik hərəkatının özünəməxsus bir sıra xüsusiyyətləri, mənəvi-mədəni, elmi-texniki inkişaf səviyyəsi

---

237 Мир-Багирзаде С. Култура Исламской Цивилизации, Баку, Елм, 2011.

maarifçilik üçün əlverişli şəraitin təminatçısı rolunda çıxış edirdi. Böyük maarifçi Həsən bəy Zərdabinin atdığı toxumlar cücərmiş, maarifin əhəmiyyətini dərk edən və bunun üçün maddi dəstəyini əsirgəməyən milli burjuaziyanın varlığı reallığa çevrilmişdi.[241]" Müasir filosoflarımız isə bu günün reallıqlarından da çıxış edərək yazırlar ki: "Maarifçilərin əməklərinə minnətdar olaraq deyə bilərik ki, tarixi heç də sırf məntiqə əsaslanmış rasional hadisələrə müncər etmək lazım deyil, orada bir çox şeylərin məhz insandan asılı olduğunu unutmamaq lazımdır"[242]

**Beləliklə,** tələb olunan ehtiyacı ödəməsə də hər halda xalqın maariflənməsi yolunda hər cür məhrumiyyətə sinə gərən maarifpərvər, iman sahibi, savadlı milli pedaqoji kadrlar yetişmişdi. Qeyd etmək lazımdır ki, dünyəvi təhsil alanlar dinin və İslam maarifinin yetişən nəslin tərbiyəsində nə qədər əhəmiyyətli olduğunu dərk edərək hərəkət edirdisə, din xadimləri arasında dini elmlərlə yanaşı, dünyəvi elmlərin öyrənilməsinin də zərurət olduğunu qəbul edənlərin sayı artırdı.

Maarifçilik fəlsəfəsinin üzərində xeyli illər öncədən çalışmağa başlamış İlham müəllim və mərhum filosofumuz Ziyəddin Göyüşovun davamçısı Zemfira xanımyazırlarki:"Marifçilikhadisəsiağılla, insanın yaşadığı dövlətin və özünün şəxsi azadlığı və ölkənin suverenliyi ilə sıxı bağlıdır. Odur ki, Zərdabı də özünün bütün yaradıcılığında insanları əhatə edən mühitdə dəyərlərin yaxşılaşdırılması, təlim və tərbiyə mühitinin dəyişdirilməsi barəsində yazmışdır"[243]

241 Məmmədəli Babaşov. **XXəsrin əvvəllərində Azərbaycanda milli oyanış və maarifçilik hərəkatı,** Qafqaz Universitetinin toplusu səh3.

242 И.Мамедзаде, З. Геюшева. Модерн, просветительские идеи Гасанбека Зардаби и философия просвещения. Баку, Текнур, 2015, ст 48.

243 И.Мамедзаде, З. Геюшева. Модерн, просветительские идеи Гасанвека Зардаби и

Beləliklə, bəhs etdiyimiz dönəmdə Azərbaycan maarifinin pedaqoji problemlərində də kəmiyyət və keyfiyyət dəyişikliyi baş verirdi. Dövlətin azadlığı ilə ilə təhsilin ana dilində aparılması ilə yanaşı, təlimin məzmununun da ana dilində qurulması ehtiyacı qaçınılmaz oldu. Proqramlar, tədris planları, dərs vəsaitlərinin hazırlanması və dərci təxirəsalınmaz məsələlər sıyahısında idi. Müasir tədqiqatçı alimimiz Məmmədəli Babaşlının fikirləri ilə də ifadə etsək: Mərkəzi hökumət tərəfindən "XIX əsrdən başlayaraq məqsədyönlü şəkildə aparılan ruslaşdırma siyasətinə müqavimət əlaməti olaraq milli və dini təhsil istiqamətli məktəblərin genişlənməsinə çalışılırdı. Dərsliklərdə doğma ana dilininin təmizliyinə, sadəliyinə və anlaşıqlı olmasına cəhd edilir, kitablarda milli koloritin öz əksini tapmasına çalışılırdı.

Beləliklə, bu illər Azərbaycanın siyasi-ictimai, iqtisadi və mədəni həyatının dəyişdiyi, bütün dünya tarixi ilə həmahəng olaraq xalq mənəviyyatının keyfiyyət baxımından yüksəldiyi illər oldu. Bütün bunların reallaşmasında o dövrün hüquqi tələblərinə uyğun qurulması baxımından ilk müsəlman xeyriyyə cəmiyyəti sayılan "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin inkarolunmaz rolu təbii ki, xüsusilə qeyd olunmalıdır. 1905-ci ilin oktyabrın 10-da fəaliyyətinə icazə verilmiş cəmiyyətin Azərbaycan Xalq Cümhuriyyəti qurulana qədər gördüyü tarixi işlər əsasən xeyriyyəçiliklə bağlı olduğu və xüsusi tədqiqatın mövzusunu təşkil edəcəyi üçün onun üzərində çox dayanmaq istəmirik. Sadəcə bunu qeyd etməklə kifayətlənirik ki, cəmiyyət özündən sonra təşkil olunmuş digər xeyriyyəçi-maarifpərvər cəmiyyətlərin yaranmasına təkan verdi, onların da fəaliyyətinə yol göstərdi[244].

философия просвещения. Баку, Текнур, 2015, ст 48.

244 Məmmədəli Babaşov. **XX əsrin əvvəllərində Azərbaycanda milli oyanış və maarifçilik hərəkatı,** Qafqaz Universitetinin toplusu, səh 3,4,5.

Qeyd edək ki, ilk mədəni-maarif cəmiyyətlərindən olan "Nicat" cəmiyyətinə növbə ilə Məmmədəli bəy Səlimbəyov (1906-1907), Həsən bəy Ağayev (9 mart-12 noyabr 1907), Məmməd Əmin Rəsulzadə (12 noyabr 1907-17 dekabr 1913), eyni zamanda Qasım Qasımov, İsa bəy Aşurbəyov və Əlimərdan bəy Topçubaşov rəhbərlik etmişlər. Beləliklə, bu adları daşıyanlar Azərbaycanın sonrakı taleyinin də müəyyənləşməsində millətin özünüdərk mücadiləsində öz rolunu oynamışdır. Oxucunun diqqətinə çatdırmaq istəyirik ki, adlarını yuxarıda (kitabın girişində, xüsusilə) sadaladığımız azərbaycanlılar Rusiyadan, Avropadan gələn yabançı təsirlərə qarşı milli mentalitetdən və sahib olduğumuz dəyərlərdən irəli gələcək təhsilin daha ünvanlı olacağını dərk edən maarifpərvərlər idilər. Bu baxımdan müsəlman təhsil sisteminin önəmi hər tərəfdən rusların basqısı altında olan və öz identikliyini qorumaq istəyən tatarlar üçün nə qədər əhəmiyyətli idisə, azərbaycanlılar üçün də bir o qədər əhəmiyyətli idi.

Qarşısına qoyduğu məqsədi gerçəkləşdirmək üçün bu cəmiyyət (Nicat) imkan daxilində bu dövrdə yenicə fəaliyyətə başlamış məktəblərə maliyyə yardımı göstərir və yeni məktəblər açırdı. Məktəblərin sayının otuza çatması "Nicat" cəmiyyətinin kənd əhalisi arasında savadın yayılmasına verdiyi əhəmiyyətə dəlalət edirdi. Yeri gəlmişkən onu da qeyd edək ki, bu xalqın birinci cədidçilərindən olan Seyid Əzimin ən ümid verən tələbələrindən olan böyük şair Mirzə Ələkbər Sabir ömrünün son ilində cəmiyyətin Balaxanı kəndində açdığı məktəbdə işləmişdir. Keşlə, Gəncə, Şamaxı, Quba və s. yerlərdə açdığı bölmələri də yerlərdə maarifçilik fəaliyyətləri göstərən cəmiyyətin təşəbbüsü ilə 1906-1910-cu illərdə Gəncədə ”Mədrəseyi-ruhani”, Şamaxıda ”Üxüvvət”, Ağdaşda "Darülfənn",

Nuxada “Həqiqətüs-Şibyan”, Lənkəranda “Behcət” adlı məktəblər açılmışdır.[245]

Məktəblərin dərs kitabları və vəsaitləri ilə təminatı da cəmiyyətin diqqət mərkəzində duran təxirəsalınmaz məsələlərdən idi. Bu məqsədlə cəmiyyətin nəzdində təşkil olunmuş pedaqoji ədəbiyyat bölməsi Azərbaycan dilinin orfoqrafiyasının hazırlanması, xalq müəllimələrinə bu sahədə müvafiq metodik göstərişlərin verilməsi istiqamətində təqdirəlayiq işlər görmüşdü.

...Beləliklə, yuxarıda incələdiyimiz təbəddülatlarla dolu zamanın yetişdirdiyi ziyalıların əsərləri öz yenilikçi ruhu, mücadilə apara bilcək əzmi ilə yetişən nəsillərə millət ola bilmənin, öz siması ilə millətlər cərgəsinə qoşula bilmənin fəlsəfəsini aşıladı. Türkdilli xalqların millətçilik məfkurəsinin, maarifçilik ruhunun və dövlətçilik ənənələrinin oyanışında böyük rol oynamış bəzi ziyalılarımız təkcə azəri türklərinin deyil, bütün dünyada yaşayan türklərin ideya həyatında əhəmiyyətli simaya çevrilə bilmişlərdi.

Qeyd etdiyimiz kimi, XIX əsr Azərbaycan ictimai-siyasi fikrinin çox mühüm mərhələsini təşkil edir. Bu dövrün əlahiddəliyini nəzərə çatdırmaq istəyən tədqiqatçı yazır: “Bu dövrdə yaşayıb yaratmış Azərbaycan mütəfəkkirləri, alim və filosofları elə bir zəngin elmi irs qoyub getmişlər ki, onsuz xalqımızın mənəvi intibahından, mədəni dirçəlişindən əsl mənada söhbət açmaq mümkün deyil”.[246] Bu dövrdə mövcud olan ideya axınlarının öyrənilməsi elmimizi xeyli zənginləşdirməklə bərabər eyni zamanda gənclərin elmi tədqiqatları

---

245 Əhmədov Hüseyn. **Azərbaycan məktəb və pedaqoji fikir tarixi** (dərs vəsaiti). I hissə, B., 2001, 229.

246 Rüstəmov İ.Ə., **Azərbaycanda təbii-elimi biliyin inkişafının fəlsəfi problemləri,** Bakı, Diplomat, 2001, səh 17.

üçün mövzu müxtəlifliyi verir. XIX əsrin sonları həm də qeyd edildiyi kimi xalqların (xüsusən də imperiyalar daxilində yaşayan xalqların-Ş.M) milli oyanış əsri idi. Ata-babalarının qızıl pulları ilə müxtəlif Şərq və Qərb ölkələrində ali təhsil almış olan yerli bəylərin və xanların uşaqları Rusiyanın dvoryan dekabristləri kimi damarlarında axan nəcib qanın coşqusu ilə **tədrisdə yenilikçi, ideologiyada türkçü, inamda modernist islamçı** kimi çıxış edirdilər.

Cədidçilik yeni məfkurə tərəfdarlarının islam maarifi fəlsəfəsidir. (həqiqi dini ihya edib, yeni söz söyləmə cəsarətini bulan pionerlər) Tədqiqatlar açıqlayır ki, XVII əsrin sonlarından başlayaraq Gülüstan və Türkmənçay müqavilələrinə qədər Rusiyanın işğalçılıq siyasəti, əsasən, dini zəmində həyata keçirilirdi və Rusiyanın dövlət mənafeyinə xidmət edirdi. XVIII əsrin əvvəllərində "Böyük Ermənistan" xülyalarını həyata keçirmək üçün Avropanı Şərqə xaç yürüşünə çağıran, I Pyotra təqdim etdiyi xəritədə Azərbaycanın və Türkiyənin ərazilərinin mühüm bir qismini erməni torpağı kimi qələmə verən ermənilərin, gürcülərin yardımı ilə rus çarı 1722-ci ildə Azərbaycan üzərinə yürüşə başladı. Türklər arasında nifaq salmaq, Azərbaycanla Türkiyəni bir-birindən ayırmaq I Pyotrun siyasətində mühüm yer tuturdu. O, hətta Bakıdan yerli əhalini tamamilə sürgün etmək, buralara rus kökənli əhalini köçürmək niyyətində idi.[247]

1724-cü ildə Bakıdan xeyli azərbaycanlının Həştərxana sürgün olunması I Pyotrun, Türkiyə ilə həmetiqad olan sünnülərin Bakıdan sürgün edilməsi əmrinin sonucu idi.

I Pyotrun vəsiyyətnaməsi də aydınca göstərir ki, Azərbaycan və Türkiyənin arasına ixtilaf salmaq, türkləri bir-birindən ayırmaq

**247** Mustafazadə T. **XVIII əsrdə Rusiya İmperiyasının işğalçılıq siyasətində dini amillər,** "Altay dünyası", Bakı, 1998, səh 77.

onun siyasətində mühüm yer tuturdu: "Rusiyanın nüfuzunu Asiyada qaldırmaq üçün sünni-şiə ixtilafları yaxşı vasitədir. Türkiyə və İran dövlətləri arasında müvazinəti fitnə-fəsadla elə pozmaq lazımdır ki, onlar dil tapa bilməsinlər. Əgər bu ölkələrin müsəlmanları göz açıb hüquqlarını qansalar, bu bizlərə zərbə olar".[248]

Rusiyanın türklərə qarşı şovinist işğalçı siyasəti II Yekatrinanın **(1762-1796)** zamanında daha da güclənmişdi. Təsadüfi deyildi ki, onun dönəmində rus-türk müharibəsi 5 il **(1769-1774)** davam etmişdi və imperatriçə fransız maarifçi filosofu Volterə yazdığı məktubunda özünü "Avropa təhlükəsindən qoruyan hökümdar" kimi səciyyələndirirdi.[249]

XVIII yüzilliyin sonlarında II Yekatrinanın göstərişi ilə hazırlanmış "Şərq layihəsi" adlı işğalçılıq planı türklər yaşayan ərazilərin böyük bir qismini də əhatə edirdi. Lahiyədə Qafqaz və İranın, Türkistan və Tibetin, Osmanlı dövlətinin və Hindistanın işğalı nəzərdə tutulmuşdu.[250]

II Yekatrinanın Azərbaycan ərazisində, Qarabağda İbrahimxəlil xanı taxtdan salıb burada "Albaniya dövləti" adlı yeni bir xiristian dövləti-Ermənistan çarlığı yaratmaq cəhdi, erməni yepiskopu tərəfindən hazırlanmış, layihənin çariça tərəfindən bəyənilərək çap

---

**248** Aybəniz Əliyeva (Kəngərli), **Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük,** Bakı, Elm, 2002**, 77,78.**

249 Sadıqov H. **Rusiya-Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi (1787-1729-cu illər)**, Bakı, "Elm",1991, səh 23.

250 Sadıqov H. **Rusiya-Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi (1787-1729-cu illər)**, Bakı, "Elm",1991, 39.

edilib yayılması da[251] onun türklərə münasibətini aydın ifadə edirdi[252].

Rusiyanın, digər tərəfdən İranın türklərə qarşı yönəlmiş şovinist siyasəti Azərbaycanın bu iki olkə arasında ikiyə bölünməsi ilə zirvəyə çatdı. Gülüstan **(1813)** və Türkmənçay **(1828)** sülh müqavilələri ilə Azərbaycanın şimalının Rusiyaya ilhaqı bütün Azərbaycan maarifçiləri tərəfindən demək olar ki, eyni mənada dəyərləndirilirdi. İsmayil bəy Qutqaşınlı "Dövləti-aliyeyi Rusun Azərbaycan vilayətlərini zəbt etməsi",[253] M. F Axundov "Zaqafqaziya ölkəsinin Rusiyaya ilhaq edilməsi",[254] H. Zərdabi "Rus dövlətinin bizim vilayəti alması"[255] kimi ifadələri buna misaldır.

Azərbaycanda əhalini milli kimliyini unutmamaqla maarifçi ideyalar yayan bu vəsilə ilə də yeni tipli məktəblərin yaranmasına səbəb olan A.A.Bakıxanov, M.F.Axundov, H.Zərdabi, S.Ə.Şirvani və s. ilə təmsil olunan Azərbaycan aydınlarının rolu çox önəmli idi. Təsadüfi olmayan nədənlərlə tədqiqatçı alim Aybəniz xanım Əliyeva (Kəngərli) yazır: **""Türkləşmək, müasirləşmək, işlamlaşmaq" ideyaları Azərbaycan mühitində hakim ideologiyaya çevrilmiş, sonralar siyasi-tarixi səbəblər üzündən türkçülüyün əsas dayağına çevrilən Türkiyəyə belə, bu ideyalar və türkçülük hərəkatı məhz Azərbaycandan keçmişdir""**.[256]

251 Akçura Y. **Osmanlı devlətinin dağılma devri**, Ankara, 1988, 49.

252 Markova O. **Rossiya Zaqafqazie mejdunarodnıe otnoşeniye v XVII veke** Moskva, 1966, səh 13.

253 Qutqaşınlı İ. **Əsərləri,** Bakı, Azərbaycan EA nəşriyyatı, 1967, 93

254 Axundov M.F. **Əsərləri,** III cildə, Bakı, "Elm", 1987-1988, aəh 57.

**255 Zərdabi H. Seçilmiş əsərləri, Bakı, Azərbaycan dövlət nəşriyyatı, 1960, səh 212.**

**256** Aybəniz Əliyeva (Kəngərli), **Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük,**

Ümumiyyətlə, XIX yüz il Azərbaycan türklərinin həyatında lokal milli intibah dövrü kimi səciyyələndirilə bilər. Bu dövrü ona görə oyanma, renesans dövrü adlandırmaq olar ki: "Millətlərin oyanış, intibah çağında o millətin içindən ziyalı, rəhbər şəxslər tərəfindən əvvəlcə mənsub olduğu millətin kimliyi və keçmiş zamanlardakı vəziyyəti araşdırılır, incələnir, sonra geri qalmış və bu geriliyin səbəbi ilə yabancı millətin əsarəti altına düşmüş olan xalq oz kimliyini öyrənir, keçmiş zamanlarda atalarının əsarət altında yaşamadıqlarını, müstəqil dövlət qurduqlarını anlayır. Nəticədə millətin şüuru oyanır, azadlıq mübarizəsinə başlanılır".[257]

XIX yüzilin sonu, XX yüzilin başlarında ideologiyada ümmətçilikdən millətçiliyə dini fanatik düşüncədən Qərb yönümlü müasir düşüncəyə keçid məhz 1918-ci ildə Azərbaycanda milli dövlətin qurulması ilə nəticələnmişdir. Bu bütöv bir nəslin gərgin çalışmalarının bəhrəsi kimi də dəyərləndirilə bilər.

Belə ki, Mirzə Fətəli Axundzadə, Abbasqulu ağa Bakıxanov, Həsən bəy Zərdabi, Seyyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Sultan Məcid Qənizadə, Əbdürəhim bəy Hakverdiyev, Nəcəf bəy Vəzirov, Əli bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Əhməd Ağaoğlu, Ömər Faiq Nemanzadə və b. ilə təmsil olunan, mədəni həyatın bütün sahələrini əhatə edən intibahın rolu bu prosesdə əvəzsiz idi.

XIX yüzilin birinci yarısında tarix, dilçilik elm sahəsində ilk əsərlərin yaranması da xalqın vətənçilik, millətçilik şüurunun oyanmasına, qüvvətlənməsinə, Azərbaycan türklərinin özünü tanımasına xidmət edirdi.

---

Bakı, Elm, 2002**, 14.**

257 Bayqara H. **Azərbaycan istiqlal mücadiləsi tarixi**, Bakı, Azərbaycan Dövlət nəşriyatı,1992, 56,57.

Azərbaycanda milli-mədəni oyanışının ən böyük hamisi **Mirzə Fətəli Axundovdur (1812-1878)**.

Abbasqulu ağa Bakıxanovdan sonra maarifçiliyin, yenilikçiliyin təşəkkülündə ən böyük rol oynamış sima şübhəsiz ki, Axundzadədir. Maarifçilik, türkçülük hərəkatının təşəkkülündən bəhs edərkən Mirzə Fətəli Axundovu "Rusiyada yetişən iki böyük türkçüdən birincisi"[258], "böyük Azərbaycan türkçüsü",[259] "milli ədiblərimizin atası"[260] adlandırılması, "milli hiss birinci olaraq bu ədibdə oyanmışdır"[261] kimi qənaətlər Mirzə Fətəli Axundov və maarifçilik türkçilik probleminə aydınlıq gətirməyi xeyli aktuallaşdırmışdır. Axundovun Azərbaycanda millətin və milli şüurun, milli ideologiyanın-formalaşması yolundakı cəhdləri onun əsərlərində dönə-dönə işlətdiyi "İslam xalqı", "İslam milləti", "Müsəlmanlar", "Müsəlman tayfaları" kimi ifadələrlə mütəfəkkirin ümmətçilik prinsiplərinə əsaslanıb müsəlman xalqlarını əhatə edirdi. Vətənimiz və onun tarixi gələcəyi üçün etdiyi ən dəyərli cəhət isə onun anadilli komedik əsərlər yaratmasında idi.

Qeyd etdiyimizkimi, Gülüstan və Türkmənçaymüqavilələrindən sonra Azərbaycanın şimalının Rusiyaya ilhaqı bu ölkədə mədəniyyətin inkişafında keyfiyyətcə yeni mərhələyə keçid açdı və bu keçid öz əksini Axundov əsərlərində qərbləşmə kimi biruzə verdi. Bu zaman məhz bu mövqedən çıxış edən islahatçının məfkurəsinin qayəsini maariflənmə tuturdu. Qərb üslublu komediyalar ustasının fikrinə

---

258 Göyalp Z.**Türkçülüyün əsasları,** Bakı, "Maarif",1991,səh 27.

259 Cabbarlı N. Cəfər Cabbarlı mühacirət ədəbiyyatşünaslığında "Azərbaycan" jurnalı, 2002, N9, səh71.

260 Köçərli F. **Mirzə Fətəli Axundov,** Tiflis "Kultura" mətbəəsi, 1911, səh 6.

**261** Vəzirov Y. **Azərbaycan ədəbiyyatına bir nəzər, "Azərbaycan" jurnalı, N9, səh 125.**

görə, millətin inkişafının qarşısını İslam doqmatlarının fanatizmi alır. Bu fanatiklərin tərəqqini önləyən fanatizmi, ədibin düşüncəsinə görə onun xalqının bəlası idi. Mirzə Fətəlinin fikrincə, bu cəhalətdən çıxmanın proqressiv yollarından biri yeni əlifbaya keçiddir. O, belə bir əlifbanın qəbul olunmasını "dəmiryolundan, teleqrafdan, dövlət qanunlarından" daha əhəmiyyətli hesab edirdi. Bu dövrdə Axundovun əlifba haqqında düşündükləri Rus çarizminin müstəmləkələri üçün yeritdiyi siyasətə də uyğun gəlirdi. Ərəb əlifbasını "islah" etmə, əslində, rusizmə yönəlik maarifin də yayılması idi. Rus xəfiyyə aparatının hər sahədə yürütdüyü siyasət öz işini bu sahədə də incəliklə aparırdı. Belə ki, çeçenlər və avarlar üçün xüsusi əlifba tərtib edən rus hökuməti bu işin azərilər üçün də təkrarlanması üçün nələr edərdi... Millətinin maariflənməsi üçün əlifbanı dəyişdirəcək gücə malik olan Axundov rus xəfiyyəsinin elə məhz bu siyasətlə onun hüdudları daxilində yaşayan türklərin biri-birindən ayrı düşəcəyi sevincini yaşamasının bəlkə fərqində idi, bəlkə də deyildi. Belə ki, əsərlərində insanlara aşıladığı humanist, mütərəqqi ideyalarla **O, azərbaycanlılarda ümmətçilikdən ötə bir şüur olan milli mənlik şüurunun oyanmasına, təşəkkülünə xidmət etmişdir.** O, maarifi, elmi insanların öz milli haqlarını dərk etməsi, zülmü dəf etməyə çalışması,[262] hətta cəmiyyətin dəyişməsi yolunda mühüm vasitə sayırdı. "Zülmü aradan qaldırmaq üçün moizələr və nəsihətlər zalımın təbiətinə qətiyyən təsir etməmişdir"[263] – deyən Mirzə Fətəli Axundov Monteskye, Russo, Volter və s. maarifçilər kimi "qəflət yuxusundan oyan və zalimin atasına od vur!" qənaətinə gəlmişdir.

262 Axundov M.F. **Əsərləri,** III cildə, Bakı, "Elm", 1987-1988, II cild səh 223.

263 Yenə orada, səh 305.

Bu günsə mən, XXI əsrdə öz iş masamın arxasında oturub Axundovun yazdığı bu fikirləri oxuyub düşünürəm ki, biz azərbaycan türkləri, islam mədəniyyətinə töhfələr vermiş millət olaraq nə vaxt belə qəflətə yuvarlandıq ki, Axundovlar, Zərdabilər belə, yanğılı ibarələrə əl atmalı oldular. Axı tədqiqatçı Samirə xanım təhsilimizin orta əsirlərdə ki, özəllikləri haqqında yazır ki: "... elmlə yanaşı, Şamaxıda təsviri sənət və nəqqaşlıq da inkişaf edirdi". Bu sənətkarlığın yaratdığı bariz nümunə Gülüstan dağı üzərində yerləşmiş XII əsr abidəsi Şamaxı "qız qalasını" göstərmək olar.

XII əsr və ondan sonrakı əsrlərdə Azərbaycanda, xüsusilə də Təbrizdə xüsusi xəttatlıq məktəbləri yaranmağa başladı. Orada qiymətli dini, elmi və ədəbi əsərlərin əlyazmalarının üzünü köçürən mütəxəssislər yetişdirilirdi. Xəttatlar həmçinin binaların fəsadlarını da daş üzərində oyularaq yazılan yazılarla süsləyirdilər. O dövrdə kalliqrafiya mütəxəssislərinə xüsusi mükafatlar belə, təsis edilmişdi.

XIII-XIV əsrlərdə Azərbaycan şəhərlərində Naxçıvanda, Ordubadda və Qarabağda iki növ mədrəsə mövcud idi: "Mədrəsiyyə-irşadiyyə" (təhsil müddəti 14 il) və "Mədrəsiyyə vəhdaniyyə" (təhsil müddəti 16 il). Bu mədrəsələrdə ilahiyyat elmlərindən başqa astronomiya, cəbr, qrammatika və dillər də tədris edirdilər. XIV əsrdə Təbrizin şimal-qərb hissəsində Rabe-Rəşiddə nəinki Yaxın və Orta Şərqdə, eləcə də Qərbdə də ilk əsası qoyulan ali məktəb müəssisəsi Darülfün yaradıldı. Bu əzəmətli ali mədrəsədə 7 min tələbə və müəllim oxuyur və fəaliyyət göstərirdilər. Müəllimlərin 450 nəfərdən artığı Çindən, Hindistandan, Misir və Suriyadan dəvət olunmuşdu. Məmməd Araz Azərbaycan xalqının ədəbiyyatında qeyd edir ki, bir küçədə o qədər tələbə var idi ki, bu küçəni bütövlükdə "tələbələr

küçəsi" (məhəlleyi tələbə) adlandırırdılar. Unversitetdə şərqşünaslıq, fəlsəfə, tarix, təbabət, astronomiya, astrologiya məntiq şöbələri var idi. Tələbələrin qəbulu 5 ildən bir həyata keçirilirdi.[264]

Axundov kimi əvəzsiz maarifçimizə gəlincə isə deyək ki, o, 1851-ci ildə Rus Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinə üzv seçilmiş sonralar Qafqaz Arxeoqrafiya Komissiyasında tədqiqat işlərinə cəlb olunmuşdur. Qeyd etməyə dəyər ki, rus üsul-idarəçiliyinin məmuru olsa da, digər yandan Bakıxanov kimi "Əkinçi" də dərc olunur. Zəmanəsinin ziyalısı onun səhifələrində "Vəkili Milləti-Naməlum" imzası ilə məqalələr çap etdirmişdir.

Axundov bədii yaradıcılığına şeirlə başlamışdır ("Səbuhi" təxəllüsü ilə). O, Azərbaycan ədəbiyyatında azad düşüncə tərzinin ən böyük nümayəndəsidir. Mirzə Fətəli İslam dünyasının ictimai, sosial və siyasi sahələrində radikal islahatların lüzumluğu fikrini müdafiə edən ilk əzimkar, demokratik ruhlu yazar idi. Odur ki, yaradıcılığı Avropa ədəbiyyatşünaslarının və teatrşünaslarının diqqətini çox tez cəlb etdi. 1852-ci ilin avqustunda Alman jurnalı ***Magazin für die Literatur des Auslandes*** (Xarici ədəbiyyat jurnalı) yazırdı: "Fikirləşmək olardı ki, Transqafqazın müsəlman əhalisi İslam ruhuna uyğun olaraq belə yeniliklərə (teatra) hələ uzun zaman yad qalacaqlar, lakin onların arasında qəflətən dramatik dahi meydana çıxdı, Tatar Molyeri, hansının ki, adı onun ölkəsinin sərhədlərindən kənarda da diqqətə layiqdir. O, Mirzə Fətəli Axundovdur".[265] "

Ədaləti yerinə gətirmək, zülmü aradan qaldırmaq üçün millətin

264 Мир-Багирзаде Самира. Култура Исламской Цивилизации, Баку, Елм, 2011.

**265** Aybəniz Əliyeva (Kəngərli), **Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük,** Bakı, Elm, 2002**.**

özü bəsirət və elm sahibi olmalı, ittifaq və yekdillik əsaslarını əldə etməli sonra zalıma deməlidir:

***"S**əltənət və büstanından əl çək!"*

***O zaman millət yeni bir həyat tapacaq***[266]

Buna görədir ki, Məhəmməd Əmin Rəsulzadə özünün "Panturanizm haqqında" məqaləsində yazır: "Rusiya İmperiyasının müsəlman xalqların türk özünüdərki çoxdan-ilk dramaturqumuz Mirzə Fətəli Axundzadənin 1850-ci illərdə sadə xalq dilində ölməz komediyalarını yazdığı vaxtdan başlamışdır" .[267]

**Azərbaycan xalqının ictimai-tarixi və mədəni həyatında Mirzə Fətəli Axundzadə ayrıca bir mərhələ təşkil edir. Peşəkar milli teatr sənətinin, realist bədii nəsrin, demokratik fəlsəfi və estetik fikrin, ilk əlifba inqilabının, ümumiyyətlə, mənəvi mədəniyyətimizin bütün sahələrində "yeni dövrün" banisi olan Axunzadənin zəngin və çoxcəhətli yaradıcılığı lokal milli çərçivələri aşıb keçir. Türk, islam xalqları miqyasında ümumşərq və ümumbəşəri bir tarixi məna və əhəmiyyət kəsb edir.**[268]

Axundzadədən sonrakı dövrün formalaşması, yaşadığı əsrin güzgüsü, millətinə sağlığında atalıq etməyə başlamış böyük millətçi Həsən bəy Zərdabinin **(1842-1907)** adı ilə bağlıdır. Milləti yolunda hər şeyini qurban vermiş Məmməd Əmin Rəsulzadə Axundovun xidmətlərindən bəhs edərkən Həsən bəy Zərdabini Azərbaycan türklərinin **"milliyət ikən millət olmaya başlaması**" prosesinin

---

266 Axundov M.F. **Əsərləri,** III cildə, Bakı, "Elm", 1987-1988, II cild, səh 176.

**267 Rəsulzadə M.Ə, Panturanizm haqqında, "Azərbaycan" jurnalı, 1991, 116.**

268 Yaşar Qarayev. **Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər,** Bakı, Elm, səh, 216

öncülü hesab etmişdir[269]. Rəsulzadəyə görə, "konuşduğu lisanda ilk qəzetəyə malik cəmiyyət bir milliyət ikən millət olmaya başlamış deməkdir.[270]"

Beləliklə, tamamilə məlum həqiqətdir ki, "Əkinçi"nin dərci ilə "şərəflənən zaman" Azərbaycan ədəbiyyatı, hətta belə mədəniyyəti tarixinin yeni bir mərhələsidir. Bu mərhələyə verilən dəyərləri işıqlandıran tədqiqatçı alim Aybəniz xanım müxtəlif ziyalıların dili ilə deyilmiş fikirləri toplayaraq yazır: Bu dövr "Milli intibahımızın sübh çağı, şəfəq sökülməsi, enişli-yoxuşlu dövr, "Əkinçidən" "Molla Nəsrəddinə" qədər olan dövr, "Əkinçi" dövrü, "Həsən bəy Zərdabi dövrü" və s. adlanırdı[271]"

Mənbələr Həsən bəyin 1875-ci ildən 1905-ci ilə qədər ki, fəaliyyəti zamanını nəzərdə tutaraq Zərdabi mərhələsi adlandırsalar da burada bir şərtilik vardır. Belə ki, onun xidmətləri göstərilən tarixdən daha əvvələ gedir... Xalqın maariflənməsi üçün çox sahələrə əl atan bu nəcib əsilzadənin adı ilə Azərbaycan peşəkar teatrının əsasını qoyan ilk tamaşa, xeyriyyə cəmiyyəti açmaq təşəbbüsü, Bakı real məktəbində müəllimlik, rus mətbuatı ilə əməkdaşlıq, camaat içərisində könüllü vəkillik kimi tərəflər bağlıdır. Bunların hər biri özlüyündə çox faydalı olan sahələr olsalar da, mətbu orqan açmağa cəhd o dövr üçün çox böyük fədakarlıq tələb edirdi. Həsən bəy özü bunu "Rusiyada əvvəlinci Azərbaycan qəzeti məqaləsində belə yazır: "Hər kəsi çağırıram-gəlmir, göstərirəm-görmür, deyirəm-qanmır.

---

269 Mehmetzade M.B. **Milli Azərbaycan harekatı**, Ankara,1991, səh 17.

270 Mehmetzade M.B. **Milli Azərbaycan harekatı**, Ankara,1991, səh 97.

271 Aybəniz Əliyeva (Kəngərli), Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük, Bakı, Elm, 2002, səh 97.

Axırda gördüm onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç biri qanan olmasın. Necə ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir. Habelə söz də. Əiəlxusus doğru söz... Belə də qəzet çıxarmaqdan savayı bir qeyri-əlac yoxdur" yenə orada yazılıb "Heç olmaz ki, doğru söz yerdə qalsın. Hər ildə on qəzet oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar... Sonra düşmənin düşmənliyi, dostun dostluğu və dost göstərən yolun doğru olması aşkar olar".[272]

Mənbələr xəbər verir ki, Həsən bəy "Əkinçi"nin dərci üçün icazəni 4 ilə almış, hərflərini İstanbuldan gətizdirmiş, maliyyəsini tamamilə öz vəsaiti hesabına etmiş, mətbəədə isə işlətməyə bir nəfər təhsilli insan tapmadığı üçün qəzetin həm redaktoru, həm mürəttibi, həm korrektoru, həm naşiri, həm də fəhləsi olmalı olur və beləliklə, 8-10 adamın işini görməli olur. Dərc etdirdiyi ilk ana dilli qəzeti məmləkətinin əyalətlərinə çatdırmaq da onun üçün problem idi. Çünki onun həmvətənləri Cəlil Məmmədquluzadənin "Poçt qutusu" hekayəsində ki, Novruzəli kimi "poştun adını da eşitməmişdir..." Bu cəhalət içərisində olub milli kimliklərini yalnız müsəlman olduqları ilə ölçən həmmüasirləri isə durmadan onun bu tərəqqipərvər əməllərinə qarşı çıxır, tənqid edir, həcv yazır, bidətçi hesab edirdilər.

"Qəzetin dərc olunan nömrələrini Zərdabi görkəmli ziyalılar Seyid Əzim Şirvani, N.Vəzirov, Əhsənül Qəvaid, Ə.Gorani, Əliəkbər Heydəri və başqalarının köməyinə arxalanaraq dərc edirdi.[273] Belə

272 Əkinçi 1875-1877, Bakı, azərnəşr,1979, səh 9.

273 Yenə orada, səh 9.

tərəqqipərvər ziyalıların sayəsində "Əkinçi" zəmanəsinin mühüm elimi texniki, kənd təsərrüfatı, mədəni yenilikləri, naliyyətləri haqqında müntəzəm məlumat verə bilmiş, öz səhifələrində Azərbaycan ictimai fikrinin inkişafı baxımından faydalı polemika açmış, yeni elimi dünyagörüşünün parlaq nümunələrini vermişdi... Qəzetdə siyasət və iqtisadiyyat, mədəniyyət və sosiologiya, fəlsəfə və ədəbi tənqid, biologiya və nəbatat haqqında irəli sürülmüş müddəa fikir ədəbi tənqid və tövsiyyələrin böyük bir qismi bu gün də öz təravət və əhəmiyyətini saxlamışdır. "Əkinçi" XIX əsr Azərbaycan ictimai fikri, mətbuatı, ədəbiyyatı, və dilinin, habelə təbiətşünaslıq elminin öyrənilməsi üçün çox qiymətli məxəzdir".[274]

Azərbaycan maarifçiliyinin, sözün geniş mənasında isə mədəniyyətinin hadisəsi olan Həsən bəy Zərdabi elmin gücünə sonsuz inam bəsləyən yenilikçi bir alim, islahatçı bir mütəfəkkir idi. "Əkinçi" səhifələrində yazdıqları, dövrün ziyalıları ilə fikir mübadilələri zamanı söylədikləri ilə çox əsrlik ənənələrə malik Azərbaycan poeziyasının ideya istiqamətini dəyişməyə belə, cəhd etmiş Seyid Əzimin simasinda buna nail olmuşdur. "Keçmişdə "Əkinçi" qəzeti çıxanda o vaxtın şairlərindən yazıb təvəqqe eləmişdim ki, bülbülü və gülü tərif, biri-birini həcv etməkdən əl çəkib elm və təhsil etməyin nəflərindən, biz müsəlmanlara olan zülmlərin barəsində şerlər yazıb onları bizim aşıqlara xoş sövt ilə oxumağı öyrətsinlər ki, aşıqlar onları toylarda oxuyub əhalini oyatmağa səbəb olsunlar. Onlardan bircə Seyid Əzim Şirvani elm təhsil etmək nəflərindən bir neçə şeir yazmışdır ki, "Əkinçi" qəzetində çap olmuşdu".[275]

274 Əkinçi 1875-1877, Bakı, azərnəşr,1979, səh 9.

275 **Zərdabi H. Seçilmiş əsərləri,** Bakı, Azərbaycan dövlət nəşriyyatı, 1960, səh 240, 241.

Cəmiyyətlərdə hər bir yenilik əcaib bir zorluqla qəbul olunur. Milyonlarla insanların oxuma yazması yerində olan bu zamanda da yenilikçilər bu çətinlikləri çəkməkdədir. Həsən bəy kimi nəcib bəyzadənin gənc yaşlarında ata babalarının sürdüyü firavan həyatdan imtina edərək mənsub olduğu millətin məişətinin, dövlətçiliyinin qaranlıqlar içərisində olan təfəkkürünün üzərinə, özünü şam edərək işıq tutması mənsubu olduğu millətin tarixi qazancı idi. Mirzə Fətəlini "milləti islam qüvvədən düşmüş yer kimidir. Lazımdır ki, neçə nəfər sizin kimi öz bədənini oda yandırıb onun külü ilə bu yeri qüvvətə gətirsinlər ki, sizin övladınız bu yerdən bəhrəyab olsun"[276] – deyə haraylayan Həsən bəy, xidmətkar ömrünü bir də cahillərlə mübarizəyə də sərf etməli olmuşdu. Bu barədə özü belə yazırdı: "Gərək bizim Zərdab kəndində, Qarabağın sərhəddində bir daş qoyub üstündə zikr olan həcvi yazdıram ki, gələcək nəsil, bizim övladlar o yadigarlara baxıb bilsinlər ki, milləti islamı ayıltmaq istəyən vaxtda neçə nadanlara rast gəlmişəm".[277]

Bütün çatışmamazlıqlara rəğmən heç bir maneə onu tutduğu yoldan döndərə bilməmiş böyük bir orduya qarşı tək əsgər kimi mübarizə aparmış sonuna qədər də bu meydanı tərk etməmişdir.

Ümmətçilik görüşlərinə hakim olan "Əkinçi"nin səhifələrindən Həsən bəy İslam ümmətini birliyə çağırır rus çarizminin müsəlmanlar arasında saldığı sünnü-şiə təfriqələrinə qarşı müsəlmanları ayıldırdı.

*Əhli –islamın oldu kur gözü*
*Bizi puç etdi sünni-şiə sözü!*

Çağrışı digər yenilikçi ziyalılar tərəfindən də dəstəklənib

---

276 Əkinçi 1875-1877, Bakı, azərnəşr,1979, səh 313.

277 **Zərdabi H. Seçilmiş əsərləri,** Bakı, Azərbaycan dövlət nəşriyyatı, 1960, səh 19.

mətbuatda da öz əksini tapdı. Bu zaman Həsən bəy Mirzə Fətəliyə yazırdı: "Bizə göydən kömək gəlməyəcək. Əgər bisəmərə olmaqdan özümüzü mühafizə etmək istəyiriksə, qəflətdə olmaq nə lazım? Yəqin deyəcəksiniz ki, ittifaqımız yoxdur. Sünni-şiə sözü buna mane olur. Əzizim, bizim zamanda və bizim vilayətdə sünni-şiə sözü məhz anlamaz ağzında qalıb. Bəs mənim dostum, halva demək ilə ağız şirin olmaz. Siz də mənim kimi baldırınızı çirmələyib meydana daxil olun ki, bəlkə zikr olan xəyal əmələ gəlsin. Yoxsa doğru deyirsiniz ki, bir gül ilə bahar olmaz".[278] Millətin fərdləri arasında birliyin olmaması da onu ziyadəsi ilə rəncidə edirdi. Qərblilərdən geri qalmanın səbəbini elə bu dağınıqlıqda görürdü...

Ziraət (kənd təsərrüfatı) işlərini işıqlandırmaq üçün Çar Rusiyasından izin alan maarifçi, verdiyi vədə sadiq qalmadan, xalqını işıqlandırmada idi. Bunun fərqində olan Rusiya qəzetin nəşrini dayandırdı, lakin Həsən bəyin şüurlarda etdiyi inqilabın qarşısını isə heç cür ala bilmədi. Bu inqilabın əhatə dairəsi nəinki Azərbaycanı, Rusiyanın hüdudları içərisində yaşayan müsəlmanların da məfkurələrini əhatə edərək daha uzaqlara yayılmağı bacardı.

Həsən bəy Zərdabi ilə ümmətçilikdən millətçiliyə daxil olan Azərbaycan ədəbiyyatı, fəlsəfəsi bir çox yeniliklərə sahib olur. Belə ki, Həsən bəy ilk xeyriyyə cəmiyyətinin, milli teatrın, ana dilli mətbuat orqanının, milliləşən təhsilin əsasını qoymaqla özündən sonra gələn nəslə mədəniyyətin istiqamətlərini və meyillərini müəyyənləşdirən müəllim rolunu oynamışdır.

Onun fədakarlığı ilə dərc olunub Rusiyanın hüdudlarında yaşayan müsəlmanlara da çatdırılan "Əkinçi" onların da ümmətçilikdən

278 **Zərdabi H. Seçilmiş əsərləri,** Bakı, Azərbaycan dövlət nəşriyyatı, 1960, səh 109.

millətçiliyə keçmə mücadiləsinə çevrilərək Azərbaycanı Rusiya müsəlmanlarının ilhamverici mərkəzinə çevirir. Türkiyə türklərinin də millətçiliyə çağrış orqanı ola biləcək gücə malik "Tərcuman" qəzeti və İsmayıl Qaspıralı fenomeni də Zərdabi dühasından bəhrələnərək fəaliyyətə başlamışdır.

Zərdabi dövrü ümmətçilikdən millətçiliyə keçid dövrü olduğu üçün Azərbaycanda ilk dəfə bu dövrdə "millət" və "din" məfhumları arasındakı fərq öz yerini almaqda idi. Qafqazda yaşayan müsəlmanların etnik mənsubiyyətinin müəyyənləşdirilməsi yolunda ilk addımlar məhz bu dövrdə atılmışdır. Maarifçilik hərəkatı millətin və milli şüurun formalaşmasını şərtləndirdi.

Yekun olaraq qeyd etməliyik ki, bu tədqiqatın bizə verdiyi həcm imkanlarına görə yenilikçi ruhun Azərbaycanda daşıyıcıları olan Axundzadənin, Bakıxanovun, Zərdabinin, Şirvaninin millətçilik öyrədən fəlsəfələrini incələməyə çalışdıq. Onları yetişdirən zamana öncə tarixi aspektdə, sonra dini-fəlsəfi aspektdə nəzər salmağa çalışdıq...

**Müəllif bu tədqiqat işinin başa gəlməsində məsləhətlərini əsirgəmədikləri üçün AMEA-nin Şərqşünaslıq İnstitunun əməkdaşı yeni üslublu cədid məktəblərinin Azərbaycanda formalaşmasını öyrənən mütəxəssis Məmədəli Babaşlıya və Fəlsəfə Sosiologiya və Hüquq İnstitunun əməkdaşı aparıcı elmi işçi Elsevər Səmədova minnətdarlığını bildirir.**

# CƏDİD ÖNDƏRLƏRİNDƏN MUSA BİQİNİN "İSLAMIN ƏLİFBASI", "TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNƏ MÜRACİƏT" ƏSƏRLƏRİ MÜSƏLMAN TEOLOQUNUN KOMMUNİSTLƏRƏ TUTARLI CAVABI VƏ SİYASİ-FƏLSƏFİ ÖNCƏGÖRMƏSİ KİMİ

Artıq bilirik ki, tatar "ilahiyyatı məktəbi"nin bir neçə əsrlik tarixi vardir. Türk məfkurə tarixinin işıqlı simalarının bir çoxu Əbu Nəsr Kürsəvi **(1776-1812)**, Şihabəddin Mərcani **(1818-1889)**, Rza Fəxrəddin **(1858-1936)**, İsmayıl bəy Qaspıralı **(1851-1914)**, Musa Carullah Bigiyev **(1875-1949)**. Utız İmyan Bulqari, Sədri Maksudi Arsal **(1879-1955)**, Zinətulla Əhsən, Əbdürrəşid İbrahim **(1857-1944)**, Alimcan İbrahimov **(1887-1938)**, Məhəmməd İsaki, Mollanur Vahidov **(1885-1918)**, Ayaz İsaki **(1878-1954)** və b.) elə məhz bu məktəbin yetirmələridirlər...

Məlum olduğu kimi, Sovet hakimiyyəti illərində humanitar elmlər yeni metodologiya üzrə tədris olunduqları üçün materialist istiqamətə üz tutanlar cəmiyyətin ictimai və insanların ruhani-mənəvi həyatında ilahiyyatın rolunu heçə endirirdilər. **Bizim ateistik keçmişimiz bizi hələ də dini düşüncənin mədəniyyətin tərkib hissəsi olmasını qəbul etməyən metodoloji** ülgü**lərdə saxlamaqdadır. Bununla bərabər, dini düşüncə tərzinin cəmiyyətin aparıcı dünyagörüş forması olması, bu dünyagörüşün**

**mədəniyyəti zənginləşdirməsinin təkzib edilməz olduğu yenidən gündəmə gətirildi (burada qeyd etməyi özümə borc bilirəm ki, 2018-ci ilin 11 yanvarında AMEA Fəlsəfə İnstitutunda keçirilən "Tarixin fəlsəfəsi"nə həsr olunmuş seminarda məruzəçi, bizim canlı korifeyimiz, Zümrüd xanım Quluzadə XIX əsrin sonu və XX əsrin əvvəllərində yaşamış din adamlarının, görkəmli teoloqların irsinin öyrənilməsinin qarşımızda vəzifə kimi qoydu...** XXI əsrin insanı hər nə qədər elmin, texnikanın inkişaf etdiyi dövrdə yaşasa da, o dinin, insanın mənəvi simasının formalaşmasindaki rolunu təkzib edə bilməz.

XIX əsrin sonu XX əsrin əvvəlləri dünyanın tarix səhnəsində kifayət qədər, təbəddülatlı və özündə incə siyasi maraqları əhatə edən dövr idi. XX əsr inqilabi şüarlarla başladı və bir sıra xaqların istismardan xilas olma çabalarına şahid oldu. Rusiya kimi bir imperiyada o qanlı inqilabla başlayıb məxməri inqilablarla sonuclandı. Tatarlar üçün də bu əsrin başlanğıcının başlıca şüarı faktiki olaraq, Avropanın müstəmləkəsinə çevrilmiş müsəlman dünyasının azadlığı idi. Onların gözü qarşısında fransızlar Əlcəzairin müstəqilliyini əlindən aldılar, italyan orduları Liviyaya daxil oldu, Balkanlar tamamilə Avropa ölkələrinin nəzarəti altına keçdi. Köhnə müsəlman rejimləri özlərinin gücsüzlüyünü təsdiqlədilər (başqa sözlə buna hər vəch ilə gətirilib çıxarıldılar-Ş.M). Bundan sonra İslam məmləkətlərinin müdafiəsinin maraqları üzərində tatar aydınları işləməyə başladılar ki, onların içərisində Musa Bigiyevin rolunu xüsusi qeyd etmək lazımdır.

Kommunizm ideyaları formalaşmağa başladığı zamanın da "öz təəsübkeşləri", subyektiv arzularını cəmiyyətin mənafeyinə tabe etdirməyə qabiliyyəti çatmayan insanlara kontur cəbhədə dayanan

idealları tapılmışdı. Maraqlı tərəf bundan ibarətdir ki, bu əks fikir sahibləri, eləcə də barışdırıcılar lazımı qədər olsalar da, onların proqnozlarının nəticələri özünü xeyli (70 il) sonra doğrultdu.

XIX əsrin sonu XX əsrin əvvələrində yaşamış belə təəssübkeşlərdən və təfəkkür sahiblərindən biri də bu dövrdə İslam adına, müsəlmanlıq adına mücadilələr vermiş böyük türk oğlu, Musa Carullah Bigiyev idi. Onun İslam işığında apardığı tədqiqatlar diqqətçəkicidir. Tatar islahatçıları içərisində Musa Bigiyev silsilə əsərləri ilə müsəlman teoloqiyasının üfüqlərini genişləndirmişdir. Onun nəzəri yaradıcılığı ictimai fəaliyyəti ilə birlikdə davam etmişdir. Musa Bigiyev təbiəti etibarı ilə bir islahatçı doğulmuşdu. O, 1905-1907-ci illər inqilabı zamanı "islahat əsasları" terminini işlədən adamdır. Heydər Habutdinov özünün "Millətin liderləri" əsərində yazır ki: "Bigiyevin XX əsrin əvvəllərində Rusiya müsəlmanlarının ictimai birliyinin yaranmasındakı xidməti öz əhəmiyyətinə görə ancaq Şihabəddin Mərcaninin "Mustafad əl əxbar" ilə tatar tarixşünaslığına etdiyi xidmətlə ölçülə bilər"[279] Musa Bigiyev yeganə görkəmli ilahiyyatçıdır ki, həm dini həm də dünyəvi təhsil almışdır. O, 1905-1906-cı illərdə realni məktəbi bitirmiş, Peterburq Universitetinin azad dinləyicisi olmuşdur. Kazandakı Afanasiyev mədrəsəsini bitirdikdən sonra tamamlanmış bir ilahiyyat təhsili almağı düşünür və bu məqsədlə o, Buxara təhsili ilə kifayətlənməyib Mədinəyə sufizmin ideyalarını öyrənməyə yönəlir[280]. İlahiyyatçı kimi o, Qahirədə böyük İslam modernisti Məhəmməd Əbdühün yanında formalaşdı.[281] Cədid tarixi

279 bax: netref.ru/qabdunnasr-kursavi-luter.html?page=6

280 Yenə həmin sayt

281 Məhəmməd Abduh 1849-cu ildə Misirdə orta imkanlı bir kəndli ailəsində doğulub. Qeyri adi

bizə xəbər verir ki, Abduh müsəlman yenilikçilər tərəfindən davam etdirilən, İslami islahat hərəkatının Əfqanidən sonra ikinci müəllimi sayılır. Bu istiqamətdə Əfqanidən miras aldığı aktiv ideyaları daha mötədil və daha elmi-fəlsəfi bir hala gətirmişdir. Onun islahat hərəkatı dörd önəmli istiqaməti birləşdirmək məqsədi güdürdü. *İslamın doğuşunun zirvəsində olduğu günlərin əzəmətinə qayıdış üçün Quran və Hədisləri tədris etmək.

*Bu tədrisi müasir düşüncə və çağdaş elmin naliyyətləri nəzərə alınmaqla yenidən işləmək (şəkilləndirmək).

*Misirdəki ali təhsilin islahı

*İslamın Qərb nüfuzuna və xristian hücumuna qarşı müdafiəsi[282]

İctihad qaranquşu olan Əbdühün tələbəsi olmuş Bigiyevin məfkurəsində azadfikirliliyin toxumları özünə elə yer etmişdi ki, o da ustadı kimi bu toxumları xalqının "dirçəliş mücadiləsi" verməsi yolunda əzimkarlıqla "səpələdi".

Mənbələr xəbər verir ki, onun islahatçı məfkurəsinin formalaşmasında böyük qardaşı, İslam sxolastikasının tənqidçisi və yeni tipli təhsil sisteminin tərəfdarı Zahir Bigiyevin də xüsusi rolu olmuşdur...

Tədqiqatçı Heydər Habutdinov Bigiyev və tatarların ilk siyasətçisi Əbdürəşid İbrahimin "Ülfət" və "Dilimiz" dərgilərindən

---

xarakteri ilə daimi bir axtarışda olan Abduh gənc yaşlarında sufizmin füsünkar təsiri altına düşüb Allahı unutduran hər bir şeydən uzaqlaşmaq ərəfəsində ikən Şərqin böyük yenilikçisi Əfqani ilə görüşür. Onunla 15 illik dostluq zamanı Əfqaninin ən iddialı aktiv tələbələrindən birinə çevrilir. Ustadının dərslərini o qədər mükəmməl öyrənir ki, onu keçərək bu yolda yürüyənlərə daha konkret, mühüm əhəmiyyətli, daima yeni səslənən bir miras buraxdı. Bu mirası müxtəlif dərgilərdəki yazılarında, konfranslardakı çıxışlarında və vəazlərində, eləcə də əl-Əzhər Universitetindəki mühazirələrində, idarə heyəti üzvüliyində və Misir baş müftiliyi kimi sahələrdə əldə etmişdi. O,1905-ci ildə Misirdə vəfat etmişdir. Daha ətraflı bax; **https//az.wikipedia orq/wiki/Məhəmməd_ Abduh** (15 may 2018)

282 Daha ətraflı bax; **https//az.wikipedia orq/wiki/Məhəmməd_ Abduh** (15 may 2018)

başlanan uzun dostluqlarından da bəhs etmişdir. O, bu dostluğun uzun illər məhsuldar davam etməsindən, İbrahim qazının "müsəlman xalqlarının federasiyası" tərəfdarı olduğunu və Avropanın texniki və siyasi naliyyətlərini müsəlman əxlaqını və hüququnu saxlamaqla mənimsəmək olar ideyasını irəli sürməsindən də bəhs etmişdir. Musa Carullah Bigiyevin ictimai fəliyyətinə gəldikdə bunu xüsusi qeyd etmək lazımdır ki, o, 1905-1906-cı illərdə keçirilən bütün müsəlman qurultaylarının (üç qurultay) iştirakçısı olmuşdur. III Ümumrusiya müsəlman qurultayının katibi, "İttifak əl-Müslimin" partiyasının proqramının müzakirə iclasının nümayəndə heyətinin üzvü, həmin "İttifaqın" MK-da üzv seçilmişdir. Bu partiyanın proqramasının giriş mətnində Musa Bigiyev elan etmişdir ki, o şəriət əsaslarına uyğundur.[283]

Bigiyevin "İslam millətlərinə" əsəri onun yaradıcılığının çox maraqlı bir mərhələsinin məhsuludur. Əsər hələ müəllifin sağlığında (onun sosialist Rusiyasında yaşadığı dövrdə-Ş.M) xaricdə çapdan çıxmışdır. Tədqiqatçılar bu kitabın çox dəyərli bir mənbə olduğunu söyləməklə, kitabın müəllifi tərəfindən də, İslam biliciləri tərəfindən də "İslamın əlifbası" adlandırıldığını xəbər verirlər. Müəllif əsəri 1920-ci ildə yazıb başa çatdırır və bu kitab Preobrajenski və Krestinskinin iştirakı ilə, görkəmli bolşevik lideri Buxarin tərəfindən yazılmış "Kommunizmin əlifbası" əsərinə tutarlı cavab kimi səslənir. Kitab özlüyündə İslamın siyasi manifesti, yaxud "İslam konstitusiyası" missiyasını yerinə yetirirdi. 236 məqalədə İslamın uyğun qanun-qaydalarına, eləcə də müasir (zamanı üçün) müsəlman (həm Rusiya daxilində, həm də xaricdə) həyat tərzinə keçmək barəsində məlumat

283 bax: netref.ru/qabdunnasr-kursavi-luter.html?page=6.

verilir. Əsərdə Bigiyev müsəlman cəmiyyətinin qurulmasının əsas momentlərinə: "xilafət quruluşunun problemlərinə, insan hüquqlarına, İslam təlimi prizmasından hərbi hüquqlara (mükəlləfiyyətlərə Ş.M.)" müsəlman diplomatiyası və xarici siyasətə, müsəlman qadınlarının hüququ və s. məsələlərə yeni baxışla yeni yanaşma etmişdir.

"Sovet maşını"nın totalitarlığın carçısı olduğunu bilirik. Bu maşından daş üyüdən kimi bütün xalqları və millətləri simasızlaşdırıb, bir rəngə, bir biçimə salmaq üçün istifadə edirdilər. Odur ki, bu dönəmdə millətlər simasızlaşır, mədəniyyətlər çeynənir, ali olanlar adiləşirdi. Bir tərəfdən isə Allahsızlıq ideyası sovet adamının ağlına hakim kəsilməli idi. Elə buna görə də "İslamın əlifbası" kitabının ağır taleli olması təəccüblü olmamalıdır. Dediyimiz kimi, 1920-ci ildə tamamlanan bu kitabın ilk tezisləri elə həmin ildə Bigiyev tərəfindən 16-18 sentyabrda Ufada keçirilən "Müsəlman Üləmalarının Qurultayı"nda, daha sonralar isə bu qəbildən olan başqa tədbirlərdə oxunmuşdu. Kitabın nüsxələri qurultay iştirakçıları tərəfindən Türkistana, Qaşqara, Əfqanıstana və Türkiyəyə çap olunmaq üçün göndərilmişdir.

Tatar ilahiyyatı antologiyasından oxuyuruq ki, Musa Carullah Bigiyev, müsəlman dünyasına səs-səda salmış kitabının çapından toplanan vəsaiti atasız, anasız türk uşaqlarının (valideynləri I dünya müharibəsində ölən-Ş.M) nəfinə xərcləmişdir.

Musa Bigiyevin bu kitabı o zaman yazıldı ki, elə o vaxtlar, müəllif Sovet dövlətinin rəhbərliyi ilə əməkdaşlıq etmək üçün (bu birlikdə yaşayan müsəlmanları düşünürək-Ş.M) vasitələr axtarırdı. O, Sovet liderlərinin yüksək pafosla verdikləri çoxlu vədlərin səmimiyyətinə inanmaq istəmişdi. Odur ki, Zinovyevə müraciət edərək sovet

Rusiyasında yaşayan müsəlmanların yaşayışını, keçimini müzakirə etməyə icazə istəmişdi. Zinovyev tərəfindən qəbul edilməsədə o, sonralar Petroqradda təqibə məruz qalmamasının səbəbini məhz ona (Zinovyevə-Ş.M.) minnətdar olmaqla anırdı. Belə bir məlumat vardır ki, Bigiyev şəxsən V.İ. Lenin ilə də görüşübmüş.

"Müsəlman millətlərinə" əsərinin girişində müəllif kommunizmin qurucusu Karl Marksı və onun kommunizm ideologiyasını kəskin tənqid edərək, özünün alternativ fikirlərini sərgiləyə bilmişdir. Bu fikirləri o, müsəlman qurultaylarında da nümayişkəranə çıxışları ilə vurğulamışdır. Məhz buna görə də Bigiyev hələ kitab işıq üzü görməmiş siyasi təqiblərə məruz qaldı. 1921-ci ildə isə o, Daşkənd F.K. (Füvqəladə komisiya-Ş.M) tərəfindən həbs olunmuşdur.

Məlum səbəbdən müəllifin bu əsəri 1923-cü ilədək çap olunmamış qaldı. Müəllif "İslam əlifbasını" və eləcə də digər əsərlərini çap etdirmək üçün qardaş Türkiyəyə müraciət etmiş, lakin Rusiya ilə aralarında bağlanmış olan sülh müqaviləsinə əsasən ona bu təmənnanın mümkün olmayacağını söyləmişlər. O zaman Bigiyev bu lazımlı əsərini Finlandiyaya orada yaşayan Helsinki məscidinin imamı əslən Kazanlı Vəli Əhməd Hakimə göndərmişdir. Sonuncu ilə onu möhkəm dostluq telləri bağlayırdı. Vəli Əhməd Hakim kitabın Helsinkidə çap olmasına giriş sözü yazaraq (kitabın Helsinkidə çıxmasının səbəblərini əsaslandıraraq-Ş.M) çap etdirmişdir. Kazan torpağının digər yetirmələri Cəmaləddinov və Zinətulla Əhsən mesanatlıq edərək malliyə yükünü də öz üzərlərinə götürmüşlər. Son anda fikir dəyişikliyi edərək kitabı Berlində "Kaviyani" məətbəəsində buraxmaq qərarına gəldilər. Belə ki, kitabın əlyazması tatar siyası

mühacırı Məhəmməd Həyyaz İsakinin (1878-1954) əlinə keçir. Berlində yaşayan İsaki Bigiyevi birlikdə işlədikləri müsəlman qurultaylarından, tədbirlərindən yaxşı tanıyırdı. İsaki kitabı yenidən redaktə edir, özünün bəzi əlvələrini də (müəlliflə razılaşmadan) edir. Elə o formada da kitab çapa gedir və 1923-cü ildə 5000 nüsxə ilə işıq üzü görür. Bu nüsxələrdən təxminən 2000 nüsxəni Bigiyev SSRİ-də yaşayan müsəlmanlar arasında paylamış, qalan hissənin isə Moskvadakı türk səfirliyinin vasitəsi ilə Türkiyəyə satışa göndərmişdir. (1.19 (**Arxiv-məhkəmə işi-səh**))

Bolşevizmin kəskin düşmənlərindən biri olan İsakinin kitaba ön söz yazması Bigiyevin həbsinin əsas səbəblərindən idi. 17 noyabr 1923-cü ildə kitabın çapından həmən sonra onu həbs etdilər. Peterburqdan Moskvaya Lübyankadakı mərkəzi həbsxanaya göndərdilər. Beləliklə, Musa Bigiyevin vətəndaş yanğısı və həmdinlərinə təəssübkeşlik ehtirası ilə yazdığı bu əsərinə görə aldığı ilk "mükafat"ı bundan ibarət oldu.[284]

İslamın əlifbası Musa Bigiyevin böyük Türkistanın bir oğlu kimi türklərə və türk dövlətinə məhəbbətlə yazdığı əsərinin girişinin hər cümləsində hiss olunur. Türk dilli xalqların və eləcə də müsəlmanlığa etiqad edənlərin içərisində uca mərtəbədə ulu türkü görən Musa Bigiyev, bu xalqların xilasını da Türk dövlətinin cəsarətli addımlarında fanatizmdən qurtuluşa can atmasında, eləcə də türklərin müsəlmanlığı sivil bir surətdə yorumlayacağına (şərh və təbliğ edəcəklərinə) inamla ifadə edirdi. Bunun yanında müsəlman aləminin bütün ağrı-acıları, o cümlədən müsəlman ölkələrinin geridə qalan iqtisadiyyatı da müəllifi

284 Антология татарской богословской мысли. Муса Джаруллах Бигиев. Избранные труды в двух томах. Обрашение к Великому Турецкому Нацианальному Собранию. Воззвание к мусульманским нациям. Казань 2006, с.35.

narahat edirdi. Verimli, münbit torpaqlara sahib olan müsəlman ölkələrinin, eləcə də Türkiyənin iqtisadiyyatının xarici kapitaldan asılılığı Bigiyevdə ürək yanqısı doğuran çatışmamazlıqlardan idi.

XX əsrin astanasında dünyanın böyük bir hissəsinin kommunizmin əlində çabalaması, qütbləşən dünya, simasını itirib, sovet milləti adı altında qloballaşmaya üz tutan xalqların taleyi "Əlifba" müəllifini bir ziyalı kimi çox narahat edirdi.

XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış islahatçı ziyalılar kimi, Bigiyevdə müasirləşən, yenidən qurulan dünyanın mənzərəsində həm dünyəvi, həm də dini ortamda qalib görmək istədiyi müsəlmanların problemləri və dərdləri ilə yaxından maraqlanır və bir çox ziyalılar kimi dindaş, vətəndaş yanğısı ilə mübarizə edirdi. O, bu yolda həyatını belə, itirməyi göz altına alaraq, sovet dövlətinin müsəlman xalqlara, millətlərə göstərəcəyi xidmətin nədən ibarət olacağı intizarı ilə yaşayır və bu mənada o hadisələrin gedişatına bir seyirci kimi qala bilmirdi. Hadisələrin qaynar nöqtəsinə cəsarətlə öz "Mən"ini, şəxsiyyətini qoyurdu. XIX əsrin sonu, XX əsrin əvvəlləri bol təbəddüladların baş verdiyi dövr idi və bu gün o əsrlərdə baş verənlərə həm tadqiqatçılar, həm politikaçılar (siyasətçilər), həm tarixçilər, həm iqtisadçılar, bir sözlə, müxtəlif peşə sahibləri, hərə öz süzgəcindən keçirərək qiymət verir.

Zaman ən yaxşı qiyməti özü verir deyirlər. O dövrdə baş verənlərə ədalətli bir qiymətin verilməsi üçün görünür ki, bəlli bir zamanın keçməsinə ehtiyac varmış, amma tarixin dərin qatları o zaman olduğu kimi incələnə bilər ki, müəyyən bir məkanın tarixini incələməyi özünə borc bilən vətənpərvər, obyektiv, ədalətli insanlar bu işlə məşğul olsun. Tarixə nəzər salan şəxsin hermeneftik düşüncə

tərzinin olması da istisna edilmir. Biz də "Fəlsəfə İnstitunun" digər vicdanlı əməkdaşları kimi bu tədqiqata tatar islahatçı ilahiyyatçılarının şəninə yaraşan bir ruhla başladıq.

Bütün müsəlman aləmində baş verən hadisələri izləyən və bütün müsəlman xalqlarına (xüsusən də Rusiyada yaşayan) ümumi bir rifah konsepsiyası hazırlayan Bigiyevin "müsəlman millətlərinə" əsərindən müəyyən hissələri tədqiqatımızın məqsədi kimi oxucularımıza təqdim etməyi qayət lazımlı bildik. Belə ki, bu tərcümələr Musa Bigiyevin yaşadığı ölkədə və bütün dünyada yaşayan müsəlman xalqlarına nə arzuladığının bizlər üçün bələdçisidir. Aşağıda tatar ilahiyyatçılarının Musa Carullah Bigiyevin yaradıcılığına həsr olunmuş analoqiyasından həmin kitabın rus dilində olan nüsxəsindən tərcüməni təqdim edirik.

"Rəhimli və böyük Allahın adı ilə:

1. Bütün Rusiya müsəlmanları dili, ədəbiyyatı, dini, təbiyyəti, temperament və həyat mücadilələri ilə birləşən bir millətdir. Millət tarixi, temperamenti, adətləri, dini ilə müştərək olan fərqlilikdir. Milləti qan birliyi, din birliyi və tarix kəsiyində sosial vəziyyəti fərqləndirir. Milləti fərqləndirən daha bir element mənəvi-əxlaqi keyfiyyət hesab edilə bilər. Bu keyfiyyət öz əhəmiyyətilə daha yüksədə dayanır, nəinki milli təbiət. Belə də olur ki, siyasətin və tərbiyənin təsiri ilə bəzən bir böyük xalqı çox saylı "kiçik" xalqlara da çevirirlər. Buna görə də biz ümumilikdə "məqsəd və məramlara" (bəlkədə burada vəzifələrimizə-Ş.M) aydınlıq gətirmişik.

2. Rusiyada yaşayan müsəlmanların etiqad etdiyi din İslamdır. Buna görə də İslam özünün əxlaqi, sosial, iqtisadi, dini-siyasi təlimləri ilə hər yerdə keçərli olan əsas və həyati tənzimləyici kimi Rusiya müsəlmanlarının birinci mənbəəsidir.

3. İnsanlıq (insan Ş.M.) nə qədər ki, yer üzündə bütün mükəlləfiyyətlərin, bütün qabliyyətlərin, hüququn daşıyıcısıdır, Rusiya müsəlmanları da dünyadakı bütün müsəlmanlar bütün dünya insanlarının haqlarını, hüquqlarını tanıyır, onlara öz şərəf və hüquqlarına hörmət edən kimi hörmət edir və özlərininki kimi qəbul edirlər. Bu qanunlar, hansı ki, "onlar da haqq, hüquq sahibidirlər, o şeylər ki, bizim onlara hüququmuz var və onların üzərinə o qoyulmuşdur ki, (mükəlləfiyyətlər Ş.M.) bizim də üzərimizə o qoyulmuşdur. "Hələ ki, sədaqətlidirlər onlar sizə siz də sədaqətli olun onlara"""[285]. Bu ayələr də qanun kimi səslənir... Bu qəbil ayələr İslamda qarşılıqlı münasibətlərin əbədi əsasını təşkil etmişdir və etməkdədir.

4. Rusiya müsəlmanları bütün Rusiya və dünya xalqlarının, eləcə də bütün irqlərin, sosial qrupların və siniflərin hüquq bərabərliyinə, eləcə də hüquqlarının və vəzifələrinin bərpasına çağırır və bunu tələb edir.

5. Dövlətin əsas qanunu hər bir xalqı bütün siyasi bərabərliklərlə, hüquqla, dil, ədəbiyyat, təlim, təhsil, din kimi mənəvi-ruhani bərabərliklərlə də təmin etməlidir. Hər bir xalq tamamilə təmin edilmiş azadlıq, sərbəstlik, dilini, danışığını saxlamaq hüququ, məktəbini yaratmaq və saxlamaq, dini ali müəsisələri, eləcə də dil problemləri ilə, ədəbiyyat və incəsənət məsələləri ilə məşğul ola bilmək azadlığı ilə də təmin olunmalıdır. Dövlətin ən başlıca məsələsi və faydalı mükəlləfiyyəti insanların hüquqlarının və şəxsiyyətinin və şərəfinin hər tərəfli qorunub, saxlanıla bilməsidir.

6. Müsəlmanlar İslam təliminə görə bütün insanların, bütün

285 Şəkixanova M.M. Türkçülük hərəkatının görkəmli nümayəndəsi Musa Carullah Bigiyevin dini-fəlsəfi görüşləri barəsində. "Müasir dövrdə dinşünaslıq və mədəniyyətin aktual problemləri (I buraxılış)" toplu, AMEA FSHİ Bakı, Təknur, 2012, səh 125-137

xalqların ləyaqət və hüquqlarını bərabər olduğunu qəbul edirlər. Rusiya müsəlmanları hər yerdə müsalmanların birliyini, bütün münasibətlərdə başqa xalqlarla hüquq bərabərliyinə malik olduğunu və bunun təkzibedilməz müqəddəs həqiqət olduğunu elan edir, təsdiqləyirlər.

7. Rusiyanın hazırkı müsəlman xalqları digər xalqlarla bütün sahələrdə (mədəni, ictimai, siyasi) tammamilə bərabər hüquqludurlar (yaxud olmadırlar-Ş.M). Onların məişət tərzi isə həmişə və bütün münasibətlərdə İslam qanunlarına uyğundur. Heç yerdə və heç bir hüquqi münasibətdə məhdudlaşdırılmadan söhbət gedə bilməz.

8. Hər bir xalq, eləcə də hər bir insan bildiyimiz kimi, sosial, siyasi hüquqlardan müştərək şəkildə və ayrılıqda bütövlükdə və tək-tək istifadə edir. Ayrıca hər bir insan və hər bir xalq bu hüquqlardan (dövlətin hüquq bərabərliyi siyasətindən-Ş.M.) istifadə etməyə layiqdir.

9. Rusiya müsəlmanları dövlətin bütün hüquqlara sahib olmuş, bütün mükəlləfiyyətləri yerinə yetirən, bərabər hüquqlu fərdləridirlər. Lazım gəldikdə onlar siyasi və ictimai tədbirlərdə hər tərəfli iştirak etmək hüququna malikdirlər.

10. Dini mənsubiyyət, vicdan və hüquq yaradıcılığı həmişə və hər yerdə hər baxımdan azaddır.

11. Dini mənsubiyyət və vicdan azadlığı təbliğ olunur, buna görə də bütün dinlər hörmətə layiqdir. Dini müqəddəslik və hüquqa hörmət ümumi haqqa aiddir.

12. İstənilən aksiyalar dinin toxunulmazlığına və onun müqəddəs statusuna xələl gətirərsə, qətiyyətlə qarşısı alınmalıdır..." [286]

286 Антология татарской богословской мысли. Муса Джаруллах Вигиев. Избранные труды в двух томах. (Обрашение к Великому Турецкому

Simasını itirən millətlərin faciəsini açmaq, totalitarlıq gətirən, kommunizmin iç üzünü göstərmək üçün "İslamın əlifbası" və "İslam millətlərinə" əsərlərini yazan Bigiev, bu əsərləri o vaxt yazdı ki, o vaxtlar artıq yazarlar, filosoflar, ideoloqlar, siyasətçilər başqa abu-hava ilə yaşayırdılar. Musa Carullah Bigiyev kimi açıqfikirli, keçmişlərinə və köklərinə sədaqətli insanlar, söz sahibləri isə öz həyatlarını və təhlükəsizliklərini ortaya qoyaraq, keçici deyil, əbədi dəyərlərin bərqərar olması üçün mübarizə edirdilər.

Bigiyev XVI əsrin sonları, XVII əsrin əvvəllərindən başlayaraq, ta onun zamanına qədər davam edən, intibah fəlsəfəsi, yeni dövr fəlsəfəsinin ayrı-ayrı materialist cərəyanlarına qarşı özünün yeni, islahatlara yönəlik, etik, siyasi, fəlsəfi görüşlərini qoydu. Bigiyevin bu görüşləri islam aləmində yeni, modernist düşüncə tərzinə keçidin ideologiyası ilə uzlaşırdı.

Onun bu fəlsəfi görüşləri sanki bir sıra hoqqabazlıqlar çıxaran, dünyanın yaranmasının səbəbini hər cəhdlə mənəvi olanlardan ayıran filosoflara və siyasətçilərə kübarlıq tribunasından deyilmiş sözlər idi. Bu cavablar, bu iradlar, nəhayət, bu nəsihətlər dünyanın yaradıcısı olan, vahid olan Allahın müqəddəs kitablar vasitəsi ilə yerə göndərdiyi mesajları kübarcasına sədaqətlə təzələməsi idi. Onun əsərlərinin hər birindəki sətirləri oxuduqca, insan əslində, xilqətinin fəlsəfəsini təkrarladığını duyur...

İndi isə onun türk kökünə bağlılığının bariz nümunəsi olan **"Türkiyə Böyük Millət Məclisinə Müraciət"** əsərindən bir parçaya diqqət edək "...Əsrimizdə də İngiltərə iqtisadi qələbə çalıb. Rusiyada,

Нацианальному Собранию. Воззвание к мусульманским нациям. Казань 2006, səh.,9.

eləcə də Asiyada o, həll edici qüvvəyə malikdir, dənizdə və quruda rəqibi yoxdur, Sovet dövləti Şərqdə İngiltərəyə əleyhinə təbliğat aparmağı artıq tamamilə kəsmişdir. Əksinə, sovet dövləti Şərqdə elə İngiltərə kimi işğalçı siyasət yeridir. Bu həqiqətdir, reallıq bundan ibarətdir. Amma Siz, İslam bayrağı altında birləşən inqilabçı dövlətin şanlı qoşunu və təmiz millətin Milli Yığıncağının yönəticiləri kimi əvvəlki inam, enerji və səbrlə hərəkət etsəniz, Şərq Sizin olacaq. Türkistan müsəlmanları və fərqanə döyüşçüləri Sizin ordularınızdır. Çin müsəlmanları Sizin çağırışınıza cavab verərək, Sizə tabe olacaqlar. Çin dövləti Sizin ən sədaqətli dostunuzdur, onlar da Qərb asılılığından qurtarmağa can atırlar.

Əfqanıstan Sizin sədaqətli və bacarıqlı müttəfiqinizdir, İranın Sizin himayənizə ehtiyacı var. Hindistan özünün bərəkətli dövləti, gəncləri isə öz həyatlarıyla Sizə can atır. Əgər Siz Şərqdə ağıllı rəhbərlik edə bilsəniz, siyasətiniz İngiltərə siyasətindən də üstün olacaq və Siz Şərqə hakim olacaqsınız.

Siz bugünkü vəziyyətə hakim ola bilsəniz, vəziyyət özü Sizin qələbənizi təmin edəcək.

Şərq xalqlarına! Sözü bolşeviklərin boş vədləridir. Onların vəhşilikləri, ingilis boyunduruğu, bütün bəşəriyyətdə proletariatın köləliyinə və məhrumiyyətlərə dözməsinə səbəbdir. Odur ki, hər bir millətin, hər bir fərdin, hər bir məkanın belə azadlığa can atması hədsizdir, bu isə belə bir şəraitdə təbiidir.

Şərqin bütün istismarçılardan azadlığı da Sizin əlinizdədir. Sizin qələbəniz isə Şərqin əlindədir. Əgər Siz rəhbərlik edə bilsəniz, bütün Türkiyə, bütün Şərq Sizin olacaqdır.

Almaniya da Sizin dostunuz hesab olunur. Belə olan halda

(yuxarıda deyilənlər həyata keçərsə) o, (Almania-Ş.M) Sizdən iqtisadi baxımdan dost olan ölkədən sizə ehtiyacı olan ölkəyə çevriləcəkdir. Digər Avropa ölkələri də həmşçinin ya Sizinlə dost olacaq, ya da Sizə zərər verəcək durumda olmayacaq. Dünya evinin ən varlı məmləkəti olan Şərqdə, işlənmədən tarımar olan sərvətlər Şərq xalqlarını tamamilə təmin etməyə kafidir. Özünün sərvətlərindən istifadə edərək Şərq kənar qüvvə olmadan tədricən Amerika və Almaniyanın mədəniyyətlərinin lazımlı hissəsindən istifadə edərək qalxacaqdır.

Mədəni dünyanın cürətli və aşındırıcı halından xilas ola bilmək üçün Sizə Karl Marksın "ölçülərinə" müraciət etmək lazım deyil.

Siz ey Türk İnqilabçı Dövləti! Şərq xalqlarına söykənərək və İslam siyasətini əldə rəhbər tytaraq, bütün müsəlman dünyasını dünya mədəniyyətinə özünə məxsusluqla aparın! Bunu insanlığın ləyaqətini, azadlığını və hüquqlarını təmin edən İslam qanunlarını əldə rəhbər tutaraq ədalətli türk ordularının vasitəsi ilə edin.

Mədəniyyət səhifələrində İslamın qələmi ilə Siz yeni həyatın qanunlarını yazacaqsınız! Bu yer kürrəsinin yeni əxlaq, yeni xoşbəxtlik səhifələri olacaqdır. Çünki müsəlman dünyasının yeni mənəvi, sosial çevrilişlərə daha çox ehtiyacı vardır, nəinki inqilabi çevrilişlərə "Bu gün də bu belədir, lakin bu çevrilişləri özümüz edə bilmədiyimiz üçün İraq, Suriya, Liviya, Yəmən, Əfqanistan kimi vaxtı ilə dünya mədəniyyətinə töhfələr vermiş məmləkətləri təkləyərək məhv etdilər"[287].

Sonrakı cümlələrində müəllif izah edir ki, göstərdiyi səbəblərdən "İslamın əlifbası" kitabında yazdıqlarını bu yolu başlamağa bir mayak

---

287 Антология татарской богословской мысли. Муса Джаруллах Бигиев. Избранные труды в двух томах. (Обрашение к Великому Турецкому Нацианальному Собранию. Воззвание к мусульманским нациям. Казань 2006, с.40.

hesab edir. Müəllif ərsəyə gəlmiş bu kitabın daha bir məziyyətindən söhbət açaraq qeyd edir ki, “sünnilər və şiələr, vəhabilər və babilər, ortadoksallar və sufilər arasında fikir yekdilliyi və razılığın əmələ gəlməsi üçün də bu kitabı (“İslamın əlifbası”-Ş.M) mənimsəmək kifayətdir. Bu saydığımız məsələlər haqqında az-çox bilən adam kitabdakı bəndləri mütləq qiymətləndirəcəkdir. İslam sivilizasiyası əsrlərdir ki, digər sivilizasiyalarla yanaşı, mövcud olmaqda davam edir. Bu sivilizasiya onu yaradanların (təməlinə mənəviyyat və sədaqət “daşları” tökənlərin) həyatlarının işıqlandırmasından, onların nümunəvi əxlaqını sərgiləməkdən tutmuş, İslam incəsənətini, memarlığını, elmini, fəlsəfəsini yaradanların hamısının zəhmətlərini, əqidə və inamlarını, bu yolda verdikləri qeyrət və mücadilələri əhatə edir.

İslam sivilizasiyasiyasının naliyyətlərini bilən İslamın müqəddəs kitabından çıxış edən, Quran doktrinini yaşadığı zamanla səsləşdiyini sübut üçün zamanında sanballı mücadilə vermiş modernist islahatçı Musa Carullah Bigiyev barəsindəki tədqiqatımızın bir hissəsi burada sona çatdı.

**Bu hissənin ərsəyə gəlməsinə görə birinci növbədə,** şöbəmizdə hökm sürən dini fəlsəfi, mədəni mühitə, saf niyyətlərinə, məsləhətlərinə görə isə bərabərlərim, hörmətli alim dostlarım Aydin-Əlizadəyə (Tatarıstandan tatar modernist ilahiyyatçılarına həsr olunmuş 3cilddə antalogiyaları Azərbaycana gətirdiyi üçün), Elsevər Səmədova, Radif Mustafaya, gənc və bacarıqlı tədqiqatçı Yasəmən Qaraqoyunluya minnətdarliq bildirirəm.

# “ADƏMİN BÜTÜN ÖVLADLARI BƏRABƏR HÜQUQLUDUR!” ŞÜARINI İRƏLİ SÜRƏN TEOLOQ MUSA BİGİYEVİN YARADICILIĞINDA QADININ ŞƏXSİYƏTİNƏ VƏ VƏZİFƏLƏRİNƏ MÜNASİBƏT

Tatar ilahiyyatçılarının antaloqiyasının Musa Carullah Bigiyevə aid olan cildinin tərtibatçısı yazır ki, tatar mütəfəkkirləri bu məsələyə (qadın probleminə) ilk diqqət yetirənlərin içərisindədirlər, azərbaycan türkləri kimi. (Azəpbaycan türklərinin qadın probleminə mənəvi sferada içdən yanaşması sonralar Şərqin ilk cumhuriyyət dövlətinin parlamentində qadınların kişilərlə bərabər seçki hüququna malik olması bunun təzahürüdür). Redaktor (ümumiyyətlə, redaksiya heyəti-Ş.M) həm də qeyd edir ki, bu məsələ Tatarıstanda da xeyli əvvəllərdən ədəbiyyatın mövzusuna çevrilmiş və XIX sonu XX əsrin əvvəllərində adı cəkilən məsələ ilə ədəbiyyatçılardan M.Həqiqət-Zadə, Z.Bigiyev, Z.Hadi, T.Əmirxan, Q.İbrahimova, M.Qafuri, Q.Tuqay, P.Fəxrəddinov, Q.İsaki, Z.Qədiri və başqaları məşğul olmuşlar.

Bu müəlliflərin əsərlərinin qəhrəmanları çox zaman müsəlman qadınları olmuşlar. Müsəlman qadınlarının bədii obrazı sonralar sosial və siyasi zəmində mətbuat səhifələrinə “ayaq açaraq” daha da ictimailəşmişdir. Beləliklə, tatar müəlliflərinin bu dövrdə siyasi hadisələr fonunda formalaşan cəmiyyətdə aktual olan digər

məsələlərlə yanaşı, müsəlman qadınının da sosial-siyasi müstəvidəki problemlərini gündəmə gətirmələri yeniləşən məfkurələr və zamanın tələbindən doğan təxirə salınmaz məsələlərdən biri idi. Odur ki, mütəfəkkirlərin diqqətini çəkən cəmiyyəti məşğul edən problemlərdən biri olan qadın azadlığı, bərabərliyi, onun məhz **topluma yararlılığı** məsələsi dövrün tələbi kimi cəmiyyətin siyasi cərəyanları tərəfindən müzakirələrə cəlb olundu.

Bununla bərabər, qeyd etməliyəm ki, yeni quruluşa qovuşub böyük bir məkanda yaşayan islahatçılar XIX əsrin sonu XX əsrin əvvəllərində **cəmiyyətin özəyi olan ailənin ağırlıq yükünü, eləcə də mənəvi tərbiyəsinin böyük bir hissəsini öz çiyinlərində daşıyan qadının hüquqlarına məişətinə, şəri borclarına aid olan problemlərə** toxunmasaydılar bu məsələlər dövlət strukturlarını və yetkililərini maraqlandıran son məsələlərdən olacaqdı.

Bu yolda ilk addımı atıb tutarlı sözü söyləyən, tatar (intligensiyasının) ziyalılarının toplaşdığı iclasda bu gün tarixə cədidçi kimi daxil olan humanist insan Musa Carullah Bigiyev oldu. Yaxın müsəlman ölkələrinin də bu məsələyə münasibətini araşdıran Bigiyev 1916-cı ildə “Qadınların Hüquqları” haqqında Kazanda tatarların qurultayında çıxış etdi. Onun məruzəsinin əsas hissələri bir səslə qəbul olundu. 1917-ci ildə isə bu məsələlərələ o, Moskvada Müsəlmanların Birinci Ümumi Konqrensində çıxış etdi. Bu çıxışında Bigiyev şəriətdə gedən islahatın daha çox prinsipial məsələsi elə qadın hüquqları haqqındakı məsəldir – deyə qeyd etmişdir. Ümumrusiya Müsəlmanlarının I Qurultayında da o, şəriət normaları çərçivəsində çoxarvadlılıq və erkən nikah məsələsini də (çoxarvadlılıq və 16 yaşdan olan nikah qadağan edilməsinə çağrış etmişdir) gündəmə gətirmişdir.

Miras; əmlakın bərabər bölgüsü və şahidlik (nikahda qadın və kişinin səslərinin bərabərliyi) də Musa Bigiyevin islahat müstəvisinə gətirdiyi məsələlərdən idi. 1917-ci il 22 iyulda Kazanda Ruhanilərin Qurultayında yeganə tatar ilahiyyatçısı kimi Musa Cərullah qadınların kişilərlə bərabər hüquqlu olmasını irəli sürdü və bu bərabərliyi müdafiə etdi. O, hesab edirdi ki, qadınların siyasi və mülki bərabərliyi məsələsini ictimai islahat müstəvisinə gətirmək tamamilə şəriətə uyğundur. O, öz nitqinə bu təsdiq ilə başlamışdır. "Adəmin bütün övladları, kişilər və qadınlar istisnasız olaraq hüquqda bərabərdirlər". Bu qurultayda Bigiyev ailələrin muxtariyət üzərində qurulmasına çağrış etdi və bu muxtariyyətin müsəlman dövlətlərinin yıxılmaması üçün ən yaxşı birlik olduğuna inandırmağa çalışdı və çağrışlar etdi. Doğrudur, bu radikal çıxış qurultay iştirakçılarının əksəriyyəti tərəfindən qəbul olunmadı[288]. Amma Musa Bigiyev bu mövzuları gündəmə gətirməklə qurultay iştirakçılarının və bu qurultayları təqib edən dünya müsəlmanlarının fikirlərini islamda əsrlər öncə qoyulmuş məsələlərin zəmanəsində yenidən işlənməli olması probleminə yönəldə bilmişdi.

1933-cü ildə Berlində çap olunan "Xatunlar" kitabında Bigiyev yazırdı ki, İslamın ilkin dövrlərində qadınlar azad idilər. O, hesab edirdi ki, monoqamiya (təkarvadlılıq) Quran normaları əsasındadır, poliqamiya (çoxarvadlılıq) isə yalnız zəruri hallarda qəbul olunandır. Kişinin qadın üzərindəki hakimliyi hökmə deyil, idarəçiliyə əsaslanmalıdır. Belə ki, kişi ailədə lider sayılır, amma bu liderlik hakimlik deyil, xadimlik olmalıdır.[289]

288 Айдар Хабутдинов. Лидеры нации. netref.ru/qabdunnasr-kursavi-luter.html?page=6 (26.04.18)

289 Айдар Хабутдинов. Лидеры нации. netref.ru/qabdunnasr-kursavi-luter.html?page=6

Bigiyevin konqresdə məruzə etdiyi mətnin materialları on məqalədən ibarət idi. Buraya “Uzun qünlərdə oruc” (1912), “Xalqın nəzərində bır neçə məsələ” (1912), “Təfəkkür etmək” (1914), “Şəriət əsaslari” (1917), “İslam millətlərinə” (1923) və bu qəbildən olan digər məqalələr Bigiyevin zəhmətləri içərisində o dövrdə xüsusi yer tutur ki, bunlar da müsəlman qadınının problemlərinə həsr olunmuşdur.

“Ailə məsələləri”, “Talaq (boşanma) kitabı”, “Miras qalmış mal haqqında traktat”, “Hüquq bölgüsü”, “İslamda qadın hüquqları”, “Xatunun (xanımın) hüquq və vəzifələrinə dair” adlı məqalələri[290] (bunlar müəllifin yazdığı məqalələrin hamısı deyildir) qadın hüquqlarına və vəzifələrinə aid olunan nəşrlər olub zəmanəsi üçün zəif və zərif cinsin nümayəndələrinin istinad mənbəyi idi.

Tədqiqat işimizi yaradıcılığı üzərinə apardığımız mütəffəkir, XX əsrin əvvəllərinin yeni İslam islahatçısı Musa bəy adı çəkilən məqalələrində xüsusi vurğulayırdı ki, insanların üzərinə mükəlləfiyyətlər qoyan dinlərin arasında İslam dininin ardıcılları bu dinin qadınlara verdiyi üstünlüklər və hüquqlarla öyünə bilərlər. Musa bəy həm də qeyd edirdi ki, İslam elm aləminin “bilik quyusunda “elə bir elmi əsər yoxdur ki, onun səhifələrində qadınlardan onların müxtəlif problemlərinə həsr olunmuş məsələlərdən danışılmamış olsun. Etiraf edək ki, bu aspekt özünü bədii ədəbiyyatda da İslama yönəlik əsərlərin qayəsində göstərmişdir.

Bigiyevə görə, elmə yönəlik İslam mənbələri hansılar ki, qadın məsələsinə toxunmuşlar həmin mənbələrin bəziləri müqəddəs kitabin

---

(26.04.18)

290 Муса Джаруллах Вигиев. Избранные труды в двух томах. Женшина в свете священных аятов Благародного Корана. Казань 2006, 256 стр.

yazdıqlarını təkrarlayan və sistemsiz xarakter daşıyan pərakəndə halda qadın hüquqlarına həsr olunaraq hissələr şəklində müxtəlif zəhmətlərdə vardır.[291]

**XIX** əsrin sonları XX əsrin əvvəlləri ana dilli mətbuatın da dirçəliş triumfu idi. Düşüncə insanları hər topluma doğma olan dillərdə müxtəlif ideyalara, amallara sədaqəti təbliğ etməklə yanaşı, qadınlarında can sıxan, kədərli, bəsit, yeknəsək və ağır həyatının **Quran idealına uyğun gəlmədiyini** aydın bir dillə işıqlandırmağa çalışırdılar. O, cümlədən tədqiqatımızın obyektinə çevrilmiş tatar mütəfəkkirləri Musa Carullah Bigiyev də, 1914-cü ildə “Qadın problemi İslam aləminin ən vacib problemidir” – yazırdı. Bu xüsusda onun “Müqəddəs Quran ayələrinin işığında qadınlar” əsəri qaranquşlardandır. İslam hüququnun və əxlaqının etibarlı mənbəyi olan Qurani-Şərifə müraciət edən müəllif əsərdə həm də özünün dini-fəlsəfi baxışlarını sərgiləyərək **qadına, anaya həm şəxsiyyət, həm də cəmiyyət üzvü kimi baxmışdır.**

Adıçəkilən əsərdə Bigiyev qadının sosial statusnu ilahiyyatın da əsaslandırdığı baxımdan açıb göstərməyə çalmışdır ki, onun qarışıq zəmanəsindəki orjinallığı və xidməti elə bundadır. Belə ki, o, dinin də buyurduğu tərəfdən sosial durumunu düzəltməyə çalışan qadının əsaslandırılmış bəyannaməsini yazmışdı. Qadının, ananın cəmiyyətdə rolu və statusu haqqında Bigiyev yazır: “Qadının cəmiyyət həyatında yerinə yetirəcəyi funksiya kişilərin üzərinə düşən funksiyadan müqayisə olunmaz dərəcə də üstündür”.

XX əsrin əvvəllərində qadının funksiyasına ictimailəşməni də “əlavə” etməyə çalışan Bigiyevin azərbaycanlı həmkar və

291 Yenə həmin mənbə səh.,30,31

həmfikirlərindən biri olan məhsuldar gənc yazar Cabbarlı da qeyd edirdi ki: “Silkinib çıxmasa qadın mətbəxdən nə azad ana var, nə azad vətən!”

Bu yerdə bir də onu əlavə etmək istərdik ki, qadının daha bir müqəddəs missiyası ondan ibarətdir ki, o, həm də bəşəriyyətə tərbiyəli fərd, hər tərəfli insan bəxş etməli olan anadır. Zərif cinsin funksiyaları içərisində bu tərəf yeganə olmadığı üçün xanımın cəmiyyətdəki funksiyası əks cins tərəfindən düzgün qiymətləndirilməli, onların (kişilərin-Ş.M.) elmi və İslamı əldə rəhbər tutması ilə öz həqiqi dəyərini almalıdır. Demək lazımdır ki, cəmiyyətin sosial tərəfinin tarazlığını yaradan qadının “tərəfmüqabil” kimi vəzifələri yetişən gənc nəslin tərbiyəçisi kimi də çox ağırdır. Bu mürəbbiyyənin ailədəki digər vəzifələri də ölçüyə gəlməzdir. Elə bir meyar kəşf edilməmişdir ki, qadın əməyinin dəqiq ölçüsü olsun. Bu ölçünü dəqiqləşdirməyə çalışan yeni islahatçılar bu ölçüyəgəlməz əmək sahibini bir də elmli və imanlı görmək istəmişlər. Məhz onlar bu tandemdən əmələ gələcək ana, xatun obrazını cəmiyyətin sütunu hesab edirdilər. Elə bu tərəfin (elmin və imanin tandemi-Ş.M) modernistlərin tərəfindən qabardılması bu işıqlı simaların əsərlərində dərin izlərini buraxmışdır.

Quran və Sünnəyə müraciət edən cədidçilərin bir amalı var idi, qadın əməyinin ağırlığını dərk edərəkdən onu cəmiyyətin əvəzolunmaz fərdi kimi ucaltmaq, onun əvəzolunmaz şəxsiyyətinin vacib momentlərinin gərəkliliyini insanlara çatdırmaq. Dediklərimizin isbatı kimi aşağıda Musa Carullah Bigiyevin qələminə məxsus əməklərin bəzilərindən nümunələr gətirərək fikirlərimizi izaha çalışacağıq.

## Bigiyevin araşdırma və yanaşması ilə “Dədə Qorqud Dastan”ınında sədaqətli qadın obrazı

Hamımız bildiyi kimi özündə tərbiyəvi və cəlbedici pritçalar (rəvayətlər) toplayan “Dədə-Qorqud” boyları türk oğuzların xalq deyimlərini və ənənələrini günümüzə qədər gətirib çıxaran etibarlı mənbədir.

Qədim türklərin qadına və anaya münasibətini açıqlayan boylardan biri olan “Qazan-xan boyu”nda sözügedən problemə münasibət çox təsiredicidir. Bu barədə tatar tədqiqatçısı yazır ki: “Nə bizə məlum məşhur qədim mənbələrdə, nə də müasir ədəbiyyatda öz qoca anasının xilası üçün bütün var-dövlətini, xanımını, qız və oğlanlarını qurban verməyə hazır olan Qazan kimi Bahadura rast gəlinmir”. (səh 158).

Əsərdə Qazan xan düşmənin namərdcəsinə hiyləsi nəticəsində yağmalanmış var-dövlətini və əsir düşən əzizlərini xilas etmək üçün ədalətini itirmiş şərəfsiz düşmənin “ayağına gedir”. Bu zaman onun qarı düşmənə söylədiyi sözləri incələyərək türk ellərinin qədim mədəniyyətindən, rəşadətindən, alicənablıq və ululuğundan bir samballı elmi iş yazmaq olarmış kimi gəlir insana. Fikir verin, boyun qəhrəmanı olan bahadur Qazan xan düşməninə nə söyləyir: “Böyük hökmüdar, əzəmətli padişah, sən məndən mənim qızıl saraylarımı almısan, qoy sənə kölgə salıb yerini sərin etsin, qızıllarımı, saysız-hesabsız pullarımı aparmısan mənim sənə hədiyyəm olsun, mənim

40 uca boylu qız və sevimli xanımımı aparmısan qoy əsarətində qalsınlar. Oğlum Aruzu, 40 igidi də aparmısan qoy onlarda sənin qulların olsunlar, yüyrək atlarımın ilxısını aparmısan hamısı sənin olsun, qırmızı dəvələrimin sürüsünü aparmısan yüklərini daşısınlar, amma sən… Qoca anamı da aparmısan kafir! Mənə anamı qaytar and olsun hüzurundan vuruş və cəngsiz gedərəm! (zamanın cəngavərlik və mərdlik kredosuna baxın ki, xain düşmənin də cəng meydanından döyüşsüz çəkilmək böyük təhqir sayılırmış-Ş.M)

Boyun sonuna doğru səlis və canlı dillə Qazan xanın qarı düşmənə qarşı vuruşu onun qalib gəlməsi, anasını əsirlikdən və təhqirdən xilas etməsi verilmişdir. Müəllif yazır ki, araşdırdığım və mənə məlum olan dastanların içərisində buna bənzər bir misal görməyib ki, orada qoca anaya bu dərəcədə də inam və sevgi ilə, ülvü hisslərlə məhəbbət və hörmət olsun. Burada Musa Bigiyev tək tanrıya inanan oğuz türkünün yeri göyü idarə edən tanrının ehkamlarına insanların inanc və iman fəlsəfəsini də gözlər önünə sərgiləmişdir.

Dastanın cəlbedici aspekti olan valideyn sevgisinə marağı, namus və ləyaqəti üstün tutan tərəflərindən birini də oxuculara və tədqiqatçılara biz çatdırmaq istərdik. Belə ki, humanist və ləyaqətli xüsusiyyətə malik olan Qazan xan oğlu Aruz nəhayət atasının təkidi və xan igidlərinin təklifi və müşayəti ilə ova çıxır və yaşadıqları ərazinin çox-çox kənarına getməli olur…

Yaxşıca yeyib içən və gözəl havadan xumarlanan oğuz igidi Qazan xan yuxulamaq üçün əziz oğlunun dizini özünə yastıq edir (bu həm də özünü təhlükəsiz hiss etmək üçün idi…) Tezliklə boşluqdan bezən romantik ruhlu, təbiət vurğunu olan oğul ətrafa seyrə çıxır. Beləliklə, təklənmiş yuxulu ata və fikri təbiət gözəlliklərinə yönələn

oğul əsir düşürlər. Fürsətcil düşmən bu nəcib xan nəslinin bütün səltənətini yağmalayaraq qız-gəlinə belə, istisnalıq qoymadan öz torpaqlarına daşıyır…

Şərəfsiz düşmən bir an belə, itirmədən xanın əyalı Burla xatunu tapmaq və onun ləyaqətinə təcavüz etmək istəyir. Bunu duyan 40 qızın (xatunun kənizləri-Ş.M) hamısı özünü Burla xatun kimi qələmə verirlər. Belə olduqda kafir Şöklü Məlik xan oğlu Aruza söyləyir ki, onun ağ ətindən qara qovurma bişirib qızlara yedirəcək kim yeməsə Burla xatun odur demək və onunla istədiyini edəcək! Oğlunun ölmünə isə ananın özü bais olacaq, çünki bunu onun özü istədi... Bu sadist istəkdən artıq xəbərdar olan Aruzun qızlarla görüş səhnəsi çox təsirləndiricidir. Bu hissə əzəmətli dastanın, yenə də onu təfəkkür gözü ilə oxuyanları heyrətləndirəcək bir hissəsidir. Gözümüzün önündə qan tökmək, baş kəsmək istəməyən, məşğuliyyəti gözəl çiçəkləri toplamaq, daxili humanistlik abidəsi olan Aruz surətini tamamilə başqa ampluada görürük. Bu qız həyalı, zərif xarakterli gənc atasının və anasının namusunu qorumaq üçün elə cəngəvərə çevrilir ki, bu səhnəni ancaq hənif İbrahimin (Allah ona və ardicillarina rəhmət eləyə amin!) balasını qurban etməyə hazırlaşdığı səhnədəki tərəddüdü və körpə İsmayılın "atacan qorxma məqsədinə çat, inşallah məni asilər içərisində görməyəcəksən! "[292] deməsi ilə müqayisə etmək olar. Həmən möhtəşəmliyi yaşayan Aruz "anacan, mənim ətimdən bişirilən qovurmanı qızlar bir yesə sən iki ye! deyir. Təki sən sağ ol anam, xan atam sağ olsun! Siz sağ olduqca mənim kimi oğullar tapılar! söyləyir…

Paralelə cəlb etdiyimiz örnək oğullar və nümunə atalar bizə

292 **Hacı Abdüssəlam Axundzadə.** Peyğəmbərlər tarixi.

həm də Konfutsinin “yaxşı oğul, yaxşı ata, yaxşı başçı” fəlsəfəsini xatırlatmamış olmadı. Həm də burada insanın hələ doğuluşdan Tanrısiına, Yaradanına bəndəlik etmək üçün Yaradanın qoyduğu və buyurduğu yola tabelik üçün yaşaması etikasını izləyirik.

Qurban kəsmə yer üzərində müxtəlif zamanlarda, müxtəlif məkanlarda icra olunmuşdur (söhbət insanların qurban kəsilməsindən gedir-Ş.M). Bu qədim dövrlərin qəbilə qurluşunda yaşayan tayfaların inancından doğan adətlərdən də irəli gəlirdi. İbrahimə, öz elçisinə, onun səmimi qəlbdən Rəbbinə etdiyi görünməmiş hədiyyəsinə Rəhman sifətiylə yanaşan Rəhim Allah da həmin an bəşərin xilaı insanlığın nicatı üçün seçilmiş bəndəsinə görünməmiş ərmağan etmişdir. Heyvanı qurban nişan verməklə insan adlı məxluqu bir daha şərəfləndirmiş və toxunulmaz etmişdir… Özlüyündə “İsmayıl Qurbanı” hadisəsi kimi tanınan bu dini rəvayətin qayəsində idealist düşüncə tərzinin nümunələrindən biri durur. Bu nümunə insanın Allaha inamının ən yüksək, və ən ülvi forması və Allahin yaratdiglarina mərhəmətini “inayət dili” ilə açıqlayan ən təsirli ifadəsi idi… Mənə Rəbbimin verdiyi bu imkanı dəyərləndirib əlavə etmək istəyirəm ki, “İsmayil qyrbanı” hadisəsinə münasibət bildirmək imkanı əldə etdiyimə görə XIX əsrin sonu XX əsrin əvvəllərində yaşamış İslam islahatçılarına o cümlədən möhtəşəm Musa Carullah Bigiyevin xatirəsinə də minnət borcum var…

**Beləliklə,** Qazan xan boyundakı Aruz surəti ilə bir daha oğuz türklərinin övladlarının anaya, müqəddəs varlığa olan bənzərsiz sədaqətinin və hörmətinin şahidi oluruq. Allahını sevən, Onun hər şeyin yaradıcısı olduğunu bilən, verdiyindən artığına malik olmanın mümkünsüzlüyüni, aldığını yalnız Özünün qaytara biləcəyini dərk

edən, dünyaya tək-tək gələn nəbilərdən biri olan İbrahimin və Peyğəmbər oğlu İsmayılın Allahı dərkdən etdiklərinin mənası məncə bütün imanlılara tam aydındır. Ailə adətlərinə, əxlaq normalarına bu cür bağlı olan oğulların ananı ilah səviyyəsində görərək onun şərəfini bu qədər üstün tutanları isə, müəllifin də qeyd etdiyi kimi vəsfə gəlməz incəlikdir, kamillikdir ki, xoşbəxtlikdən türk etnosuna məxsusdur.

Bu zəngin dastanın türk xanımının sədaqət, rəşadət və gözütoxluğundan bəhs edən digər bir boyu "Dəli Domrul boyu"dur ki, Musa Bigiyev[293]bu boyun fəlsəfəsindən də heyranlıqla bəhs edərək bizi türk soyunun "əxlaq kodeksləri"nin incəliyinə bir daha varmağa məcbur edir. "Dəli domrul boyu" "Dədə Qorqud dastanı"nın bəlkədə ən örnəkverici parçasıdır. Belə ki, ləyaqətli gənc bir dostunu xilas etmək istəyən Domrul Ölüm Mələyi (Əzrail-Ş.M) ilə vuruşa girir, təbii ki, uduzur və dostunun həyatına əvəz olaraq canını verməyə hazır olduğunu söyləyir. Əzrailin onun canını alacağı vaxt isə o bu "sövdələşmə" barəsində əziz atasına, anasına, dostlarına bəhs edərək onun əvəzinə can vermələrini xahiş etsə də, heç kim əziz canını ünlü igidə vermək istəmədi. Vəziyyəti belə görən Domrul Əzraildən icazə alıb naçar surətdə evinə, əyalı ilə vidalaşmağa gəlir. İsti ocağında xanımına başına gələnləri danışan igid, Əzrailin göydən enib onun sinəsinə qonduğunu və canını almaq istədiyini anladır. Dostunun əvəzinə ölümə getdiyini, comərd hərəkətinin səbəbini xatununa danışan Bahadur can yoldaşından bu əməli üçün sanki üzrxahlıq edir və deyir ki: "mənim aulumun gördüyün bu göy dağları səni qoruyan

293 Антология татарской богословской мысли. Муса Джаруллах Вигиев. Избранные труды в двух томах. (Обрашение к Великому Турецкому Нацианальному Собранию. Воззвание к мусульманским нациям. Казань 2006, стр 159.

sədd olsun, buz bulaqlarının sərin suyundan iç şərbətin olsun, bədöv atlarımın ilxısı səni gəzdirsinlər, güclü dəvələrimin sürüsü yüklərini daşısınlar. Aulumun igidləri isə nökərin olsunlar. Amma əgər o igidlərdən birini "gözün tutarsa" ona mütləq ərə get. Mənim iki övladımı ata qayğısından məhrum etmə! ...

Ərini diqqətlə dinləyərək söz alan Domrulun xanımı görək nə deyir: "Sən nə danışırsan? Ey mənim gözümün fərəhi, bütün qəlbimlə sevdiyim, canım, bir dənəm… əzəmətli ərim mənim. Sənsiz o dağları neyləyirəm? Səndən sonra onlar gərəyim olsalar, mənə qəbir olsunlar, dediyin buz bulaqların sərin suyundan içsəm qana dönsün, əgər qazandığın pullarını sənsiz xərcləsəm kəfən alım! Əgər oynaq atlarında çapar olsam, sırtları yuvat yerim olsun. Səndən sonara kimisə sevərəmsə və yatağımızı onunla paylaşaramsa, o gürzəyə dönüb məni çalsın… Ah nə deyim sənin qorxaq valideynlərinə! Ah, Ah! Bir can nədir ki, sənə verməkdən çəkinmişlər? Tanrı dərgahına and olsun ki, nəinki bir canım min canım olsa belə, sənə verməyə hazıram. Tanrım şahidimdir! Beləcə cəsur qadın əziz canını həyat yoldaşının əvəzinə verməyə hazır olduğunu izhar edir. Əzrayıl Domrulun halalina yaxınlaşıb onun canını almaq istərkən igidin mütəəssir qəlbi buna tablamadı. Tanrısına üz tutan riqqətlənmiş igid:

Ey hər şeydən və hamidan uca olan!
Sənin möhtəşəmliyinin sərhəddi belə, məlum deyil.
**Ey Rəhimli Tanrı**!
Bütün canlılar Səni gah yerdə, gah göydə axtarırlar.
Amma Sən həqiqi inananların qəlbindəsən,
**Ey əbədi Tanrı!**
Uzun yollarda Sənin şəninə dərgahlar tikdirərəm

Sənin adına aclar doyurar
Sənə görə çıplaqlar eyindirrəm.
Əgər alacaqsansa, hər ikimizin canını al!
Yox əgər sağ saxlayacaqsansa, hər ikimizi cəlamət burax
**Ey comərd və geniş q**əlbli Tanrı!

Tanrıya Domrulun duası xoş gəldi. O, ərz etdi ki, bu cütlüyə 100 il sürəsində bir ömür verir və onları sağ buraxır…

Tatar ilahiyyatçılarının ontoloqiyasının Musa Bigiyevə həsr olunmuş cildinin 160-cı səhifəsində bu parlaq misala aid olan hissə öz əzəmətli izini buraxaraq bitir. Amma müəllifin bu misalı tutuşduraraq çəkdiyi misallar bitmir. Musa Cəullah Bigiyev, bu İslam fədaisi, türk adının, amalının aşiqi, türk pritçalarının (ibrətamiz rəvayətlərinin-Ş.M) yetişməkdə olan nəslə necə təsir edəcəyi əndişəsi ilə qələminin təsir gücündən alınan yazılarla xəbərdarlıqlar edir. Bigiyevin "Qadınlar müqəddəs Quran ayələrinin işığında" əsəri dini-fəlsəfi əməklər cərgəsinə modernist fikirlərlə daxil olub. Yeni bir "səadət məktəbi"nin üzvü olan Bigiyev yazır ki, yunanların qədim dastanı "İliada" da qəhrəman Hektor haqqinda hekayə iki sevənin ayrılması ilə kulminasiya nöqtəsinə çatır. Hekayədə ata-anası, eləcə də yeddi igid qardaşlarından daha çox sevgilisini sevən qadından söhbət açılır. Bununla bərabər, poemada ərini çox sevən qadının onun yolunda canından keçə biləcəyi epizoduna rast gəlinmir. Ayrıca qədim yunan miflərində sevgililəri üçün canından keçən qızlar haqqında da bir epizod yoxdur.

Müəllif yazır ki, bizim türk dastanı olan "Dədə Qorqud"da xatun öz Bahadur əri üçün nəinki bir canını hətta min canı olsa belə, verməyə hazır olduğunu söyləyir. Bu isə məhəbbət məktəbində bəyənilən, təqdirəlayiq yenilik olub xoşbəxtlikdən türklərə məxsusdur.

Öz türk soyuna, öz adət və ənənələrinə qəlbdən bağlı olan və bunu kor-koranə deyil, başa düşərək yaşayan Musa Carullah Bigiyev (Allah ona rəhmət eylə amin!) iftixarla deyir ki, türklərin möhtəşəm övlad sevgisinə, türk qadınının ərinə olan, ərin qadınına olan həm çılğın (sərhədlər tanımayan) həm də filosofanə sevgisi hər bir türkdə fərəh doğurmalı, soyunu öydürməlidir.

Böyük Platonun dəyərli əsərlərində öz canını əri üçün verən Alkastis haqqinda da əfsanə, dostu Patrokla canını verən igid Axill, öz uşaqlarının yüksəlişi üçün canını verən Kodrus əhvalatı var. Bigiyev yazır ki: "Bu "jestlərin" hamısı yüksək sevgidən nəşət tapmışdır. Amma sırf hörmətdən və ehtiramdan anaya, ərə və arvadına ən əziz varlığını (canını) bağışlamaq yalnız türk yaşam tərzinin və həyat fəlsəfəsinin məhsuludur"[294].

Bu yerdə daha bir tarixi nüansı xatırlamaq olar. Belə ki, Hindistanda əri ölüb dul qalmış qadın ölən ərinin "dəfn tonqalında" yandırılırdı. Amma burada insanlığa xoş gəlib, məhəbbət və hörmətə "baş ucalığı" gətirəcək heç bir tədqirəlayiq tərəf yoxdur. Əksinə, bu akt qadını insan deyildə ölənə lazımlı əşya hesab edən, hind arxaiq adətlərindən irəli gələn bir faciə idi. Bu ərə sonsuz hörmətdən deyil, nə yazıq ki, aci törələrin tələbindən irəli gələrək tarixin acı yaddaşına daxil olub, xatırlanması belə, dəhşət doğuran adətdir…

"Qadınlar" əsərinin müəllifi sonra Quranda da bir çox misalların (qadının əziz canını başqalarına verməsi haqqında) olduğunu söyləyir. Bu misalları da mənmuniyyətlə açardım, lakin bu işimi gələcəkdə davam etdirəcəyəm deyir. Mənə isə elə gəlir ki, "qırmızı terrorun"

---

294 Антология татарской богословской мысли. Муса Джаруллах Вигиев. Избранные труды в двух томах. (Обрашение к Великому Турецкому Нацианальному Собранию. Воззвание к мусульманским нациям. Казань 2006, стр 159.

tüğyan etdiyi, xalqların müqəddəratının “Allahsızlıq” damğası altında həll olunduğu bir vaxtda Bigiyevin qədim türk etnoslarının əxlaqından bəhs edərək, onu bütün millətlərə misal göstərməsinin özü belə, zamanın acı həqiqət “torpağı” içərisindən cücərən ağ, islahat qərənfilləri idi. O, bu misalların bol olduğu “Dədə Qorqud dastanı”nı türk əsilli müsəlman xalqları hansılar ki, Rusiyanın dörd bir yanında yaşayırdılar, onların stolüstü kitabına çevrilməsini tövsiyə edirdi. Onun bu çağrışı keçmişini yaxşı bilən, tək Tanrılığa inanan zəngin ənənələri olan türk soylarının yetirməsinin çağrışıdır. Həm də bu çağrış əqidəsi iradəsi zəkasi ilə tək Allahlılığı qəbul edənlərə verdiyi mənəvi zənginliyi qlobal irəliləməni görən müsəlman ümmətinin nümayəndəsinin çağrışıdır. Bu çağrışın müəllifinin, ümumiyyətlə, qadınlara, analığa, ülvi sevgiyə yüksək münasibətindəndir ki, o bu əsərini sonsuz sevgi ilə araşdırdığı nümunələrlə zənginləşdirmişdir.

## Bigiyevin qələmi ilə
## “Qadınlar hədis toplusunda”

Antalogiyanın 183-cü səhifəsində tərtibçi Xeyrəddinov əsri-səadət dönəminin, eləcə də cahiliyyənin belə, qadınları haqqında Bigiyevin fikirlərini sərgiləyir. Qurana dayanaraq bəşərin zərif məxluqları haqqında fikir söyləyən bu islahatçının Qurandan götürdüyü ayələrin vasitəsi ilə açmağa çalışdığı qadın obrazına nəsihət və məhəbbət sonsuzdur. “Qadınlar” əsərində o yazır: Bir dəfə möminlər anası möhtərəm xanım Aişə (Allah ondan razı və o da Ondan razı olsun) daima özünün təmiz, gözəl, ilahi nitqi ilə “Um Zərrin sədaqəti” haqqında uzun tarixi olan bir hadisəni söyləmişdir. Ərəb qadınının mənəvi dünyasını əks etdirən bu məsəl sonralar Allah elçisinin söylədiklərinə (sünnəyə-Ş.M) daxil olan ən ibrətamiz hədislər olub məşhur hədis toplayanlar İmam Buxarinin **(1344-1392)** və imam Müslimin **(815-875)** (də topladığı hədislərə daxil edilmiş “Adab” kitabında da öz əksini tapmışdır. Bu hədisə çevrilmiş rəvayətdə cahiliyyə dövrü xanımı zəmanəsinin nümunə qadınına necə çevrilirsə, bu barədə danışılır. Bigiev əlavə edir ki, müsəlman qız və qadınları mömünlər anası Aişəni özlərinə sədaqətdə, ağılda və dəyanətdə nümunə seçməlidirlər.

Adıçəkilən o məsəl belə, olmuşdur demiş anamız Ayişə. Cahiliyyə dövründə Yəmən qəbiləsi Hasamın on bir xanımı məclisə toplaşırlar. Qadınlar sözləşirlər ki, ailə həyatlarına aid olan söhbətləri heç bir sirr saxlamadan söyləsinlər və bunu təbii ki, “yazılmamış

müqaviləyə” əsasən həyata keçirirlər. Məlum olur ki, bu ailələr içərisində ən ləyaqətli və əxlaqlı ailə Umm Zərin söylədiyinə görə, Əbu Zərin ailəsidir. Umm Zərin əri Abu Zərr isə xanımın inandırıcı söhbətinə görə, ən gözəl və nəcib insandır – deyə söhbətini bitirərkən mömünlər anası, Allahın elçisi demişdir. “Kuntu ləki kə-Abaii Zər*li Ümmi Zər”, yəni, “Abu Zər öz xanımı Ümm Zər üçün necə idisə, mən də sənin üçün eləyəm ay mənim Ayişəm!” ”Təhrim” surəsində isə Həzrəti Peyğəmbərimizin (s.ə.s) və onun iki arvadının yüksək əxlaqından bəhs olunur. Obrazlı ifadə etsək – elə bil ki, tərəzinin bir gözünə Peyğəmbərin iki xanımına olan böyük hörmət, digər gözünə isə Allahın bütün gücü qoyulmuşdur. Onun büyüklüyü, Cəbrayılın və bütün mələklərin və möminlərin gücü artıq olsun.

Beləliklə, tərəzinin bir gözünə iki qadına olan hörmət digər gözünə isə yeri, göyü, bütün mövcudatı yaradan Allahın gücü qoyulur. (Ayişəyə, Hifsəyə, daha sonra Peyğəmbərin bütün zövcələrinə) İkinizdə Allah qarşısında tövbə edin, günaha batmış ürəkləriniz. Peyğəmbərin əleyhinə çıxsanız, bilin, Allahdır onun dostu, Cəbraildir, yaxşılardan olan möminlərdir, mələklərdir ona yardım edənlər (**Qurani-Kərim 66/4**).

Ərinə sədaqət göstərməli olan qadının ailədəki rolunu göstərən bu ayələrdən başqa Bigiyev Quranda qadının analıq, xanımlıq, mürəbbiyəlik rolları haqqında da bir çox ayələr olduğunu söyləyir. Bu ayələr Həzrəti Musanın anasına müqəddəs Məryəmə (Həzrəti İsanin anasına), eləcə də uşağını əmizdirən, tərbiyə edən, analara həsr olunuşdur. Diqqət çəkən tərəf budur ki, analığa, qadınlığa, məsum, incə və qüvvətli varlıqlara hörmət və ehtiramla yola çıxan tədqiqatçı, müqəddəs Quranın bəşəriyyətin gələcəyi olan körpələri yetişdirmək

üçün onları tərbiyə edən varlıqlara həsr edilmiş çoxlu ayələrdən bəhs etdiyi halda qeyd edir ki, bu müqəddəs kitabda uşağına baxan və ya baxmalı olan atadan bəhs olunmur. Halbuki ananın, qadının məlum halları və xidmətləri barasində üç məxsusi ayə var.

Ailə həyatının özünə məxsus nüanslarından danışan Peyğəmbər Məhəmməd (s.ə.s) ilk baxışdan anaya məxsus bu halları (analıq, xanımlıq, mürəbbiyəlik) qabartmış önəmləndirmişdir.

Musa Bigiyev həmən arxasınca qeyd edir ki, yerin, göyün taxtının sahibi Allah müqəddəs kitabda vurğulayır: "Həqiqətən də Allah ərinə dua edən qadının duasını və ondan şikayət edən qadının bəd duasını tez eşidər. Allah eşidən və görəndir". (Qurani-Kərim 58/1)

Beləcə Quran, bu səmavi yazı endiyi ümmətin heç bir görkəmli adamının həyatından, inancından və əməllərindən qadınların, mükəlləfiyyət və vəzifələrindən, sədaqət və comərdliklərindən bəhs etdiyi qədər bəhs etməmişdir (demək olar ki, bəhs etməmişdir-Ş.M). Belə ki, Müqəddəs yazı qadının rifahı və yüksəlişi üçün çəkdiyi zəhmətin önəmliliyinə diqqəti çəkən mənbə və istinadgahdır.

Müqəddəs Quranda belə bir ayə də var ki, yazır Bigiyev-diqqətimizi öz tutumu ilə mahiyyəti ilə fərqli bir ayəyə çəkir. "…Yəumun yəffirru lmar*u min əhihi və ümmihi, va abuhi, va saahibətihi və binihi" ("O gün ki, kişilər öz qardaşlarından, analarından, dost və tanışlarından (ən əzizlərindən-Ş.M) qaçacaqlar") görünməmiş bu dönüklüyü bütün əzizlərindən üz döndərib ağır gündə yalnız öz halına qalmanı ancaq kişinin əxlaqının təzahürü kimi verən Quran ancaq qadına belə, diqqətlə məxsus olan sədaqətdən, dözümlülükdən danışır. Başqa sözlə, qadınlar öz sədaqəti dözümü və səbri ilə kişiləri mat qoyurlar.

Qadına hörmətdən doğan bir axtarışla yola çıxan Musa Carullah Bigiyev daha sonra “axtaranların” diqqətini Yevangeliyada qadın məsələsinə cəlb edərək yazır ki, İncilin **(Yevangeliya)** Matfeyə aid olan başlığında **(25-ci başlıq)** aydın və səlist dillə belə rəvayət olunur ki, “Bir vaxt gələcək yer üzərindəki xalqlar 10 qıza bənzəyəcəklər. Onlardan beşi ağıllı, dərrakəli, beşi isə dərrakəsiz olacaqdır. Özlərinə çıraq hazırlayan beş ağılsız qız bu çıraq üçün yağ hazırlamağı unudacaqlar. Müdrik olan qızlar isə çıraqların yağını unutmayacaqlar. Beləliklə, gözlənilən vaxt gecə yarısı gəlib çatanda və hər tərəfə çağrış səsi yayılanda bütün qızlar oyanacaq bəxtsiz, dərrakəsiz qızların əlində nə yazıq ki, çıraq olsa da işıq olmayacaq. Beləliklə, bu qızların heç birinə şənlikdə (burada şöləndə-Ş.M) şənlənmək müəssər olmayacaq. (“Qadınlar” əsərinin möhtərəm müəllifi tədqiqatında bu rəvayəti bir az qısa şərh edir. İncildə rəvayət bir az başqa cür səslənir-Ş.M)

Bu ayəyə diqqətimizi cəlb edən Bigiyev şərhini belə verir: “İncil təfsirçiləri necə izahatlar verirlərsə, versinlər mənim görmək istədiyim qadın varlığının gərəkliliyidir.” Bu rəvayətdə adı çəkilən varlıqlar (qızlar-Ş.M) yer övladı olub olmamasından asılı olmayaraq rəvayət qızlara, onların dərrakə və ağlına bağlı olaraq yaranmışdır. O, yazır ki, bu rəvayətdən umulmayacaq dərəcədə faydalanmaq olar. “Bunu qadın, dərrakəliliyinə sonsuz sevgi bəsləyən zərif və fədakar varlığı özündən dərin dəyərləndirən türk oğlu yazır”. Müəllif həmdə yazır ki, rəvayətdə qadın müdrikdir, müdrik deyil – bu məsələnin ikinci tərəfidir. Əsas isə odur ki, onlar həqiqəti birinci axtarırlar və ona qovuşmağa can atırlar. Əgər onun əlində çıraq varsa, deməli, məhz o həqiqət törənində kişilərdən öncə bayram etməyə layiqdir...

XX əsrin əvvəllərində Sovet Sosialist Respublikaları İttifaqı

adı altında xalqları birləşdirən total sistem böyük bir imperiya, xalqlarını simasızlaşdırmaq, onları “sosializm maşınında üyütmək”lə niyyətlərinə nail olmaq istəyirdi.

**Gen mühəndisliyindən** söz salmağı belə, qadağan edən sovetlət dönəmi, öz çatışmamazlıqlarını ört-basdır etmək üçün bu elmi öyrənmirdi. Belə bir dövrdə diqqətləri millətinin, kökünün soylu dərinliyinə yönəldən Musa Cərullah Bigiyev müxtəlif kökənli türklərin dərinlərə gedən köklərini gözlər önünə sərgiləməklə yetişməkdə olan gənclərin diqqətini ona daha böyük və qalıcı zənginlik bəxş edəcək keçmişinə yönəldirdi. Bu dövrdə Bigiyev, o dövrün ilahiyyatçısı gənc qızların, xanımların diqqətini də türklərin, İslama qədəm qoyan türk millətlərinin, İslamla əxlaqlanan insanların əqidəsinə yönəldirdi. Bu zaman o müqəddəs Yazıdan və Hədislərdən bəhrələnərək, nəzərləri əsri-səadət dövrünün müxtəlif qəbilələrindən olan xanımların həyat tərzinə yönəldirdi. O, həm fəxarət, həm də təvazö ilə qeyd edir ki, bu mənbələrdən gətirdiyi misallarla, həm əsərini bəzəyib rövnəqləndirmiş, həm də bəşəriyyətdə mövcud olan ən etibarlı varlıqlar kimi qadınların sosial həyatını və əxlaqının incəliklərini işıqlandırmaq üçün istifadə etmişdir.

Bu mənada müəllif yazır ki, hər bir müsəlman xanımına unudulmaz Peyğəmbərimizin dövründə yaşayan Qureyşi tayfasının xanımları misal ola bilər. Çünki onlar ərəb qadınlarının ən yaxşılarıdırlar. Yaxşılıqları isə ondadır ki, onlar uşaqlarını əla tərbiyə edir və ailə büdcəsini ağılla yönləndirməyi bacarırdılar. Qureyşi qadınları uşaqlarını öz köhnə təcrübələrinə əsaslanaraq özləri tərbiyə edirdilər. **Onlar heç bir tərbiyyəçiyə heç bir mürəbbiyəyə etimad etmədən həm övladlarını, həm də ailə büdcələrini idarə edirlər.**

**Bu cür idarəçilik isə dövlətin əsasında dayanaraq yaxşı idarə edilən ailələri olan möhkəm cəmiyyətin əsasını yaradir.**

Beləliklə, Peyğəmbər (s.ə.s) məsləhətlərinə diqqəti cəlb edən tədqiqatçı ərini sevindirən, təsərrüfatını idarə edən qadın sosiumun gərəkli bir fərdidir qənaətindədir. Dövlətin əsası da belə, ev və ailə idarə edən fədəkar qadınlara söykənir...

Bu tədqiqat işini XIX əsrin sonu XX əsrin əvvələrində yaşamış İslamın qayda qanunlarını dirçəltməyə cəhd edən yeni islam islahatçılarının əsərlərindən seçmələrlə həddindən artıq uzatmaq olar. Belə ki, onların (müxtəlif ölkələrdən və müxtəlif türk soylarından olan bu söz sahiblərinin) zəhmətləri çoxdur. Bu gün XXI əsrin əvvəllərində isə bu zəhmətlər öz gərəkliliyi və lazımlılığı ilə daha çox diqqəti cəlb edir. Bu zəhmətimizlə biz tatar ilahiyyatçısı M.C.Bigiyevin “Quran işığında qadınlar əsərindən qadın dünyasına, onun şəxsiyyətinə, əxlaqına, sosial durumuna, aid olan seçmələri incələdik. Bu zəhmətimizlə biz həm özümüz üçün, həm də gələcəkdə və indi bu sahəni tədqiq etməyə səy göstərəcək tədqiqatçılar üçün azərbaycan dilli bir cığır açdıq. Bigiyevin qələmindən çıxan “Müqəddəs Quran işığında qadınlar” əsərini oxuyarkən biz belə düşündük ki, dünyaya övladlar bəxış edən tərbiyəçi, hami, zəhmətkeş, ailə ocağına sədaqətli olan analar haqqında əsər yazan Bigiyev qadın varlığına sonsuz ehtiramla yanaşmışdır.

Bu müdrik fikirləri toplayan, onları işıqlı təfəkkürünün süzgəcindən keçirən mütəfəkkirin fikir dünyası ilə tanışlıq məndə elmi yöntəmdən maariflənmədən başqa belə bir sualda doğurdu. Görəsən, bu zəhmətkeş, təvazökar adam var olan həyatında bircə dəfə də olsa ətrafında pis xarakterli, hər şeyi alt-üst etməyə hazır

olan qadın görməyibmi? Belə bir qadınla onun rastlaşa bilməməsi mümkünsüzdür. Amma bir fikirdə israr edəcəm ki, bu taleli insanı yəqin ki, onların ən müdriki tərbiyə edib. Həmin o saf ürəkli qadın həyata məhz saf ürəkli, mütavazi dünyagörüşlü bir mütəfəkkir bəxş etməklə, öz qadınlığının zirvəsinə qalxmışdır. Belə ki, hər ağıllı, müdrik kişinin araxasında müdrik və dərrakəli qadının dayanması artıq bəşərin zərbi məsəlidir...

## Müəllifdən nəticə əvəzi

*Möhtərəm oxucu! Əlinizə aldığınız bu tədqiqat işini türk dünyasının düşüncə insanlarına sevgi və vətəndaş yanğısı ilə araşdırılmış bir əmək tövhəsi kimi qəbul etmənizi xahiş edirəm.*

XIX əsrin sonu və XX əsrin əvvəllərində sovet Rusiyasının hüdudları içərisində yaşamış Musa Bigiyev və müasirləri olan fikir bahadırları tatar xalqının, ümumilikdə türk dünyasının fəxri olan insanlardırlar. Bu gün Mətanət Şəkixanova, sabah bir başqa Mətanət daha o biri gün, o biri il və o biri əsr başqa tədqiqatçılar onlardan yazacaq, onların dəyər kəsb edən fikir dünyalarına müraciətlər edəcəklər. Bu baxımdan onlara, onları yaşadacaq illərə və əsrlərə çox qibtələr ediləcək. Mənim isə əli qələm tutan və Allahın ona verdiyi "təfəkkür aynasından" boylanmağı bacaran bir xanımın yaza biləcəyi bir başqa tərəf var ki, hörmətli oxucu, mən bunu qeyd etməli və sizin nəzər-diqqətlərinizə çatdırmalıyam. Belə ki, gələcək nəsillər, tatar ilahiyyatçıları, üsuli-cədidçilər və onların ideya dostları olan İslam modernistləri haqqında başqa mənbələrdən oxuya biləcəklər və oxuyacaqlar da. Çünki gəlişmiş zəkalar keçmişin elmi-mədəni irsindən bəhrələnmədən yetişmir, bu sübuta ehtiyac duymayan aksioma kimidir...

Beləliklə, mən gələcək oxucuma bu gün azad bir ölkənin vətəndaşının, azadlığı bir əsrdə canı, qeyrəti, zəkaları hesabına iki dəfə qazanmış (1918-1920; 1991) ölkənin vətəndaşının, həmin ölkənin elm məbədi olan Azərbaycan Milli Elmlər Akademiyasının aparıcı ideya institutu olan Fəlsəfə İnstitutun "Dinşünaslıq və mədəniyyətin fəlsəfi

problemləri şöbəsi"nin əməkdaşı kimi səslənməmdir. Qoy çağdaş zəmanəmin də, gələcəyin də oxucusu bilsin ki, elm insanının siması demək olar ki, dəyişməz olaraq qalır. Təbəddüladlar, çatışmamazlıqlar hər bir insana təsir edir, onun özəl və sosial həyatını zərbələr altına alır. Dünyanın düçar olduğu bəlalar xalqların əzab və əziyyətinə çevrilir. Mən bu sətirləri yazarkən dünya artıq iki güc dövlətinin (Amerika və Rusiyanın) tərəfində toplaşaraq qütbləşməyib. Xalqların tarixdən tanıdığı türk və moğol imperiyaları da bəzi xalqlar üçün qürur verici, bəzi xalqlar üçün isə acı gətirici xatirələrlə dolu dərin tarix qatlarına çevrilmişdir. Dünya düzənini "ütüləməyə çalışan" mayalılar, misirlilər, babillər, şumerlər, asteklər, etrusklar da lap uzaqlardan sirli baxışlarla baş yelləyirlər. Miras qoyduqlarına axıra qədər sahib çıxmamızı gözləyirlər...

Ömür qısa, elmlər çox, Allahın lütfü böyük, Onun insana verdiyi təfəkkürünün imkanları genişdir. Düşünən insanı yer üzündə xoşbəxt edəcək çox az şey var. Məhz bu insanın təbirincə dünyanın bütün gözəllikləri həmin azlığın içərisində yerləşir. Mənəviyyat insanının madiyyat adamına yenildiyi bu təbəddüladlar dövründə ulu ruhlara, indiyə qədər tanıdığımız Xeyir Atalarının ruhuna, üz tutub elmə, irfana, istiqamətlənənlərin hamısının əvəzinə dua edirəm. "Onları madiyyat düşkünlərinə məhcub durumda buraxmayın!"

Bu gün bir yerdə çiyin-çiyinə çalışdığım bərabərlərim, istər fəlsəfə doktorları, istər bu sahənin elmlər doktorları, istərsə də murad üstündə olan gənclər eyni dərəcədə saf olub, getdikləri yola və tutduqları amala sədaqətlidirlər (bu sətirlər 2012-ci ildə yazılıb). Topladıqlarımızdan irəli gələn saflığımız məsləyimizdən irəli gələn tərəfimizdir. Bu məslək və çoxlarına sadəlöv görünən ali adiliyimizlə

çox xoşbəxtik. Xoşbəxtliyimizin maraqlı tərəflərindən biri odur ki, düşdüyümüz mühitdə özümüzə bərabər insanları formalaşdırmağı bacarırıq. Bunu bacarmayanda özünü "güclü" hesab edənə asanlıqla güzəştə gedirik. Belə ki, bizim çoxumuz ekzistensialistlərin[295] ideya ardıcıllarıyıq.

295 Ekzistensializm XX əsrin Qərb fəlsəfəsinin cərəyanlarından biri. Baniləri Almaniyada M.Haydeqqer və K. Yaspers, Fransada Q. Marsel, J.P Sartr, A. Kamyu, İtaliyada N. Abbanyano, ABŞ-da U Barrerdir. Fəlsəfənin əsas məsələsinin sırf insan varlığının (mövcudluğunun) problemləri ilə məşğul olmaqda görən bu cərəyan öz metodunu xeyli dərəcədə alman filosofu E. Qusserlin fenomenologiyasından, ilkin ideyalarını isə danimarkanın din mütəfəkkiri S. Kyerqorun əsərlərindən götürmüşdür. (Zənnimcə ekzistinsialistlərə qərbdə sufizmin ardıcılları da desək yanılmarıq-Ş.M)

# “TÜRKÇÜLÜK MÜCADİLƏSİ”Nİ FORMALAŞDIRAN ZAMANA VƏ MEHMET AKİF ŞƏXSİYYƏTİNƏ ƏSRİMİZDƏN YENİDƏN DİNİ-FƏLSƏFİ BİR BAXIŞ

“Vətən sevgisinin nə olduğunu millətinə ən yaxşı şəkildə anladan şair. Mehmet Akif Ersoy qələmi ilə yazmaqdan ziyadə könlüylə, qəlbiylə yazan bir şairdir. O, sadəcə gənc Türkiyə Cumhuriyyətinin “İstiqlal marşı”nın şairi deyildir, o bir şair olmaqdan çox yuxarıda dayanan bir mütəfəkkir, bir münəvvər, fenomenal bir vətənpərvərdir. Gərək şeirləri, gərəksə konuşmalarıyla bir millətin küllərindən təkrar doğmasına ve inandığı dəyərləri savunmasına unutulmaz katkılar sağlamıştır”[296]

Araşdırma istiqamətimizin tədqiqatçılarının, həmçinin hörmətli oxucunmuzun nəzərinə çatdırmaq istəyirik ki, türk və islam düşüncəsində islahat və yeniliklər tarixinə müraciət edib, türklərin sarsılmaz inanclı, əzimkar ədibi Mehmet Akif yaradıcılığına müraciət etməmək mümkün deyildir. Belə ki, Mehmet Akif də yaşadığı dönəmin güzgüsü olan şəxsiyyəti və yaradıcılığı ilə “incələmə zəncirimizin güclü həlqəsi olan” mütəfəkkirdir...

Mehmet Raqif (atası ona bu adı qoymuşdu) 20 dekabr 1873-

296 Lokman Çağrıca. Türk dünyasını işıqlandıranlar: M.Akif Ersoy və Hüseyin Cavidin xatirələrinə həsr olunmuş beynəlxalq konfransdakı giriş nitqindən, Bakı,20013.səh XIII

cü ildə İstanbulda, Fateh mahalının Qarakömrük tərəfində Sarıgözəl məhəlləsində dünyaya göz açdı. Qeydiyyat kağızı atasının, onun doğumundan sonra imamlık etdiyi və Raqifin ilk uşaqlıq illərini keçirdiyi Çanakqalanın Bayramiç mahalında yazıldığı üçün kimlik kağızında anadan olduğu yer Bayramiç göstərilir.[297] Anası Buxaradan Anadoluya köçüb gələn bir ailənin qızı olan Əminə Şərif xanım, atası isə Kosovanın İpək şəhərindən olub Fateh məscidində fəaliyyət göstərən mədrəsənin müəllimi işləyən Mehmet Tahir Əfəndi idi.

İlk təhsilini Fatehdə Əmir Buxari məhəllə məktəbində dörd yaş yarımında almışdı. Sonra ibtidai təhsilə keçdi ve atasından ərəbcəni öyrənməyə başladı. Daha sonralar rüşdiyyə təhsili alan Akif Fateh Camisində farsca da dərsalmağa başladı. Bu yeniyetmənin dillər öyrənməkdə xüsusi bir istedadı var idi. Dil dərsləri öyrənərkən daima birinciliyi əldə saxlardı. Türkçə, ərəbcə, farsca ve fransızcada həmişə birinci oldu. Məktəb illərinin onda ən çox təsir buraxan insanı isə zamanının "azadlıqpərvər" aydınlarından birisi olan türk dili tədris edən müəllimi Herseqovinadan olan Qədri Əfəndi idi[298]...

1885-ci ildə o, anasının onu mədrəsə təhsilli görmək istəməsinə rəğmən atasının yardımı ilə çağının sayılan məktəblərindən biri olan "Mülkiyə İdadisi"nə yazılır 1888-ci ildə də məktəbin son sinfində ikən atasının vəfatı, sonra isə yanğın nəticəsində evlərini itirmələri ailəni yoxsul bir vəziyyətə salır. Ailənin bu durumda olması onu

297 Fevziyə Abdullah Tansel, Mehmet Akifin Doğum Yeri Bayramiçdirmı? *Qübbəaltı akademik məcmuəsi, İstanbul, 1977, 6-cı sayı*, səh7.

298 M.Akifin Azərbaycan dilində ən zəngin tərcümeyi-halını AMEA Şərqşünaslıq İnstitutunun əməkdaşı Səriyyə Gündoğdu yazmışdır. Bax; S. Gündoğdu. Mehmed Akif Ərsoy yaradıcılığında ictimai problemlərin bədii təcəssümü, səh 24,25,26,27,28,29...

durmadan bir məslək sahibi olmağa səsləyirdi. Digər yandan da o, daha mükəmməl təhsil almaq üçün yataqxanası olan təhsil ocağı seçdi... O illərdə yeni açılan ve ilk sivil veterenar ali məktəbi olan "Kənd təssərrüfatı ve Baytarlıq Məktəbində" dünyəvi elmləri yüksək sevgi ilə öyrənərək idmanın müxtəlif növlərində müvəffəqiyyət qazanaraq, fərqlənmə ilə bitirdi[299]. Artıq yetkin bir gənc olan Mehmet Akif fransızcasını mükəmməlləşdirdi. 6 ay içində Qurani-Kərimi əzbərləyərək hâfiz oldu.

1893-cü ildə təfəkkürünün ilk töfhəsi qəzəl şəklində "Xəzineyi Fünun" Dərgisində 1894-də yenə bir qəzəli, 1895-də isə Məktəb məcmuəsində "Qurana-Xitab" adlı şeiri dərc olundu.

Vaxt tapan kimi fransızca qəzetlər oxuyub, ərəbcə şeirlər əzbərləyən Mehmet Akif hər yanda son zamanlar osmanlının içərisinə düşdüyü vəziyyəti öyrənirdi. Bu gərgin anlarda Fateh məscidinin kürsüsündən xalqına hayqırır şeirlər oxuyardı. Bu şeirlər əsgərlərin əzbərinə çevrilib, onları vətənpərvərliyə səsləyirdi. Bu sıralarda balkan savaşlarında "məxsusi təşkilat"ın göndərişi, Ənvər paşanın istiqamətləndirməsi ilə Almaniyaya yollanır. "Akif bəy xanımına və övladlarına düşgün bir ata və eş idi, lakin düşən vətəninə daha çox düşgün idi[300]. Odur ki, ona Almaniyaya vətənin göstərişi ilə getmək təklif olunanda bu vəzifənin ağırlığı barəsində də xəbərdarlıq edildi. Akif bu xəbərdarlığı edən dostu Əşrəf bəyə "Vətəni üçün canından keçməyə hazır olduğunu zatən getdiyi hər bir yerə kəfəninin bir

299 Recep Duymaz, Mehmet Akif Ersoyun Şahsiyetinin Qaynakları, Bilim ve Aklın Aydığıngın-da Eğitim Dergisi Yıl 7 Sayı 73 Mart 2006, səh 36.

300 Kitabda bu hissənin ərsəyə gəlməsində 2012-ci ildə Türkiyənin TRT-1 kanalı ilə yayımlanan Mehmet Akif Ərsoy barəsində çəkilən "korkma" filmindən olan kadırların mətinlərindən də istifadə edilmişdir.

parçası ilə getdiyini söyləmişdi". Almaniya səfəri xalqa "Berlin xatirələri" mənzuməsini qazandırdı[301].

Məqamdır qeyd edək ki, **1908**-ci ildə baş vermiş **gənc türklər inqilabı** Yaxın və Orta Şərqin ən böyük hadisəsi idi. İnqilab Türkiyənin sosial inkişafı üçün yeni istiqamət açdı. Belə ki, burada sosial həyat o zamana qədərki mövcudluğunun fərqli bir mərhələsinə girdi.

XIX yüz ilin tamamı və XX yüz ilin ilk rübü İslam dünyası üçün siyasi, sosial, mədəni, iqtisadi və elmi baxımdan keçmə-keçli, ənənəvilikdən moderinləşməyə keçiş sürəsinin yaşandığı, Türk-İslam coğrafiyasının istismarçı dövlətlər tərəfindən parça-parça ələ keçirildiyi bir dönəm olaraq tarixə keçmişdir[302]. Məhz bu ildən etibarən Akifin redaktorluğunu etdiyi "Siratimüstəqim" məcmuəsi, nəşrə başlamışdır. 1908-ci ildən etibarən söz sahibi yazarların dəyərli yazılarının yer aldığı bir yayın orqanı kimi fəaliyyət göstərmişdir. "Belə ki, dövrün öndə gələn fikir və aksiyon adamları, ədip, üləma və bürokratın yazı heyətində yer aldığı mecmuada Şeyxülislam Musa Kazım, Manastırlı İsmail Hakkı, Babanzadə Ahmet Naim, Bərəkətzadə İsmail Hakkı, Bursalı Mehmed Tahir bəylərlə, Əhməd Midhət, Midhət Camal [Kuntay] kimi çox tanınmış isimlərlə bərabər Türk Dünyasının məşhur qələmlərindən Yusuf Akçura, Ağaoğlu Ahmet, Halim Sabit [Şibay], İsmayıl Gaspıralı, Ayaz İsaki, Əbdürrəşid İbrahim kimi dəyərli elm, fikir və iş adamlarını da görmək mümkün

301 S.Gündoğdu. Mehmed Akif Ərsoy yaradıcılığında ictimai problemlərin bədii təcəssümü, Bakı, "R.M.Komponi", 2012.

**302** Mehmet Okur.**Safahatta Mehmet Akifin türk dünyası ilə ilğili dəyərləndirmələri, Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid. Beynəlxalq konfrans materialları, Bakı, 2013, səh, 228.**

idi"[303] – yazır Nurgül Karayazı. Məqalə müəllifi xüsusilə vurğulayır ki, "Akifin "Siratimüstəqim"i özəlliklə Rusiya sərhədləri daxilində yaşayan türklərə göndərilirdi. Bu vəsilə ilə Rusiya müsəlmanlarının arasında əlaqələr durmadan güclənirdi və təbii ki, çar Rusiyası bu dərginin ölkəyə daxil olmaması üçün min müşkül çıxarırdı. "Fəqət ustadın şöhrəti artıq bütün Rusiyaya yayıldığı üçün oranın ədibləri, mühərirləri ilə Ustad arasında ruhi bir rabitə meydana gəlmişdi. Rusiyadan gələn ədiblər, mühərirlər, birbaşa redaksiyaya gəlir, ustadı arar, görüşərlərdi. Abdurrəşid İbrahim, Yusuf Akçura, İsmayıl Qaspıralı, Ayaz İsaki, Əhməd Ağaoğlu kimi Rusiya naşirlərinin Rusiya müsəlmanlarının həyatına ait qiymətli və faydalı yazıları Siratimüstəqim səhifələrində dərc olunurdu"[304]

Tədqiqatımıza dəstək olaraq Nurgül xanım bizə bir paralel də aparmağa kömək edir. Belə ki, o yazır: "Ağaoğlu Əhməd bəy də Türkiyəyə gəldiyi vaxt, xeyli zaman Ustad ilə bərabər çalışmış, qiymətli siyasi məqalələri Siratimüstəqimdə nəşr olunmuşdur. Bu münasibətlə Ağaoğlu anladırdı ki, "Biz Hüseynzadə Əli bəylə Məşrutiyyətdən dörd beş il əvvəl, 1903-1904-cü illərdə qəzet nəşrinə başladıq. İlk dəfə türkcə olaraq gündəlik qəzeti biz nəşr etdik[305]".

Yazı müəllifi (Nurgül Karayazı-Ş.M) Əhməd Ağaoğlunun

---

303 N.Karayazı.**"Sıratımüstakım" mecmuasının gözdən kaçan önemli bir hizmeti "Türk Derneyi"** Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid, Beynəlxalq kohfransın materialları Bakı, 2013, səh 325.

304 N.Karayazı.**"Sıratımüstakım" mecmuasının gözdən kaçan önemli bir hizmeti "Türk Derneyi"** Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid, Beynəlxalq kohfransın materialları Bakı, 2013, səh 327.

305 N.Karayazı.**"Sıratımüstakım" mecmuasının gözdən kaçan önemli bir hizmeti "Türk Derneyi"** Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid, Beynəlxalq kohfransın materialları Bakı, 2013, səh 327.

yazılarından iqtibas gətirərək xatırladır ki, o sırada fikirlərdə bir intibah başlamışdı. Uzun zamandan bəri Qərbin üstünlüyü və istilası qarşısında getdikcə geriləyən, gerilədikcə sarsılan İslam-türk aləmi bu kədərli vəziyyətdən çıxıb yaşamaq üçün çarələr düşünməyə və aramağa başlamışdı. Ağaoğlu bizə araşdırmamız aspektindən dəyərli bir fikir daha verir. Belə ki, o bu zaman İslam aləmində üç cərəyan özünü biruzə verirdi yazırdı.

1. "Müsəlmanlığı, tam təəssübkeş fikirləri ilə anlayan və bütün tərəqqi qapılarını qapayan Vəhabi zehniyyəti.
2. İslamın əsaslarını mühafizə etməklə müasirləşmə. Cəmaləddin Əfqani və Məhəmməd Əbdühün təqib etdikləri yol.
3. Keçmişlə tamamən əlaqəni kəsərək qeyd-şərtsiz qərbləşmək.

Bizlər bunları təhlil edərək fikirləri aydın bir tərəfə istiqamətləndirmək istəyirdik ki, Türkiyədə Məşrutiyyət elan edildi. Yeni İstanbul mətbuatı isə Azərbaycan qələm sahiblərinin üzərində umulmaz bir təsir göstərməyə başladı. Onların ən təsirlisi Siratimüstəqim qəzeti idi. Türkiyə ilə xaricdəki müsəlmanlar arasında rabitələr və münasibətlər yaratmaq barəsindəki yazıları ilə ciddi və əhəmiyyətli nəşrləri ilə diqqətimizi cəlb etdi – yazan Ağaoğlu qeyd edir ki, Akifin II cərəyanı (İslamın əsaslarını mühafizə etməklə müasirləşmə. Cəmaləddin Əfqani və Məhəmməd Əbdühü təqib etdikləri yol-Ş.M) dəstəkləməsi açıq-aydın görünürdü.[306]

Beləliklə, qarşınızdakı kitabın "Türk aydınlarının milli mənsubiyyət və milli kimlik axtarışları" paraqrafında da qeyd etdiyimiz kimi, XIX əsrin sonları və XX əsrin ilk on ilində Türkiyənin sosial həyatında müxtəlif fikir cərəyanları özünə yer tutmaqda idi.

306 Ufadan yazan bu müəllifin məcmuədəki yazısı **"İslam və türk aləmi; Rusiya müsəlmanlarında dil və ədəbiyyat"**başlığı altındadır. Bax; Siratimüstəqim, c.,1, s 19, s300-332.

Bu cərəyanların biri-birindən xeyli fərqləri olmasına baxmayaraq onları bir amal birləşdirirdi: “Osmanlı İmperatorluğunun tamlığını saxlamaq, Avropanın, formalaşması bir neçə yüz il ilə ölçülən dövlətlərinin təcavüzündən Türkiyəni qorumaq və onların qərəzli niyyətlərini ürəklərində qoymaq”.[307]

Gənc türklər inqilabına iki fikir axını: “Osmanlıçlıq” və “İslamçılıq”- islam birliyi (yəni, “ittihad-i islam”-Ş.M) daha güclü təsir etmişdi.

“Osmanlıçılar ilə islamçılar, yəni, islam birlikçiləri arasında başlıca ayrılıq “millət anlayışı”nda ortaya çıxırdı. Osmanlıçılar Osmanlı dövlətinin bütün vətəndaşlarını – müsəlmanları, xristianları, yəhudiləri və s. İslam birlikçiləri isə yalnız müsəlmanları bir millət kimi qəbul edirdilər. Göründüyü kimi, osmanlıçılara görə millət dilləri, dinləri, ümumiyyətlə, mənəvi mədəniyyətləri, yəni, milli kimlikləri ayrı olan insan topluluqlarının birləşməsidən ibarət ola bilərdi, islamçılara görə isə dili, milli kimliyi, milli mənəviyyatı fərqli olsa da, müsəlman topluluqlarından ibarət ola bilər”.[308]

Belə məfkurə sahiblərindən biri də barəsində söhbət açdığımız yeni İslam islahatçısı olan Türkiyənin milli mücadilə tarixində önəmli rol oynamış Mehmet Akif Ersoydur **(1873-1936)**... O Ersoy ki: “Kendimi milletin hüzurunda gördüğüm gündən beri sanattan ziyade cemiyeti düşünmek istedim”[309] – deyərək şeirlərini, İslamı və elmi əsas alan bir amalın xidmətinə vermişdir. Belə ki, Akif və başqa İslam

307 Ziya Göyalp. Türkçülüyün əsasları, Bakı, Maarif, 1991, səh 8.

308 Süleymanlı M.A. XX əsrin əvvəllərində Azərbaycan kulturoloji fikri. (Fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 2014.

309 Orhan Okay. Mehmet Akif, bir karakter Haykelinin anotomisi, Akcak yayınları, Ankara, 1998, səh 26.

düşüncəli ziyalılar, "...İslam düşüncəsi çərçivəsində əvvəlcə ictimai problemlərin tədqiqi ilə məşğul oldular. Bu tədqiqlərin sonunda qərbləşməyi və pozitivizmi müdafiə edənlərə cavab olaraq İslam irəliləməyə mane olmadığı fikirini əsaslandırdılar. İslamın son dövləti Osmanlı İmperatorluğu üçün türkçülük, ərəbçilik, arnavudçuluq kimi milliyyətçi fikirlərin bir təhdidə dönməməsi üçün firqəçiliyə və qövmçüliyə qarşı çıxdılar[310]. Akifə görə, "Osmanlıda son zamanlarında xalqdan gələn adətlərə, bidətlərə boğulmuş, insanlara istər fərdi, istərsə də toplum olaraq heç bir dinamizm qazandırmayan bir dindarlıq anlayışı bərqərar olmuşdur. Bu səbəblə o dövrdəki bəzi ziyalılar İslam aləminin geri qalma səbəblərini dində görərək onu tərk etməyə çağrışlar edirdilər. Bəziləri isə İslamın əsaslarında bəzi dəyişikliklər İslamda islahatlar etmə və bu şəkildə zəmanəyə uyğunlaşmaqdan bəhs edirdilər"[311].

Akif bu anlayışların hamısına fikir bildirərək, İslamda çalışmaq irəliləmək insanlararası hörmət, sevgi, qadın təhsili kimi ictimai həyatın əsasını təşkil edən məsələlərin olduğunu, tayfabazlığın və firqəçiliyin əsla olmadığını qeyd edərək bunları müsəlmanlara xatırlatmağa və öyrətməyə çalışmışdır. O, digər mövzularda olduğu kimi bu mövzuda da özünə məxsus bir tərzlə belə səslənmişdir:

Əgər çeynəməmək istərsə seylab-i əyyama
***Rücu etsinlər artıq müsəlmanlar sədr-i İslama***

"Sədr-i İslama dönmək", yəni, İslamiyyəti təməl və əsas xüsusiyyətləri ilə yenidən ortaya qoyaraq, dindən ilham alaraq bu günə səslənmək, dinə qarışmış bidət və xurafatı təmizləməkdir.

310 Kadır Şeker. Akifin İttihad-i İslam anlayışı, Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid, Beynəlxalq kohfransın materialları Bakı, 2013, səh174.

311 Kadır Şeker. Akifin İttihad-i İslam anlayışı, səh 174.

Üstəlik bunları islahat, dəyişdirilmə kimi hərəkatlara ehtiyac olmadan etmək lazımdır – söyləyirdi Mehmet Akif bəy. Qeyd etməliyik ki, həm də Akif bu düşüncəsi ilə digərlərinə bənzəməyən bir tezisi gündəmə gətirmişdir. Dolayısı ilə bu görüş din mövzusunda fikir sərgiləyən heç kimin və ictimayətin fikri ilə üst-üstə düşmür (eyniləşmir). Ayrıca, Akifin o zamanın təhsil ocaqları olan mədrəsələri və yenə də həmin dövrün din alimi adını qazanmışları tənqid etməsi, 700 il öncə yazılmış əsərlərin bu günün ehtiyacına cavab verməyəcəyi düşüncəsi də onu "reformatorçuluq"la, hətta "zındıklıqla"la günahlandıran ziyalılara material vermişdir. Həqiqətdə isə bildiyimiz kimi, Mehmet Akif gücünü Qurandan, fikirlərini isə Cəmaləddin Əfqani ilə Məhəmməd Abduhdan almışdır. Akif yaradıcılığında sərgilədiyi bu tərz və düşüncələrindən dolayı, özünə Əfqani və Əbdühün Türkiyə təmsilçisi kimi bir portret çızmışdır. "Fəqət onun söylədiyi İslamın qaynağından doğru bir şəkildə öyrənilməsi və öyrənilənin də sürətlə həyata keçirilməsinə təşviqdən başqa bir şey deyildi".[312]Yəni, söylənilənlərin reallıqda həyata keçirilməsidir. Burada xatırlatmaq istəyirəm ki, onun bu tərzi və düşüncələri tatar ilahiyyatçısı Kürsəvinin fikirləri ilə (Quranın saf mənalarına qyıdış və mədrəsə təhsili verən mollaların savadsızlığı və s. məsələlərdə-Ş.M) eynilәşir. Mehmet Akifə görə, İslam əslində, Osmanlı müsəlman toplumunun öz düşüncəsidir. Digər fikir axımları olan, türkçülük və qərbçilik kimi Qərb mənşəli axın deyildi. O, Osmanlı dövlətinin geriləməsi və Osmanlı toplumunun zəmanəyə uyğunlaşamamasının səbəbini həm xalqın, həm də ziyalıların dini doğru anlatacaq qaynaqlardan qopmamaları ilə ortaya çıxdığı ilə əlaqələndirmişdir. Ona görə müsəlmanların çoxu İslamın

312 Kadır Şeker. Akifin İttihad-i İslam anlayışı, Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid, Beynəlxalq kohfransın materialları Bakı, 2013, səh174.

əslindən uzaqlaşmışlardır. Akifə görə, həqiqət büsbütün xurafatla örtülmüşdür. Bundan da qurtulmanın yönü Quran İslamına, yəni, əsl qaynağa dönməkdir. Bu münasibətlə o, yazırdı:

***Doğrudan doğruya alıb ilhamı***

***Asrın idrakına söylətməliyiz İslamı" deyərkən də bu həqiqəti əks etdirən düşüncəsini çatdırmağa çalışmışdır...***

Hörmətli oxucunu yenidən onun böyüdüyü zamanın Türkiyəsinin durumuna bir nəzər salmağa dəvət edək. Məhz həmin zamanın incələnməsi bizə çox mətləbləri aça bilər.

Beləliklə, tarixi faktlara söykənən mənbələrin verdiyi məlumata görə Antanta ilə Türkiyə arasında 30 oktyabr 1918-ci ildə imzalanan Mudros barışığı I Cahan savaşında sultan hökumətinin məğlubiyyətini təsdiqlədi göstərmişdik kitabın əvvəllərində. Qeyd edək ki, Bundan sonra ingilislərin fitvası ilə İstanbulda qabaqcıl görüşlü adamlar, vətənpərvərlər həbs edilməyə başlandı. Hərbi məhkəmələr quruldu...Bildiyimiz kimi, Akifin anadan olduğu zamanda Osmanlı İmperatorluğu çox böyük bölgədə (Asiya, Avropa və Afrika) macar, yunan, bolqar, serb, xorvat, rumın, erməni, kürd, ərəb, alban, yəhudi və s. kimi bir çox xristian, müsəlman və türk olmayan xalqları birləşdirirdi.[313] Bunların hamısı bir yerdə sayca türklərdən xeyli çox idi. Xristianların və türk olmayan müsəlman xalqların dili, milli mədəniyyəti (kültürü), azadlığı saxlanılmışdı. İmperatorluq bu xalqların adət və ənənələrinin toxunulmazlığını diqqətlə gözləyirdi. "İmperiyanın ən güclü vaxtlarında türk olmayan xalqlara xüsusi diqqət göstərilir, onlar tam təhlükəsizlik içərisində ömür sürürdülər, lakin Osmanlı dövlətinin zəiflədiyi vaxtlarda bu xalqlar onlara

313 Ziya Göyalp, Türkçülüyün əsasları, Bakı, Maarif, 1991, səh 9.

həssaslıqla yanaşmamış bu dövlətə qarşı baş qaldırmağa, müxtəlif ixtişaşlar törətməyə başlamışlar. Onsuzda Osmanlı İmperatorluğunda ticarət, sənaye, kənd təsərrüfatının iri istehsal sahələri xristianların və yəhudilərin əlində toplanmışdı. Məhz bunun nəticəsi idi ki, onlar sürətlə varlanırdılar. Türk və müsəlman olmayan xalqlardan əsgər belə, toplanmaması onların iqtisadi durumunun daha da yaxşılaşması ilə bərabər, sayca çoxalmalarına da gətirib çıxardı".[314]

Ölkəni qorumaq, müharibələrdə vuruşmaq, ən ağır işlərdə çalışmaq isə bu ölkədə türklərin üzərinə düşürdü. Bu gedişat artıq XIX əsrin əvvələrində Osmanlı İmperatorluğunda türklərin geriləməsi, zəifləməsi ilə müşayət olunurdu. Bu fürsəti dəyərləndirən İngiltərə, Fransa, Rusiya kimi iri dövlətlər Osmalının zəifləməsini sürətləndirmək üçün dəri-qabıqdan çıxırdılar.[315] Onların çirkin siyasətinə birinci növbədə, imperatorluğun xristian xalqlarını, hətta türk olmayan müsəlman xalqlarını belə, dövlətə qarşı qızışdırmaq daxil idi. Halbuki, ərəblərin ingilislər tərəfindən Osmanlı dövlətinə qarşı qaldırılmasında məqsəd, əslində, onların var-yoxunun talanması idi (düşünürəm ki, XXI əsrin əvvəllərində "ərəb baharı" adı ilə ərəb ölkələrində "azadlıq" tələbi altında gedən müharibələr ərəb dünyasının yeni bir çöküşünün mahircə işlənmiş planıdır, həm də elə bir planı ki, birici baş tutmasaydı (Türkiyədən qoparılmaq) bu ikinci heç baş tutmayacaqdı. Dünya gücləri ərəb dünyasının buraxdıqları səhvi dərk edəcəkləri zamanı da tam vaxtında hiss edib, ərəbləri "ərəb baharı" ilə bir daha "mükafatlandırdılar"-Ş.M).

314 Ziya Göyalp, Türkçülüyün əsasları, Bakı, Maarif, 1991, səh 9.

*315* Mətanət Şəkixanova. ***Türk məfkurə tarixinin işıqli siması Musa Cərullah Bigiyev və onun "İslamın əlifbası", "Türkiyə Böyük Millət Məclisinə müraciət"*** *kitablari haqqında. (AMEA Fəlsəfə Sosialogiya və Hüquq İnstitunun icazəsi ilə buraxılan toplu.) Bakı, Nurlar 2012, səh* 6.

Türklərin bu vəziyyətini seyr edən o zamanki proletariat liderləri K. Marks və F. Engels 1853-cü ildə “Türkiyədə türkləri hakim sinif adlandırmaq çətindir” ifadəsini əbəs yerə söyləmirdilər.[316] Göründüyü kimi nə dövlət bu millətin adını daşıyır, nə də yeritdikləri siyasət millətçilik ruhuna söykənirdi. Həddindən artıq tolerantlıq nümunəsi göstərən bu dövlət, əslində, türk kimliyini xristianların, türk olmayan müsəlmanların mənafeyinə qurban verməklə - sürətlə keçmişlərdə qazanmış olduğu öz ehtişamlı varlığına quyu qazırdı. “Mən təbəəmdəki din fərqlərini ancaq came, kilsə və sinaqoqlara girərkən görmək istərəm” ifadəsini söyləyən II sultan Mahmudun bu fikirləri o zamanki vəziyyəti bütün gerçəkliyi ilə tam ifadə edir. Əslində, Avropa dövlətlərinin böhtanlarından, qərəzli niyyətlərindən qorunmaq, xristianları, türk olmayan əhalini narazı salmamaq, İmperiyanın bütövlüyünü saxlamaq məqsədiylə Osmanlı dövləti türkçü olmayan siyasət yeridir, “Osmanlı” adı ilə çıxış edirdi. Bunula da öz tənəzzülünə daha da yaxınlaşmış olduğunun fərqində belə, deyildi yəqinki. “Əksinə, 1839-cu ildə dövlətin “Gülhanə xətt-i hümayunu” adı ilə verdiyi tənzimat fərmanı xristian xalqların hüququnu daha da genişləndirdi.[317]

Bundan sonra osmanlıçılıq ideyası daha tünd çalarlarla dövlətin rəsmi siyasətinə çevrildi. 1839-cu ildən başlayıb 1876-cı ilə qədər davam edən “tənzimat dövründə” ölkənin xristian təbəələri dövlətə qarşı fəaliyyətlərini rahatlıqla gücləndirdilər[318]” 1789-cu il Fransada baş verən inqilabi hərəkatın millətçiliyə söykənən ideyalarını öncə

316 Маркс К., Энгельс Ф. Собрание сочинений, т. 9, səh 6.

317 Ziya Göyalp, **Türkçülüyün əsasları,** Bakı, Maarif, 1991, səh 9.

318 Ziya Göyalp, **Türkçülüyün əsasları,** Bakı, Maarif, 1991, səh 11.

xristian olan balkan xalqları mənimsədilər. Avropa dövlətləri onların bu millətçi ocaqlarına sürətlə odun atmağa başladılar. Avropada meydana gəlmiş panslavyanizm, panlatinizm kimi axınlar isə Osmanlı dövlətini içdən sarsıtmağa, didib parçalamağa çalışırdı. Bu cəfəng nəzəriyyənin arxasında “Rusiya kimi böyük bir imperiya dayanırdı. Bu imperiya bütün Avropanı slavyan tayfasının və onun nisbətən bacarıqlı hissəsi olan rusların malikanəsi hesab edirdi. Peterburq və Moskva kimi iki böyük paytaxtı olsa da, hər bir rus kəndlisi belə, öz dini və milləti üçün əsl mərkəz saydığı “Çar şəhəri”nin (Çarqradın-Konstantinopolun) həqiqətdə rus imperatorluğunun mərkəz iqamətgahı olmadıqca öz bütövlüyünü qazana bilməyəcəyini əqidəsinə qoymuşdu. İki paytaxta malik olan bu böyük imperiya bir dəfə də ərazi itirməmiş, əksinə, hər dəfə müharibə edərkən öz ərazilərini bir qədər də genişləndirmişdir”.[319] Tarixin bu dönəmində rusun panslavyanizm siyasəti mərkəzi Avropanın məlum siyasətinə daha çox uyğun gəldiyi üçün onun bu fitnə fəsadını bir az daha dəstəkləyirdi.

Osmanlı imperatorluğu dövlətin yaşama gücünün nədənsə osmanlıçılıq ideyasına bağlı olduğuna daha çox inanır və bu inancı ilə də daha çox məşum uçrumun kənarina yaxınlaşırdı. Artıq sultan II Əbdülhəmidin dövründə bəlkə də nicat yolu kimi osmanlıçılıq islamçılıq ilə çulğalaşmış halda yürüdülürdü[320].

XIX əsrin Cahan xəritəsindəki siyasi mənzərəsi seyr edilərsə, Avropa dövlətlərinin müsəlman ölkələrini xammal bazarına çevirmək istəklərinin alovlanan izlərini müşahidə edərik. Avropa ölkələrinin

319 Yenə orada səh 12

320 Ziya Göyalp, **Türkçülüyün əsasları,** Bakı, Maarif, 1991, səh 10.

bu istəklərinə qovuşma yolunda əngəl bir dövlət – Osmanlı imperatorluğu dururdu. Ona normal bir tam kimi baxmır, ən böyük xammal bazarlarına sahib olmaq üçün bu "xəstə adam" misalı ölkəni tam gücdən salmağa çalışırdılar. Elə tam bu zamanda Osmanlıda "İttihadi-İslam" (İslam birliyi-Ş.M) məfkurəsinin ardıcılları meydana çıxdı. Zamanın mütərəqqi İslam ziyalıları "İslam birliyi" axımına müstəmləkəçiliyə qarşı mübarizə forması kimi baxırdılar. Bu əsrin ikinci yarısında İslam birliyi hərəkatının ideoloqu olan Şeyx Cəmaləddin Əfqani əsrinin yetmişinci illərindən bir sıra müsəlman ölkələrini gəzərək bu ölkələrin vətəndaşlarını birliyə çağırırdı.

Osmanlı dövləti də gizlicə İslam birliyi axımının tərəfini saxlayırdı. İmperatorluq üçün bu forma (ülgü) səciyyəvi idi. Belə ki, Osmanlı dövlətində din ilə millət eyni sayılır, daha doğrusu, "ümmət" və "millət" anlayışları arasında heç bir ayrılıq görülmürdü, milləti ümmət anlayışı əvəz edirdi, sultan həm də xəlifə idi, deməli, həm siyasi, həm də dini hakimiyyət onun əlində toplanmışdı.

1908-ci il inqilabı ərəfəsində ölkənin xristian və digər türk olmayan təbəələri Əbdülhəmid rejiminə qarşı və azadlıq şüarları altında "birləşdilər". Bu görünüşdə birləşmə idi. Belə ki, inqilabdan sonra xristianlar və türk olmayan müsəlman təbəələrin fəaliyyətləri geniş vüsət aldı. Onlar fürsətçi Avropanın yardımına arxalanaraq imperatorluğu yox etmək, türklərə qarşı düşmənçilik niyyətlərini gerçəkləşdirmək üçün əməli işə keçdilər. Bu xalqlar "Osmanlı" adını hədyan bir ibarə sayırdılar. Belə ki, bu ad yenə də yalnız türkün özünə qaldı.

1908-ci il inqilabının nəticələri də təəssüf ki, türk olmayan xalqların xeyrinə işlədi. Sionist siyasət yeridən bu xalqlar türkləri namərdcəsinə arxadan vurdular.

1912-ci ilin oktyabrından başlayıb 1913-cü ilin mayında başa çatan “balkan müharibəsinin” nəticələri imperatorluğun siyasi çöküşünün başlanğıcı oldu. Bu zaman ağılla, qeyrətlə daimi bir mücadilə içərisində yaşayan Mehmet Akif bəy həyatının çiçəklənən dövrünü yaşayırdı. Akifin balalarından çox sevdiyi vətəninin təəssüf ki, İstanbul və Şərqi Frakiyanı çıxmaq şərti ilə bütün avropa torpaqları əlindən çıxdı. Osmanlının bu çöküşü “osmanlıçılıq” ülgüsünə sarsıdıcı zərbə oldu. Acı reallıq göstərdi ki, “Osmanlı milləti” anlayışı puçdur. Hələ 1909-cu ildə albanların üsyan etməsi, I dünya müharibəsi illərində ərəblərin türkləri arxadan vurması, Türkiyədən ayrılmaq üçün “Əl Mühdül ərəb” cəmiyyətinin geniş şəkildə qərarlaşmış fəaliyyəti və türklərin başına gətirilən digər dürlü fəlakətlər nəhayətdə “İslamçılıq” axımını da axsatdı. Məlum oldu ki, Osmanlı dövlətini fəlakətdən nə osmanlıçılıq, nə də islamçılıq qurtara bilmədi. Amma Akif qələmini süngü edərək dillənir Osmanlını parçalamaqda olanların cəhdlərini, problemli məsələlərini belə, işıqlandırırdı.

***Artıq ey “millet-i merhume” sabah oldu oyan***
***Sana az gəldi bu azanlar deyə, ötsünmü bu şan?***
***Ne Araplık ne de Türklük qalacaq, aç gözünü!***
***Dinle Peyğəmbər-i Zişanın sözünü.***
***Türk Arapsız yaşamaz. Kim ki, “yaşar” der dəlidir***
***Arapın Türk ise hem sağ gözü hem sağ elidir,***
***Veriniz baş-başa Zira sonu hüsran-i mübin:***
***Ne hilafet kalıyor ortada, billahi ne din[321].***

Nə deyək?! Allahdan ona rəhmət diləyəcəyik. Bu misralar onun İslama sarılmış necə bəsirətli bir insan olduğunun göstərisi deyilmi?

---

321 Mehmet Akif Ersoy. “Hakkın sesleri” Sefahat, üçüncü kitab. Neşre hazırlayan Ertoğrul Düzdağ., Nesil yayınları, İstanbul 2011, səh 184.

Akifə görə, ən ümmətə ən şiddətli zərbələr ərəblik, türklük davasının və millətçilik sevdasının başlaması ilə dəyəcəkdir. Özünün bir arnavut olduğunu tarixdəki arnavutluq misalını iqtibas gətirməklə işıqlandırır:

***"Medeniyyet" size çokdan bəridir diş biliyor***
***Evvela parçalamaq, sonrada yutmaq diliyor,***
***Arnavutlar size ibret olacaqkən, hala***
***Ne bu şüride siyaset, ne bu fasid dava?***
***Görmüyor gittiyi yanlış yolu, zannım çoğunuz...***
***Size rehberlik eden haydudu artık kovunuz!***
***Bunu benden duyunuz, ben ki evet arnavudum...***
***Başqa bir şey deyəməm... İşte perişan yurdum!...***[322]

Xatırladaq ki, onun dövrdə meydana çıxan əsrlik, yəni, müasirlik (çağdaşlıq- Ş.M.) axınının tərəfdarları Türkiyə həyatını Qərb modeli əsasında müasirləşdirməyi irəli sürürdü. Bu axımın da qorxulu tərəfi ifrat qərbləşmə tərəfdarları olmalarında idi. Bu zamana qədər mövcud olan türkçülük və islamçılıq tərəfdarları Qərbin yalnız elm və texnikasını qəbul etmək istəyirdilərsə, çağdaşlıq axımının ardıcılları Qərbin milli cəhətlərinin və yaşayış tərzinin də qəbul edilməsini istəyirdi. Bununla belə, bu dönəmdə çağdaşlıq Türkiyədə bir sistem biçimi ala bilmədi.

Bu zaman digər bir tendensiyada türk dünyasının bətnindən nəşət tapan Qərb və yəhudi türkoloqlarının və Rusiyadakı açıqgözlü türklərin çalışmaları sayəsində meydana gələn türkçülük hərəkatı idi.[323] Türkiyədə türkçülük axınının başlanması da elə Rusiyadakı

322 Mehmet Akif Ersoy. "Hakkın sesleri" Sefahat, üçüncü kitab. Neşre hazırlayan Ertoğrul Düzdağ., Nesil yayınları, İstanbul 2011, səh 184.

323 Муса Джаруллах Вигиев. (Обрашение к Великому Турецкому Нацианальному Собранию. Воззвание к мусульманским нациям. Избранные труды в двух томах, Казань, 2006, səh 48.

türklərin təsiri ilə bağlıdır. Yeri gəlmişkən xatırlamaq yerinə düşər ki, bu türkçü ziyalıların sırasında İsmayıl bəy Qaspıralı (Krım), Əhməd bəy Ağaoğlu (Azərbaycan) və Əli bəy Hüseynzadə (Azərbaycan) ən ön yerləri tuturlar."[324]

Qeyd etmək lazımdır ki, Osmanlı İmperiyasında kimliyi Osmanlı idealına qurban verilmiş türkün özünə yenidən qayıdışı, əslində, Avropa torpaqlarının Türkiyənin əlindən çıxmasından sonra yeni bir vüsət aldı. XX əsri böyük sosioloqu, fikir sahibi, mütəfəkkiri Ziya Göyalp yazırdı ki, 1908-ci ildə II məşrutiyyə inqilabından sonra çapa başlayan "Türk dərnəyi", "Gənc qələmlər", "Yeni məcmuə", "Türk yurdu" kimi dərgilər türkçülüyün yayılması, türk milli dərkinin oyanışı və bu ideyanın xalqa aşılanması yolunda böyük işlər görməyə başladılar. Balkan müharibələrində (1911-1912 və 1912-1913) Türkiyənin başına gələnlər türkün milli dərki sahəsində onun xeyrinə olacaq yeni mədəni eranın açılışına təkan verdi. Belə ki, türkçülük dil, kök və tarix sahələrində sürətlə inkişaf etdi, Türkiyənin sərhədlərindən belə, kənarda yaşayan türk xalqlarında osmanlılardan öncəki türk tarixinin öyrənilməsində böyük həvəs yarandı.[325]Qeyd etdiyimiz bu həvəs böyük bir coğrafiyanı ağuşuna aldı.

Beləliklə, türkçülüyün liderləri təkcə Türkiyənin hüdudları daxilində deyil, ondan xeyli kənarlarda da türkün yüksəlişi, türk millətinin özünü tanıması, maariflənməsi üçün mədəni bir birliyin gərəkliliyini, ümumi bir dilin lazımlılığını kütlələrə çatdırmaq üçün yorulmaz bir mübarizəyə başladılar. Məhz belə bir dönəmdə Mehmet Akif şeirləri ilə olduğu qədər, düşüncə tarixindəki təsirləri ilə də

324 Əliyeva A. (Kəngərli). Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük, Bakı, "Elm" 2002, səh 26.

325 Ziya Göyalp, **Türkçülüyün əsasları,** Bakı, Maarif, 1991, səh 12.

fenomenal şəxsiyyətlərdən biridir. Şairliyi ilə bərabər dövrünün siyasi və sosial həyatını çox çevikliklə dəyərləndirib əsərlərində, zamanının nəbzini tutan əsərlər yazmağı bacarmışdır. Akifin "Səfahət"inin "Asim" adlı bölümü onun sosial həyatı dəyərləndirməsi baxımından ən dəyərli əsəridir. "Asim" onun altıncı şeir kitabıdır. Buna baxmayaraq misirli elm adamı doktor Hazem Said Akifi oxumaq istəyənlərə məhz bu altıncı kitabdan başlamağı məsləhət görür[326].

Zəmanəsinin də gəncliyini Asim kimi görmək istəyən Hazem Said Akifin Asimini məğrur və əyilməz gəncliyin rəmzi görür. O hesab edir ki, Akifin zəmanəsinə hava, su kimi lazım olan ideal bir gənclik rəmzi Asimin şəxsində rəmzlənmişdir. Zatən kəlimə olaraq "asim" sözünün mənası xilaskar, pəhrizkar, günahlardan və haramdan çəkinən, qoruyan, namuslu və iffətlidir – izahını verir misirli müasirimiz. Asimi türk ədəbiyyatında bəzən Mehmet Akifin mənəvi oğlu olaraq da görürlər... Yenə də qeyd edək ki, Akifin Asimi xəyal edilən gəncliyin simvoludur.

XX əsrin əvvəllərində imperalizmin "yeni dünya düzəni" həvəsi ilə dünyanı bir-birinə vurduğu bir zamanda dağılıb parçalanan türk dünyası, eləcə də taleyi məchul olan Türkiyə üçün hədsiz iztirablar duyan, bu vəsilə ilə də Safahat lövhələrini başlıcası "Asim"i yaradan Akif din amilinin, imanın, köklərinə sədaqətin gənclərin özünü reallışdırmada nə qədər böyük rol oynadığını oxucusuna çatdırmaq istəyir:

***Bu göyüslere Hüdanın ebedi serhaddi;***
***"O Benim sun-i bedi-im onu çiynetme" dedi.***

---

326 Hazem Said Mohamed. Gerçek ilə hayal arasındakı Akifin Asım"ı Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid. Beynəlxalq kohfransın materialları Bakı, 2013, səh 147.

***Asımın nesli... diyordum ya... nesilmiş gerçek:***
***İşte çeynetmedi namusunu, çiynetmeyecek.***
***Şüheda gövdesi, bir baksana, dağlar, taşlar...***
***O, rüku olmasa, dünyada eyilmez başlar,***
***Yaralanmış təmiz alnından, uzanmış yatıyor,***
***Bir hilal uğruna, ya Rəb, ne güneşler batıyor***[327]

Doktor Hazem Said hesab edir ki, Akifdəki Asimin gələcəyi Hz. Ömər bin Abduləzizin keçmişidir. Belə ki, Ömər bin Abduləzizin dövründə dağınıq İslam dünyası iki ilin içərisində toparlanmışdır. Dövlətin xəzinələri qızılla dolmuş, qalaları təmir etdirilmiş, ərzaq anbarları maddi nemətlərlə doldurulmuşdu. Asimin sələfləri dövlətin hər bir fərdi borclu olarsa, dövlətə müraciət etsin, subay gənclər ailə qurmaq üçün məhz dövlətin xəzinəsindən maliyələşdirilsin düsturuna əməl etmişlər. Quşlar belə, o imanlı dövlətin rəhbərinin şəfqət və mərhəmətindən nəsibini almışdır[328] - yazır Hazem Said. Bu ədalətli rəhbər elmə böyük önəm vermiş bu mövzuda “Elmi öyrənin çünki o zənginə bəzək, fəqirə dəstəkdir” – söyləməklə müəllimlərə maaş kəsmiş, səhralardakı köçərilərə belə, bu məvacibləri çatdırmışdır.[329] Bir sözlə, millətə özünün ədalətli nümunəsində İslamı öyrətmişdir. Mehmet Akif fiziki və ruhi cəhətdən sağlam olan Asim obrazını qələmə almaqla yetişən nəsillərə mesaj göndərir. Yetişən nəsillərə Cəmaləddin Əfqanini, Məhəmməd Əbdühü örnək göstərir:

---

327 Mehmet Akif Ersoy. Safahat, Bağçılar belediyesi kültür dizisi, İstanbul 2011, c 479.

328 Hazem. S. M. **Gerçek ilə hayal arasındakı Akifin Asım”ı,** Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid, Beynəlxalq kohfransın materialları Bakı, 2013, səh 153

329 Hazem. S. M. **Gerçek ilə hayal arasındakı Akifin Asım”ı,** Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid, Beynəlxalq kohfransın materialları Bakı, 2013, səh 153

***Misirin en möhtəşəm ustadı Muhammed Abdu,***
***Konuşurken neye dairse Cemaleddinle;***
***Derki tilmizine[330] Afqanlı; "Muhammed, dinle!***
***İnkilab istiyorum başqa deyil, həm çabucak.***
***Öne bizler düşüb İslamı da kaldırmazsak,***
***Nazariyyat ile bir şeylər olur zannetme...***
***O, berahine de artıq yetişir dinletme!***
***Çünkü mühtac-i təzahür deyil istedadın..."***
***-"Şübhe yok, hakk-i semuhileri var ustadın...***
***Gedelim bir yere, hatta şu bizim Sudana***
***Yeni bir medrese tədris edelim urbana.***
***Daha üç beş de faziletli mücahid bulalım,***
***Nesli təhzib ile, i'la ile meşqul olalım[331].***

Akif "Asimin"də təhsildəki problemləri açıb göstərməyə çalışır. O, bir vətəndaş kimi millətin malıyla açılan Mülkiyə, Tibbiyə, Bahriyyə, Baytar, Ziraat, Mühəndislik kimi ali məktəblərin olmasını alqışlayır, lakindənizvətərsanəişinəehtiyacımızolduqdaingilislərdən, balaca körpünü inşa etmək üçün Belçikadan mütəxəssis dəvət edirik, yaxşı həkim lazım olanda xasını haradansa dəvət edirksə onda bu adı çəkilən məktəblər nəyə lazımdır. Savadlı mütəxəssislərin yetişməsi Akifə görə çox dəyərlidir. Onun fikrinə görə, gənclərin içərisindən boğulduqları məsələlər biliksizliklərindən, tənbəlliklərindən, onları içki və fühuş düşkünü edəcək əxlaqsızlıqlarından, idarəçilikdəki boşluqlardan, millət fərdləri arasındakı nifaq kimi məsələlərdəndir.

"Gerçek ilə hayal arasındakı Akifin Asımı" məqaləsinin

330 Burada şagirdinə (ərəbcədən)

331 Mehmet Akif Ersoy. Safahat, Bağçılar belediyesi kültür dizisi, İstanbul 2011, c 479.

müəllifi Əl-Əzhər Universitetinin hörmətli doktoru Hazem Said məqaləsinin sonunda Türkiyə, Azərbaycan, Misir və bütün İslam dünyasını, Asiminə və Asim nəslinə qovuşmasını arzulayaraq bitirmişdir"[332]...

Beləliklə, Türkiyə aydınlarının tarixində öz fəxri yeri olan Mehmet Akif bəy belə qarma-qarışıq bir zamanın yetirməsi idi. Bəlkə elə buna görədir ki, içərisində bulunduğu zaman və o zamanın hadisələri bu vətənpərvər insanı yalnız yaşadığı dövrün deyil, özündən sonrakı dövrlərin də hər tərəfli şəxsiyyətinə çevirə bildi. Həyatında "məşrutə inqilabı" böyük rol oynamış olan Mehmet Akif həyatının ən məhsuldar dövrü bu inqilabın gətirdiyi ab-havanın təsiri ilə yazdığı əsərləri və naşiri olduğu qəzetlə yeni bir məcraya daxil olmuşdur. Məşrutədən sonrakı bütün ömrü demək olar ki, mənsub olduğu millətin yüksəliş mücadiləcinə həsr olunmuşdur.

"Təşkilati məxsusənin" dəyərli üzvlərindən olub hər kəsin şair kimi tanıdığı Mehmet Akif həm də vətən sevgisi ilə çırpınan bir əsgər idi. O, vətəninin düşdüyü halın səbəbkarlarının məmləkətin **ziyalıları** olduğunu deyir və bu haldan onu ancaq yenə həmin ziyalıların çıxara biləcəyini söyləyirdi. Bu məqsədlə o:

***Yıllarca, asırlarca sürən uykundan artıq***
***silkin də mühitindəki zülmətləri yak, yık***
***Bir baksana göylər uyanıq, yer uyanıkdır***
***dünya uyanıqkən uyumaqlıq maskaralıkdırə - yazırdı.***

Bu illərdə ardıcıl bir müsəlman olan Akifin yaşadığı torpaqların

332 Hazem. S. M. **Gerçek ilə hayal arasındakı Akifin Asım"ı,** Türk dünyasını işıqlandıranlar: M. Akif E Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid, Beynəlxalq kohfransın materialları Bakı, 2013, səh 337. Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid, Beynəlxalq kohfransın materialları Bakı, 2013, səh 337.rsoy, Hüseyin Cavid, Beynəlxalq kohfransın materialları Bakı, 2013, səh 155.

bir parçası olan Qüdsin alınması onun faciəsinə çevrildi. Onun pak niyyətli daim insanlıq naminə vuran ürəyi siyasətin çirkin oyunlarına hazır deyildi. Avropalılar içərisində müsəlmanlara yer olmadığını görən Akif onlarla baş edə bilməmənin təəssüfünü yaşayırdı. O, həm də bir filosof uzaqgörənliyi ilə Almaniyanın yəhudilərə yönəlik siyasətinin zəifliyini narahatlıqla diqqətlərə çatdıraraq alman xalqının bu siyasətin fəsadlarını çəkəcəyini illər öncə söyləmişdi.

1920-ci ildə artıq işğal olunmuş İstanbuldan min bir məşəqqətlə Ankaraya gedən Mehmet Akif özü ilə illərdir dərc etdiyi "Sebilür-Rəşad"ın kilişəsini də apardı. O Sebilür-Rəşadın ki, onun nüsxələrini Rusiya dövləti qadağan etmişdi. Oğlu Eminlə gedib Ankaraya çatanda onu buraya dəvət edən Mustafa Kamal Paşa ilə görüşür. Mustafa Kamal Paşa onun və onun dərc etdiyi qəzetin millətin həyatında oynadığı rolu yüksək qiymətləndirərək yazırdı: "Sever sazişinin məmləkət üçün nə qədər faciəvi bir edam hökmü olduğunun Seblürür-Rəşad qədər heç bir qəzet ölkəyə çatdıra bilməmişdir...

Mənəvi cəbhəmizin qüvvətlənməsinə Seblürür-Rəşadın böyük xidmətləri vardır. Hər ikinizə təşəkkürlər" Milli mücadilənin qızğın vaxtı Mehmet Akif bu mücadilənin başında idi. Bu səbəbdən 30 aprel 1920-ci il Hacı Bayram məscidində vəz verdi. Xalqını cihada səsləyən şair millətini, milli simasını saxlayan Ankara da ikən onun Tacəddin dərgahında yerləşməsi gecələri burada yaradıcılıqla məşğul olması onun həyatının daha mübhəm tərəflərinə diqqət çəkir. İslam amallarına sarılan şair "Vətən cevgisi imandandır" hədisinin aşiqidir. Akifin qızğın yaradıcılıqla məşğul olduğu Tacəddin dərgahı tarixə həm də milli mücadilənin mərkəzlərindən biri kimi daxil oldu. O, burada həm də Qurani-Kərim məalını yazmış inayətli bir müsəlmana

çevrildi. Mehmet Akif bu illər ərzində məclisin salamını çatdırmaq üzrə bütün cəbhələri gəzib dolanmışdı.

Milli mücadilə marşını yazmaq lazım gələndə Maarif müdürlüyinin verdiyi elana əsasən 724 şer mətni təqdim olunmuşdu. Müdriyyətin vəd etdiyi qonarar vəsiləsi ilə Mehmet Akif şer təqdim etməmişdi. Amma elə bu zaman millî təhsil naziri Həmdullah Subhi bəyin ricası ilə dostu Həsən Bəsri bəy onu ulusal marş yarışmasına qoşulmağa razı sala bildi. Bu vəsilə ilə yazdığı şeiri 12 mart 1921-ci ildə şənbə günü Həmdullah Subhi bəy tərəfindən oxunduqdan və vəkillər tərəfdən ayaq üzərində alqışlanandan sonra saat 17:45-də Türkiyənin ulusal marşı olaraq qəbul edildi. Akif bəysə möhtəşəm əsərinə görə aldığı qonararı cəbhəyə uniforma tikən Dar'ül Məsai xeyriyyə cəmiyyətinə bağışladı.[333]

İstiqlal medalı ilə mükafatlandırılan Mehmet Akif, 1923-cü ildə artıq Ankaradan İstanbula qayıtdı. Abbas Halim Paşanın dəvəti ilə qışı keçirmək üçün Misirə getdi. 1926-cı ildən etibarən on il Misir Universitetində türkcə dərslər verdi. Bu sırada Quranın tərcüməsini etdi. Millətinə "Çanaqqala" kimi dastan, "İstiqlal Marşı" kimi milli marş və "Safahat" kimi ədəbi bir şah əsər hədiyyə edən Məmməd Akif: "Nə xoşbəxt mənə ki, Peyğəmbərin yaşında öləcəyəm" deyərək 63 yaşında oldü...[334]

Səfərindən qabaq Quranı türkcəyə tərcümə etmək üçün Dəyanət İşləri ilə müqavilə imzaladı. Ona təklif edilən bu vəzifədən əvvəlcə öz əsərləri üzərində işləməsi ilə əlaqədar imtina etmək istədi. Çünki

---

*333* Recep Duymaz, Mehmet Akif Ersoyun Şahsiyetinin Qaynakları, *Bilim ve Aklın Aydığınğında Eğitim Dergisi Yıl 7 Sayı 73 Mart 2006,səh 14.*

334 P.Məmmədli. Türk dünyasının Məmməd Akif Ərsoy, Əhməd Cavad və Mir Mehdi Etimad kimi ünlü ədəbi şəxsiyyətlərinin yaradıcılığında ortaq mövzu. Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid, Beynəlxalq kohfransın materialları Bakı, 2013, səh 337.

tüfəngi də, süngisi də qələm olan bu vətən əsgəri “milli mücadilə dastanı”nı yaratmak istəyirdi. Ölkəsində Quran tərcüməsini edə biləcək, möhtəşəm imanın və işığın sahibi olan bir neçə adamdan biri kimi tanındığı üçün bu təklif daha çox israr edildi. Buna məcbur qaldı. Bir neçə illər baharları İstanbulda, qışı Misirdə keçirdi. 1926-cı ilin qışından etibarən Misirdən geri dönmədi. Qahirə yaxınlarındakı Hilvana yerləşdi. Burada demək olar inzivaya çəkilərək Quran tərcüməsi üzərində çalışırdı. Altı-yeddi il üzərində çalışdıqdan sonra gördüyü işdən meəmnun qalmadığı üçün bu məsuliyyətdən necə olursa qurtarmağa çalışdı. Bu onun səbatsızlığından deyil, bəlkə daha çox Quran ecazı qarşısındakı məhəbbət dolu heyranlığından xəbər verirdi.

Mehmet Akif bəy namına yaraşan işləri ilə Vətəni, xalqı və İslamın ardıcılları üçün misli görünməmiş xidmətlər verdi. Onun İslam, vətən, insanlıq adına etdiklərini ölkəsi tarixindən, xalqı qəlbindən heç vaxt silməyəcək.

Bu gün bizlərin də (inkişafımızın bu mərhələsində) İslama dönüşü türklüyümüzə ikinci ömür bəxş edə biləcək tutarlı addımdır. Bu gün yavaş-yavaş özünə yol açmağa başlayan demokratiyamız da islami təfəkkürə malikdir. O İslami təfəkkürə ki, azğınlığa, diktatorluğa, firounluğa düşmən kəsildiyi qədər də “firon sarayına daş daşıyan kölə xislətini, gücə əyilmə azarını rədd edir. İdarəçiliyin şura ilə /şura 38/, yəni, məşvərət məsləhətlə mümkünlüyünü məqbul sayır.

Hesab edirəm ki, Akifin keçən əsrdə bir islamçı olaraq bizə anlatdığı kimi Quran mətnindən hali olmaya-olmaya tarixi-mədəni irsimizi anlamaq, ümumiyyətlə, milli təfəkkür qaynaqlarını araşdırıb tarixi yaddaşımızın bərpası işində və istiqlalımızın gerçəkləşməyə üz

qoyduğu bir dövrdə qlobal milli problemlərimizin həlli yönümündə yardım ola biləcək hər hansı bir fəaliyyətdə bulunmamız müşküldür. Və bu məsələdə İslamın ilkinliyinə-əsrlər uzunu təhriflərə uğramış dini qavramlardan xali olan saf başlanğıcına aparan mətnlərinin tərcüməsi ilə, İslam adına həyat mücadilələri aparıb, bu dinin saf və mübariz məramından istifadə edən fədailərin irsinə də qaydışımız müəyyən perespektivlər açır. İnananların siyasi şüurunu praqmatik din anlayışları yönümündə formalaşdıran və mahiyyət etibarı ilə hakimiyyət bütpərəstliyi ilə doğmalaşan, islama deyil, insan azadlığını ideoloji zərurət kimi irəli sürən əsl mənada tək Allahlılığa, xalis dinə dönməyimizi azadlıq mübarizəmizin özü, milli dövlətçiliyimizin bərpası naminə parlamanda bir daha ucaltdığımız üç rəngli bayrağımızın özülündəki yaşıl zolaq tələb edir.

Bu gün türklüyümüzü, demokratiyamızı dediyimiz anlamda islamsız təsəvvür etmək mümkün deyil. Tarixən milliliyimizi xarici sarsıntılar qarşısında deformasiyaya uğramaqdan qoruyub saxlayan da, onun bəşəri çalarlarını artırmaqla millətimizi böyüdən də köklərimizə bağlılığımız, dinimizə qayıdışımız ola bilər ki, məhz elə bu tərəflərdən Mehmet Akif yaradıcılığı suda batan və çıxan aysberq kimidir. Hərdən üzdə olan tərəfi, hərdən də hesablanılarkən daha çox sanbala malik olan alt tərəfi görünür. Özü üçün yaşamayıb dininə, köklərinə canı ilə, ağlı ilə bağlı olanlar, Kantın ibarəsi ilə desək: "Allah yanında əbədi olan kateqoriyalarla", mühakiməyə gəlməyən bəyənilmiş bir ömür sahibi olurlar.

# TƏNİZMAT DÖVRÜ ƏDƏBİYYATI: NAMİQ KAMAL VƏ MƏSLƏKDAŞLARININ VƏTƏN, MİLLƏT, AZADLIQ FƏLSƏFƏSİ

... XIX əsr Türkiyənin siyasi həyatında çox təbəddülatlı bir əsr idi. Belə ki, bu dövrdə Avropa dövlətlərinin maraqlarının Türkiyəyə nüfuz etməsi və eyni zamanda İmperiyanın sosial, siyasi və iqtisadi həyatında bir tənənzülün başlaması 1839-cu ildə Osmanlı dövlətini "tənzimat islahatı" qəbul etməyə vadar etdi. Tənzimat islahatının qəbulu bilavasitə Avropanın təsiri ilə bağlı idi. Daha dəqiq desək, "tənzimat islahatı" Osmanlı dövləti tərəfindən Avropa həm də Rusiya müdaxiləsi qarşısında "öz varlığını qorumaq" üçün həyata keçirdiyi ictimai, siyasi hərəkat idi. Həyata keçirilən islahatların ədəbiyyata da təsiri olduğu üçün bu dövrdə Osmanlıda Avropa ədəbiyyatının türk ədəbiyyatına həm formaca, həm də məzmunca təsirini özündə əks etdirən "tənzimat ədəbiyyatı" dövrü yarandı...

Belə ki, bu dövrdə Avropa ölkələrində kapitalizmin əmələ gəlməsi üçün maddi baza ilə bərabər, feodalizm ideologiya sına zərbə vuran ideologiya da yaranmalı idi. Fransa, İngiltərə, Almaniya və s. ölkələrdə belə ideologiya yaranmışdı. Din, sxolastik elm və ədəbiyyat köhnə, zərərli təhsil sistemi və s. əleyhinə burjua ideoloqları məhdud cəhətləri olsa da, materialist dünyagörüşünü, həqiqi elmi, yeni ədəbiyyatı, yeni təhsil sistemini irəli sürdülər. Bu sahədə Avropanın artıq zəngin təcrübəsi formalaşırdı.

Kapitalizmin ancaq rüşeyim halında olduğu Osmanlı

İmperiyasında isə güclü feodalizm ideologiyası ilə müvəffəqiyyətli mübarizə aparmaq üçün onun müstəqil ideologiyası yaranmamışdı. Cəmiyyət həyatının əsas sahələrini əhatə edən islahatlar Avropa ölkələrindən, xüsusən də Fransadan alındığı üçün deməli, feodalizm idealoqiyası ilə mübarizə aparan ideoloji silah da Avropadan alınmalı idi. Bu ideoloji prinsiplər din, sxolastika və fanatizmlə mübarizə apardığı üçün mütərəqqi hesab olunmalıdır.

Beləliklə, Osmanlı İmperiyasına Avropanın iqtisadi, hərbi təsiri ilə bərabər, onun materialist fəlsəfəsi, humanist ədəbiyyatı, yeni, nisbətən mütərəqqi sistemi də daxil oldu. "Avropanın təsiri ilə Türkiyədə mətbuat işləri inkişaf edir, Avropaya meyilli yeni qəzet və jurnallar çıxırdı. Avropa klassiklərinin, fransız yazıçılarının əsərləri türk dilinə tərcümə edilirdi. Bütün bunların təsiri altında türk ziyalıları da avropasayağı əsərlər yaratmağa başlayırdılar"[335].

Avropameyilli ədəbiyyat istər məzmun, istərsə də forma, dil etibarı ilə o zamankı osmanlı ədəbiyyatından ciddi surətdə fərqlənirdi. İbrahim Şinasi, Namiq Kamal, Ziya Paşa, Əbdülhəq Hamid, Mahmud Əkrəm və b. tənzimat dövrü ədəbiyyatının ən fəal nümayəndələri idilər. Bu şairlər, hər şeydən əvvəl türk ədəbiyyatını köhnə mövzu və forma qəlbindən çıxarmağa, öz ədəbiyyatlarına, Avropa ədəbiyyatı təsiri ilə yeni məzmun və forma verməyə çalışır, qəliz osmanlı dilini qismən sadələşdirirdilər.

Bu vaxta qədər, yüz illər ərzində, osmanlı ədəbiyyatında görünməyən, yaxud çox nadir hallarda özünü göstərən hürriyət, zəhmət, vətən, millət, ailə-məişət, azadlıq, müharibə və s. mövzular zəif olsa da, bədii ədəbiyyata yol tapırdı. Şairlər əruz vəzni ilə

335 R. Hüseynov. Namiq Kamal, Bakı Yazıçı, 1990, səh

bərabər, heca vəzni ilə şeir yazmağa başlamışdılar. İstər tənzimat dövründə, istərsə də sonrakı dövrlərdə türk ədəbiyyatı yalnız Qərbi Avropa ədəbiyyatından yox, eyni zamanda dövrünə görə çox yüksək səviyyədə olan, öz böyük simaları, xəlqiliyi, demokratizmi, sənət gözəlliyi və bütün ruhu, forması ilə rus ədəbiyyatından da çox təsirlənmişdir[336].

Tənzimat ədəbiyyatının babası hesab olunan Şinasi osmanlı dilini və qrammatikasını islah edərək kənd camaatının da başa düşə biləcəyi bir dil halına salınması zərurətini qeyd etmiş və özü, praktik olaraq, bu işlə məşğul olmuşdur. O, bu məqsədlə mükəmməl türk dili lüğəti tərtib etmiş və sırf türkcə bir sıra hekayələr yazmışdır. (məs. "Qaraquş yavrusu ilə qarğa hekayəsi" və s.)

"Yeni Osmanmlıların" liderlərindən olan şair Ziya Paşa "Şeyr və inşa" məqaləsində yazırdı ki, içərisində üçdə biri türkcə sözləri, tərkibləri olmayan, ərəbcə, farsca dolu, çox çətin başa düşülən, orfeopiyası və orfoqrafiyası qeyri-müəyyən olan bir dil-osmanlı dili bizi təmin edə bilməz. Bu, türk dili deyildir.

Xatırladaq ki, (Ziya paşa, Şinasi və Kamal kimi) türk dili barəsində müsbət mülahizələri o zaman bir sıra rus və Qərbi Avropa şərqşünasları tərəfindən də irəli sürülürdü.[337]

İmperiyanın ziyalı təbəqəsi bu yolda səylə çalışırdı. Lakin bu ideoloji mənimsəmə, faydalanma bəzən yerli şəraitə uyğunlaşdırılmır, mexaniki şəkildə gedirdi.

Türklər müxtəlif iqtisadi, tarixi, ənənəvi və s. səbəblər nəticəsində uzun müddət Fransa iqtisadiyyatı və mədəniyyətinə

---

336 R. Hüseynov. Namiq Kamal, Bakı Yazıçı, 1990, səh

337 R. Hüseynov. Namiq Kamal, Bakı Yazıçı, 1990, səh, 98

meyil etmişlər. Tənzimat dövründə cəmiyyət həyatının bir çox sahələrində Avropanı təqlid etmək türk ədəbiyyatına da qüvvətli təsir göstərmişdir. Bir neçə inqilabdan çıxmış, kapitalizm şəraitində inkişaf etmiş, Avropa ölkələrində və Rusiyada ədəbiyyat çox irəli getmişdi. Türklərin ziyalı təbəqələri, bir sıra dövlət xadimləri öz xalqına yeni, avropasayağı bədii əsərlər vermək üçün ədəbi islahat aparmaq, Avropa mütərəqqi ədəbiyyatından, o cümlədən rus ədəbiyyatından istifadə etmək məsələsini ortaya atmışdılar. Bu islahat müxtəlif yollar və vasitələrlə həyata keçirilirdi. Avropadan, xüsusən Fransadan mütəxəssislər, türk məktəbləri üçün müəllimlər dəvət olunur, orta məktəblərdə fransız dili tədris olunurdu. Ölkəyə fransız dilində çoxlu kitab, qəzet və jurnallar gətirilirdi.

Qeyd edək ki, bu dövrdə avropasayağı ədəbiyyatın Türkiyədə banisi İbrahim Şinasi hesab olunurdu[338]

Hökumət, “gənc türklər”, ziyalılar, eləcə də ayrı-ayrı varlılar tərəfindən gəncləri fransaya müxtəlif ixtisaslar üzrə oxumağa ğöndərirdilər. Həmin gənclər Fransaya müxtəlif ixtisaslar üzrə oxumağa göndərilirdi. Onlar Fransa qabaqcıl mədəniyyəti və ədəbiyyatı ilə tanış olur, Fransa ingilabı hərəkatı onların dünyagörüşünə böyük təsir edirdi.

Beləliklə, Türkiyədə “tənzimat dövrü ədəbiyyatı” bu gənclərdən biri olan Şinasi[339] ilə başlasada onun bir çox parlaq nümayəndələri olmuşdur ki, onlardan ən diqqətəlayiq yaradıcılığı olan Namiq Kamaldır. Şinasinin dəvəti ilə “Təsviri-əfkar” qəzetində böyük

338 R. Hüseynov. Namiq Kamal, Bakı Yazıçı, 1990, səh30

339 İbrahim Şinasi Parisdə təhsil alarkən 1848-ci il inqilabı baş vermişdir. O, bu inqilabın atəşin tərəfdarı kimi nümayişlərdə fəal iştirak etmiş və hətta iş o yerə çatmışdır ki, bütün parislilərin gözü qarşısında, birinci olaraq Panteonun qülləsinə qalxmış, qırmızı inqilab bayrağını oraya sancmışdır bax: B.A.Qordlevskiy. İzbrannıe soçinenie, II, c, M, 1961, s 353.

həvəslə çalışan Namiq Kamal 1865-ci ildə Şinasinin Fransaya gedişi ilə bu böyük paytaxt qəzetinin baş redaktoru olmuşdur.[340] Beləliklə, Namiq Kamalın bayraqdarı olduğu "**tənzimat** ədəbiyyatı" daha sürətlə inkişaf edərək çoxlu tərəfdar toplaya bilmişdi.

2015-ci ilin ilin dekabr ayında bu böyük türk inqilabçı şairi, Tənzimat dövrü ədəbiyyatının bayraqdarı Namiq Kamalın anadan olmasının 175 (1840 21 dekabr) ili tamam oldu. Qüdrətli istedada, nadir hafizəyə malik olan Kamal indiki Albaniya ərazisinə düşən Təkirdağ qəsəbəsində zadəgan ailəsində doğulmuşdur. Nəslindən dünyaya sədri-əzəmlər, böyük sərkərdələr, şairlər, alimlər gəlmişdir. Bu nəslin üzvüləri hər nə qədər hakimiyyətə yaxın olsalar da, bir o qədər mədhiyyəçilikdən uzaq olub öz yenilikçi və azadfikirli ruhları ilə daima təqiblərə məruz qalmış, lakin tutduqları yoldan dönməmişlər. Məhz elə bir mühitdə böyüyən Namiq də üsyankar bir ruhun daşıyıcısı olub azadfikirli gənc idi.

Qeyd edildiyi kimi, yaradıcı həyatına bir jurnalist, redaktor kimi başlamış inqilabi hərəkatını davam etdirmək üçün isə o da Avropaya mühacirət etmiş, İstanbula qayıdarkən zindan və məhbəslərdə xeyli illərini keçirməli olmuşdur. Bununla bərabər, ən çətin anlarında belə, mübarizə əzmini itirməmiş, məsləyindən dönməmişdir. Daima çalışmış, ölkənin xoş güzəranını yeni mütərəqqi ideyalara sarılıb yeni yolla inkişaf edən ölkələrə çatmaqda görmüşdür. Bu yolda hər şeyindən keçməyə hazır idi. Təki sultan Türkiyəsi "Yeni Osmanlılar"ın ideyalarına sayqı göstərsin. "Yeni Osmanlıların" bağışlanaraq Türkiyəyə qayıtdığı 1870-ci ildə o da İstanbula gəlir və ilk satirik qəzet olan "Diyojen"də öz satiraları, "İbrət qəzetində ciddi, sərt

340 R. Hüseynov. Namiq Kamal, Bakı Yazıçı, 1990, səh 33.

kəskin tənqidi məqalələri, eləcə də dram əsərləri, xüsusən də "Vətən və ya Slistrə" pyesi ilə mübarizəyə qoşulmuşdur[341] (Hüseynov səh 35). Mübariz nəslinin əzimkarlığını Vətənə sədaqətlə birləşdirən və Vətən yolunda hər şeyindən keçməyə hazır olan N.Kamal şeirlərindən birində yazırdı:

***Daima mərd olmağı əhd eylədim canımla mən,***
***Höccəti-namusumu imzaladım qanımla mən,***
***Bir əsayət eyləsəm,[342]yüz min itab[343] eylər mənə***
***Duzəxi[344] dünyada gördüm kəndi vicdanımla mən***

Avropaya meyilli Tənzimat ədəbiyyatının inkişafı və sadə dillə yazmaq hərəkatı öz yolunda ciddi maneələrə rast gəlirdi. Yüz illər ərzində yaşayan, müəyyən ənənələri, çoxlu tərəfdarları olan köhnə divan ədəbiyyatı öz mövqeyini asanlıqlla yeni ədəbiyyata vermək istəmirdi.

Köhnə ədəbiyyatın nümayəndələri-Kazım paşa, Şeyx Vəsvi, Övni, sonralar Raci və başqaları ədəbiyyatı ancaq "Yeni klassisizm" adlanan bir yolda islah və inkişaf etdirməyə çalışmışlar. Lakin bu baş tutmamış, H. Kamalın bayraqdarı olduğu Tənzimat ədəbiyyatı daha sürətlə inkişaf edərək çoxlu tərəfdar toplaya bilmişdir.

Tənzimat ədəbiyyatı türk ədəbiyyatına nə yeniliklər gətirmişdir? Bu suala belə cavab vermək olar: O, əsas etibarı ilə geniş kütlələrə müraciət etmişdir. H. Kamal divan ədəbiyyatı əleyhinə çıxaraq – yuxarı təbəqə üçün kitab yazmaq qədər əbəs şey yoxdur – deyirdi.

341 R. Hüseynov. Namiq Kamal, Bakı Yazıçı, 1990, səh 35.

342 Əsayət-istirahət

343 İtab-məzəmmət danlaq

344 Duzəx-cəhənnəm

O, xalqa doğru getməyi, onun üçün yazmağı tələb edirdi. Tənzimat ədəbiyyatı Şərq üslubundan, məzmundan çox sözlərin şəklinə fikir verən, mürgüləyən, donmuş qəliblərlə yazılan, həyatla səsləşməyən ədəbiyyatdan əl çəkərək, zamanına görə mütərəqqi sayılan Qərbi Avropa ədəbiyyatına doğru (çünki bu ədəbiyyat feodalizmin mürtəce ideologiyasını, o cümlədən ədəbiyyatını da yıxmış və yerində o zaman özünün də inqilabçı, mütərəqqi olduğu burjua ədəbiyyatını yaratmışdı) qarşısıalınmaz bir meyil əmələ gəlmişdi. Bu hal türklərin ədəbiyyatına həm məzmun, həm də forma etibarı ilə ciddi təsir edirdi.

Tənzimat dövrünün şair və ədibləri Monteskiyö, Russo, Volterin əsərləri ilə yaxından tanış olur, ona yaradıcılıqla yanaşır, öz ədəbiyyatları ilə müqayisə edir, zülm və istibdad əleyhinə, insan hüquqları uğrunda mübarizə aparan, əvvəlkindən əsaslı surətdə fərqlənən yeni ədəbiyyat yaradırdılar. Bu ədəbiyyatın nümayəndələrinin bəzisi klassisizm, bəziləri romantizm (H. N. Kamal, Əbdülhəq Hamid, Mahmud Əkrəm və b.), bəziləri realizm (Sami Paşazadə, Nazim Habizadə və b.) yolu ilə getmişlər.[345]

Tənzimat ədəbiyyatı nümayəndələri dili sadələşdirmnəyi, "avam camaatın dilində" yazmağı tələb etmişlər. Divan ədəbiyyatından fərqli olaraq, bu ədəbiyyat real həyatı, təbiəti tərənnüm etmək yollarına qədəm qoymuşdu.

XIX əsrin ikinci yarsında Avropa yönümlü yeni türk ədəbiyyatının formalaşma və inkişafında xidməti olan sənətkarlardan biri də Namiq Kamaldır.[346] Bu dövr Türkiyəyə daha çox Avropa təsiri ilə xarakterizə olunurdu. Namiq Kamal yaradıcılığı özünün siyasi

---

345 R. Hüseynov. Namiq Kamal, Bakı Yazıçı, 1990, səh., 78

346 E. Quliyev. Türk xalqları ədəbiyyatı, Bakı, Qismət, 2009, səh 79.

tutumuna görə daha zəngindir. Atatürk Namiq yaradıcılığının ictimai-siyasi təsirini yüksək qiymətləndirmiş və fikirlərini aşağıdakı şəkildə belə ifadə etmişdir: "Vətənin qurtuluşu və istiqlalı üçün ölməyi bugünkü nəslə Namiq Kamal öyrədirdi. Namiq Kamaldan gələn səsin sehrinə qapılmışdıq. Bu səs ruhumuzu şimşək kimi çaxdırdı. Bu səs indiyədək oxuduğum şeirlərdəki oxuduğum şeirlərdəki səsə heç oxşamırdı"[347]

Namiq Kamala görə, vətən insanlar arasında dil, sevgi və qardaşlıq birliyi yaradan torpaqdır. Bu birliyi yaranmayan, belə birliyi olmayan torpağa vətən demək olmaz. Namiq Kamalın ortaya atdığı ideya müəyyən əqidə yaxınlığında olduğu Şinasinin "bütün millətlər üçün tək bir vətən" fikrindən kəskin şəkildə fərqlənir. Kamal "tək bir vətəndə savaş halında olan fərd və zümrə olduğunu" nəzərə alaraq aldığından bu düşüncələrin həqiqətlə heç bir əlaqəsi olmadığı fikrinə gəlir. Onun düşüncələri osmanlıçılıq, islamçılıq və türkçülük ideyaları şəklində əksini tapır[348].

***Qalxın, ey əhli vətən biz də şadan olalım***
***Dini-millət uğrunda, haydı, qurban olalım[349].***

Lakin o, yuxarıda deyilən "dil birliyi, fikir və sevgi qardaşlığı" prinsipinə bağlılığını nümayiş etdirdiyindən osmançılıq və islamçılığı türkçülüyə nisbətən şərti və zahiri formada götürür, bütün ideyaları türkçülüyə xidmət şəklində qəbul edir.

Namiq Kamal hürriyət, vətən, millət eşqinin, xalqın azadlıq mücadiləsini özündə əks etdirən əsərlərindən biri "Hürriyyət

347 E. Quliyev. Türk xalqları ədəbiyyatı, Bakı, Qismət, 2009, səh 79.

348 E. Quliyev. Türk xalqları ədəbiyyatı, Bakı, Qismət, 2009, səh 80.

349 N. Kamal. Əsərləri, 3 cilddə, İstanbul, 1957.

qəsidəsi"dir. Poemada II sultan Əbdülhəmid hakimiyyəti illərində əzilən, haqqı tapdanan xalqın istiqlal arzularının tərənnümü əsas yer tutur. Müəllif əsərdə istiqlalın xalq üçün nə qədər şirin bir nemət olduğunu, tanrının bu neməti insanlar üçün yaratdığını xüsusi vurğu ilə nəzərə çatdırır:

***Nə əfsunkar imişsən ey didari hürriyyət,***
***...Nə yari-can imişsən, ah, ey ümmidi-istiqbal,***
***Cahanı sənsən azad eyləyən hər hüsi-möhnətdən***[350]

Namiq Kamal aşiqi olduğu hürriyətə həsr etdiyi əsərində xalqın haqqı olan şeyləri ona verən dövlət məmurlarını yüksək qiymətləndirir, bir yetkilinin üstünlüyünün ancaq xalqına xidmətində olacağının fəlsəfəsini

***Usanmaz kəndini insan bilənlər xalqa xidmətdən,***
***Mürüvvətmənd olan, məzlumə əl çəkməz inayətdən.***
***Mümini zalimin dünyada ərbabi dənaətdir,***
***Köpəkdir zövq alan səyyadi-biinsafa xidmətdən.***[351]

1887-1878-ci illər türk-rus müharibəsində uğursuzluğa düçar olmuş Türkiyənin vəziyyətinə acıyır, məğlubiyyətin əsas səbəbkarı kimi sultan Əbdülhəmidi tənqid obyektinə çevirir.

Namiq Kamalın yaşadığı və fəaliyyət göstərdiyi zaman Türkiyə siyasi burulğanlar içərisində idi. Təbii ki, bu hal şairin vətən və millət arzularının gerçəkləşməsi ilə ziddiyyət təşkil edirdi. Daha doğrusu, bu proseslər girdabında şair xalqı üçün arzuladığı günlərin hələ uzaqda olduğunu başa düşür və məyus halda fikirlərini belə ifadə edirdi:

---

350 N. Kamal. Əsərləri, 3 cilddə, İstanbul, 1957.

351 N. Kamal. Əsərləri, 3 cilddə, İstanbul, 1957.

***Ölürsəm millətimdə görmədim ümid etdiyim feyzi,***
***Yazılsın səngi-qəbrimdə vətən məhzun, mən məhzun***

Mənbələr xəbər verir ki, Güney Azərbaycan Milli azadlıq hərəkatının rəhbəri Şeyx Məhəmməd Xiyabani ağır yaralanarkən, ölüm ayağında Namiq Kamalın yuxarıdakı misraları deyərək dünyasını dəyişmişdir.

Tənzimat ədəbiyyatının tələblərinə uyğun əsərlər yazan, dramaturgiya janrında özünə yer tutan, roman janrında həcmli əsərləri olan Namiq Kamalın yaradıcılığında gözəl bir qadın şəklində təsəvvür edilən "sevgili vətən" və "ana vətən" ifadələri məhz onun qələminə məxsusdur.[352]

Təəssüf ki, məhsuldar yaradıcılığının baharında, ağır keçən həyatının isə 48-ci qışında, yenə bir dekabr günündə (1888-ci il 2 dekabr) həyata əbədi əlvida demişdir...

O, bir zədəgan ailəsinin övladı olsa da, biliklərinin çoxsunu dönmədən öz üzərində müstəqil çalışmalarından əldə etmişdi. Avropaya mühacirəti dönəmində, bilavasitə Qərb alimləri, ədibləri, inqilabçıları, sosialistləri ilə görüşləri zamanı əldə etdiyi biliklər nəticəsində siyasət, ədəbiyyat, tarix, iqtisadiyyat və s. sahələrdə dərin ensiklopedik məlumatlara yiyələnmişdir.[353] Bu biliklər onun zəkasının dərinləşməsinə, dünyagörüşünün zənginləşməsinə səbəb olmuşdur.

Namiq Kamal türklərin üç inqilabçı şairindən biridir. O, Türkiyə inqilab hərəkatının banisi kimi XIX əsrin 60-cı illərindən bədii sözü silaha çevirən bir şair idi. Türkiyənin tarixində "Yeni Osmanlılar Partiyası"nın həm yaradıcısı, həm də başqanlarından biri olmuşdur.

352 E. Quliyev. Türk xalqları ədəbiyyatı, Bakı, Qismət, 2009, səh 80.

353 R. Hüseynov. Namiq Kamal, Bakı Yazıçı, 1990, səh., 33.

Əsrlərdən bəri Şərq, deməli, türk ədəbiyyatında da şairlərin "gül və bülbül" şəninə yazdıqları şer və hekayələr Kamal yaradıcılığında "Vətən və millət" kimi səslənməyə başladı. O, alovlu qələminin əzmi, vətənpərvər qəlbinin hökmü ilə millətini yeni günlərə, hüriyyətə səsləyirdi. Türkiyədə inqilabi hərəkatın bu dövrünü öyrənməyin tədqiqatçılar üçün başqa bir mənası da vardı. Kamalın da iştirak etdiyi inqilabi hərəkat məhz bu qanunauyğunluqları sübut edən mühüm bir tarixi mübarizə epizodudur. Belə ki, imperiya həyatanın bu cür dramatik şəraitində ədəbiyyatı xalqın, azadlığın xidmıtinə verməyin nə qədər çətin, ağır vəzifə olduğunu sübuta ehtiyac yoxdur. Namiq Kamal bu çətinlikdən qorxub çəkinən adamlardan olmadı. O, qələmini silaha çevirmiş şair, inqilabi ruhda pyeslər yazan dramaturq, avropasayağı romanlar müəllifi və mübariz mətbuatın tərəqqisi yolunda çalışan jurnalist idi. Vətən, azadlıq, mübarizə, inqilab məfhumlarını ədəbiyyata da ilk dəfə o daxil etmişdir. Kamalın inqilabi fəaliyyəti və azadlığa, mübarizəyə çağıran əsərləri 1908-ci il burjua inqilabına, sonralar isə Türkiyə azadlıq hərəkatına, Padşahın taxdan salınaraq Respublika qurulmasına ciddi təsir etmişdir:

***Vətənin bağrına düşmən dayamış xəncərini***
***Yoxmudur qurtaran bəxti qara madərini?***

Bu həyacanlı misralarla çağrışına Mustafa Kamal paşa Türkiyə Böyük Millət Məclisinin tribunasından qarşılıq verərək demişdir:

***Vətənin bağrına düşmən dayasın xəncərini***
***Bulunur qurtaracaq bəxti qara madərini!***

N.Kamaldan sonra türkləri azadlığa, inqilaba səsləyən şair Tofiq Fikrət olmuş, o, Kamalın dini-idealizmə əsaslanan mübarizəsinə materialist, ateistik bir ruh gətirmişdi. Milləti istibdadı yıxmaq, onun

yerinə xalqa demokratik azadlıqlar verən Respublika yaratmaq vəzifəsini qopymuşdu. Bu yolda milləti silahlı üsyana çağıran Fikrət yazırdı:

***Haqsızlığın ənbaini gördük, bumu qanun?***
***Ən qəmli səfalətlərə düşdük, bumu dövlət?***
***Dövlətsə də, qanunsa da artıq yetər olsun!***
***Zülmün topu var, gülləsi var, qaləsi varsa***
***Haqqında bükülməz qolu, dönməz üzü vardır...***

Tofiq Fikrətdən sonra türk məfkurəsində azdfikirliliyin rəhni olan mübarizəni Nazim Hikmət də davam etdirdi və bu mübarizənin miqyasını xalqına məxsus sərhədlərdən xeyli uzaqlara Qərbə və Şərqə yaydı. XX əsrin 50-ci illərində o, Türkiyənin Bursa həbsxanasından yazdığı şeirləri ilə Çin, Vyetnam və yunan zəhmətkeşlərini azadlıq uğrunda mübarizəyə ruhlandırırdı.

Eyni ruh daşıyıcıları içərisində Kamalın ən seçkin mərtəbədə durmasını Türkiyənin millətçi şairəsi Xalidə Ədib xanım belə qələmə almışdır: “Məncə ən yüksək və laik olan Kamaldır. Mərd, cəsur, fədakar, bir qayə aşiqi, qəhrəman ruhlu bir dövlət adamı!” (Xatırladım ki, N.Kamal bir xeyli məsuliyyət tələb edən dövlət vəzifələrində də çalışmışdır-Ş.M).

...Tənzimatın başındakı mühərrirlərimizi (...) zehniyyət etibarilə daha yüksək sayıram. Onlar daha qüvvətli ideal shibləridir.”

“Tənzimat ədəbiyyatının formalaşdığı zamanın ağırlığı və inqilabiliyinin yüksək dərəcəsi etibarı ilə bu dövr ədəbiyyatını “ədəbiyyati-cədidədən” də daha üstün sayıram” – deyən Həmdullah Sübhi bəy isə Kamalı dəyərləndirərkən həm də “…Bana çocuk senelerimde ... memleketimin aşkını, yüksek ve asıl şeylerin sevgisini,

küvvete ve zülme kafa tutmanın zevkini öğreten Kamal bey oldu" – demişdir.

**2015-ci il** Namiq Kamalın anadan olmasının 175 ili tamam oldu. 50 yaşı belə bütöv yaşaya bilməmiş şairi təkcə Türkiyə türkləri deyil, bütün türkdilli xalqlar türkçülüyün, türk milli kimliyinin dərk edilməsi, vətən azadlığı yolunda mübarizələrdə ömür keçirmiş öndərlərindən biri hesab edir:

***Rifahi-millət için tərki-rahət eyləyəlim***
***Vətən yolunda yürü, əzmi-qürbət eyləyəlim!***
***Müyəssər olmaz isə bari mülkün ehyası,***
***O yolda ölməyə israri-qeyrət eyləyəlim!***
***Hökumət isə qərəz, xəlqə xidmət eyləyəlim!***

Şairin mübarizə və əzimkarlığa çağrışla dolu misralarını düşüncələrinin nəticəsi kimi verdik.

# NƏTİCƏ ƏVƏZİ: YENİ İCTİMAİ, SİYASİ FİKİRLƏR – YENİ İCTİMAİ QURULUŞDAN DOĞUR

...Bəşəriyyətin fəlsəfi fikir tarixində iz buraxmış “Yeni dövr” fəlsəfəsi XVI əsrin sonu, XVII əsrin başlanğıcında XX əsrə qədər olan dövrü əhatə edirdi. Onun meydana gəlməsinin müqəddəm şərtlərinin hər şeydən əvvəl Avropa ölkələrinin siyasi, iqtisadi həyatında baş vermiş mühüm dəyişikliklərin olduğu maraqlananlara bəllidir. Bu əsrlərdə İtaliya şəhərləri çiçəklənməyə, bu diyar özünün “oyanış” dövrünü yaşamağa başlamışdı. Bu oyanış “qonşularından dala qalmaq istəmə”yən ölkələrə də (Hollandiya, İngiltərə, Fransa, İsveçrə, Almaniya) keçmişdir. Yeni dövr fəlsəfəsinin meydana gəlməsi həm də kapitalist istehsal münasibətlərinin təşəkkül tapması, təbiət elmlərinin, o cümlədən mexanikanın inkişafı ilə əlaqədər idi.

Əsasən təbiətdən kənarda heç bir fövqəltəbii qüvvəni axtarmayan bu dövr filosoflarının təbiət və cəmiyyət hadisələrinə mexaniki və metofiziki materializm mövqeyindən yanaşmasını, mexanikanın qanunlarını ən ümumi – universal qanunlar hesab etməsini də bilirik. Materiyanın hərəkətini cismin məkan daxilində dəyişməsi kimi başa düşən mexaniki materialistlər dünyanı, ümumiyyətlə, obyektiv aləmin predmet və hadisələrini bir-birindən təcrid olunmuş şəkildə öyrənirdilər. Ya istəyərəkdən, ya da bilmədən bunu etdiklərini skeptikcəsinə söyləmək istəməzdik. Hesab edirik ki, o zamana qədər də dünyanın bir tam halında, bir kül halında mövcud olması

barəsində fikirlər qərarləşmış fəlsəfənin ayrı-ayrı cərayanlarında artıq söylənilmişdir[354].

Nədən bu mexaniki materialistlər obyektiv gerçəkliyi bir kül halında görmək istəmirdilər? Bəlkə bu külli, bütün qanunları və qaydaları ilə Yaradanı dərk etməkdən qaçırdılar? Bu filosoflar özlərini humanizm fəlsəfəsinin tərəfdarları hesab edirdilər. Çoxları humanizm anlayışını insan sevgisi, "barış", "dostluq", "qardaşlıq" kimi başa düşür. Ancaq fəlsəfi baxımdan humanizmin daha vacib alt bir mənası var: Humanizm – "insanlıq" anlayışını insanların yeganə məqsədinə çevirən bir düşüncədir. Başqa sözlə desək, insanı yaradıcısı olan Allahdan üz çevirməyə sadəcə öz varlığını aliləşdirməyə və aliliyə səcdə etməyə çağıran bir cərayandır. Bu sözün ingilis dilindəki mənası belə açıqlanır - "ən yüksək dəyər, xarakter və davranış", lakin hansısa fövqəltəbii qüvvədə deyil, bu fövqəltəbiiliyin insanda olduğuna inamda[355].

Humanizmin ən anlaşıqlı izahını isə bu fəlsəfəyə inananların özləri veriblər. Müasir dövrün tanınmış yazarlarından sayılan Korliss Lamond (Corliss Lomont) "The philosophy of humanism" (Humanizm fəlsəfəsi) adlı kitabında belə yazır: "Humanizm bütün gerçəkliklərin məhz təbiətin özündən olduğuna inanır, qəbul edir ki, kainatın əsası mənəvi olan deyil – materiyadır... Təbiətin fövqündə heç nə yoxdur. İnsanlar fövqəltəbii və ölümsüz ruhlara sahib deyillər. Kainatın fövqündə əzəli və əbədi bir yaradıcı mövcud deyildir".[356] Ayrıca

354 Fəlsəfə. Ali məktəblər üçün dərslik, Bakı, 1997, s.,129 (Yeni dövr bölməsi)

355 Encarta World English Dictionary 1999 Microsoft Coorporation developed for microsoft by Bloomsbury publishing

356 Lemont. "The philosophy of humanism" London 1977. s.116.

kitabın 45-ci səhifəsində müəllif yazır ki: "Əslində, humanizmin təməlində ateizm dayanır[357]"

Humanizm fəlsəfəsi XVI əsrdən nəşət taparaq, bütün ölkələrə asta-asta yayıldı. Humanistlər zamanında cəmiyyətlərin rifahı üçün xeyli işlər gördülər. Teoloji fəlsəfəyə (sxolastika-Ş.M) əks pozisiya kimi həyata vəsiqə alan humanizm, maarifçilik fəlsəfəsi də, əslində, o dövrdə formalaşmaqda olan kapitalizmə və onun ideoloqlarına xidmət məqsədi güdürdü. Siyasi-fəlsəfi fənlərin istər-istəməz dövrün hakim idologiyasının təsirinə məruz qalması heç kimə artıq sirr deyildir. Amma öz təlimlərini yaradan, eləcə də mütərəqqi fikirlərini söyləyən insanların düşüncələrinə diqqət edəndə, əslində, bu insanların sətirlər altında yatan, mənalar güdən fəlsəfələrini öyrənə bilərik. Özü də o dövrün tarixi-siyasi (geopolitik) mənzərəsini öyrənən və bilən bizlərə onların ideologiyalarını açıqlamaq bir o qədər də çətinlik törətmir. İlham müəllim yazır ki: "...aydındır ki, bu ideya (maarifçilik-Ş.M) ayrılmaz surətdə inkişafla bağlı idi". Qeyd etməliyik ki, XX əsrdə inkişaf bir mənalı olaraq texnokrat inkişaf ideyası ilə bağlı olub onunla üst-üstə düşmədi.[358]

Sözügedən əsər müəllifləri göstərirlər ki, həm sovet, həm də avropa marksistləri bu və ya digər dərəcədə əmin idilər ki, inkişaf texnokratiyanın hakimiyyəti və elmin inkişafı ilə mümkündür. Bunu Ogüst Kont da təsdiqləyir və yazırmış ki, "alimlər cəmiyyətdə başlıca qüvvəyə çevrilərək, dövlətçiliyin əsaslarına söykənən ideologiyaları

357 Yenə orada

358 И.Мамедзаде, З. Геюшева. Модерн, просветительские идеи Гасанбека Зардаби и философия просвещения. Баку, Текнур, 2015, ст 118.

və pozitiv dini inkişaf etdirməlidirlər.[359] İlham müəllim hərdən institutumuzda təşkil etdiyi seminarlarında da qeyd etmişdir və bu əsərdə də göstərir ki: "XX əsrdə sosial inkişaf ideyası, insanın tərəqqisi onun sosial evalyusiyası da az əhəmiyyət kəsb etmirdi. O, qeyd edir ki, əgər XX əsrin əvvəllərində hesab edirdilərsə ki, insanlıq "qərbləşmə"nin köməkliyi ilə vahid yolla irəliləyəcək.., sonradan məlum oldu ki, tarixin inkişafı çox mürəkkəb anlayış olub vahid yolla irəliləmədən deyil, inkişafa aparan müxtəlif tərəflərin vahiddə toplanması ilə mümkün ola bilər".[360]

Avropalıların aqrar Rusiyaya və onun müstəmləkəsi altında olan xalqlara ötürdükləri maarifçilik fəlsəfəsi, Fransa kimi bir ölkəni necə qan içərisində boğdusa, eləcə də Rusiyanı müstəmləkəçiliyində olan məmləkətlərlə birlikdə qan gölünə çevirdi. "Aydınlatmanın" qərbə heç bir yaxşı şey gətirməməsi haqqında Edmund Börk (Edmund Burke) özünün "Fransız inqilabı haqqında düşüncələr"[361] adlı məşhur əsərində yazır ki, "aydınlatma hərəkatı"nın məhsulu olan Fransa inqilabı insanlara bədbəxtlikdən başqa heç nə gətirmədi. Müəllif yazır ki: "Bu tip hadisələr cəmiyyəti birləşdirən din, əxlaq, ailə quruluşu kimi təməl dəyərləri məhv edir. Terrora və anarxiyaya zəmin hazırlayır. "Aydınlatma" insan ağlını parçalayan hərəkatdır".[362]

Maarifçilik fəlsəfəsinə bu günün parametrləri ilə verilən qiymət

359 Из материалов сборника «Огюст Конт: взгляд из России», Москва, 1998 ст 38.

360 И.Мамедзаде, З. Геюшева. Модерн, просветительские идеи Гасанбека Зардаби и философия просвещения. Баку, Текнур, 2015, ст 118.

361 Edmund Burke. Reflections on the Revolution in France.

362 Edmund Burke. Reflections on the Revolution in France. ed. J.G.A. Rocock, İndianopolis. Hacket Publishing Company. 1987 p.33-38).

olduqca maraqlıdır. Bu period haqqında söylənilənlərin kökləri əsrlər öncə baş verən mistik fikirlərə qədər gedib çıxır. Odur ki, bu barədə aparılacaq tədqiqatlara, geniş həcmli açıqlamalara və şərhlərə ehtiyac duyulur ki, bu geniş şərh birbaşa bizim tədqiqatın mövzusu deyil.[363]

Maarifçiliyin köklərinin hara gedib çıxmasından asılı olmayaraq, əks sədası hər tərəfə yayıldı. Yarandığı məkandan, nəşət tapdığı ölkələrdən uzaqlaşdıqca, bəzən bir o qədər humanistləşir, bir o qədər səmimiyyət daşıyırdı. Bu sətirləri oxuyan və araşdırdığımız sahəni az-çox bilən oxucu, müsəlman ölkələrində can atılan modernizmin (çədidçiliyin) mötədil, İslami bir siması var! – deyəcək.

Rusiyada "Dekabristlər üsyanı" (XIX əsrin 1-ci rübü-Ş.M) kimi meydana çıxan üsyanın başında duranlar rus zadəganları və onların yaxın əqrabalarının uşaqları idilər. Belə ki, onların ölkəni dağıdacaq gücə malik olan nüfuzundan xaricdən Rusiyanı parçalamaq istəyənlər məharətlə istifadə etdilər.

Mason ideoloqlar bütün ölkələrdə kütlələrin qəlbinə yol tapacaq insanları tapır, onları minbir hiylə ilə gah var-dövlətlə, gah da şan-şöhrət çələngi ilə ələ alırdılar... Məhz buna görə də bu gün mason ideologiyasının qurduğu tora düşən qurbanların siyahısı ilə

363 Dolayısı ilə demək lazımdır ki, tarixdən illüminatilər kimi tanınan aydınlatma hərəkatının ardıcılları öz dərnəklərini 1 may 1776-cı ildə İnqolştadda (Yuxarı Bavarya) bu ştat universitetinin prjfessoru Cizvit Adam Veişapt tərəfindən beş nəfərlə birgə yaratmışlar. Aydınlatma çağının bir qolu olaraq azad düşüncəni (!) əsas götürmüş bu dərnək üzvüləri özlərinə kollektiv masonluğu model seçmişlər. Onlar bütün əməllərində onları Yaradana deyil, dərəcəcə onlardan üstdə dayanan ustadlarına itaət edəcəklərinə gizlicə and içmişlər. İllmünatıların zehinlərə təsir edərək hökumətləri və qurluşları ələ keçirərək Yeni Dünya Düzəni durmaq məqsədi ilə hərəkət etdikləri bilinir. Monarxiyaları yıxmağı, dini inancları yox etməyi, ulus dövlətləri və vətən sevgisi məfhumunu məhv edəcək sosiyal düzəni alt-üst etməyi planlaşdırılan, fəaliyyəti gizli olan şəbəkə təşkilat olduğu söylənilir. Onları işığın insanları da adlandırırlar (qorxarım ki, bu işıq bizim düşündüyümüz anlamda maarifin deyil oda, alova tapınan şeytana inananların anlamının işığıdır-Ş.M). Bu təriuqət ardıcılları get-gedə (güclənib ayaqlarını yerə möhkəm basdıqca-Ş.M) kilsənin inanc, ayin və adətlərindən uzaqlaşdılar lap əvvəllərdən gizli surətdə həyata keçirdikləri fəlsəfə və yaşam tərzi ilə özlərini ələ verdilər... Maraqlı burasıdır ki, Amerika Birləşmiş Ştatları da bu təriqətin yarandığı il və gündə yaranmışdır. Daha ətraflı bax; https://www.youtube/com/watch?v=bjqw6Shuzzw (27/05/2018)

maraqlanan da, dünyanın azqala ən çox tanınan dahilərinin üçdə birini onların içərisində görürsən...

Maarifçilik bir hərəkat olaraq Azərbaycana, Azərbaycan ictimai-siyasi, ədəbi- fəlsəfi mühitinə də qədəm qoydu. Bir xalqın həqiqi ideoloqu, o xalqın milli mentalitetindən kənara çıxa bilməz. Azərbaycanın tanınmış insanlarının bəziləri də maarifçilik hərəkatının hərəkətverici qüvvəsinə çevrildilər. Necə ki, Rusiyada zadəgan dekabirstlərin inqilabı, eləcə də Azərbaycan bəyzadələrinin maarifçilik hərəkatı sevdikləri Vətənə səmimi övlad hədiyyəsindən başqa bir şey deyildi. Belə ki, XIX əsrin birinci yarısının ədəbiyyatı, fəlsəfi-ictimai fikri, dini düşünəsi Abbasqulu ağa Bakıxanovun, Mirzə Fətəli Axundovun, İsmail bəy Qutqaşınlının, Əli bəy Hüseynzadənin, Əhməd Ağaoğlunun, Mirzəbala Məmmədzadənin, Məmmədəmin Rəsulzadənin, Qasım bəy Zakirin, Mirzə Şəfi Vazehin, Məhəmməd Hadinin, Nəcəf bəy Vəzirovun yaradıcılığı ilə zənginləşdi. Dərin biliklərə malik olan Şərqin və Avropanın fəlsəfi, bədii ədəbiyyatını gözəl bilən bu mütəfəkkirlər Azərbaycan ziyalılarının maarifçilik ideyalarını təbliğ edən, sosial ədalətsizliklərə qarşı, xalqın həyatını yaxşılaşdırmaq uğrunda mübarizə aparan hissəsinə mənsub idilər.

Azərbaycan maarifçilərinin Azərbaycan mühitində formalaşan ictimai-siyasi, dini-fəlsəfi görüşləri, keçmişdə yaradılanların ən yaxşısını və qabaqcılını əxz edərək, demokratik, siyasi-fəlsəfi ideologiyanın inkişafında yeni mərhələ yaratmışdır. Onların yaradıcılığının yetkin illəri Azərbaycanın Rusiya ilə birləşdiyi bir vaxta təsadüf etmişdir. Bu hadisənin mütərəqqi tərəfinə düşən nəticələr Azərbaycanın siyasi, iqtisadi və mədəni inkişafında özünü göstərmişdir.

Rusiya ilə birləşmə nəticəsində feodal pərakəndəliyi və onu müşayət edən daxili müharibələr aradan qalxmış oldu[364]. Bu sonralar Azərbaycan milli dövlətinin inkişafı üçün böyük əhəmiyyətə malik idi.

Bu zaman Azərbaycanın iqtisadi həyatında da nəzərə çarpan irəliləyiş baş verdi. Rus kapitalizmi Azərbaycanı tədricən dünya tədavülünə cəlb edir, onun yerli xüsusiyyətlərini – qədim patriarxal qapalılıq qalıqlarını aradan qaldırırdı.

Azərbaycanın Rusiya ilə birləşdirilməsi yad bir mədəniyyətin bu ölkəyə ekstradisiyasını təmin etməklə, sürətlə gedəcək assimilyasiya prosesinə də şərait yaradırdı. Bir tərəfdən bu yeni mədəniyyətə açılış idisə də, bir tərəfdən də ərazicə kiçik olanın milli xüsusiyyətlərinin böyük olanın içərisində əridilməsi idi.

Tarixdən məlum olduğu kimi XIX əsrin birinci rübü Rusiya üçün dekabristlərin inqilabi hərəkatı ilə yadda qalan olub. Bu hərəkat məğlubiyyətə uğrasa da, yeni qüvvələri, inqilabçı raznoçinlərin qüdrətli hərəkatını oyatdı və ona həyat qüvvəsi verdi. Rusiyanın ucqarlarında isə siyası fikirdə yeni mütərəqqi cərəyanlar üçün təkan yarandı.

Azərbaycan maarifçilərinin dünyagörüşlərinin formalaşmasında rus inqilabçı demokratlarının: Polşanın, Almaniyanın qabaqcıl (dövrünə görə Ş.M.) ziyalılarının görkəmli nümayəndələri ilə şəxsi əlaqələrinin böyük əhəmiyyəti var idi. Buna, yəni, o zamanın qabaqcıl ziyalılarının məfkurəsinin formalaşmasına o zamanlarda Qafqazın sürgün yeri olması da öz təsirini göstərmişdir. Belə ki, dekabristlərdən

---

**364** Intiqam Cəbrayılov **Azərbaycan Tarixi (Ali məktəblər üçün dərslik), Bakı, Mütərcim, 2009.**

– Bestujev Marlinskinin **(1791-1887),**[365] Narışkinin **(1733-1799),**[366] Korniloviçin **(1800-1834),**[367] Kuhelbekerin **(1797-1846),**[368] Lermontovun **(1814-1841)**[369] və başqalarının sürgündə məhz Qafqazda olması da bu mütəfəkkirlərə öz təsirini göstərməmiş deyildir. Senat meydanındakı üsyanın fəal iştirakçısı olan Y.V.Ozeretskovski **(1750-1827)** "təhrikçi şerlər" yayan polyak şairi Todeuş Zabloskinin **(1811-1847)**[370] də Qafqazda sürgündə olması informasiya mübadiləsini

365 Yazıçı-bayronist, pomantizm epoxasının kritik və publisisti, dekabrist.

366 Aleksandr Lvovıç Narışkının kiçik oğlu eyni zamanda Böyük Pyoturun əmisi oğlu. Ünlü dövlət xanımı Yelena Aleksandra Aprakisina (Pyotr Matveeyeviç Aprakisinanın nəvəsi) Preobrajenski polkunda 1751 ildə böyük knyaz Pyotr Feodroviçin sarayında kamer-yunger təyin olunmuşdur... I dərəcəli Müqəddəs Anna (1761), Müqəddəs Aleksandr Nevski ordeninin, Müqəddəs həvari Andrey Perbozvannı adına ordenlərlə təltif olunmuşdur. Narışkin yazıçı deyildi. Amma onun ədəbiyyata marağı qələm adamları tərəfindən dəyərləndirilmiş, N.İ.Novikov, Derjavin, kimi yazarlar ona əsərlərini ithaf etmişlər

367 «Vətən tarixini üyrənmək istəyənlərə cib kitabı", "Andrey Bezimyonnı" qədim povest / XIX əsrin birinci yarsının rus tarixi povesti/kitablarının, "Şimali-şərqi Sibir flotu leytenant Baron Vranqel və Anju (21,22, 23-cü illər (1825)) barəsində məlumat" məqalələrinin mçüəllifi ömrünü Tiflisdə Şirvan piyada polkunda xidmətdə ikən düçar olduğu qızdırmadan başa vurmuşdur. Bu katolik inanclı ştabs-kapitan, tarixçi, yazıçı həm də dekabristlərdən idi.

368 Rus yazarı, ictimaii xadimi, Puşkinlə eyni kursda təhsil almışdı. Dekabrist idi. Ən maraqlısı isə budur ki, Astreya masson lojasına bağlanana qədər (1822) üzv olmuşdur. Bu alman əsilli zədagan bir yazar kimi 1815-ci ildən etibarən xeyli geniş fəaliyyət göstərmiş, müxtəlif dərgilərdə dərc olunmuş, 1825-ci ildən A.S Qribayedov və V.F. Odoyevskinin "Mnemozina" jurnalında 20-ci illərindən etibarən sentimentalizmə qarşı əsərlər çap etdirmişdir.

369 Rus şairi, dramaturqu və rəssamı. Azərbaycanda sürgündə olarkən "Aşıq Qərib" dastanını qələmə almışdır.

370 İmtiyazlı zadəgan sinfiinə malik olan polyak ailəsində anadan (Luqinçi kəndi Vitebck qubernіyası) olmuşdur. Tadeuş Zabloski Qafqaz xalqlarının tarixini, ədəbiyyatını və etnoqrafiyasını tədqiq etmişdir. O gürcü və azərbaycanlı yazıçılar haqqında irihəcmli məlumatlar toplamışdı.1841-ci ildə o əvvəlcə Qubaya, Şahdağın ətəyinə gəlmiş, daha sonra Dərbənd və Şamaxını ziyarət etmişdi. Şamaxıda o "Şamaxı dağı"nda (çox güman ki, Osman dağ (588 metr)) olmuşdur. 1843-cü ildə Roman Podberezskiyə yazdığı məktubda bildirmişdi ki, o həm də İrəvanda, Naxçıvanda və Ordubadda da olmuşdur.Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" ("Zaqafqaziya diyarının şərq hissəsinin tarixi") əsərini rus dilinə tərcümə etmişdir. Şair həmçinin «Koroğlu» dastanının bəzi epizodlarını da tərcümə etmişdir. O ilk dəfə Polşalı oxucuya təqdim olunan Azərbaycan folklorunun mini-antalogiyası kimi bir toplu yaratmışdı. Zabloski şair Molla Pənah Vaqifin Ağa Məhəmməd xan Qacarın ölümünə yazdığı şeri də rus dilinə tərcümə edərək ilk dəfə onun avropalı oxucu tərəfindən

zənginləşdirirdi. Burada həmçinin Almaniyanın, Fransanın böyük orientalist (şərqşünas – Ş.M.) alimləri də görüşürdülər[371]. Onların bir çoxu Azərbaycanın o dövrki məfkurə sahibləri haqqında qiymətli sözlər söyləmişlər.

Azərbaycanlı ziyalıların demək olar ki, hamısı insan əxlaqını, ləyaqətini, savadlılığını dəyərləndirən əsilzadə ailələrin övladları idi. O zaman ki, ideoloqların məfkurələri, yaşam tərzləri haqqında mənbələrdə müxtəlif mövqelərdən müxtəlif fikirlər söylənilib. Onlar həqiqi humanistlər, həqiqi vətənpərvərlər idilər. Onların yaradıcılığı isə ikiqat zülümə - çar hökumətinin və yerli feodalların istismarına məruz qalan xalqın sosial arzularını əks etdirirdi. Hər halda demək olar ki, onların heç biri istismar edənlərin içərisində deyildi... Müasir filosoflarımızdan biri isə qeyd edir ki: "...söhbət əgər vəhdətdən, birgəmövcudluqdan və həmrəylikdən gedirsə, bir sistemin, bir dinin, bir svilizasiyanın, bir mədəniyyətin çöküşündən mənəvi deqredasiyasından yox, ümumiyyətlə, varlığın təməlində baş verən ziddiyyətlərdən bəhs etmək daha düzgün olardı".[372] Hesab edirəm ki, düzgün yanaşma və yerində verilmiş mesajdı. Lakin diqqətəlayiq aspekt olsa da, məqsədimiz bu gün bu tərəfdən bəhs etmək deyildi.

Bu gün XXI əsrdə informasiya bolluğu olan cəmiyyətlərdə

---

oxunmasına imkan yaratmışdır. Öz tərcümələrində şair bəzi türk sözlərini saxlayaraq onları izah etmişdir..Şairin 1845-ci ildə dərc edilmiş şerlər toplusunda onun poetik irsi üç dövrə bölünmüşdür və üçüncü dövr Azərbaycanla bağlıdır. Təxminən 40-dək şeri əhatə edən bu dövrü şairin anasına həsr etdiyi şer açır. Bu şerlərin əsas mövzusu vətən həsrətidir. Belə şerlərə misal olaraq "Qafqaz dağlarındakı ağcaqayına" (1839) şerini göstərmək olar. Bu dövrə aid şerlərə "Xəzər dənizin sahilində düşüncələr" (aprel 1841, Dərbənd), "Şirvanın Şamaxı dağlarından mənzərəsi" (1839, Şamaxı), "Nisə", "Qafqaz çöllərində", "Şər ruhlar xoru", "Sazandar", "Dağlı qızı", "Dava", "Şahın Peyğəmbər İbrahimlə mübahisəsi" şerlərini aid etmək olar. Şair İrəvan Quberniyasının Kulp Kəndində vəfat etmişdir

371 Современники о Бакиханове. (составитель И.К Еникалоров), Бaku.1959.s.,24.

372 Ş. Zeynalov. **Dialoq fəlsəfəsi** Bakı, Avropa, səh., 141.

tədqiqatçılar da, alimlər də əldə etdikləri müxtəlif mənbələrə əsaslanıb tarixdə baş verən hadisələrin hansı "sirli – sehrli çubuqlar"ın vasitəsi ilə idarə olunduğunun da artıq sirlərinə bələd olmuşlar. Aristotelin məşhur "siyasətdən kənar cəmiyyət yəxdur" ifadəsi nəinki tarixi təcrübədə özünü doğrultmuş, hətta daha aktual məna kəsb etmişdir[373].

XXI əsrin adamı indi Aristotelin bu ifadəsini "siyasətdən kənar adam yoxdur" kimi işlədir. "Beləliklə, çağdaş dünyamızda artıq dərk etmişlər ki, siyasət yalnız ən incəsənət deyil, o habelə sosial varlıq kimi insanın özünü təsdiqinin mühüm ünsürüdür"[374].

Biz isə öz maarifçi filosoflarımız, onların xalqa xidmət nöqteyi nəzərindən yazılan əsərləri barəsində danışarkən, Şərqin böyük simalarından biri Mahatma Qandinin "Siyasət əxlaq prinsiplərinə əsaslandıqda, insanın sosial mahiyyətinə daha yaxın olur"[375] ibarəsini siyasəti açıqlayan məna kimi qəbul edirik. Hesab edirik ki, bizim maarifçilərin aydınlatma hərakatına qoşulması əxlaqın və dəyərlərinin normalarına uyğun idi. Belə ki, bir "şərqlinin siyasəti elə onun əxlaqının əksidir" kimi səslənər.

Azərbaycanın o dövrki siyasi mənzərəsində vəziyyət belə idi ki, mütləqiyyətin müstəmləkə siyasəti birinci növbədə ağır yük kimi xalqın çiyinlərinə düşürdü. Amansız istismar, ağır mükəlləfiyyətlər, çar hükumət orqanlarının sui istifadəsi. Özbaşınalığı və təhqirləri xalq kütlələrinin öz əsarətlərinə qarşı bir sıra böyük çıxışlarını

---

373 Həsən Şirəliyev. Politologiya. Ali məktəblər üçün dərslik. Bakı. 1997. s.5

374 Həsən Şirəliyev göstərilən əsər.

375 Qandi M. Bütün insanlar qardaşdır (Tərcümə edən: Güntay Gəncalp). http://chevrilerim. blogspot.com/2010/12/mahatmaq-qandi.html.; Qandi M. Hindistanda milli dil yolunda savaş (Tərcümə edən: Güntay Gəncalp). latin elifbasi http://chevrilerim.blogspot.com/2011/01/hindistan-da-milli-dil-yolunda-savas. html.

şərtləndirirdi. Xalqın vəziyyəti onun iqtisadı, siyasi və ideya cəhətdən əsarət altına alınması qabaqcıl ziyalıların qəti etirazına, sosial ədalətsizlikləri kəskin surətdə pisləməsinə səbəb olurdu. Xalq ideoloqları feodal cəmiyyətinin qüsurlarını, fanatizm və xurafatı, cəhalət və sosial əsarəti tənqid edirdilər.

Fəlsəfənin əsas məsələsinə münasibətlərində daha çox birinci tərəfə üstünlük verən İslam aləmi aydınlarının fəlsəfəsi beynəlmiləl tərkibdən əmələ gəlmişdi. Onları birləşdirən isə müsəlman şəriətinin və hüququnun əsas mənbəyi olan Qurani Kərim idi.

İstinadın ən etibarlı mənbəyi kimi Qurani-Kərim ayələrinə müraciət edən müsəlman mütəfəkkirləri məlum olduğu kimi dünya fəlsəfi irsindən də hali idilər. Qərb aləmi sonralar, itib batmaqda olan fəlsəfi fikirləri dirçəltdiyi üçün Fərabiyə, təbabətə möhtəşəm xidmətlərinə görə İbn Sinaya (Avetsina), Herodotun ardıcılı və dünyada ilk sosioloq İbn Xəlduna, aristotelçi İbn Rüşdə (Averroes), neoplatonizmin ecaskar ardıcılı Sührəvərdiyə çox minnətdar oldu. Ərəb xəlifələrindən Məmun isə üzərinə daha müqəddəs missiya götürərək öz dininin peyğəmbəri Məhəmmədin (s.ə.s.) elmə verdiyi yüksək qiyməti həyatda reallaşdıranlardan ən seçilmişi olaraq tarixə əbədi düşdü.

...Modernistlər bu keçmişlərinin əzəmətinə qayıtmaq üçün mədrəsə təhsilinin islahını əsas bildilər. Güclü təhsil bütün zamanlarda müvəffəqiyyətin əsasıdır. İslam təhsil sistemini yeniləşdirmək onların vətəndaşlıq borcuna çevrildi. Cədidçilərin İslami islahat hərəkatı üçün tövsiyə etdikləri müsəlman təhsil proqramı dörd ana başlıq altında cəmlənirdi:

**1.** İslamın sürətlə yayıldığı əzəmətli günlərinə dönüş üçün Quran və Hədisin tədrisi,

**2.** islami tədrisin modern düşüncə və müasir elmin işığında yenidən şərh olunub və zamana uyğunlaşdırılması,

**3.** ana dilində təhsilin təşkili,

**4.** islamın qərb təsirinə və xristian dininin "hücumuna" qarşı müdafiəsi**.**

Tədqiqatişimizinməqsədininaçıqlanmasıüçünməfkurələrindən istifadə etdiyimiz, yaradıcılığına bəzən başqalarının əsərləri vasitəsi ilə toxunduğumuz mütəfəkkirlərin düşüncələrindən bəhrələnərək öyrəndik ki, məhz onların cəsarətli, yenilikçi addımları sayəsində təhsil sistemi inkişaf etdirilirdi.

XX əsrin əvvəllərində Rusiya türkləri içərisindən ilahiyyatçı-alim Alimcan Galeev Barudinin **(1857-1921)**[376] bu sahədə göstərdiyi

---

376 Alimcan Barudi. 1857-ci ildə tatarstanda anadan olub. İlk təhsilini Tatarstanda "Kərimiyyə" mədrəsəsində almışdır. Daha mükəmməl təhsil üçün 1875-ci ildə Buxaraya yollanmışdır. Kazana döndüyündə "Məhəmmədiyyə" mədrəsəsinin əsasını qoydu və orada tədrisə başladı. Barudi təlimində önəmli yeri dinin yenilənməsinə verirdi. O, hesab edirdi ki, cədidçilik tatar xalqının özünüdərkinə səbəb olacaqdır. Məhz bunun üçün də "Məhəmmədiyyə mədrəsəsində yeni metodlu təhsil sistemiilə tədris aparmağa başlamışdır. Mədrəsədə ənənəvi dini elmlərlə yanaşı dünyəvi elmlərdə tədris olunmağa başlamışdı ki, bu da **mədrəsə təhsilini Avropanın yüksək təhsil sisteminə yaxınlaşdırmaq məqsədi güdürdü.** Tədris üçün yeni dərsliklərin olmaması Barudini yeni dərsliklər yazmağa məcbur etdi. Bu dərsliklər Rusiyada Məhəmmədi inanclı şagirdlərə dərs keçmək üçün türk dilində yazılmış ilk dərsliklər idi. Bunların cərgəsində ilk türkdilli əlifba "savadxan" (1891), ilk hesab dərsliyi "nümuneyi hesab" (1891), "ərəb dili dərsliyi" (1892). Tatar-fars-ərəb lüğəti (1893) var idi. Alimcan Barudi həm də tüz-tez öz təhsil müəsisəsinə ətrafının tanınmış elm və maarif adamlarını dəvət edirdi.

O, da Rusiya Müsəlmanlarının III qurultayının RH-nin üzvü olmuşdur. Rusiya müsəlmanlarının hüquqları və İslam namına apardığı təbliğatlar nəticəsində 1907-ci ildə həbs edilmiş, 1908-ci ildə Voloqdaya sürgünə göndərilmişdir. Sürgündən sonra tatarların bu yenilikçi ilahiyyatçısı Berlində, İstambulda, Qahirədə və Məkkədə yaşayır. 1917-cil fevral inqilabından sonra Barudi Rusiyaya dönən ilahiyyatçı bu ölkə tarixində ilk dəfə azad seçkilərdə səs vermə yolu ilə seçilən ilk din adamı olur. 1920-ci ildə saf ağılın təntənəsinin qalib gələcəyinə inandığı Tatarıstan Respublikasına özünün ən böyük sərvətini 4288 cild kitabdan ibarət kitabxanasını bağışladı (hansı ki, hələ atası XIX əsrin ortalarından etibarən yığmağa başlamışdı). Sonralar Kazan Unversitetinin Şərq fondunun əsası bu kitabxana ilə qoyuldu. Yenilməz islahatçı Alimcan Barudi növbəti xeyirxah əməlini Volqaətrafında açlıq çəkən tatarlara yardım etmək, onların məsələsini dövlət qarşısında fövqəladə məsələ kimi qaldırmağa gedərkən 1921-ci ildə Moskvada vəfat etmişdir. Müasirləri onu yüksək vətəndaşlıq hissinə malik, akademik səviyyəli elm adamı hesab edirdilər. **Daha ətraflı bax;** К 150 летию со дня рождения Г. Баруди. Чтени е в музее Г.Тукая. **www.museum.ru/N32728 (22/05 2017)**7

səy bütöv bir heyətin əməyinə bərabər əməklə dəyərləndirilməlidir ki, müsəlmanların, türklərin belə aydınları xeyli idi. O, sələflərinin bu sahədəgəldiyinəticələriümumiləşdirərək Rusiyamüsəlmanlarınınyeni təhsil konsepsiyasını yaradan ilklərdən biri oldu. Öz konsepsiyasında o, Rusiyada müsəlman təhsilinin özünəməxsusluğuna, onun yaranma tarixinə və yenidən işlənməsinə diqqət ayırmışdı. Bununla belə, kitabın girişində də Qeyd etdiyimiz kimi, (Rusiya türkləri içərisində-Ş.M) İslam təhsil sisteminin ən görkəmli nümayəndəsi böyük islahatçı İsmayıl bəy Qaspıralı idi. Onun yeni metodlu məktəb ideyası Rusiyada çoxlu yeni müsəlman məktəblərini əhatə etməyə başladı. Rusiya türkləri (müsəlmanları) içərisində yenilənmə prosesinə ideya rəhbərliyi edən, sonralar bütün türk dünyasını təhsildə, mədəniyyətdə qazanacağı yeniliklərlə birləşməyə çalışan İsmayıl Qaspıralı. Məhz o, mədəniyyətdə və təhsildə qazanılacaq yeni naliyyətlərin bütünlükdə türküstan ellərinə yayılması üçün inadlı fəaliyyət göstərmiş və buna nail olmuş sayılır. İslahatın nəticəsi təhsil səviyyəsinin yüksəlməsinə kömək etdi və öz növbəsində XX əsrin 30-cu illərinə qədər islam tədris sisteminin effektiv inkişafına gətirib çıxardı. Təəssüf ki, tez bir zamanda dövlət siyasətinin dini təhsil müəsisələrinə münasibəti yalnız onların məhv edilməsinə yönəlik oldu. Əvvəl bu tədbir müvafiq qanunverici aktlar çərçivəsində həyata keçirilirdisə də, sonra açıq repressiya hərakatına çevrildi. Beləliklə, İslam təhsil sisteminə qəti zərbə vurulmuş oldu.

İslam təhsil sisteminin uzun fasilədən sonra dirçəlişi XX əsrin 80-cı illərinin sonundan başlayır. Artıq o dövrün rus təhsili sisteminin pedaqoqlarının tədrisində, İslam təhsilinin təcrübəsinə tədris və tərbiyə işlərində müraciət olunmağa başlanmışdı. Bu isə o zamanın

dərs vəsaitlərində İslam təhsilinin xüsusiyyətlərini nəzərə almağa imkan verirdi.

İslam təlim tərbiyə sisteminin ərəb dilində səslənən bu kimi termin və anlayışları (məs, üsuli-təlim, tərbiyatu-təlim yaxud istifadə olunan **bilik** (**elm, mərifət**)), təlim, tərbiyə, fəhm, düşüncə, ağıl, əməl birbaşa insanla tədris sisteminə cəlb olunanın formalaşmasına aid idi. Bu anlayışlar geniş əhəmiyyətə malik olub, İslama inanan bütün xalqlar tərəfindən istifadə olunurdu. Tədris sisteminin prinsipal xüsusiyyəti onun daima insana yönəlməsindədir. İslam tədrisi hər bir yaşda insanın təlim və tərbiyəsinə, məhz şəxsiyyət yetişdirilməsinə istiqamətlənmişdir. Yenə təkrarlayaq ki, İslam təhsili bəlli bir dünyagörüşü formalaşdıraraq biliksizlikdən biliyə keçidi təmin edir. İslamda təhsil uzun bir proses olub ailələrdə hətta uşağın doğulmasından sonra deyil, əvvəl başlayır. Belə ki, hər mənada sağlam uşağın formalaşması üçün islam bilginləri düzgün həyat yoldaşının (iffətli, imanlı) seçilməsindən tutmuş, dünyagörüşünün, yeni ailə quranların ailə üzvlərinin xarakterinin, gələcək planlamaların bu və başqa tərəflərin birbaşa aidiyyəti vardır deyirlər. Bir sözlə, İslamda insan hələ təhsil obyektinə çevrilməmişdən xeyli öncə onun təhsil hazırlığı başlanır ki, gələcəkdə arzu olunan nəticələrə çatmaq üçün təhsil prosesi asanlıqla başa gəlsin.

Allaha, yaxınlara, Vətənə sevgi, başqalarının adətlərinə isti münasibət, başqa millətlərə hörmət islam inanclı ailələrdə, elə məhz adlarını yuxarıda çəkdiyimiz İslami ideyalara köklənmiş mütəfəkkirlərin fikirləri ilə aşılanmışdır.

İslam tədris sistemində həmişə ailə tərbiyəsinə fundamental bir predmet kimi baxılmışdır. Quranda bu barədə ciddi göstəriş vardır:

“Allaha səcdə edin, Ondan başqa heç nəyə. Valideynlərə, qohumlara, yetimlərə, ehtiyacı olanlara, qonşulara, sizinlə qohum olanlara, eləcə də olmayanlara və dostlara, və yolçuya, hər bir kəsə xeyirxahlıq edin”.[377] (Quran 4/36).

Beləliklə, müsəlman ailələrində inanclı insanlar zaman-zaman yeniyetmələrin qəlbində İslamın əsaslarını qoymuşlar. Bu barədə böyük humanist maarifçi, türk modernistlərinin babası İsmayıl Qaspıralı (İsmayıl Murza) demişdir: “Müsəlman ailələlərində körpələr azqala bələkdən valideynlərinin qarşısıalınmaz İslam sevgisinin təsiri altında böyüdükləri üçün 7-8 yaşlarında artıq güclü müsəlman adəbi ilə mayalanır, istənilən kənar müşahidəçini təəcübləndirir və düşünməyə məcbur edirlər”. O qeyd edirdi ki: “müsəlman öz dinini və həmin dinin təsiri altında formalaşan ictimai mənşəyinin fərdiliyini qorumaq üçün yad təsirlərə qarşı yenilməz müqavimət gücünə malikdi”.[378] Bu ənənənin möhkəmliyi qeyri-adi dərəcədə böyükdür və günümüzdə də təsirini saxlamaqda davam edir. Üsul və Füru. Üsuli’d-din -İslamın təməlləri, iman-əqidə. Füru edilməsi məcburi olan işlər, fərzlər və əxlaqi prinsiplərdən (bərabərlik, ədalət, rifah) təşkil olunmaqdadır. Üsulü’d-din heç bir zamanda dəyişdirilməz. Digər yandan firuid-din (fərzlər), müamələt (insanlar arası münasibətlər) kimi imanın ikinci sırada ya da özünə bağlı olmayan xüsusiyyələrini təşkil edir. Buna görə də kütləvi, mədəni, iqtisadi və siyasi münasibətlərlə əlaqəli tərtibatlar müqəddəs deyildir və dəyişimə tabedir düşünürdülər. Elə bu münasibətlə də Kürsəvi də, Musa Bigiyev də, Misirli Abduh da, Azəbaycanlı Talıbzadə də Quranı ana dilinə tərcümə etmək (heç bir

377 Qurani Kərim 4/36

378 Гаспринский. И. Русское мусулманство. Мысли, заметки и наблюдения. Симферополь, 1881. Цит.по Гаспринский И. Россия и Восток. Казан, 1993,с.39.

şərhçiyə müraciət etmədən) səyində bulundular. Birbaşa Quranın göndərildiyi zamandakı saf mənalarına müraciət, vasitəçilərsiz oxuyan insanlarda hür-liberal, əqli-rasional, yenilikçi-modernist bir əhvali ruhiyyə yaratmalı idi. Məqsəd bu istiqamət tutularsa, islam aləmində naliyyətlər əldə oluna bilər idi...



*Milli kimlik fəlsəfəmizin banisi, şəxsiyyəti Azərbaycan tarixinin diqqətəsayan bir hissəsi olan Bakıxanov* ***Abbasqulu Mirzə Məhəmməd xan oğlu, Qüdsi.***

*General İ.F.Paskeviçin İran şahzadəsi* Abbas *Mirzə ilə görüşü. 1827-ci il. Xanzadə* Abbasqulu bu *görüşdə tərcüməçi* kimi *iştirak etmişdir.*

*Türkmənçay, Gülüstan müqavilələrində tərcüməçi kimi iştirak edən Abbasqulu ağa tarixin bu gedişini dəyişə bilməsə də bu müqavilələrdən aldığı sarsıdıcı təəssüratla «Gülüstani İrəm» kimi xalqının* tarixini *sərgiləyən dəyərli mənbə ərsəyə gətirmişdir.*





*Ermənilәri Azərbaycanda yerləşdirmək, Rusiyanın nüfuzunu Asiyada qaldlrmaq üçün sünni-şiə fitnə-fəsadı salaraq Türkiyə və İran dövlətlərii arasında müvazinəti laxlatmaq və azərilərə qarşı daha betər siyasətin memarı* **I Pyotr** *(hak.illəri 1682-1721)*



*Rusiyanın türklərə qarşı şovinist işğalçı siyasəti* ***II Yekatrinanın*** *zamanında* daha da *gücl*ə*nmişdi.Təsadüfi* deyildi ki*, onun dönəmində rus-türk müharibəsi 5 il (1769-1774) davam etmişdi.*



**Sultan II *Abdulhəmid* (hak. illəri 1876-1909);** *Artıq dağılmaqda olan Osmanlı imperiyasının nüfuzunu müsəlman xalqlarının nəzərində artırmaq məqsədi ilə "bütün dünya müsəlmanlarının xəlifəsi" Sultan Əbdülhəmidin dəvətinə cavab olaraq 1892-ci ilin sentyabrında İstanbula gələn Cəma¬ləddin Əfqanini orada "İttihadi-islam" cəmiyyətini təsis edir. Bu cəmiyyətin məqsədi müsəlmanlar arasında mövcud olan dini ixtilafları, xüsusilə də şiə-sünni ixtilaflarını aradan götürmək və onları müstəmləkə təzyiqinə qarşı vahid cəbhədə birləşdirmək idi. Əbdülhəmid bunun üçün müxtəlif müsəlman ölkələrinin yüzlərcə üləmasına, ruhanisinə yazılı şəkildə müraciət etmiş, onları ittihada çağırmışdır...*



*Şəxsiyyəti dünya ictimaiyyəti, xüsusiylə müsəlman din adamları tərəfindən birmənalı qarşılanmayan,* ***Şeyx Cəmaləddin Əfqani.*** *O, yaşadığı dövrün tələblərinə uyğun şəkildə Quranın, Hədislərin şərhini verməyə, onları mənalandırmağa, yəni feodal-islam ideologiyasını və islamın ayin və mərasimlərini modern münasibətlər baxımından mənalandırmağa çalışmış, islam dinində bəzi dəyişikliklərin edilməsinə tərəfdar olmuşdur. Beləliklə də o, tarixə islamın reformasiyaçısı və modernizasiyaçısı kimi keçmişdir.*



*Cəmaləddin Əfqaninin ictimaiyyətə məlum ən məşhur fotosu.1892-ci ildə artıq dağılmaqda olan Osmanlı imperiyasının nüfuzunu müsəlman xalqlarının nəzərində artırmaq məqsədi ilə "bütün dünya müsəlmanlarının xəlifəsi" **SultanII Əbdülhəmidin** dəvətinə cavab* olaraq *İstanbula gələn Əfqani orada "İttihadi-islam" cəmiyyətini təsis edir. Bu cəmiyyətin məqsədi müsəlmanlar arasında mövcud olan dini ixtilafları, xüsusilə də şiə-sünni ixtilaflarını aradan götürmək və onları müstəmləkə təzyiqinə qarşı vahid cəbhədə birləşdirmək idi.*



*Azərbaycanda milli-mədəni oyanışının ən böyük hamisi*
***Mirzə Fətəli* Axundov.**



*Şəxsiyyəti müsəlman aləmində bir mənalı qarşılanmayan* ***Məhəmməd Əbdüh*** *Əfqaninin alovlu tələbəsi. Müəlliminin fikirlərini bir az da dərinləşdirərək o fikirləri daha nizamlı, daha dərin və daha səmimi təqdim edə bildiyi üçün daha çox nüfuz qazanmış islahatçı.*



*Məhəmməd Əbdüh bin Həsən Xeyrullâh ət-Türkmânî əl-Misri (Məhəmməd Əbdüh) əl-Əzhər universitetinin professor, müəllim heyəti ilə.*



***Rəşîd Rıza:*** *İslâm düşüncesinin öncülerindən, ıslahatçı âlim* Liviyada anadan olub *Misirdə yaşayıb yaratmışdır. Məhəmməd Əbdühün alovlu ardıcılı.*



***Məhəmməd Ferid Vecdi****-Misirli alim və fikir adamı. Fikir dünyasında Əbdühün alovlu təqibçisi. Gənc yaşlarından Misirdə "Həyat" və "əd-düstur" qəzetlərini buraxmışdır. 27 yaşında ilk əsərini fransız və ərəb dillərində yazdı və çap* etdirdi. *Ağılın və* elmin *üstün olduğunu sərqiləyən əsərləri ilə məşhurdur.*



***Məhəmməd İqbal*** *Pakistanın mənəvi atası. Fəlsəfi-dini görüşləri ilə bir reformaçı kimi Cəmaləddin Əfqanini və Məhəmməd Əbduhu təqib etmişdir.*



*Ön cərgədə ortada Məhəmməd İqbal. Növbəti müvəffəqiyyətli mühazirəsini oxuduqdan sonra İqbalın Göyhalə mədrəsəsinin qarşısında 1929-cu ildə çəkilmiş xatirə fotosu.*



*Azərbaycanın xaricdə ilk dünyəvi təhsil alan tələbəsi Sorbonna məzunu* ***Əhməd bəy Həsən bəy oğlu Ağayev.***



*Məktəblərin inkişaf etdirilməsi, müsəlmanların sivil-mülki xidmətlərdə vəzifə alması, Muğan çöllərinin islah edilərək kəndlilərin torpaqsızlıq probleminin həll edilməsi kimi məsələlərdə islahatçılıq fəaliyyətinin önündə gedən, səsi daha geniş miqyasda eşidilən Əhməd bəy Ağaoğlu Türkiyə (Afyon, Qars) və AZərbaycan millət vəkilliyini eyni zamanda icra edən yeganə adam.*



*Qafqaz İslam ordusunun siyasi müşaviri, Paris sülh konfransına Əlimərdan bəy ilə birlikdə nümayəndə təyin edilən,* son *məqsədi türk məmləkətlərindən birində (Azərbaycanda) cumhuriyyət qurmaq olan yorulmaz mücahid Əhməd bəy Ağaoğlu.*




*Dində yeniliklərə eyni zamanda da xürafata qarşı gəlib, keçmiş əsrlərin alimlərinin kitablarını təqib etməyi ilk qadağan edən tatar islahatçısı **Əbu-n Nəsr Kürsəvi.***

*O, bir mütəfəkkir kimi ilk dəfə  təqlidə qarşı çıxıb, azadfikirliliyin qapılarını açan ilahiyyatçıdır.*



***Şihabədin Mərcani.*** *Tatarlar Mərcanini onlara kimliklərinin fəlsəfəsini təqlid edib, onlar üçün ilk tarix və gramatika dərslikləri yazan tarixçiləri, etnoqrafları, filosof və teoloqları hesab edirlər (Əbu-n Nəsr Kürsəvinin ardıcılı və təbliğatçısıdır).*



*Zamanın tələblərinə uymağa çağıran, islahata açıq fikirli teoloq tatar filosofu* ***Utız İməni Bulqari.***

 

*İslam reformizminin təqlidçiliyin qəti əleyhidarı olan ilk müəllimlərindən biri tatar Abdulla Bubi. İj-Bubi mədrəsəsinin təsisçiləri olan ailəsi, bacısı Müxlisə, qardaşları, həyat yoldaşları Nəsimə və Hüsnifatma ictihad yolunun fədailəri idilər və dəstəklərini nüfuzlu valideyinlərindən alırdılar.*



*Ümumrusiya müsəlmanlarının III qurultayı. Aşağı cərgədən* ***Abdulla Bubi (coldan ikinci),*** *Timerşa Solovyov, İsmail Kaspıralı, Midhət Əhmərov. (Hıjniy Novqorod 1906).*



*Yeni tipli təhsil sisteminə qoşulmuş gənc tatar qızlarının sinif kollektivi.*



*Tatarların ilk dünyəvi təhsil alan ilahiyyatçısı* ***Musa Cərulla Biqiyev.*** *Qadınlara bərabərlik məsələsini cəmiyyətin problemləri müstəvisinə gətirən və bunu zamanında mötəbər kürsülərdən söyləməyə cəsarət edən alovlu qələm sahibi, ilahiyyatçı, reformist fikirlər, əsərlər müəllifi.*





***Sədri Maksudi Arsal*** *1917-ci ildə Ufada qurulan Milli idarənin və Məclisin rəhbəri, Məclis bağlandıqdan sonra Avropaya getmiş, Atatürkün dəvəti ilə Türkiyəyə qayıdıb orada Cümhuriyyətin ilk hüquq fakultəsiolan* Ankara *Hüquq fakultəsini, Türk* dil Qurumunu *və Türk Tarıx* Qurumunun *yaradılmasına əhəmiyyətli dəstək vermiş türk-tatar hüquqşünası.*



*Mədrəsə təhsilini Avropanın müasir təhsil sisteminə çatdırılmasının tərəfdarı olan tatarlar üçün yazılan ilk ana dilli dərslik müəllifi, yenilməz cədidçi* **Alimcan Barudi.** *1917-cil fevral inqilabından sonra Rusiya tarixində ilk dəfə azad seçkilərdə səs vermə yolu ilə seçilən ilk din adamı olur. Gələcəyinə inandığı Tatarıstan Respublikasına özünün ən böyük sərvətini 4288 cild kitabdan ibarət kitabxanasını bağışladı . Sonralar Kazan Universitetinin Şərq fondunun əsası bu kitabxana ilə qoyuldu. Müasirləri onu yüksək vətəndaşlıq hissinə malik, akademik səviyyəli elm adamı hesab edirdilər.*



***İbrahimov Əbdürrəşid Ömər oğlu:*** *Gəncliyindən cədidizm ideyaları carçısı. Rus imperiyası daxilində yaşayan müsəlmanları birləşdirməyə sünnü-şiə ayrımçılığını aradan qaldırmağa, çağıran Topçubaşovun da daxil olduğu ittifaqi-əl-müslimin partiyasının rəhbərlərindən olan tatar islahatçısı, jurnalisti, pedaqoqu, yazarı, naşiri və səyyahı.*



*Müsəlmanlığın Yaponiyada rəsmi din səviyyəsində qəbul olunmasına nail olmuş müsəlman vaizi və cədidçisi Əbdürəşid İbrahim Yaponiyada.*



*Kazan tatarı Abdurrəşid İbrahim Yaponiyada.*




*O, 17 avqust 1944-cü ildə Japoniyada vəfat etmiş orada da dəfn edilmişdir. Abdurəşid Əfəndi, imperator ailəsindən olan bir çox insanla dost idi. Bu şəkildə onun təşəbbüsü ilə 1938-ci ildəTokiyoda inşa edilmiş məscid.*

*Türk aydınlarının mənəvi atası, kimliyimizin fəlsəfəsini bizə açıqlamaq üçün ömrü boyu mücadilə etmiş*
***Ismail Qaspıralı.***



*Ayaq üstəki foto onun Fransada tələbə olarkən çəkdirdiyi şəklidir. Digər fotolar da müsəlmanların bu yenilikçi, maarifçi oğlunun müxtəlif zamanlarda çəkdirdiyi fotolardır.*





*Kırım tatarları İsmail Kaspıralı və Yusif Akçura oğlu.*
*1908-ci il Qurzuf.*



*Böyük islahatçı İsmail bəy özünün tərtib*
*etdiyi yeni tipli təhsil ocağında tədris zamanı.*



*Müsəlman aləminin iki böyük maarifçisi, iki böyük türkçüsü; «əkinçi» naşiri Həsən bəy Zərdabi, «Tərçüman» naşiri İsmayıl bəy Qaspıralı və Azərbaycan tarixinin fədai şəxsiyəti Əlimərdan bəy Topçubaşov.*





*Azərbaycan ziyalılığının* dan ulduzu, *xalqın maariflənmasinə* verdiyi *əməklərin qiyməti heç bir dəyərlə ölçülə bilməyən maarifçi, naşir, pedaqoq, yurnalist, İslam dünyasının ilk təbiətşünas alimi, bəyzadə* ***Həsən Səlim bəy oğlu Məlikov*** *(Zərdabi).*



*Həsən bəy Zərdabi həyat yoldaşı Hənifə xanım Məlikova və qızı Pəri (Əlimərdan bəy Topçubaşovun gələcək həyat yoldaşı) ilə.*



*Nəcabətindən aldığı tərbiyəni biliyinin işığı ilə birləşdirməyi bacardığı gözlərində əksini tapmış gənc Əli (Hüseyin oğlu Hüseyinzadə) Peterburqda tələbə ikən.*



*Dünyada ən çox dəyərləndirdiyim ziyalılıq... Qarşımda gəncliyindən işıq saçan vətən övladlarının əbədiyaşar sonluğa aparacaq həyatlarının bir anını yadda saxlayan fotoları: Solda Əli bəy Hüseynzadə, ortada Əlimərdan bəy Topçubaşi, sağda Nəsir bəy Tahirov (Qafqaz müsəlmanlarının IV şeyxülislamı Mirzə Həsən Tahirzadənin Qori seminariyasını və Peterburq universitetini bitirmiş oğlu). Peterburq.*



*«Türkləşmək, İslamlaşmaq, müasirləşmək» fəlsəfəsinin memarı*
***Əli bəy Hüseyn oğlu Hüseynzadə***



*Gözlərinin işığını, qəlbinin odunu, bütün bacarıqlarını qayəsinə, amalına, VƏTƏNİNƏ bəxş etmiş şair, naşir, jurnalist, rəssam, musiqişünas, təbib, alim, pedaqoq, alovlu qələm sahibi, islahatçı üzərindən illərin ağırlığı keçmiş* ***Əli bəy Hüseyinzadənin*** *yaşlı vaxtının məşhur fotosu.*



*Azərbaycan ziyalıları,islahatçıları; sağdan sola gənc* ***Məmməd Əmin Rəsulzadə, A Axundov, Əjdər Məlikov, Məşədi Əzizbəyov***



*XIX əsrin sonu, XX əsrin əvvəllərində ideologiyada ümmətçilikdən millətçiliyə, dini fanatik düşüncədən Qərb yönümlü müasir düşüncəyə keçid məhz 1918-ci ildə Azərbaycanda milli dövlətin qurulması ilə nəticələnmişdir. Bu dövlətin ideya mücahidlərindən biri və birincisi* ***Məmməd Əmin Rəsulzadə*** Finlandiyada tatar mühacirləri. soldan sağa **Abdulla Battal Taymas, Mustafa Salah və Lütfi İsaki** *ilə (1922-ci il)*



***Əlimərdan bəy Ələkbər oğlu Topçubaşov*** *1909 ildə.*



*Əli bəy Hüseyinzadəni özünün müəllimi bilən, türkçülük düşüncəsinin öndərlərindən olub, türk kimliyinin yüksəliş mücadiləsinə öndərlik etmiş* ***Ziya Gökalp****’ın meşhur fotoğrafiyasının orijinalı.*
*(Ən məşhur əsəri «Türkçülüyün əsasları»).*



*İstiqlal marşının əbədi yaşar müəllifi* ***Mehmet Akif Ersoy.***



*«Asim» kitabının işıq üzü görməsi səbəbi ilə Mithəd Camal Kuntay* ***Mehmet Akifin*** *şərəfinə ziyafət vermişdir. Həmin günün xatirə fotosu(1924-cü il; soldan sağa; Süleyman Nazif, Cənab Şihabəddin, Əbdülhəq Hamid, Samipaşazadə Sezai, Mehmet Akif, Mithət Camal və oğlu.*



*Türkiyə türklərinin Vətən, millət və hürriyyət şairi,*
***Namık Kamal***



Ord. Prof. Hilmi Ziya Ülken
(1901 - 5 Haziran 1974)

***Hilmi Ziya Ülken:*** *Türkçülük məfkurəsində daha yuvarlaq və daha mötədil bir istiqamətin-anadoluçuluğun memarı.*



***Hacı Zeynalabdin Tağıyevin*** *min bir əziyyətlə açılmasına 1901-ci ildə nail olduğu qız məktəbinin ilk şagirdləri* ***Şəfiqə xanım Əfəndizadənin*** *dərsindədirlər.*



*Doğma Vətəninin ucalması üçün əlindən gələn yaxşılıqları əsirgəməyən* **Hacı Zeynalabdin** *açdırdığı qız məktəbinin buraxılış xatirə fotosunda.*



*Yeni üsullu tədrisin təlim olunduğu cədid məktəblərindən birində.*



*Orta Asiyada yeni üsulla dərs keçən cədid məktəblərindən birində.*



***İsmail bəy** Rusiyada yaşayan xalqların ortaq bir türk ədəbi dilndə danışa bilməsi üçün çalışdı. İlk növbədə dil islahatı yaymağa başladı. Bu islahata tam məqsədi ilə çatmanın isə yeni məktəblərin açılmasında təhsildə görürdü. Belə yeni tipli siniflərdən biri Bağçasarayda test olunmuş sinif şagirdləri İsmail bəylə.*










*Sultan Əhməd məscidinə enən Divanyolu üzərindəki türbədə Osmanlı sultanları II Mahmud, Abduləziz və II Abdulhəmidin məzarları var. Hazirəsində isə paşalar, sədriəzəmlər, kapitanlar və osmanlı xanədan mənsublarına aid 150-yə yaxın məzar vardır. Burada dünya görüşləri biri-birindən xeyli fərqli müxalif, hətta bir araya gəlməyən isimlər dəfn olunmuşdur. Mən II Abdulhəmid dönəminə düşən isimlərin irsini araşdırdığım üçün bu qəbristanlıqda yatan vətənpərvər, mücadiləçi sultanlar və onların ailə üzvlərinin ruhuna bir fatihə oxumağı lazım bildim. Orada qəbristanlığın ən görkəmli yerində Əli bəy Hüseyinzadədən, onun türkçülük mücadiləsindən ilhamlanmış Türkiyə türkçülüyünün mücahidlərindən Ziya Göyalpın da qəbrini ziyarət etdim.*

## Bizə kimlik fəlsəfəmizi unutmağa qoymayan, bu yolda bütün varlığı ilə çalışan XX əsr filosoflarımız



***Zakir Məmmədov:*** *Həyatı ilə bizə vətən, millət və milli fəlsəfəmiz uğrunda son nəfəsədək çalışmanın nümunəsini miras qoyub gedən həqiqi filosofumuz, ustadımız.*



**Yusif Rüstəmov.** *Yaşamı, yaradıcılığı yetişməkdə olan nəslə nümunə olacaq elm fədaisi, təmənnasız bir ömür sürmüş vətənpərvər, müdrik insan.*

# KİTABDAKI HİSSƏLƏRDƏ İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Kitabın; «Türk aydınlarının milli mənsubiyyət və milli kimlik axtarışları» hissəsində istifadə olunmuş ədəbiyyatın siyahısı


1. Yalçıntaş N. Türk birliyi. Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid. Beynəlxalq konfransın materialları, Bakı, 2013.
2. Swietochowski T. Müslüman cemaatten ulusal kimliğe Rus Azerbaycanı 1905-1920 (Türkçesi: Nuray Mert). İstanbul: Bağlam yayınları, 1988, 295 s.
3. Rüstəmov Y. Türk fikir tarixi haqqında mülahizələr. Bakı: Çaşıoğlu, 2005, 140 s.
4. Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı: Maarif, 1973, 296 s.
5. Mirəhmədov Ə. Azərbaycan mütəfəkkirinin milli intibah arzuları / Azərbaycan Demokratik Respublikası (Məqalələr toplusu). Bakı: Azərnəşr, 1992, s. 19-29.
6. Talıbzadə K. Əhməd Ağaoğlu və onun “Rus ədəbiyyatının ümumi səciyyələri” əsəri. Seçilmiş əsərləri. II c., Bakı: Azərnəşr, 1994, s. 305-328.
7. Akçura Y. Üç Tarz-i Siyaset. Türk Tarih Kurumu. Ankara: Türk Tarih Kurumu Basımevi, 1998, 55 s.

8. Gökalp Z. Türkleşmek, İslamlaşmak, Muasirleşmek. İstanbul: Toker Yayınları, 1997, 80 s.
9. Əhmədli R. Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq. Bakı: Elm, 2007, 280 s.
10. Baykara H. Azerbaycan İstiqlal mücadilesi tarihi. İstanbul: Genclik Basımevi, 1975, 331 s.
11. Türk Yurdu (yeni harflerle basımı). 17 ciltte, 1-17-ci ciltler (1911-1931-ci illerde çıkan sayıların külliyatı). Ankara: Tutubay Yayınları, 1999-2001.
12. Əliyeva (Kəngərli) A. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. Bakı: Elm, 2002, 334 s.
13. Toktamış A. Türk Devrim Tarihi. İstanbul: Der Yayınları, 1993, 472 s
14. Ülken H.Z. Türkiyede Çağdaş Düşünce Tarihi. İstanbul: Ülken Yayınları, 2001, 516 s.
15. Xəlilov S.S. Cavid fəlsəfəsi (2-ci kitab: klassik Şərq və müasirlik). Bakı: Nurlan, 2009, 124 s.
16. Xəlilov S.S. Sivilizasiyalararası dialoq. Bakı: Adiloğlu, 2009, 256 s.
17. Resulzade M.E. Azerbaycan Kültür Gelenekleri. “Azerbaycan kültür derneği”nin teşebbüsü ile, 28 mayıs 1949 da, Ankara Halkevi binasında verilen konferans. Ankara: Sipahi matbaası, 1949, 31 s.
18. Əfqani C. Təfsirçinin təfsiri (İngilis dilindən tərcümə edən: Q.Mürşüdlü). “Fəlsəfə və sosial-siyasi elmlər”, 2010, № 1 (29), s. 202-210.
19. Hüseynzadə Ə.B. Seçilmiş əsərləri (Transliterasiya, tərtib,

müqəddimə, şərh və izahların müəllifi Ofeliya Bayramlı). Bakı: Çaşıoğlu, 2007, 640 s.

20. Rəsulzadə M.Ə. Əsərləri. I cild (Toplayanı, tərtib və transliterasiya edəni professor Şirməmməd Hüseynov). Bakı: Azərnəşr, 1992, 470 s.
21. Resulzade M.E. Azerbeycan Cumhuriyyeti (Keyfiyet-i, teşekkülü, ve şimdiki vaziyyeti) Azərbaycan türklerinin Kültür ve Dayanışma Dernegi yayınları, İstanbul, 1990, 205 s
22. Resulzade M.E. Kafkasiya türkleri (Hazırlayanlar Yavyz Akpınar, İrfan Murat, Yıldırım Sabahattin Çağın), İstanbul, Türk Dünyası Azerbaycanlıları Vakfı, 1993, 132s.
23. Talıbzadə Kamalın təqdimatında Abdulla Şaiqin "Sultana Quran aparılması" məqaləsi, "Elm" qəzeti, mart, 1992, №6.
24. Süleymanlı M.A. XX əsrin əvvəllərində Azərbaycan kulturoloji fikri. (Fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya), Bakı, 2014.
25. Paşayeva Q. Turan A. Əli Bəy Hüseynzadə Turan. Bakı, 1999, "Elm və Təhsil2 nəşriyyatı, 150 s.
26. Azərbaycan publisistikası antologiyası (Tərtib edən: C.Bəydili-Məmmədov). Bakı: Şərq-Qərb, 2007, 688 s.
27. Ağaoğlu Ə. Seçilmiş əsərləri (Tərtib edənlər: Ə.Mirəhmədov, V.Quliyev). Bakı: Şəqr-Qərb, 2007, 392 s.
28. Агаев А. Панисламизм, его характер и направление. «Касрий», 14 апрель 1900, № 81.
29. Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir, Bakı, Mütərcim, 1997, 292s.

30. Nemanzadə Ö.F. Seçilmiş əsərləri (Toplayanı, tərtib edəni, öz sözün və izahların müəllifi: Şamil Qurbanov). Bakı: Yazıçı, 1992, 536 s.
31. Mirəhmədov Ə. Ə. Ağayev milli məsələ (erməni məsələsi!) haqqında. Əlyazması, 39 səh. (müəllifin şəxsi arxivindən).
32. Süleymanlı M.A. Əhməd Ağaoğlunun Fransa dövrü yaradıcılığı və ilk elmi əsəri haqqında / "Mədəniyyət dünyası", X buraxılış, Bakı: ADMİU, 2005, s. 18-32
33. Hüseynzadə Ə. Qırmızı qaranlıqlar üçündə yaşıl işiqlar (Tərtib edəni: Ofelya Bayramlı). Bakı: Azərnəşr, 1996, 256 s.
34. Erişirgil M.Türkçülük devri, milletçilik devri, insanlık devri. Ankara, 1958, 72 s.
35. Ayvazov H.S. Nədən bu hala qaldıq? Bakı, 1907-ci il; İsveç, Stokholm, 2000, 112 s.
36. Kakınç H. Sultanqaliyev ve milli komünizm. İstanbul, Bulut yayınları, 2003, 336 s.
37. Talıbzadə K. Seçilmiş əsərləri: 2 cilddə, II c., Bakı: Azərnəşr, 1994, 432.
38. Özcan U. Ahmet Ağaoğlu ve rol değişikliği (Yüzyıl dönümünde batıcı bir aydın). İstanbul: Donkişot yayinlari, 2002, 280 s.
39. Sofiyev X.Ə. Şərq-Qərb mədəniyyətləri və Əhməd bəy Ağaoğlu. Bakı: Ocaq, 2004, 240 s.
40. Əsədli M. Yusif Ziya Talıbzadənin həyatı və mühiti (1877-1923). Bakı: Nurlan, 2005, 190 s.
41. Talıbzadə A.Y. Əmirxanyansa cavab. "İrşad" qəz., 14 noyabr 1906-ci il, № 263.

42. Əmirxanyans. İslam və tərəqqi. “İrşad”qəz., Bakı, 27 oktyabr, 1906-ci il, № 262.
43. Ağayev Ə. İslam və tərəqqi. Əmirxanyansa cavab. “İrşad” qəz., Bakı: 31 oktyabr 1906-ci il, № 254.
44. Balayev A. Məmməd Əmin Rəsulzadə. Bakı, Adiloğlu, 2011, 288 s.
45. Rəsulzadə M.Ə. İstiqlal məfkurəsi və gənclik. Bakı, 1991, 82 s.

## Kitabın; «İslam modernizmi-cədidçilik: genezisi, dini-fəlsəfi aspektləri» hissəsində istifadə olunmuş ədəbiyyatın siyahısı

1. Məmmədzadə M.B. İki inqilab arasında keçdiyimiz yola bir nəzər // “Musavat” (Müsavat partiyasının bülleteni), 1992, № 2
2. Şəkixanova M.M. Türk məfkurə tarixinin işıqlı siması Musa Carullah Bigiyev və onun əsərləri haqqında. Türk eli toplusu, Bakı, 2012, səh.,45-48
3. Şəkixanova M.M. XIX əsrin dünya fəlsəfi fikir tarixindəki xarakteristik xüsusiyyətləri və bu əsrdə yaşamış azərbaycanlı nəqşibəndi şeyxi Mir Həmzə Nigarı. I beynəlxalq Həmzə Nigari konfransının materialları. Türkiyə, Amasya, 2012, səh 239-247
4. Şəkixanova M.M. Türkçülük hərəkatının görkəmli nümayəndəsi Musa Carullah Bigiyevin dini-fəlsəfi görüşləri barəsində. “Müasir dövrdə dinşünaslıq və mədəniyyətin aktual problemləri (I buraxılış)” toplu, AMEA FSHİ Bakı, Təknur, 2012, səh 125-137

5. Şəkixanova M.M. Türkçülük mücadiləsini formalaşdıran zamana və Mehmet Akif şəxsiyyətinə əsrimizdən yenidən dini-fəlsəfi bir baxış. Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid. Beynəlxalq konfransın materialları, Bakı, Proqress, 2012, səh 238-244.
6. Şəkixanova M.M. XIX əsrin sonu XX əsrin əvvəllərində yaşamış Azərbaycan cədidçilərinin dini- fəlsəfi görüşləri barəsində. Müasir dövrdə dünşünaslığın və mədəniyyətin aktual problemləri (II buraxılış), Bakı, Təknur, 2013, səh., 101-121
7. Şəkixanova M.M. XIX əsrin daha bir maraqlı şəxsiyyəti, ariflər aqili, vətənin aşiqi Niqarı. II uluslararası Hamza Nigarı konfpansının materiallarına həsr olunmuş tezislər kitabı, Bakı-Qazax, 2014
8. Şəkixanova M.M. Bakıxanova minnət borcumuz var. Bütöv Azərbaycan qəzeti. www bütöv.az, 27 dekabr 2014.
9. Şəkixanova M.M. Abbasqulu ağa Bakıxanov yaradıcılığına yeni bir nəzər. Müasir dövrdə dünşünaslığın və mədəniyyətin aktual problemləri. III buraxılış Bakı, Təknur, 2015 səh.,134-159
10. Şəkixanova M.M. Tənzimat dövrü ədəbiyyatı: Namiq Kamal və məsləkdaşlarının Vətən, millət, azadlıq fəlsəfəsi. www Bütöv. az, Bakı, 2015, 10 dekabr
11. Şəkixanova M.M. Şəxsiyyəti XIX əsr Qafqaz mədəniyyətinin güzgüsü olan mütəfəkkir "Qafqazda dövlətlərarası münasibətlər: 100il əvvəl və müasir dövr" Qafqazşünaslıq institutunun AMEA rəhbərliyi ilə birgə təşkil etdiyi beynəlxalq elmi konfransın materialları, Bakı, 2018. Məqalə məruzə olunub sertifikatla

mükafatlandırılıb).
12. Şəkixanova M.M. Tatarların ictimai fikir və ictihad fəlsəfəsi tarixinin fəxri ilahiyyatçısı Kürsəvi kimdir? http//newscenter az/2018/11/27/ tatrların-ictimai-fikir-ve-ictihad-tarixinin-fexri-ilahiyyatçısı-kursevi-kimdir.html.
13. Şəkixanova M.M. Türk qadını kimliyimizi şərtləndirən persona kimi. Cender problemi və müasir Azərbaycan. II Respublika elmi konfransının materialları, Bakı, 2018, AU, səh., 151-153. (Sertifikatla mükafatlandırılıb)
14. Şəkixanova M.M. Müsəlmanların ilk azadfikirlisi Əbu-n-Nəsr Kürsəvi yaradıcılığına dini-fəlsəfi baxış. http/turkustan. info/2018/12/17-müsəlmanların-ilk-azadfikirlisi-əbu-n-nəsr-kursəvı-yaradıcılığınana dini-fəlsəfi baxış.
15. Тьери Заркон. Теология и философия у джадидитов (вопрос о свободомыслии (иджтихад). Рроблемы Восточной Философии, Международный научно-теоретический журнал №1-2, Баку,200
16. Антология татарской Богословской мысли. Абу-н-Наср Курсави, Казан, татарское книжное издательство, 2005,
17. Сэгди Г. Татар эдэбияты тарихы. Казан, 1926
18. Антология татарской Богословской мысли. Габдрахим Утыз-Имяни ал Булгари, Казан, татарское книжное издательство, 2007
19. Budi A. Zaman-i ictihad münqərizmi deyilmi? Kazan, Эльм, 1909,
20. Курсави Абу-н-Наср, Ал-Иршад ли-л`ибад. Казан; Лит. тир. И. Н. Харитонова, 1903.

21. Mustafayev R. Orta əsrlər müsəlman svlizasiyasında bərabərlik problemi, Bakı, Təknur, 2010.
22. Духовное наследие татар как фактор традиционности в трудах Г. Утыз-Имяни. Анталогия Татарской Богословской Мысли, казан, Татарское книжное издательство, 2007. С.,37
23. Bünyadzadə K. İslam fəlsəfəsi tarix və müasirlik, Bakı, Çaşıoğlu, 2010.

## Kitabın; «Tatarların ictimai fikir və ictihad tarixinin fəxri ilahiyyatçısı Kürsəvi kimdir? Onu yetişdirən mühitə hermenevtik, yaradıcılığına dini-fəlsəfi baxış» hissəsində istifadə olunmuş ədəbiyyatın siyahısı

1. Валяди Дж. Очерки истории, литературы и образованности татар. Москва, Пг., 1923.
2. Səqdi H. Tatar ədəbiyyatı tarixi, Kazan, 1926
3. Şəkixanova M. Sufizm fəlsəfəsinin Kamil İnsan konsepsiyası, Bakı, Təknur, 2007. Fərrux Ramazanov və çoxlu müəlliflərin redaktəsi ilə Ali məktəblər üçün fəlsəfə dərsliyi. (İntibah dövrü bölməsi), Bakı, Elm, 2001.
4. Əlisa Nicat. Dünya Filosofları, Bakı, “Sabah” nəşriyyatı, 2005, s., 296 (540)
5. Анталогия Татарской Богословской мысли., Абун-н-Наср

Курсави, Казань, Татарское книжное издательство, 2005, 233s.

6. Хабутдинов Айдар. Габдуннасыр Курсави-татарский Лютер. (Лидеры нации. Автореферат, Казан, 20014) См; cetext.ru/gabdunnasr-kusavi-tatarskiy-luter.html?page=2 29.03.2018)).

7. Хабибулина Г.Ю. Педогогическая система образование в Исламе. Вестник ПСТГУ, Серия Педагогика Психалогия, Москва, 2016.

8. Kemper M. Entre Boukbara et la Moenne-Volqa: Abd an-Nasr al-Qursavi (1776-1812) en confllit aves qulemas traditionalistes //Cahires du Mjonde russe, XXXVII (1-2), janvier 4-juin, 1996.

9. Идиятуллина Гульнара Гаделевна. Абу Наср Курсави и среднеазиатские истоки татарской мысли конца XVIII начала XIX веков (по материалам трактата «ал Иршад ли-л-ибад) (tarıx elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilən dissertasiya işi) Kazan, 2001.

10. Анталогия Татарской Богословской Мысли. Габдурахим Утыз-Имяни ал-Булгари, Kazan, 2007.

11. Şəkixanova M. XIX əsrin dünya fəlsəfəsi tarixindəki xarakterik xüsusiyyətləri və bu əsrdə yaşamış Azərbaycan Nəqşibəndi şeyxi Mir Həmzə Nigari, Türkiyə (Amasya), 2012.

12. Раджабов И. Абдуррахман Джами и таджикская философия ХУ века. Душанбе, Ирфон, 1968. Отец татарской идентичности Шигаведдин Марджани. (Айдар Хабутдинов. Лидеры нации. Автореферат), Казан, 2014 с14-26. См; cetext.ru/gabdunnasr-kusavi-tatarskiy-luter.

html?page=2 29.03.2018)).

13. Algar H. Shaykh Zaynullah Rasulev/ The last Great Naqshbandi Shaykh of the Volqa-Urals reqion/|Muslims in Central Asia. Exspressions of identity and Cange/-Durham and London? 1992.
14. Баширов А. Изучение суфизма в англо-американского востоковедение, Bakı, 2003.
15. Богословие Нового времени. Рза Фахретдин. См; cetext.ru/gabdunnasr-kusavi-tatarskiy-luter.html?page=2 29.03.2018))
16. Авун-н Наср Курсави. Наставление людей на пут истины, Казан, татарское книжное издательство, 2005.
17. Кули-заде З. "Закономерности развития восточной философии XII-XVI вв и проблема Запад Восток", Баку 1983.
18. Кули-заде З. Мировоззрение Касими Анвара, Ваку, Элм, 1976.
19. Рзакули-заде С. Мировоззрение Баба Кухи Бакуви, Баку, Элм, 1978
20. Рзакули-заде С. Пантеизм в Азербайджане в XI-XIII вв., Баку, Элм,1982.
21. İsmayılov Ş. Mahmud Şəbüstərinin fəlsəfəsi, Bakı, Elm, 1987
22. Баширов А. Изучение суфизма в англо-американского востоковедение, Баку, Элм, 1981.
23. Məmmədov Z. Eynəlqüzat Miyanəcinin fəlsəfəsi, Bakı, Elm, 1992.
24. Rüstəmov Y. Cəlaləddin Ruminin sufilik fəlsəfəsi, Bakı, Elm, 2002.

25. Bünyadzadə K. Təsəvvüf fəlsəfəsinin ilk mənbələri Sərrac Tusi “əl-Lümə” Bakı, Qamma servis, 2003.
26. Zərqanayeva. İ. “Abu Həmid Qəzalinin fəlsəfi-etik görüşləri, Bakı Təknur,2007
27. Süleymanov N. “ İslam mədəniyyəti və sufizm”, Bakı, Nurlan, 2011.
28. Mir Həmzə Seyid Nigarinin “Nigarnaməsi” Mir Həmzə Seyid Nigari Fars Divanı, (çapa hazırlayan, ön sözün müəllifi və transleterasiya işlərini görən Nəzəkət Məmmədova) Bakı, Elm, 2011.
29. Sərxan Xavəri. Milli mədəniyyət sistemində poetik təssəvvüf kodu, Bakı, Elm, 2016.
30. Hümmətova X. Azərbaycan şeirinin poetik qaynağında təsəvvüf, Bakı, Elm və Təhsil nəşriyyatı, 2015.

## Kitabın; «Fəaliyyəti ilə ensiklopedik məfkurə formalaşdırıb, fikirləri ilə yeniliklərə yol açan Bakıxanov yaradıcılığına araşdırdığımız aspektdən bir nəzər» hissəsində stifadə olunmuş ədəbiyyatının siyahısı

1. Quliyev A. Abbasqulu ağa Bakıxanovun ictimai-siyasi görüşləri, Bakı, Qanun, 2000.
2. Əliyeva (Kəngərli) Aybəniz. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük, Bakı, Elm, 2002.

3. Şəkixanova M. XIX əsrin sonu XX əsrin əvvəllərində yaşamış Azərbaycan cədidçilərinin dini-fəlsəfi görüşləri. Müasir dövrdə dinşünaslığın və mədəniyyətin fəlsəfi problemləri (II buraxılış), Bakı 2013.
4. Ц.П. Агаян. А. Бакиханов. Издательство АН Азерб. ССР, Баку 1948
5. Bakıxanov A. Gülüstani İrəm, Bakı, Az. EA nəşriyyatı, 1951.
6. Qarayev. Y. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər, Bakı, Elm.
7. Kərimov. H. Odlar Yurdunun səyyah və coğrafiyaşünasları, Bakı, 1985.
8. Bünyadov. Z.M. "Gülüstani-İrəm" kitabına yazdığı redaktor mətnindən, Bakı, 1991.
9. Abbasqulu ağa Bakıxanov. Riyazül Qüds, Bakı, Azərnəşr, 1964.
10. Qasımzadə F. XIX əsr, Azərbaycan ədəbiyyatı tarixi, Bakı, 1966.
11. Bakıxanov A.A. Hind əfsanəsi (Hikmətin sirləri). Bakı. Uşaqnəşr, (Nəşrə hazırlayan M. Sultanov), 1957.
12. Bakıxanov A.A. Hikmətin sirləri, Bakı, Azərnəşr, 1964.
13. Bakıxanov A.A. Məşvərətin sirri. Hind əfsanəsi, (Nəşrə hazırlayan M. Sultanov), Bakı.Uşaqnəşr, 1957.
14. Bakıxanov A.A. Ümidin boşa çıxması. Hind əfsanəsi (nəşrə hazırlayan M. Sultanov), Bakı, Uşaqnəşr, 1957.
15. Abbasqulu ağa Bakıxanov Qüdsi. Bədii əsərlər, Bakı, Azərbaycan dövlət nəşriyyatı,1964.
16. Abbasqulu ağa Bakıxanov Qüdsi. Təhzibi-əxlaq və nəsihətlər,

Beynəlxalq Əlhuda Nəşriyyatının Bakı şöbəsi, 2004.
17. Məlikova M. Azərbaycanın siyasi hüquqi nəzəriyyələr tarixi, Bakı. Dövlət nəşriyyatı,1984.
18. Şəkixanova M. Türkçülük hərəkatının gürkəmli nümayəndəsi Musa Carullah Bigiyevin dini-fəlsəfi görüşləri. Müasir dövrdə dinsünaslığın və mədəniyyətşünaslığın aktual problemləri. Toplu, Bakı, Təknur, 2012.
19. Abbasqulu ağa Bakıxanov 200 (1794-1846). Respublika konfransının materialları.
20. ЦГИА Груз. ССР, ф. 30, № 596, «Об учреждени в Тифлисе училиша для воспитания детей Алиевой секты», 1945.
21. Həbiboğlu Vəli. Abbasqulu ağa Bakıxanov. Bakı, Gənclik 1992.

## Kitabın; «XIX əsrin sonları və XX əsrin əvvəllərində yaşamış Azərbaycan yenilikçilərinin yeni tipli tədrisə verdikləri əməkləri» hissəsində istifadə olunmuş ədəbiyyatının siyahısı

1. Мамедзаде И., Геюшева З. Модерн, просветительские идеи Гасанвека Зардаби и философия просвещения. Баку, Текнур, 2015.
2. Babaşov M. XX əsrin əvvəllərində Azərbaycanda milli oyanış və maarifçilik hərəkatı, Qafqaz Universitetinin toplusu.
3. Ali Haydar Bayat. Hüseyinzade Ali Bey, Atatürk Kültür

Merkezi Başkanlığı Yayını, Ankara,1998.

4. Babaşov M. Bakı müsəlman ruhani “Səadət” cəmiyyəti. ”Elm” qəzeti,1991.
5. Səmədov E. Azərbaycanda din-dövlət münasibətləri və dini təhsilin formalaşması, Bakı 2009
6. Əhmədov Hüseyn. Azərbaycan məktəb və pedaqoji fikir tarixi (dərs vəsaiti). I hissə, B., 2001
7. Rüstəmov İ.Ə. Azərbaycanda təbii-elimi biliyin inkişafının fəlsəfi problemləri, Bakı, Diplomat, 2001.
8. Mustafazadə T. XVIII əsrdə Rusiya İmperiyasının işğalçılıq siyasətində dini amillər, “Altay dünyası”, Bakı, 1998,
9. Əliyeva A. (Kəngərli), Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük, Bakı, Elm, 2002.
10. Мир-Багирзаде С. Культура Исламской Цвилизации, Баку, Елм, 2011.
11. Sadıqov H. Rusiya-Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi (1787-1729-cu illər), Bakı, “Elm”,1991
12. Akçura Y. Osmanlı devlətinin dağılma devri, Ankara, 1988
13. Маркова О. Россия Загафгазие международные отнощение в XVII веке Москва, 1966.
14. Qutqaşınlı İ. Əsərləri, Bakı, Azərbaycan EA nəşriyyatı, 1967.
15. Axundov M.F. Əsərləri, III cildə, Bakı, “Elm”, 1987-1988
16. Zərdabi H. Seçilmiş əsərləri, Bakı, Azərbaycan dövlət nəşriyyatı, 1960.
17. Bayqara H. Azərbaycan istiqlal mücadiləsi tarixi, Bakı, Azərbaycan Dövlət nəşriyatı,1992.

18. Əkinçi 1875-1877, Bakı, Azərnəşr, 1979.
19. Bakıxanov A. Gülüstani İrəm, Bakı, Az. EA nəşriyyatı, 1951
20. Qarayev Yaşar. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər, Bakı, Elm
21. Göyalp Z.Türkçülüyün əsasları, Bakı, "Maarif",1991
22. Cabbarlı N. Cəfər Cabbarlı mühacirət ədəbiyyatşünaslığında "Azərbaycan" jurnalı, 2002, N9
23. Köçərli F. Mirzə Fətəli Axundov, Tiflis "Kultura" mətbəəsi, 1911.
24. Vəzirov Y. Azərbaycan ədəbiyyatına bir nəzər, "Azərbaycan" jurnalı, N9. 1996.
25. Rəsulzadə M.Ə. Panturanizm haqqında, "Azərbaycan" jurnalı, 1991.
26. Mehmetzade M.B. Milli Azərbaycan harekatı, Ankara,1991.

## Kitabın; Cədid öndərlərindən Musa Bigiyevin "İslamın əlifbası", "Türkiyə Böyük Millət Məclisinə müraciət" əsərləri müsəlman teoloqunun kommunistlərə tutarlı cavabı və siyasi-fəlsəfi öncəgörməsi kimi hissəsində istifadə olunmuş ədəbiyyatın siyahısı.

1. Хабутдинов А. Лидеры нации. netref.ru/qabdunnasr-kursavi-luter.html?page=6 (26.04.18)

2. Антология татарской богословской мысли. Муса Джаруллах Бигиев. Избранные труды в двух томах. (Обрашение к Великому Турецкому Нацианальному Собранию. Воззвание к мусульманским нациям. Казань 2006, 256 стр.
3. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, 1994, 356 səh.
4. Əliyeva Z. Azərbaycan maarifçiliyi və dünya ədədi-nəzəri fikri. Baki 2008.
5. Görməz M. Musa Carullah Bigief. 1994., 136 səh.

## Kitabın; "Adəmin bütün övladlari bərabər hüquqludur!" şüarını irəli sürən teoloq Musa Biqinin yaradiciliğinda qadinin şəxsiyətinə və vəzifələrinə münasibət

1. Хабутдинов Айдар Лидеры нации. netref.ru/qabdunnasr-kursavi-luter.html?page=6 (26.04.18)
2. Муса Джаруллах Вигиев. Избранные труды в двух томах. Женшина в свете священных аятов Благародного Корана. Казань 2006, 256 стр.
3. Hacı Abdüssəlam Axundzadə. Peyğəmbərlər tarixi.
4. Антология татарской богословской мысли. Муса Джаруллах Вигиев. Избранные труды в двух томах. (Обрашение к Великому Турецкому Нацианальному Собранию. Воззвание к мусульманским нациям. Казань 2006, стр 159.

# Kitabın; “Türkçülük mücadiləci”ni formalaşdıran zamana və Mehmet Akif şəxsiyyətinə əsrimizdən yenidən dini-fəlsəfi bir baxış hissəsində istifadə olunmuş ədəbiyyatın siyahısı:


1. Маркс К., Энгельс Ф. Собрание сочинений, т. 9.
2. Göyalp Ziya. Türkçülüyün əsasları, Bakı, Maarif, 1991.
3. Джаруллах Муса Бигиев. (Обрашение к Великому Турецкому Нацианальному Собранию. Воззвание к мусульманским нациям. Избранные труды в двух томах, Казань, 2006.
4. Əliyeva A. (Kəngərli). Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük, Bakı, “Elm” 2002.
5. Fevziyə Abdullah Tansel, Mehmet Akifin Doğum Yeri Bayramiçdirmı? Qübbəaltı akademik məcmuəsi, İstanbul, 1977, 6-cı sayı.
6. Recep Duymaz, Mehmet Akif Ersoyun Şahsiyetinin Qaynakları, Bilim ve Aklın Aydığınğında Eğitim Dergisi, Yıl 7, Sayı 73, Mart 2006
7. Şəkixanova. M. Türk məfkurə tarixinin işıqli simasi Musa Carullah Bigiyev və onun “İslamın əlifbası”, “Türkiyə Böyük Millət Məclisinə müraciət” kitablari haqqında. (AMEA Fəlsəfə Sosialogiya və Hüquq İnstitunun icazəsi ilə buraxılan toplu.) Bakı, Nurlar 2012 səh 200-212.

8. Lokman Çağrıca. Türk dünyasını işıqlandıranlar: M.Akif Ersoy və Hüseyin Cavidin xatirələrinə həsr olunmuş beynəlxalq konfransdakı giriş nitqindən, Bakı, 20013.səh XIII

9. Gündoğdu S. Mehmed Akif Ərsoy yaradıcılığında ictimai problemlərin bədii təcəssümü, Bakı, "R.M.Komponi", 2012.

10. Mehmet Okur. Safahatta Mehmet Akifin türk dünyası ilə ilğili dəyərləndirmələri, Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid. Beynəlxalq konfrans materialları, Bakı, 2013.

11. N.Karayazı."Sıratımüstakım" mecmuasının gözdən kaçan önemli bir hizmeti "Türk Derneyi" Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid, Beynəlxalq kohfransın materialları Bakı, 2013.

12. Orhan Okay. Mehmet Akif, bir karakter haykelinin anotomisi, Akcak yayınları, Ankara, 1998.

13. Kadır Şeker. Akifin İttihad-i İslam anlayışı, Türk dünyasını işıqlandıranlar:

14. Mehmet Akif Ersoy. "Hakkın sesleri" Sefahat, üçüncü kitab. Neşre hazırlayan Ertoğrul Düzdağ., Nesil yayınları, İstanbul 2011.

15. Hazem Said Mohammed. Gerçek ilə hayal arasındakı Akifin Asım"ı Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid. Beynəlxalq kohfransın materialları Bakı, 2013.

16. Məmmədli P. Türk dünyasının Məmməd Akif Ərsoy, Əhməd Cavad və Mir Mehdi Etimad kimi ünlü ədəbi şəxsiyyətlərinin yaradıcılığında ortaq mövzu. Türk dünyasını işıqlandıranlar: M. Akif Ersoy, Hüseyin Cavid, Beynəlxalq kohfransın materialları Bakı, 2013.

## Kitabın; «Tənzimat dövrü ədəbiyyatı: Namiq Kamal və məsləkdaşlarının Vətən, millət, azadlıq fəlsəfəsi və naticə əvəzi» hissələrində istifadə olunmuş ədəbiyyatın siyahısı;


1. Hüseynov R. Namiq Kamal, Bakı Yazıçı, 1990.
2. Гордолевский Б.А. Избранные сочинение II, с, М, 1961.
3. Quliyev. E. Türk xalqları ədəbiyyatı, Bakı, Qismət, 2009.
4. N. Kamal. Əsərləri, 3 cilddə, İstanbul, 1957.
5. Encarta World English Dictionary 1999 Microsoft Coorporation developed for microsoft by Bloomsbury publishing.
6. Lemont. "The philosophy of humanism" London 1977. s.116.
7. Edmund Burke. Reflections on the Revolution in France. ed. J.G.A. Rocock, İndianopolis. Hacket Publishing Company, 1987.
8. https://www.youtube/com/watch?v=bjqw6Shuzzw (27/05/2018).
9. Cəbrayılov İ. Azərbaycan Tarixi (Ali məktəblər üçün dərslik), Bakı, Mütərcim, 2009.
10. Мамедзаде И., Геюшева. З. Модерн, просветительские идеи Гасанвека Зардаби и философия просвещения. Баку, Текнур, 2015.
11. Zeynalov Ş. Dialoq fəlsəfəsi, Bakı, Avropa, 2017.
12. Современники о Бакиханове (составитель И. К Еникалопов), Бaku, 1959, s.24.

13. Şirəliyev H. Politologiya. Ali məktəblər üçün dərslik. Bakı, 1997

14. Qandi M. Bütün insanlar qardaşdır (Tərcümə edən: Güntay Gəncalp). http://chevrilerim.blogspot.com/2010/12/mahatmaq-qandi.html.; Qandi M. Hindistanda milli dil yolunda savaş (Tərcümə edən: Güntay Gəncalp). latin elifbasi http://chevrilerim.blogspot.com/2011/01/hindistanda-milli-dil-yolunda-savas. html.

15. К 150 летию со дня рождения Г. Баруди. Чтени е в музее Г.Тукая. www.museum.ru/N32728 (22/05 2017).

16. Гаспринский И. Русское мусулманство. Мысли, заметки и наблюдения. Симферополь, 1881. Цит.по Гаспринский И. Россия и Восток. Казан, 1993.

**A**


Ağaoğlu Əhməd (Əhməd bəy Ağayev) – 11, 17, 23, 29, 31, 32, 33, 38, 39, 40, 45, 48, 51, 57, 58, 59, 60, 62, 63, 64, 66, 67, 71, 74, 75, 76, 77, 79, 81, 82, 170, 226, 227,228, 239

Akçura oğlu Yusif – 28, 32, 226, 227

Aleksandr Serqeyeviç Puşkin – 40, 140, 150, 159

Aleksey Yermolov – 141

Alim Maqsud – 29

Alkastis-211

Aristotel – 270

Arsal Sədri Maksudi-182

Aruz Qazan oğlu – 205, 206, 207

Aşurbəyov İsa bəy – 165

Atilla 135

Axill -211

Axund Əhməd Səlyani (Hüseyinzadə) – 54, 55, 56, 76

Axund Mirzə Əbu Turab - 76

Axund Molla Mustafa - 76

Axundov Mirzə Fətəli – 27, 51, 56, 149, 153, 169, 170, 171, 172,174, 175, 179, 180, 181, 266

Axundov Rəşid bəy – 51

**B**

Babanzadə Ahmət Naim – 226

Babur – 109, 112

Bakıxanov Abbasqulu ağa – 11, 17, 24, 27, 40, 41, 62, 100, 108, 128, 129, 130, 131, 132, 133, 135, 136, 137, 138, 139, 140, 141, 144, 145, 148, 149, 150, 153, 154, 155, 156, 169, 170, 181, 266

Barudi Alimcan Qaleyev - 272

Berezin İlya Nikolayeviç – 40, 150 Bertels Yevqeniy Eduardoviç - 109

Bestujev Marlinski – 40, 150, 267

Beşiktaşlı kiçik Fuad – 161

Bərəkətzadə İsmail Hakkı – 226

Biqiyev Musa Cərulla – 11, 12, 17, 18, 24, 28, 32, 43, 44, 47, 61, 62, 91, 95, 115, 182,183, 184, 186, 187, 188, 189, 190,191, 194,198,199, 200, 201, 202, 203, 205,210, 211, 212, 213, 214. 215, 216, 217,218, 275

Biqiyev Zahir – 185, 198

Bodenştet Fridrix – 40, 150

Braqinski İosif Samuiloviç– 109

Brosse Mariy İvanoviç – 40, 137, 150

Bubi Abdulla – 91, 92, 95

Buxarin Nikolay İvanoviç-44.

Bulqari Dursunbəyi bin Əbdürəhim - 118

Bulqari Məhəmməd Əmin – 112

Bulqari Utız İməni – 32, 88, 91, 94, 95, 96, 114, 115, 182

Bursalı Mehmet Tahir bəy – 226

Bünyadov Ziya - 141

Bünyamin Əhməd – 29

**C**

Cabbarlı Cəfər – 203

Cəbrail (ə.s.) – 214

Cəlal əd-Dəvvai - 95

Cəlil Məmmədquluzadə - 11, 17, 23, 73, 75, 76

Cordano Bruno - 101

**D**

Dədə Qorqud – 204, 208, 210, 212

Dəli Domrul – 208, 209, 210

Dərgahqulu xan - 128

Dorn Boris Andreyeviç– 40, 137, 150

**E**

Edmund Börk – 264

Engels Fridrix – 234

Eynəlqüzzat Miyanəci – 144

**Ə**

Əbdüh Məhəmməd – 28, 42, 43, 46, 91, 185,228, 231, 242, 275

Əbdülbari Battal - 104

Əbdülhəq Hamid – 249, 254

Əbdürəhman Cami – 112

Əbdürəşid İbrahim (İbrahimov) – 29, 182, 185, 226, 227

Əbu Əli ibn Sina - 106

Əbu Hamid əl-Qəzali – 46, 94, 95, 96, 106, 110

Əbu Müslim - 93

Əbu Nəsr Fərabi - 106

Əbu Zərr – 214

Əbu-n Nəsr Kürsəvi – 11, 12, 17, 18, 23, 24, 28, 87, 88, 93, 94, 99, 100, 101, 103, 107, 108, 109, 113, 115, 116, 117, 118, 119, 120, 121, 122, 123, 124, 125, 126, 127, 130, 181, 275

Əbül Fida – 154

Əfəndiyev Rəşid– 67

Əfəndizadə Amin – 77

Əfəndizadə Muxtar - 162

Əfqani Cəmaləddin - 10, 16, 23, 34, 35, 36, 37, 38, 39, 40, 42, 43, 45, 46, 49, 51, 53, 58, 63, 68, 69, 71, 72, 185, 228, 231, 236, 242

Əfzələddin Xəqanı 160

Əhməd Midhət - 226

Əhməd Naim - 45

Əhməd Sirhindi - 114

Əhməd Vefiq paşa – 40, 41, 138, 139

Əhmət Kamal - 161

Əhsənül Qəvaid - 177
Əla əd-Daula - 114
Əl-Buxari - 93
Əlişir Nəvai – 56, 112
Əllamə ibn Həcəri Məkki - 90
Əl-Qərnati - 108
Əminə Şərif - 224
Əmir Teymur – 109, 111
Əmirxanyans İbrahim -78, 79
Ənvər Paşa - 225
Ət-Taftazani - 95
Əzrail (ə.s.) – 208, 209
Gorani Əliəkbər – 177

**F**

Faizxan Kabuli - 114
Fazil Fəridəddin - 160
Fazil xan Şeyda – 40, 150
Fələki Şirvani – 160
Fərid Vəcdi – 43
Fətəli xan - 128
Fəxrəddinov Rza (Rza Fəxrəddin) – 108, 120, 121, 124, 125, 182, 198
Feyzulla Qasımzadə - 145
Fridrix Bodenştet - 139

**H**

Habizadə Nazim - 254

Hacı Əbdüssalam Axundzadə - 54

Halim Sabit [Şibay] - 226

Haqverdiyev Əbdürəhim bəy – 67, 170

Hazem Said – 240, 241, 243

Həbibbəy Mahmudbəyov - 77

Həbibullayev Səqdi-88

Hektor - 211

Həmdullah Sübhi – 245, 259

Henrix Kox – 40, 150

Həqiqət-Zadə Mahmud - 198

Herder İosif Qotfrid - 50

Herodot – 154, 271

Heydər Hüseynov - 122

Heydəri Əliəkbər - 177

Həzrəti Aişə - 214

Həzrəti Məryəm – 214

Hifsə - 214

Hilmi Ziya Ülkən – 30

Hüseyin Baykara (Qara bəy Şirinbəyov) - 34

Hüseyin Cavid - 49

Hüseyin Əfəndi Qayıbov - 54

Hüseynzadə Əli bəy - 11, 17, 23, 29, 40, 48, 51, 55, 59, 60, 66, 67,

68, 73, 74, 75, 227, 239
Hz. Ömər bin Əbdüləziz – 53, 241

**X**

Xandəmir - 154
Xoca Übeydullah Əhrar – 112
Xorenski Moisey - 154

**İ**

İbn Bətutə - 108
İbn əl-Əsir – 154
İbn Fədlan – 108
İbn Hövqəl – 154
İbn Osman - 160
İbn Rüşd - 271
İbn Sina - 271
İbn Teymiyyə - 46, 89, 93
İbn Xəldun – 95, 271
İbrahim oğlu İsmail – 208
İbrahim peyğəmbər (ə.s.) – 207
İbrahim Şinasi – 248, 250, 251
İbrahimov Alimcan - 182
İmadəddin Nəsimi - 144
İmam Buxari - 213

İmam Hüseyin - 130

İmam Müslim – 213

İsa bəy Aşurbəyov,

İsa peyğəmbər (ə.s.) – 214

İsaki Məhəmməd Ayaz – 182, 189, 226, 227

İsmayıl bəy Qutqaşınlı – 141, 149, 266

İzmirli İsmail Hakkı – 45

İzzədin Şirvani - 160

**K**

Kafiəddin Ömər – 160

Karamzin Nikolay Mixayloviç – 154

Katib Çələbi – 154

Kazım paşa – 253

Kemper Mixail – 108, 126

Kodrus – 211

Konfutsi- 207

Korniloviç Aleksandr Osipoviç– 268

Kox Karl Henrix - 140

Köçərli Firudin bəy- 67

Krestinski Nikolay Nikolayeviç – 186

Kuhelbeker Vilhelm Karpoviç– 268

Kuntay Midhət Camal – 226

**Q**

Qafuri Məhəmməd - 198

Qafuri Tuqay – 198

Qarabəyov Qarabəy - 77

Qasım bəy Zakir – 134, 266

Qasım Ənvar - 144

Qasım Qasımov – 165

Qasımzadə Feyzulla - 145

Qaspiralı İsmail bəy – 8, 11, 15, 17, 22, 24, 29, 40, 47, 48, 181, 182, 226, 227, 239, 239, 273, 276

Qazan xan – 204, 205, 207

Qədri əfəndi - 224

Qənizadə Sultan Məcid – 67, 77, 170

Qəzvini Həmdullah - 154

Qolikov Filip - 154

Qribayedov – 40, 150

**L**

Lamond Korliss– 262

Lenin Vladimir İliç – 187

Lermontov Yuriy Mixayloviç – 152, 153, 268

Luka Konaşeviç – 103

**M**

Mahmud Əkrəm – 249, 254

Mahmud Şəbüstəri - 144

Mahmud Təbib – 160

Mahmudbəy Mahmudbəyov – 67

Malik bin Ənəs - 93

Manastırlı İsmail Hakkı – 226

Marks Karl - 187, 196, 234

Martin Lüter – 117, 121

Məali əl-Cüveyni - 110

Məhəmməd Fizuli-144

Məhəmməd Hadi – 266

Məhəmməd ibn Əbdülvəhhab - 90

Məhəmməd İqbal – 43, 49

Məhəmməd Peyğəmbər (s.a.s.) – 32, 68, 95, 110, 123, 124, 144, 214, 215, 218

Mehmet Akif – 11, 17, 24, 28, 33, 223, 224, 225, 227, 228, 229, 230, 231, 232, 237, 239, 240, 242, 243, 244, 245, 246, 247

Mehmet Raqif - 223

Məmməd Araz - 173

Məmmədəli bəy Səlimbəyov - 165

Mərcani Şihabəddin – 11, 17, 23, 41, 88, 94, 108, 119, 120, 123, 124-125, 182, 184

Məsudi – 154

Məşədixanım Nemət - 55

Mete xan 135

Mir Cəfər Mir Məmməd Kərim oğlu – 54,76

Mir Həmzə Niqari - 134

Mirseyid Sultanqaliyev - 72

Mirxond – 154

Mirzə Kazım bəy - 134

Mirzəbala Məmmədzadə - 266

Mirzəməhəmməd xan II - 128

Molla Nəsrəddin - 76

Musa Kazım - 46

Musa peyğəmbər (ə.s.) – 214

Mustafa Kamal paşa – 244

Mustafa Kamal Paşa – 244, 258

Mustafa Rəmzi - 108

Mustafa Səbri – 46

Muxtar Əfəndizadə - 162

Mühyəddin ibn əl-Ərəbi - 90

**N**

Namiq Kamal – 11, 17, 24, 28, 248, 249, 250, 251, 252, 253, 254, 255, 256, 257, 258, 259, 260

Narışkin – 263

Neydqard Aleksandr İvanoviç 136, Nemanzadə Ömər Faiq - 60, 67,

73, 76, 170
Nəriman Nərimanov – 72, 76, 77
Nəsrəddin Tusi – 106, 144
Nəsrulla Sultan – 63
Nikolay I 135
Niyazqulu əl-Ləbbabi-Türkməni- 114
Nizami Gəncəvi - 144

**O**

150, 268
Osipovna  Nadejda -140
Ozereçkovski Y. V. - 40

Ö

Ömər ən-Nəsəfi – 93, 95
Ömər Xəyyam – 110
Övni -154

**P**

Paşazadə Sami - 254
Patrokl – 211
Pavloviç Nikolay (INikolay) – 135, 136
Perikl – 121
Platon – 211

Plutarx – 154

Polonski – 40, 150

Preobrajenski Evgeniy Alekseyeviç – 186

Puqaçov Yemelyan-103

Pyotr Alekseyeviç (I Pyotr) – 113, 167

**R**

Raci – 253

Rəsulzadə Məmməd Əmin - 44, 45, 50, 51, 53, 74, 80, 165, 170, 175, 176, 266

Russo Jan Jak – 171, 254

Rüstəmov Yusif – 31

**S**

Sabir Mirzə Ələkbər – 170

Safanov - 152

Sədri Maksudi Arsal – 182

Səlyani Əhməd - 152

Səlyani Məhəmmədəli – 152

Siseron - 121

Soltanməcid Əfəndiyev - 76

Strabon – 154

Sultan Əbdüləziz – 33, 277

Sultan II Əbdülhəmid – 33, 34, 35, 38, 42, 54, 69, 78, 256, 277

Sultan II Mahmud – 234, 277

Süleyman Hüsnü paşa – 40, 41, 138, 139

**Ş**

Şah Abbas – 152

Şarl Lui Monteskye – 254

Şaxtaxtlı M - 67

Şeler Maks - 102

Şəms Məğribi - 144

Şəmsəddin - 45

Şərəfəddin Yəzdi – 154

Şeyx Əbdüssalam Axundzadə – 54

Şeyx Məhəmməd Xiyabani – 257

Şeyx Niyzqulu əl-Ləbbabi əl-Türkməni –109, 118

Şeyx Vəsvi – 253

Şeyxülislam Musa Kazım – 226

Şibay Sabit Halim- 226

Şirvani Fələki- 160

Şirvani İzzəddin- 160

Şirvani Məhəmməd Rəfi-154

Şirvani Seyid Əzim – 11, 17, 23, 28, 134, 169, 170, 177, 178, 181

Şöklü Məlik- 206

Ç

Çernışev Aleksandr İvanoviç, – 135, 136

Çingiz xan – 135

**T**

Tağıyev hacı Zeynalabidin – 54, 77, 78, 162

Talıbzadə Axund Yusif Ziya –54, 76, 77, 78, 79, 95,275

Talıbzadə Kamal – 75

Tatsit – 154

Təbəri – 154

Topçubaşov Əlimərdan bəy – 29, 39, 48, 74, 165, 170

**U**

Um Zərr – 213, 214

Umberto Eko – 84

Ustralov F. M. – 154

Uvarov Serqey Semyonoviç- 151

Ü

Übeydullah Əhrar-112

Üzeyir Hacıbəyov – 74, 76

**V**

Vahidov Mollanur – 182

Valid ibn Amin Karqalı – 115

Validov Camal. – 123

Vasiliy Vladimiroviç Bartold – 109

Vazeh Mirzə Şəfi – 40, 134, 150, 266

Vəli Əhməd Hakim – 187

Vəzirov Nəcəf bəy – 170, 177, 226

Volter Anri Mari – 168, 171, 172, 254

Vorontsov Sergey Semyonoviç – 136, 151

**Y**

Yalçiqul - 108

Yan Qus - 121

Yaqub bin Nüman - 110

Yaqut Həməvi - 154

Yaşar Qarayev - 139

Yekaterina Alekseyevna (IIYekaterina) – 168

Yelizaveta Petrovna (II Yelizaveta)– 113, 167

Yinançalp Cevdət – 162

**Z**

Zablotski Lado – 40, 136, 150, 268

Zakirşah Əbutalib – 160

Zərdabi Həsən bəy – 11, 17, 23, 28, 51, 80, 134, 163,169, 170,175, 176, 181 177, 178, 180

Zinətulla Əhsən – 182, 188

Zinovyev Aleksandr – 187, 188

Ziya Göyalp – 9, 11, 15, 17, 22, 24, 28, 30, 33, 47, 63, 239

Ziya Paşa – 249, 250

Ziyəddin Göyüşov – 163

**X**

Xalidə Ədib – 259

Xandəmir – 154

Xorenski Moisey 154

Çapa imzalanmışdır: 01.07.2019
Kağız formatı: 60x90 1/16
Tiraj: 1000

TUNA
PRINTING·PUBLISHING·PACKAGING